# FƏLƏSTİN

**İslam İnqilabının Böyük Rəhbəri həzrət Ayətullah Seyid Əli Xameneinin baxışında**

**Tərtib edən: Səid Sələh Mirzai**

بسم الله الرحمن الرحيم

**Kitabın adı:........................................Fələstin**
**Tərtib edən:.......................Səid Sələh Mirzai**
**Tərcümə edən:.................Vüsal Hüseynzadə**
**Çap tarixi:...............................................2017**
**Çap növbəsi:........................................Birinci**
**Tiraj:.....................................................1000**

Издательство «Свет»
Типография «Махаон», 2017

ISBN 2-16-000618-7

# Giriş

## *İkinci Qüds günündən bir xatirə*

### Qüds günü - İslam, insaniyyət, inqilab və imam günü

Bu gün Böyük və Ümumdünya Qüds Günüdür; dünya müsəlmanlarının amallarının bir sözdə və bir cümlədə cəm olduğu gündür; bütün xalq və ölkələrdən olan bütün müsəlman sıralarının birliyi günüdür; İslam günüdür; insaniyyət günüdür; inqilab günüdür və bizim imamımızın günüdür!

## *Qüds gününün Allahın digər günlərindən üstünlüyü*

İran xalqının zəfərli inqilabından sonra biz İran camaatının çoxlu xatirəli günlərimiz olmuşdur: 22 bəhmən (11 fevral), 15 xordad (5 iyun), 17 şəhrivər (8 sentyabr), 12 fərvərdin (1 aprel) və digər günlər. Lakin bütün bu xatirəli günlərin arasında Qüds günü iki cəhətdən üstünlüyə malikdir. Əvvəl ona görə ki, digər günlər İran xalqına aiddirsə, Qüds günü İran xalqına və bütün müsəlman xalqlara aiddir. Qüds günündə bütün müsəlman xalqlar, hətta dünyanın bütün məzlum xalqları İran xalqı ilə birlik və həmdərdlik hiss edirlər. İran xalqı Qüds günü macərasında və Fələstin məsələsində qabaqcıl kimi fədakarlığa hazırdır. Digər xalqlar da bu inqilabçı xalqla çiyin-çiyinə və bizim təcrübələrimizdən istifadə edərək işğal olunmuş Fələstin torpaqlarını azad etməyə sarı bizimlə birgə addım-addım irəliləməlidirlər.

Qüds gününün ikinci üstünlüyü budur ki, digər günlər keçmiş fədakarlıqların və qələbələrin xatirə günüdür, Qüds günü isə gələcək fədakarlıqlara və qələbələrə qərar vermək və səy göstərmək günüdür. Əgər digər günlərdə və digər xatirələrdə bizim xalqımız keçmişi xatırlayırsa, Qüds günündə gələcəyi yada salıb özündə maraq, iradə və qərar toplayır, hərəkətə gəlir və gələcəyə yol açır.

## *Qüds günü - amerikalı hegemonçuların və sionist muzdurlarının belini qırmaq günü*

Biz bu gün Qüds məsələsi barədə aydın bir baxışa və qətiyyətli bir qərara malik olmalıyıq. Qardaşlar və bacılar! Bu çox əzəmətli və əhəmiyyətli məsələdir. Qüds və Qüds günü məsələsi və Fələstin

hadisəsi dünya məzlumlarının iman ruhundan ilham alıb Böyük Allaha təvəkkül etməklə dünyanın böyük hegemonçularının və ilk növbədə Amerika imperializminin və sionist muzdurlarının belini qırmalı və əzməli olduğu nöqtədən ibarətdir.

Qüds məsələsi bizim xalqımız və böyük müsəlman ümmətinin hamısı üçün taleyüklü bir məsələdir. İran inqilabı əgər bu sərhədlərin daxilində qələbəyə çatdısa, bu o demək deyil ki, biz qane olub son qələbəni əldə etdiyimizi düşünək. Nə qədər ki, İslam və ərəb torpaqlarının ürəyində işğalçı İsrail dövləti adlı bu üfunətli yara və çirkin vəzi mövcuddur, biz qələbə çaldığımızı hiss edə bilmərik. Biz qulağımızın dibində özümüzün qəsb edilmiş və işğal olunmuş torpaqlarımızda öz düşmənimizi görə bilmərik.

## *Fələstinin gələcəyi*

Bəs gələcək necədir? Fələstinin və Qüdsün gələcəyi necədir? Mən bu barədə sizə bir qədər məlumat verim. İran xalqı bilsin ki, bu regionda məğlubedilməz bir tilsimi sındırdı; yəni Orta Şərq regionunda və hətta bütün Asiyada ən böyük və möhkəm qalanı - imperializmin böyük və güclü qalasını, yəni zalım Pəhləvi hökumətini məhv edə bildi. Əfsanəvi bir qüdrət formasına düşmüş ikinci tilsimi də bizim inqilabımız sındırıb məhv edəcək.

## *İlahi vədə - Bəni-İsrailin ikinci məğlubiyyəti*

Bunu Allahın vədəsindən öyrənməliyik. Allah-Taala Bəni-İsrail surəsində onlara müraciətlə buyurur: “Siz yer üzündə iki dəfə fitnə-fəsad törədəcək və çox dikbaşlıq edəcəksiniz!“ Ey İsrail övladları, siz tarixdə iki gün və iki dəfə fəsad yaradacaq, yer üzündə böyüklük vücuda gətirəcək, təkəbbürlülük və hegemonluq edəcəksiniz. Lakin hər ikisində Allah bəndələrindən və Allah qoşunlarından bir qrupu peyda olub sizi fəsadınızın, təkəbbürlülüyünüzün və hegemonluğunuzun cəzasına çatdıracaq. Və bu, tarixin həmişəyaşar hadisəsidir.

Düzgünlüklə, haqq, həqiqət və ədalət silahı ilə tarixin qanunlarının təbii yolunu keçməyə hazır olan bir ümmətə Allah kömək edəcək. Lakin hər hansı bir xalq fəsad etsə, məzlumlara zülm etsə və insani dəyərləri görməzdən gəlsə, o xalq məhvə məhkumdur.

## *Fələstin məsələsi sırf ərəb, yaxud İslam məsələsi yox, bir insaniyyət məsələdir!*

Bu gün dünyada nə baş verir?! Bu gün sionistlər ərəb regionunda hansı işlərlə və hansı əməllərlə məşğuldurlar?! Ürəkləri fələstinli qardaşlarının xatirəsi ilə döyünən müsəlman qardaşlar və bacılar, bölgəyə ötəri bir nəzər yetirin. Qaçqın adama hər bir azad insanın rəhmi gəlir. Bu gün bir xalq – Fələstin adlı bir xalq qaçqındır, öz evindən didərgin düşmüşdür, öz vətənindən və ölkəsindən didərgin düşmüşdür.

Bu məhrum və məzlum uşaqlar çadırların altında, düşərgələrdə doğulurlar. Onların qarşısında özünün həqiqi vəzifələrinə əməl etməyən iddialı hökumətlərin və xalqların köməyi ilə bu uşaq böyüyür. Çadır altında silah öyrənir, çadır altında dərs oxuyur, düşərgədə yaşayır. İki-üç milyonluq bir xalqı evindən, yuvasından, şəhərindən, ibadət ocağından, məscidindən, özünün hər şeyindən və həyatından məhrum etmək, onları yad ölkələrə qovmaq bəşər tarixinin ən böyük faciəsidir. Məhz buna görə biz düşünürük ki, Fələstin məsələsi sırf ərəb və hətta sırf İslam məsələsi deyil. Bu, çox əhəmiyyətli olan bir insaniyyət məsələdir.

## *Sionistlərin misilsiz cinayətləri*

Bu gün xain sionist rəhbərlərin, hal-hazırda işğalçı İsrail dövlətinin başında duran xain Beginin bu faşist və cinayətkar dövlətdə gördüyü və icra etdiyi faşizmin növü dünyada misilsizdir. Siz görün Deyr-Yasində nə etdilər, İsrail həbsxanalarında nə etdilər! Müsəlman gəncləri tutub zindanlara apardılar, onlara işgəncə verdilər. Hətta şprislə müsəlman gənclərin qanını çəkib israilli muzdur ünsürlərin qan saxlanılan yerlərində qeyd etdilər. Siz görün Fələstin xalqının sərvətləri ilə nə etdilər, onların kişilərinə, qadınlarına və gənclərinə hansı faciəni yaşatdılar, müsəlman dövlətlərlə nə etdilər!

## *İsrail adlı çirkin xərçəng vəzisi - müsəlman dövlətlərin parçalanmasının amili*

Bu çirkin xərçəng vəzisini bəşəriyyətin böyük düşmənləri olan imperialistlər bizim İslam və ərəb vətənimizin daxilində əkdilər. Bu

gün bu vəzi inkişaf etmiş və müsəlman dövlətlərin parçalanmasına səbəb olmuşdur. Siz baxın, özlərinə İslam adı qoyan bu hökumət başçılarından Fələstin məsələsi qarşısında özünün dini, insani və ərəb vəzifələrini kamil şəkildə yerinə yetirə bilən bir nəfər də göstərə bilməzsiniz. Nə üçün? Çünki onları ərəb ölkələrinin daxili məsələləri ilə məşğul ediblər. Bu faciələr haradan vücuda gəldi? İsrail adlanan bu çirkin vəzinin vücudundan. Bu çirkli vəzi böyük dövlətlərin və qüvvələrin vasitəsi ilə müsəlmanların və ərəblərin yaşadığı torpaqların qəlbində vücuda gəlmişdir.

## *Müsəlmanların İsraili məğlub etməsi - onların dünyada xoşbəxtlik amili*

Bu gün Fələstin xalqı ayağa qalxmış və oyanmışdır. O zaman Quran Bəni-İsrailə azğınlıq əleyhinə böyük bir mübarizədə olduqlarını deyirdi. Bu gün həmin müraciət fələstinli müsəlmanlara və bütün qeyrətli müsəlmanlara ünvanlanmışdır: "Yaxşılıq da etsəniz, özünüzə etmiş olursunuz, pislik də!" Əgər yaxşılıq etsəniz, əgər Allah yolunda çalışsanız, əgər Allahın fərmanına əməl etsəniz, əgər insaniyyət düşmənləri ilə, din və həqiqət düşmənləri ilə mübarizə yolunda olsanız, ey fələstinli müsəlmanlar, ey ərəb müsəlmanlar və ey dünyanın müsəlmanları, əgər bu vəzifələrə əməl etsəniz, bu yaxşılığı özünüzə etmiş olacaqsınız.

Bu regionda əzəmətli bir İslam qüdrətinin vücuda gələcəyi, Şərqin və Qərbin böyük təcavüzkar qüvvələrinə möhkəm zərbə vuracağı gün daha İslam xalqları məzlumluq, məhrumluq, yoxsulluq və aclıq üzü görməyəcəklər. Siz görün İslam ölkələri yoxsulluq, savadsızlıq və cəhalət baxımından hansı vəziyyətdədirlər! Bu geniş torpaqlarda on milyonlarla müsəlman yaşayır. Amma heç birində bu xalq üçün insani və şərəfli bir məişət şəraiti yoxdur. Nə üçün belədir? Çünki böyük qüvvələr öz maraqlarını təmin etmək üçün bu xalqı, bu xaqları həmişə təzyiq altında, ixtilaf və nifaq alovu altında saxlamağı zəruri bilmişlər. Onların başını özləri ilə, daxili məsələləri ilə qarışdırıb, əzəmətli bir beynəlxalq vəhdətə nail olmalarına imkan vermirlər. İmperializmin bu regiondakı əlaltısı və bazası da xain İsraildir.

## *Sionizmin və yəhudiliyin bir-birindən ayrı olması*

Biz sionizmi bir məslək və məzhəb bilmirik və onu yəhudilikdən ayırırıq. Dünyada sionizmə nifrət edən azad və pak fitrətli yəhudilər çoxdur. Bu isə məzlum və məhrum müsəlmanlara aid olan torpaqları işğal etməkdən və zülmkarlıqdan başqa həyat imkanı olmayan faşist və təcavüzkar bir siyasi məsləkdir.

## *Fələstin xalqına köməkdən ibarət olan vacib əməl*

Biz İran xalqı və İranın inqilabçı müsəlmanları İslam dünyasının diqqətini cəlb edə bildikdən və Amerika imperializminə bu möhkəm zərbəni vura bildikdən sonra bu yolda da bu böyük addımı atmalıyıq. Biz ərəb xalqlarına Fələstin yolunda mübarizə və Fələstin üçün fədakarlıq dərsini öyrətməliyik.

Qeyd etdiyim kimi, bizim üçün Fələstin məsələsi bir insani və dini məsələdir. Ona görə insani məsələdir ki, bu regionda bir qrup antibəşər cinayətkar toplaşmışdır. Onların cinayətdən, təcavüzdən, istismarçılıqdan, inqilabçı xalqlar və dövlətlər əleyhinə təxribatdan başqa bir işləri yoxdur.

Bu gün də bizim düşmənlərimizə kömək etməkdədirlər. Bu gün də bizimlə müştərək sərhədləri olan və əleyhimizə təxribat aparan şəxslərə kömək etməkdədirlər. Onlar bu regionda Amerikanın İran və İran inqilabı əleyhinə təxribat mərkəzidirlər. Bundan əlavə, qardaşlar və bacılar, Fələstin məsələsi bizim üçün bir dini məsələdir. İslam müsəlman torpaqlarını müdafiə etməyi bizə lazım bilmiş, məzlum və məhrumların hüququnu qorumağı vacib etmişdir. Bizə vacib etmişdir ki, 30 ildir “ey müsəlmanlar” - deyə fəryad qoparan, lakin heç kimin cavab vermədiyi bir xalqa malımızla və canımızla kömək edək.

## *Fələstin məsələsində müsəlman dövlətlərin səhlənkarlığı*

Fələstin xalqı otuz ildir “ey müsəlmanlar” deyir. Bu ərəb dövlətlərinin hansı iddia edə bilər ki, fələstinli qardaşlarının bu fəryadına cavab vermişdir. Bu ərəb hökumətlərinin hansı iş başına gəldisə, xalqlarını özlərinə sarı çəkmək üçün Fələstini müdafiə şüarı verdilər.

Mən Şimali Afrika hökumətlərinə deyirəm, Orta Şərq hökumətlərinə deyirəm, işğalçı İsraillə həmsərhəd hökumətlərə

deyirəm, Fars körfəzi hökumətlərinə deyirəm. Bunların hansı biri bir İslam hökumətinin vəzifəsi olan şəkildə fələstinli qardaşlara və Fələstin məsələsinə kömək etmişdir?! Otuz ildir bir neçə milyon müsəlman, məhrum və məzlum insanın imdad naləsi ucalır. Bunların dadına kim çatmalıdır?!

## *Fələstin məsələsi - inqilabın ən əsaslı, ən mühüm və ən prinsipial məsələsi*

İşğalçı və zalım Pəhləvi rejimi hətta bizim Fələstin məsələsi barəsində fikirləşməyimizə də icazə vermirdi; qoymurdu ki, bu məsələni beynimizdən keçirək, hiss edək və bizim xalqımız Fələstin məsələsinin İran məsələsinin və İran inqilabının bir hissəsi olduğunu duysun. Lakin bu gün bu ümmətin imamı ayıqdır. Bu gün ümmətin imamı haqlı olaraq bizim inqilabımızın ən əsaslı, ən mühüm və ən prinsipial məsələsi üzərində dayanmışdır; ümmət imamı Qüds məsələsi üzərində dayanmışdır. Ərəb, müsəlman və Fələstin mübarizələri tarixində ilk dəfədir Qüds günü adlı bir gün təyin olunmuşdur. Siz dünən axşam evlərin damına çıxıb təkbir sədası ucaltdınız. Bütün ərəb və İslam ölkələrində sizin çağırışınızı eşidən və sizin dəvətinizdən xəbərdar olan şəxslər çağırışınıza cavab verdilər və təkbir fəryadı İslam üfüqlərinin bütün səmasında zalımların qulaqlarını kar etdi, hegemonçuların yuxusunu qarışdırdı. Bu hərəkət irəliləməlidir. İran xalqı ciddi şəkildə və doğrudan, kompliment üçün yox, dildə yox, ciddi surətdə İran xalqı, İran hökuməti, qanunverici və icraçı qurumlar Qüds günü və Fələstin məsələsinə yardım istiqamətində qərarlar verməlidirlər.

## *Xalqların iradə və əzmkarlığı ilə İsraili məhv etməyin mümkün olması*

Qüds və Fələstin məsələsinə ciddi yanaşın. Əzəmətli şəhər olan Beytülmüqəddəs Allah peyğəmbərlərinin təhlükəsiz yeri, müsəlmanların ilk qibləsi olmuşdur. O, sionist işğalçıların hökmranlığı altında və antiinsan təcavüzkarların ixtiyarındadır. Beytülmüqəddəs azad olmalıdır! Fələstin torpağı azad olmalı və öz xalqına qaytarılmalıdır! Deməsinlər ki, siz bir ölkəni coğrafi xəritə üzərindən necə götürə bilərsiniz. Deməsinlər ki, 30 ildir böyük güclərin himayəsi altında olan bir dövləti necə məhv etmək olar.

İnsanların iradəsi və imandan qaynaqlanan əzmkarlığı bütün problemləri asanlaşdırır, bütün möcüzələri mümkün edir.

Siz görürsünüz ki, İran xalqı on minlərlə şəhid verməklə və yaralı qəbul etməklə, bizim inqilabımız sizin və Qüds günü üçün buraya gələn qonaqların gözləri önündə nümunəyə və əfsanəyə çevrilmişdir. İran xalqı yüz min belə yaralı verib. İran xalqı yetmiş min şəhid verib. İran xalqı yenə də şəhid və yaralı verməyə hazırdır. İran xalqı Allaha görə, Allahın adını ucaltmaq və İslamı dirçəltmək naminə, böyük bir İslam dövləti qurmaq, Amerika və SSRİ-nin burnunu ovmaq və böyük gücləri bu regiondan məyus edən əzəmətli bir İslam qüvvəsi yaratmaq üçün yenə də fədakarlıq göstərməyə və yenə də şəhid verməyə hazırdır.

## *İran İslam İnqilabı - bütün İslam inqilablarının örnəyi*

İran inqilabı bütün bu regionda bütün İslam inqilablarının anası olmuşdur və olacaq. Sizin inqilabınızın qələbəsindən sonra bütün bu bölgədə İslam və iman duyğuları coşmuşdur. Bu gün regionun müxtəlif yerlərində İslam ideologiyasına əsaslanan azadlıq hərəkatları vücuda gəlmiş və alovlar şölələnmişdir. Amma siz davam etməlisiniz. İran xalqı bilməlidir ki, bu övladlar ona kömək edəcəklər. Ey ərəb və İslam dünyasının İslam inqilablarının anası! Ey İran İslam İnqilabı! Ey İranın böyük müsəlman xalqı! Ey Böyük Rəhbər! Şübhəsiz, bu inqilabın törəmələri - yəni müsəlmanlar yaşayan bütün ölkələrdə baş verən və baş verəcək digər inqilablar İran İslam İnqilabına kömək edəcəklər. Amma İran İslam İnqilabı da öz yolunu davam etdirməlidir. Biz Amerikanı məyus etməliyik və gördük ki, məyus edə bilirik.

## *Amerika imperializmi və məzlum ərəb xalqları qarşısında vəzifəmiz*

Bu gün bizim qarşımızda üz-üzə dayanmış iki amil mövcuddur. Bir amil regionda işğalçı İsrail dövləti formasında təcəssüm edən Amerika və imperializmdir. Biz Amerika istismarçılığının və təcavüzünün təzahürü olan bu işğalçı dövləti təzyiq altda saxlamağı və onu məhv etməyi məqsəd seçməliyik. Digər amil onun qarşı tərəfində dayanan məzlum ərəb xalqlarıdır. Biz bu məzlum xalqları

öz qardaşlarımız və cəbhə yoldaşlarımız bilməli, bunları ümumi qiyama dəvət etməliyik.

## *Qum və su vedrəsi məsəli*

Mən bu gün siz Tehran əhalisinin və İran xalqının adından bu möhtəşəm milyonluq tribunadan, Qüds gününün bu böyük milyonluq toplantısından Qüds günündə bu cəmiyyətə qoşulmuş, bu ölkəyə və öz evlərinə - İslam evlərinə gəlmiş əziz qonaqlarımıza elan edirəm: Gedin İranın inqilabçı müsəlmanlarının salamını öz ölkənizin xalqına çatdırın, bizim təcrübəmizi və Allahın bizim barəmizdəki möcüzəsini onlara deyin, onları hərəkət etməyə vadar edin. Ümmət imamının buyurduğu kimi bir milyard müsəlman, bir milyard insan bugünkü dünya üçün əzəmətli və möhtəşəm bir qüvvədir. Əgər hər adam bir qum dənəsi, ümmət imamının buyurduğu kimi bir vedrə su və ötən il bu gündə mərhum Ayətullah Taliqaninin dediyi kimi bizim hər birimiz İsrail dövlətinə sarı bir qum dənəsi atsaq, şübhəsiz, bu şeytanı qum təpəsi altında dəfn edərik.

Ey müsəlman xalq! Ey İranın böyük və qəhrəman xalqı! Qüds günü bizim və sizin İslam inqilabımızın böyük şüar günüdür və biz özümüzü hazırlamalıyıq. Mən bu gün sizə elan edirəm ki, özünüzün hərbi hazırlığınızı, döyüş və silah-sursat hazırlığınızı hər gün artırın və keyfiyyətini yüksəldin. Bizim qarşımızda Fələstin məsələsi var, Amerika imperializmi məsələsi var, təcavüzlər və təxribatlar var.

# Birinci bölmə: Ümumi hissə

## *Birinci fəsil: Fələstin məsələsinin əhəmiyyəti*

### Fələstin məsələsi - İslam dünyasının ən mühüm məsələsi

Fələstin məsələsi İslam dünyasının ən mühüm məsələsidir. İslam dünyasında heç bir beynəlxalq məsələ bundan üstün deyil. Çünki Fələstin və Qüds torpaqlarını işğal edənlərin İslam ümmətinin bu hissəsinə hökmranlığı İslam dünyasında bir çox nöqsan və problemlərin mənşəyi olmuşdur.

### *Peyğəmbərin (s) müqəddəs ruhunun uca aləmlərdə Fələstin məsələsinə görə qəmgin olması*

Bu gün İslam cəmiyyətinin bədənində dərdli və dərin bir yara var. Burada oxunan ayə İslamın əziz Peyğəmbəri (s) barəsindədir: "O sizdən (sizin iman gətirməyinizdən) ötrü təşnədir, möminlərlə şəfqətli, mərhəmətlidir!" Bu gün İslam dünyasının, ən böyük hissəsi Fələstin məsələsindən ibarət olan dərdi Peyğəmbərin (s) müqəddəs qəlbini incidir. Bu gün Fələstin xalqının düşdüyü vəziyyətə görə Peyğəmbərin (s) müqəddəs ruhu ilahi yaradılışın uca aləmlərində qəm içindədir. Bunun əlacı nədir? Çalışmaq və mücahidlikdir.

Görün hegemonluq necə dişlə, caynaqla, qaniçənliklə və insaniyyətdən uzaq rəhmsizliklə dayanmışdır. Əgər bacarsa, özünün imperialist istəkləri üçün İslam xalqlarını və onların arzularını tapdayacaq. Bu gün bu Fələstin məsələsi İslam dünyasının ən böyük problemlərindən biridir və gələcəkdə də olacaq. Bir xalqı öz evindən, yaşayışından, ölkəsindən və torpağından didərgin salıb yerində muzdur və xəbis işğalçını oturtmaq məgər zarafatdır?! Ona hər növ kömək edirlər, bütün cinayətlərinə don geyindirirlər, qolları da dirsəyə qədər bölgə xalqının qanına batır. Bunlarla qane olmayıb müsəlmanlardan və ev sahiblərindən imza almaq istəyirlər ki, bu ev o işğalçıya məxsusdur və ev sahibinin burada heç bir hüququ yoxdur. Bu işi görmək istəyirlər.

## *Fələstin - İslam dünyasının ən təcili problemi*

Bütün İslam dünyasında olan əziz qardaşlar və bacılar! Təcrübələrdən dərs alaq. Bizim böyük ümmətimiz bu gün İslam oyanışı sayəsində əzəmətli qüdrətə malikdir. İslam ölkələrinin çoxlu problemlərinin həllinin açarı bu möhtəşəm toplumun iradəsində və birliyindədir. İslam dünyasının ən təcili problemi isə Fələstin problemidir.

## *Fələstin məsələsi - bəşəriyyət dünyasının böyük müsibəti*

Fələstin məsələsi indiki bəşəriyyət dünyasının böyük müsibətlərindən biridir. İnsana və insan haqlarına dair duyğusu olan və məzlum insanları müdafiədən dəm vuran hər kəs bu məsələ qarşısında iddia sahibi olmalı, bunu öz problemi bilməlidir. Bəlkə də demək olar ki, Fələstin hadisəsi və müsibəti tarixdə bənzəri az olan hadisələrdəndir. Bizim bildiyimiz qədərincə, bir xalqa qarşı bu şəkildə əzəmətli hadisə tarix boyu az olmuşdur.

Siz insani faciələrdən hansını təsəvvür etsəniz, Fələstin faciəsində mövcuddur: günahsız insanlar öldürməkdən, insanları didərgin salmaqdan, evsiz-eşiksiz etməkdən, işgəncədən, əzabdan, həbsdən, sürgündən və bu qəbil işlərdən, insan məqamına hörmətsizlikdən, bir qrup insanın bəşəri sərvətlərini məhv etməkdən, bir qrup insana qarşı təzyiqdən, zülmdən, qorxu və şiddətdən və fəaliyyət icazəsi verməməkdən (ibarət olan hər şey). Əgər dünyanın bir tərəfində xalqın bir hissəsinə qarşı baş versə, bəşəriyyəti yaralayan və matəmə salan bütün bu müsibətlər son 45 ildə Fələstində baş vermişdir.

İnsan hüquqlarını müdafiədən dəm vuran şəxslər əgər doğru deyirlərsə, gərək Fələstin xalqının hüquqlarından danışsınlar. Siz bu son 45 ildə Fələstin xalqı qədər işgəncə görən, əzab çəkən, əzizlərini əldən verən, hüquqları tapdanan hansı xalqı tanıyırsınız? Necə olur ki, bu faciələrin biri dünyanın bir tərəfində bir qrup insana qarşı baş verdikdə insan hüquqlarının qayğıkeşi və həmdərdi olduqlarını iddia edən şəxslər sinələrini sipər edir, danışır və addım atırlar, lakin Fələstin xalqına qarşı edilən bütün bu faciələrin məcmusunu görməzliyə vururlar?

## *Fələstin məsələsinin kənarında Beytülmüqəddəsin əhəmiyyəti*

Fələstin məsələsinin kənarında Beytülmüqəddəsin də böyük əhəmiyyəti var. Bu gün sionistlər tərəfindən bu müqəddəs şəhəri işğal etmək, udmaq və ondakı İslam əsərlərini məhv etmək üçün çeşidli təxribatlar aparılır. Lakin bu şəhər bütün müsəlmanlara məxsusdur və Qüdsün hamısı bütün Fələstinin paytaxtıdır. Müsəlmanlar düşmənlərin mənfur planlarının həyata keçməsinə qoymayacaq və onlarla mübarizə aparacaqlar.

## *İki dəlilə əsasən Fələstin məsələsinin İslam dünyasının birinci məsələsi olması*

Bu gün Fələstin məsələsi İslam dünyasının birinci məsələsidir. Bu gün bütün İslam ümməti, xüsusən də bizim xalqımız və ölkəmiz kimi yaxın ölkələr bu məqama diqqət yetirməlidirlər ki, həm Fələstinə hakim olan, onu işğal edən sionistlər, həm də onların müdafiəçiləri Fələstin daxilindəki hadisələri işğalçı İsrail dövlətinin daxili məsələsi kimi göstərməyə çalışırlar. Lakin əsla belə deyil. Əgər Fələstin daxilində bir nəfər də qiyam etməsəydi belə, Fələstin məsələsinin özünə görə İslam dünyası sionistlərlə və onların müdafiəçiləri ilə düşmən olardı. İndi isə Fələstin xalqı da qiyam etmiş və özləri agah şəkildə meydana qoşulmuşlar.

Fələstin iki cəhətdən İslam dünyasının problemidir: Biri buna görə ki, Fələstin İslam torpaqlarının bir hissəsidir. İslamın bütün böyük məzhəbləri arasında heç bir fikir ayrılığının görünmədiyi və bütün fəqihlərin yekdil olduğu bir məsələ budur ki, əgər İslam torpaqlarının bir hissəsi İslam düşmənləri vasitəsi ilə ayrılsa və ona İslam düşmənləri hakim olsalar, hamı o hissəni İslam torpaqlarına qaytarmaq üçün çalışıb fəaliyyət göstərməyi özünün vəzifəsi bilməlidir. Odur ki, dünyanın hər hansı bir yerində olan müsəlman xalqlar bunu özlərinin vəzifələri bilməlidirlər. Sözsüz ki, çoxları bir iş görə bilmirlər. Amma kim bacarsa və necə bacarsa, iş görməli və addım atmalıdır. Məhz buna görə siz görürsünüz ki, Böyük İmamın hər ilin ramazan ayının son cüməsinə təyin etdiyi Qüds gününü bütün İslam dünyası yaxşı qarşılayır. Siz bu il görəcəksiniz ki, Allahın lütfü və yardımı ilə Qüds günü bütün İslam dünyasında hər ildəkindən daha izdihamlı və daha təntənəli keçəcəkdir.

İkinci cəhət budur ki, ümumiyyətlə yəhudi dövlətinin, yaxud daha doğrusu, sionizm dövlətinin İslam dünyasının bu nöqtəsində təşkil edilməsi hegemonluğun uzunmüddətli bir məqsədi ilə həyata keçdi. Bu dövlət İslam dünyasının təxminən ürəyi olan həssas nöqtədə quruldu, İslam qərbini - yəni Afrikanı Orta Şərqdən, Asiyadan və Doğudan ibarət olan İslam Şərqinə birləşdirir, Asiya, Afrika və Avropa arasında üç yol ayrıcını təşkil edir. Bu dövlətin belə yerdə qurulması uzun müddət üçün ozamankı müstəmləkəçilərin – birinci növbədə İngiltərə dövlətinin İslam dünyasına hökmranlığının davam etdirilməsi üçün idi; yəni əgər nə zamansa Osmanlı hökumətinin müəyyən dövrlərində olduğu kimi iqtidarlı bir İslam dövləti vücuda gəlsə, müstəmləkəçilərin, İngiltərənin, Fransanın və digərlərinin bu regiondakı nüfuzunun qarşısını ala bilməsinlər. Buna görə özlərinə bir baza düzəltdilər. Buna əsasən, tarixi sənədlərə görə orada sionizm hökuməti təşkil etmək yəhudi xalqının arzusundan çox İngiltərə dövlətinin müstəmləkəçi istəyi idi. Bəzi sübutlar var ki, o zaman bir çox yəhudilər bu dövlətə ehtiyaclı olmadıqlarını və bu dövlətin onların xeyrinə olmadığını düşünürdülər, odur ki, bundan uzaqlaşmışdılar. Odur ki, bu bir yəhudi arzusu və ideyası deyildi, daha çox müstəmləkə ideyası və bir ingilis ideyası idi. Əlbəttə, sonralar dünya siyasətinin və imperializmin öncüllüyü amerikalıların vasitəsi ilə İngiltərədən alındıqda, bu da müstəmləkə mirasının tərkib hissəsi idi və Amerikaya çatdı. Amerikalılar da maksimum istifadə etdilər və indi də edirlər. Buna görə Fələstinin xilası və işğalçı sionizm dövlətinin məhvi bu region xalqlarının, o cümlədən bizim ölkəmizin maraqları ilə əlaqədardır. İnqilabın ilk günündən proqramlarının birini sionistlərin nüfuzu və iqtidarı ilə mübarizə edənlər bu hesabla bu işi gördülər. Bu proqram ölkənin maraqlarına, İslam Respublikasının və İran xalqının ümumi maraqlarına uyğun seçilmişdir. Digər ölkələrdə də belədir. İslam ölkələrinin bütün aydın insanları, bütün azad düşüncəli siyasətçiləri, əlləri Amerika hegemonluğunun hənası ilə rənglənməyən bütün şəxslər İsraillə mübarizə aparmalı olduqlarını düşünürlər; yəni bunu ölkələrinin maraqlarından sayırlar.

## *Fələstin - İslam dünyasının ən mühüm məsələsi*

Demək olar ki, bu iclas İslam dünyasının ən mühüm məsələsini araşdırır. Həqiqətən bu gün müsəlmanların həyatında və İslam üfüqlərində heç bir məsələ Fələstin məsələsi qədər əhəmiyyətli deyil. Qırx ildən artıq ki, tədriclə müsəlmanları öz evlərinin bir hissəsinin işğalına vərdiş etdirmişlər. Təkcə müsəlmanların evini işğal etmək deyil, məsələ bundan böyükdür. Məsələ bundan ibarətdir ki, İslamın beynəlxalq düşmənləri müsəlmanların evinin bir hissəsini onlara hücum etmək, onların istəklərinə və hərəkətlərinə qarşı mübarizə aparmaq üçün səngərə çevirmişlər.

Təəssüf ki, İslam dünyasında imkana malik olanlar və bu barədə təsirli qərarlar çıxara bilənlər dildə olmasa da, əslində onu unutmuşlar. Biz əgər özümüzə gəlsək, görəcəyik ki, bu, son dövrlərdə müsəlmanlara yönələn ən böyük bəladır.

## *Beytülmüqəddəs - əsas mərkəz*

Əqsa intifazəsinin (qiyamının) əsas mərkəzi Beytülmüqəddəsdir. Yəni Fələstin xalqının qəzəbinin partlamasına səbəb olan qığılcım sionistlərin Əqsa məscidinə hörmətsizliyi oldu. Fələstin xalqı müsəlmanların ən müqəddəs dini məkanlarından birini qorumaqda üzərlərinə düşən böyük missiyanı dərk edib səhnəyə gəldi və sionist işğalçıların əleyhinə fədakarcasına müqavimət və mübarizənin müqəddəs şöləsini yandırdı.

## *Fələstin məsələsi - İslam oyanışının əsas mərkəzi*

İranda İslam inqilabının qələbəsindən və son iki onillikdə İmam Xomeyninin hərəkətinin aşkarlanmasından sonra İslam regionunda bütün qüvvəsi ilə İslam oyanışı hərəkatı başlanmışdır. Bu gün bu hərəkatın əsas mehvəri Fələstin məsələsidir. Əqsa məscidi intifazəsi hətta Fələstinin coğrafi sərhədləri xaricində və Fələstin xalqından bayırda bütün müsəlman və ərəb xalqlarını səhnəyə çəkə bildi. İslam dünyasının qərbindən şərqinə qədər hər yerdə müsəlman xalqların milyonluq yürüşləri göstərdi ki, Fələstin xalqı onların dəstəyinə arxalana və eyni zamanda müsəlmanların birliyinin yaranmasında böyük rol ifa edə bilər.

Livanın qəhrəman insanlarının iradəsi və mərhum imamın tövsiyəsi və himayəsi ilə Livanda İslam müqaviməti formalaşanda

İsrail Beyrutu - yəni Livanın paytaxtını işğal etmiş və bu ölkənin siyasi taleyini caynağına almışdı. O zaman İslam müqaviməti “Qüdsə sarı irəli” şüarını verəndə bəzi bixəbərlər onları sadəlövh adlandırıb tənə ilə soruşurdular ki, siz livanlılar öz ölkənizin paytaxtına girməyə qadir olmadığınız təqdirdə Qüdsə sarı necə hərəkət edə bilərsiniz. Həmin tarixdən İslam müqavimətinin İsrail üzərindəki tarixi qələbəsinə qədər yalnız 18 il sürdü. Yəqin təsdiq edərsiniz ki, xalq mübarizələri tarixində 18 il çox zaman deyil.

### *Fələstin məsələsi - bugünkü bəşəriyyətin ən mühüm məsələsi*

Bu günün ən mühüm məsələsi son yarım əsrdə həmişə İslam dünyasının və bəlkə də bəşəriyyətin ən mühüm məsələsi olan Fələstin məsələsidir. Burada söhbət bir xalqın əzablarından, didərginliyindən və məzlumluğundan gedir; söhbət bir ölkənin işğalından gedir; söhbət İslam ölkələrinin ürəyində, İslam dünyasının Şərq və Qərbinin bir-birinə qovuşduğu nöqtədə xərçəng vəzisinin yaradılmasından gedir; burada söhbət müsəlman Fələstin xalqının ardıcıl iki nəslini əhatə edən sürəkli zülmdən gedir. Bu gün Fələstin torpağında xalqa arxalanan qanlı İslam qiyamı vicdansız, insaniyyətdən uzaq və cinayətdən çəkinməyən işğalçılara həqiqi və ciddi təhlükəni xatırladır. Buna görə düşmənin üsulları həmişəkindən daha mürəkkəb və daha xəbərdaredicidir. Bütün dünyada olan müsəlmanlar məsələni həmişəkindən daha ciddi saymalı, onun üçün düşünməli və çalışmalıdırlar... Bu günün yeni xəbəri budur!

### *Fələstin və onun azadlığı barəsində müzakirənin məqsədi*

Fələstin məsələsində məqsəd olan Fələstinin xilasıdır; yəni İsrail dövlətinin məhvi. 1988-ci ildən öncəki torpaqlarla sonrakı torpaqlar arasında fərq yoxdur. Fələstin torpağının hər bir qarışı müsəlmanların evinin bir qarışıdır. Fələstin ölkəsində Fələstin xalqının və müsəlmanların hakimiyyətindən başqa hər bir hakimiyyət işğalçı hakimiyyətdir. Söz əzəmətli və mərhum imamın buyurduğudur: “İsrail məhv olmalıdır!” Fələstin yəhudiləri əgər İslam dövlətini qəbul edirlərsə, orada yaşasınlar. Söhbət antisemitizmdən getmir, söhbət müsəlmanların evinin işğalından

gedir. Müsəlmanların başçıları və rəhbərləri əgər beynəlxalq qüvvələrin təsiri altında olmasaydılar, bu mühüm məsələni həll edə bilərdilər. Lakin təəssüf ki, etmədilər.

### *Fələstin – İslamın bir parçası*

Onlar işğal olunmuş Fələstinin bu üç həftədəki vəziyyətindən, gənclərin qiyamından, kişi və qadınların şücaətindən, o məzlum və qəzəbli xalqın uca iradəsindən və əzmkarlığından çox qəzəblənmişlər və günahı daim onun-bunun boynuna yıxmaq istəyirlər. Xeyr, cənab, Fələstin qiyamının amili İslam Respublikası deyil, Fələstin qiyamının amili Livan xalqı deyil, Fələstin qiyamının amili fələstinlilərin özləridirlər. Fələstin qiyamının və intifazəsinin amili bu gün ümid və həvəslə meydana çıxmış bu gənc nəslin vücudunda qalaqlanmış əzablar və qəmlərdir. Biz təbii ki, onları təqdir edirik. Biz onları özümüzdən bilirik. Biz Fələstini İslam dünyasının bir parçası bilirik, Fələstin xalqı ilə, Fələstin gəncləri ilə qardaşlıq və doğmalıq duyuruq. Lakin intifazəni edənlər onlardırlar.

### *Fələstin məsələsinin həll olmaması*

Onlar Fələstin xalqının və Fələstin ölkəsinin bitdiyini güman etməkdə səhvə yol verdilər. Fələstin yaşayır, Fələstin xalqı yaşayır. Fələstin xalqının varlığının yanında böyük bir işğal da mövcuddur. Dünyanın müxtəlif yerlərindən bir dəstəni toplayıb qondarma və yalançı bir xalq təşkil ediblər, ona ad da qoyublar, onu güc vasitələri ilə təmin də ediblər. Bu məsələ bu gün Fələstin xalqının həqiqətinin yanında özünü göstərir. Bu həqiqəti Fələstin nəsli bu gün bütün vücudu ilə dərk edir. Birinci addım dərkdir. Bu dərki əldə etmiş və anlamışlar ki, qondarma varlıq bütün beynəlxalq hamilərinə rəğmən, məğlubedilməz deyil. Düzgün də anlamışlar. Odur ki, meydana qoşulmuşlar.

### *Bu dövrün mühüm məsələsi: Fələstin*

Bu dövrün mühüm məsələsi Fələstin məsələsidir. Böyük Fələstin və Beytülmüqəddəs intifazəsi davam edir. Güc və təzyiqlə Fələstin xalqını özünün qəti haqqını tələb etməkdən daşındıra biləcəklərini güman edən şəxslər səhv etmişdilər. Onlar Fələstin xalqını bu yoldan döndərə bilmədilər və bilməyəcəklər. Susdurmaqla, təzyiq

göstərməklə və qorxutmaqla bu nəsli bir neçə gün məcburi sükuta vadar edə bilərlər, lakin sionistlərin qəsb olunmuş Fələstin torpağında bundan sonra rahat hökmranlıq edə biləcəklərini düşünmələri gerçəkləşməyəcək şirin yuxudur.

## *Fələstinin qeyri-fələstinlilərin taleyi ilə əlaqəsi*

Bu, Fələstinin vəziyyətidir. Fələstin məsələsi zarafat və başdansovdu bir şey deyil, bu gün İslam dünyasının ən əsas məsələsi və bütün İslam dünyasında qeyri-fələstinlilərin taleyi ilə əlaqəlidir. İslam ölkələrinin məmurları düşünməsinlər ki, əgər Fələstin xalqını düşmənlərinin qanlı caynağında buraxsalar, İsrail onları udandan və həzm edəndən sonra – sözsüz ki, belə bir şey heç zaman baş verməyəcək - müsəlman hökumətləri rahat buraxacaq.

Həcc İslam dünyasının diqqətini özünün böyük məsuluyyətinə yönəldə bilər. Həcc İslam xalqlarına bu dərki verə bilər ki, səhnədə olmaq və bu hadisədə qətiyyətli mövqe bildirmək onların öz maraqları ilə əlaqədardır. Bəzi adamlar elə bilirlər ki, Fələstin xalqını müdafiə etmək ölkələrin milli maraqlarından xaricdir. Bu çox böyük səhvdir. Bir müsəlman xalq digər xalqlara arxalanmasa və onlar tərəfindən müdafiə olunmasa, belə asanlıqla düşmənin hücumuna məruz qalar. Əgər İslam dünyası birləşsəydi, bir xalq bu şəkildə məzlum olmazdı. Bu talenin digər müsəlman xalqlar üçün də yaşanması mümkündür. Necə ki, bəzi yerlərdə xalqlar üçün yarandığını gördünüz. İslam birliyi İslam dünyasının və region xalqlarının düşmənləri və beynəlxalq soyğunçuların işini çətinləşdirir, onların istədikləri, seçdikləri və məsləhət gördükləri kimi bir müsəlman ölkəsinə və xalqına hücum etmələrinə icazə vermir. Deməli, İslam dünyasının Fələstin xalqını ümumi müdafiəsi əslində İslam dünyasının müsəlman ölkələrinin hər birini müdafiə etməkdir. Bu onların hamısının mənafeyinin zaminidir. Bu kiçik məsələ deyil. Həcc onlara bu dərki, birliyi, əzmkarlığı və qərarı verir. Buna əsasən, həcc məsələsi və Allahın bu əzəmətli vacib əməlinin bütün imkanlarından dünya müsəlmanlarının və bütün İslam ölkələrinin vəziyyətinin yaxşılaşması üçün istifadə etmək çox önəmlidir. Bu sahədə nə qədər işləmək, çalışmaq və xidmət göstərmək mümkün olsa, dəyərlidir.

## *Fələstinlə müharibə - əslində İslamın varlığı ilə müharibə*

Bu gün siz baxın, aydın şəkildə görmək olar ki, bütün İslam ümməti əleyhinə - onun bir hissəsi əleyhinə yox - böyük və hərtərəfli bir müharibə başlamışlar. Bu müharibənin həm iqtisadi, siyasi, mədəni, hərbi və təhlükəsizlik tərəfləri var, həm də bugünkü nəhəng təbliğat imkanlarına malikdir. Bu gün sizin Fələstində, İraqda, yaxud Əfqanıstanda müşahidə etdikləriniz təkcə bir xalqın əleyhinə müharibə deyil. Əgər Fələstinlə vuruşurlarsa, əslində bu regionda İslamın varlığı ilə vuruşurlar. Əgər sionizm rejimini bütün vücudları ilə təsdiq etmək və gücləndirmək istəyirlərsə, İslam dünyasının birliyini və onun qüvvəsini böyük maneə ilə üz-üzə qoymaqdan ötrüdür. İslam dünyasının fəthinin dalanlarından biri Fələstinin fəthidir. Onun dalanlarından biri indi İraq olmuşdur. Onlar İslam dünyasını ələ keçirmək istəyirlər.

## *Fələstinin müsəlmanların yadından çıxmaması*

Fələstin və şanlı Qüds məsələsi elə məsələlərdən deyil ki, İslam dünyası onu unuda bilsin. Əgər nə zamansa Fələstin torpaqlarını işğal edənlər və onların beynəlxalq hamiləri Fələstin adını və Fələstin xalqını unutdura biləcəklərini düşünürdülərsə də, o gün daha arxada qaldı. Bu gün Fələstin xalqı özünün bütün vücudu ilə, özünün bütün iradəsi ilə müqavimət meydanında dayanmışdır. Bu, Qüds işğalçılarının Fələstinin əzəmətli və əhəmiyyətli mövqeyini əlli il öncədən daha artıq hiss etmələrinə səbəb olmuşdur. O gün onlar təsəvvür edirdilər ki, Fələstin yaddan çıxmış və unudulmuş bir nöqtədir. Fələstinin adını "Xalqsız torpaq" qoyurdular. Əlbəttə, bu batil xəyalın yaranmasına bəzi səhlənkarlıqlar da kömək etmişdi. Bu gün belə deyil. Bu gün Fələstin xalqı dayanmışdır. Müsəlman xalqların qəlbi də şanlı Qüds torpaqlarına və bütün Fələstin ölkəsinə qarşı İslam qeyrəti və təəssübü ilə doludur. Və İslam dünyası Fələstini heç zaman unutmamalıdır.

# İkinci fəsil: İslam Repsublikası və Fələstin məsələsi

## *İslam Respublikasında Fələstin məsələsinin bir siyasi strategiya yox, etiqadi məsələ olması*

İslam Respublikasında Fələstin məsələsi bizim üçün bir taktika deyil, bir siyasi strategiya da deyil, bu, etiqad məsələsidir, ürək məsələsidir, iman məsələsidir. Odur ki, bizimlə xalqımız arasında bu sahədə heç bir fərq yoxdur. Bizim Fələstin məsələsinə önəm verdiyimiz qədər, xalqımız da - Fələstin məsələsinin nə olduğunu bilənlər; yəni xalqımızın böyük əksəriyyəti və bəlkə də hamısı - həmin fikirdədir. Siz müşahidə edirsiniz ki, Qüds günündə - imamın Qüds günü təyin etdiyi hər ilin ramazan ayının son cüməsində xalq böyük şəhərlərdə, kiçik şəhərlərdə, hətta kəndlərdə 22 bəhmən (11 fevral) kimi - 22 bəhmən bizim inqilabımızın qələbəsinin xatirəsi və ildönümüdür; yəni xalqın özünə və ölkə daxilinə aid olan məsələdir - eyni duyğuları bildirirlər, 22 bəhməndə olduğu kimi iştirak edirlər. Qüds günündə də xalq ölkənin bütün şəhərlərində, bütün böyük və kiçik şəhərlərdə və kəndlərdə xiyabanlara çıxırlar. Hava isti olsa da, soyuq olsa da, öz iştiraklarını və öz duyğularını göstərirlər.

Bu münasibətlər, bu təhlillər və bu baxış nədən irəli gəlir? Əgər mən, İslam Respublikası quruluşu və İslam Respublikasındakı qərar mərkəzləri bu mövqeni seçir və elan ediriksə, bu nədən irəli gəlir? Sırf siyasi bir baxışdanmı irəli gəlir? Xeyr, bu, din baxışından irəli gəlir.

Deyirlər nə üçün İran Bəhreyn xalqını müdafiə edir. Biz hamını müdafiə etdik. Biz 32 ildir Fələstin xalqını müdafiə edirik. Hansı ölkə, hökumət və xalq bu 32 ildə bu qədər müdafiə edib? Məgər Fələstin xalqı şiədir? Qəzzə barəsində bizim xalqımız nə qədər çalışdı! Bizim gənclərimiz hava livanına getdilər ki, Qəzzəyə yollansınlar. Qəzzəyə gedib İsrail əleyhinə vuruşmaq istəyirdilər; elə bilirdilər yol açıqdır. Yol bağlı idi və getmək olmazdı. Biz dedik ki, getməyin; qarşılarını aldıq ki, yolda sərgərdan qalmasınlar. Yol bağlı idi. Bizim xalqımız Qəzzəyə qarşı, Fələstinə qarşı, Misirə qarşı, Tunisə qarşı hər yerdə yaxşı münasibətini bildirib. Onlar ki, şiə deyildilər. Buna əsasən, söhbət şiə və sünni söhbəti deyil. Bədxah və

xəbis adamlar Bəhreyn məsələsini şiə və sünni məsələsi kimi göstərməyə çalışırlar.

## *Məzlum xalqları, xüsusən də Fələstin xalqını müdafiə etmək - quruluşun ümumi siyasətlərindən biri*

39 - Milli təhlükəsizliyin möhkəmləndirilməsi və milli maraqların təmini məqsədi ilə regionda və beynəlxalq miqyasda İran İslam Respublikasının məqamının, iqtidarının, rolunun və mövqeyinin ucaldılması aşağıdakı məsələlərə təkid göstərməklə:

39-6- Müsəlmanları və məzlum xalqları, xüsusən də Fələstin xalqını müdafiə.

## *İsrail məhv olmadan İranın qələbəsinin yarımçıq olması*

Biz Fələstin probleminin həllinin böyük güclərin diktə etdiyi yollarda olduğunu düşünmürük. Fələstin yarasının dərmanı yalnız sionizm hökumətinin xərçəng vəzisinin qoparılmasıdır və bu tamamilə mümkündür. Müsəlmanlar həcdə bu məsələ barəsində düşünüb onun üçün öhdəlik götürsünlər, onun yolunda şüar və əməlin hər ikisini işlətsinlər. İran xalqı həmişəki kimi özünü fələstinli mübarizlərin yanında bilir və Fələstin hadisəsində qələbə olmadan öz qələbəsini yarımçıq sayır.

Əzəmətli və mərhum imam İranda mübarizənin başlandığı ilk gündən Fələstin məsələsini öz istəklərinin başında qoydu, mübarizə boyunca və inqilabın qələbəsindən sonra onu davam etdirdi. Vəfatından sonra da siyasi və ilahi vəsiyyətnamənin dili ilə onun barəsində bizimlə və dünyanın bütün müsəlmanları ilə danışdı. Bu qəti bir vacib əməldir. Siz hacıların da üzərinə həmin vəzifə düşür. Əgər hamımız vəzifəyə əməl etsək, İslam bədəninin dərin yarası inşallah sağalacaq. Allah bizimlədir!

## *"İmamın xəttinin" səciyyəsi - Qüdsü işğal edən rejimlə mübarizəyə xüsusi diqqət*

Mən imamın xətti adlandırdığımız və onun bərəkətli həyatının on ilində İslam Respublikası quruluşunun hərəkətinin səciyyəsi olmuş bu xəttin və bu istiqamətin xüsusiyyətləri haqda başlıqları deyirəm: İmamın xətti - yəni ümmət imamının hökumət yolu və üslubu; yəni İslam Respublikası quruluşunu izah edən məsələ. İslam Respublikası

müxtəlif xətlərlə reallaşa bilər. Bu xətləri düzgün səmtə yaxınlaşdıran, həm də imamın qəbul etdiyi və etiqad bəslədiyi amillər aşağıdakılardır:

8. Qüdsü işğal edən rejimlə və işğalçı sionizm rejimi ilə mübarizəyə xüsusi diqqət. İsraillə mübarizənin imamın məntiqində - hökumət yolunda və ənənəsində xüsusi yeri vardı. Ümmət imamının baxışında müsəlman xalqlar üçün güzəştə getməyin əsla mümkün olmadığı məsələlərdən biri də sionistlərlə mübarizə idi. Çünki Böyük İmam bu zorakı rejimin dağıdıcı və məhvedici rolunu inqilabın qələbəsindən illər öncə düzgün dərk etmişdi.

Biz zülmlə, hegemonluqla və xalqlara təzyiqlə müxalifik. Böyük güclərin zorakılığına və hegemonluğuna qarşı çıxır və onun qarşısında dayanırıq. Biz İsraillə sazişin qarşısında dayanırıq. Biz məzlum Fələstin xalqını bütün imkanlarla müdafiə edirik. Sionistlərin təzyiqi altında olan Livan xalqını müdafiə edirik. Biz İslamı, ayıq İslamı və dünyanın hər hansı bir yerində İslam kimliyinə qayıtmış xalqları müdafiə və himayə edirik. Bu gün Şərq qüdrətinin dağılıb məhv olmasından sonra Amerika dünyada rəqibsiz böyük güc olmuş və qürura uğramışdır. Onlar böyük bir səhvə düçar olmuşlar; elə bilirlər ki, dünyanı öz istəklərinə və iradələrinə uyğun şəkildə idarə edə biləcəklər. Bunların dünyaya təklif etdikləri yeni sistem və düzən bu əsasdadır, Amerikanın mərkəzliyi əsasındadır, Amerikadan sonra digər güclərin mərkəzliyi, onların bütün dünyaya, bütün ölkələrə, bütün xalqlara, dünyanın bütün mühüm qaynaqlarına, dünyanın bütün həssas su yollarına hökmranlığı əsasındadır. Bunlar elə bilirlər ki, dünyanın taleyi öz əllərindədir. Bu gün daha qarşılarında Şərq bloku və keçmiş SSRİ olmayan hakim qüvvələr elə bilirlər ki, dünya və dünyanın siyasəti bütövlükdə onların əlində olmalıdır. Onlar bu yolda maneə sayılan hər bir şeylə mübarizə aparırlar.

## *İmamın hərəkatının qlobal olması*

İmamın xəttinin aydın nöqtələrindən daha birisi hərəkatın qlobal olmasıdır. İmam hərəkatı qlobal edirdi və bu inqilabın bütün müsəlman, hətta qeyri-müsəlman xalqlara məxsus olduğunu deyirdi. İmam bundan çəkinmirdi. Bu, ölkələrin işlərinə qarışmaq deyil. Biz bunu etmirik. Bu, inqilabı dünənki müstəmləkəçilərin üsulu ilə ixrac

etməkdən fərqli bir şeydir. Biz bu işi görmürük, belə adamlar deyilik. Bunun mənası odur ki, bu ilahi hadisənin gözəl ətri dünyaya yayılmalıdır, xalqlar vəzifələrinin nə olduğunu anlamalıdırlar, müsəlman xalqlar kimliklərinin necə və harada olduğunu bilməlidirlər. Bu qlobal baxışın bir nümunəsi imamın Fələstin barəsindəki mövqeyidir. İmam açıq-aşkar buyurdu ki, İsrail bir xərçəng vəzisidir. Xərçəng vəzisini nə edirlər? Vəzini kəsməkdən başqa müalicə yolu varmı?! İmam heç kəsi nəzərə almadı; imamın məntiqi bu idi. Bu söz şüar deyil. Bu məntiqlidir.

## *İnqilabın fələstinlilərdə ümid yaratması*

Bu inqilab İslam və ərəb dünyasında ümid oyatdı. Bizim inqilabımız qələbə çalanda ərəb və İslam dünyası ümumi şəkildə bir durğunluq, sükut və ümidsizlik halında yaşayırdı. Sionistlər öz işlərini görmüş və hamını qorxutmuşdular. Heç bir xalq onun üçün ümid qapısının açılacağını güman etmirdi. Birdən əzəmətli qurtuluş darvazası açıldı və xalqlar ümid əldə etdilər. Sionistlər Fələstini yediklərini və işin bitdiyini güman edirdilər. Amma siz baxın, bu gün Fələstin xalqı bütün vücudu və bütün qüvvəsi ilə meydandadır. Ona çoxlu təzyiq göstərilməsinə rəğmən, yenə dayanmışdır. Bu yalnız İsrailin məğlubiyyəti deyil. Bu, Amerikanın məğlubiyyətidir, bu dünyaya hakim olan bütün sionist qüvvələrin məğlubiyyətidir. Fələstin ərazisində mühasirə olunmuş silahsız bir xalq bütün bunları aciz etmişdir. Livan xalqını oyadan bu ümidvarlıq ruhu idi. Bizim inqilabımızın baş verdiyi günlərdə Livanda qovğa idi, sionistlər istədikləri işi görürdülər: hücum edirdilər, öldürürdülər, təcavüz edirdilər, təyyarələri Livan səmasına gəlib-gedirdi, sanki öz ölkələrinin səmasıdır. Əvəzində Livanlı qruplar bir-birinin canına düşmüşdülər. İnqilabın qələbəsinə yaxın mərhum Doktor Çəmrandan iki saatlıq bir kaset gətirmişdilər. Mən Məşhəddə onu dinlədim. Özü Livanda idi və orada Livan xalqının faciələrinin təfərrüatını izah edirdi. İndi Livan xalqı elə bir həddə çatmışdır ki, sionistlərin bu regiona gəlmələrindən bu yana İsrailə heç bir ərəb dövlətinin vurmadığı zərbəni vurur. İki il öncə onları geri çəkilməyə məcbur etdilər. Bir neçə həftə öncə də sionistlərin qarşı çıxmasına rəğmən, özlərinin bir neçə yüz məhbusunu azad etdilər, iqtidarla bayram keçirdilər. Əgər bir xalqın qəlbində ümid olmasa, bu hallar

qarşıya çıxmaz. Bu ümidi siz verdiniz. Bu gün bu ümidlər bütün İslam və ərəb dünyasında nəzərə çarpır.

## *Bizim mövqeyimiz*

Məgər Fələstin məsələsi və bu müsəlman torpaqlarının işğalı yarım əsr öncədən bu günə qədər dəyişilmişdir?! Məgər tarixi və coğrafi həqiqətlər əvəz olunasıdır?! Fələstin Fələstindir, İslam torpağıdır, öz xalqına və millətinə məxsusdur. Bir düşmən gəlib sizin evinizi ələ keçirsin, sonra zorla sizdən istəsin ki, bu işğalı imzalayın; bundan üstün zillət varmı?!

Bizim İsrail qarşısındakı mövqeyimiz həmişəki mövqedir. İsrail regionda bədxassəli bir xərçəng vəzisidir. Bu kəsilməli və kökündən qoparılmalıdır. Amerika gücünün İsraili müdafiə etməsinə baxıb bu işi qeyri-mümkün hesab edən yaxıngörənlərin təsəvvürünün əksinə, bu iş qeyri-mümkün deyil. Bu mümkündür və olacaq. Böyük güclər əbədilik deyillər. Maddi qüvvələr bir gün vardırlar, bir gün yoxdurlar. Dünən dünyada Sovet Sosialist Respublikaları İttifaqı adlı bir qüvvə vardı, amma bu gün yoxdur. Tarixin təcrübə səhnəsi bizim gözümüz önündədir.

## *Beytülmüqəddəs məsələsi İslam Respublikası xalqının və quruluşunun məsələlərindən biri kimi*

Şərafətli Beytülmüqəddəs və məzlum Fələstin xalqı məsələsi İslam Respublikası xalqının və quruluşunun məsələlərindəndir. Məgər biz bu məsələni unuda, yaxud ona diqqətsiz qala bilərik?! İslam quruluşunun xüsusiyyəti belədir ki, onun qərarı etiqad və ilahi vəzifəyə əsaslanır. İslam fəqihlərinin heç birinin şübhəsi və ixtilafı yoxdur ki, düşmən müsəlmanların torpaqlarına hakim olduqda, bir ölkədə İslamın varlığını təhdid etdikdə böyük və ümumi bir cihad edib o düşmənlə mübarizə aparmaq, onu İslam torpağından çıxarıb cəzalandırmaq və tənbeh etmək bütün müsəlmanların vəzifəsidir. İslam və müsəlmanların düşməni olan xəbis, təhlükəli və cinayətkar sionizm təcavüzkardır, yoxsa yox? Fələstin torpağı müsəlmanların evi və qibləsidir, yoxsa yox?

Bu gün 40 ildən artıqdır ki, İslamın və insaniyyətin ən xəbis düşmənləri - yəni bu qəddar və hiyləgər sionistlər bizim varlığımızın bir hissəsinə, bizim evimizin və torpağımızın bir hissəsinə hakim

olmuşlar. Bizim vəzifəmiz nədir? Müsəlmanların vəzifəsi nədir? Fələstin qarşısında digər müsəlman xalqların vəzifəsi nədir? Vəzifə sükut etməkdir?! İki gün daha artıq hakimiyyətdə qalmaqdan, Amerikanın və böyük güclərin məhəbbətini cəlb etməkdən ötrü bu qədər əzəmətli bir vəzifədən imtina edən asılı və xəyanətkar ölkə başçılarına ar olsun!

## *İran xalqı və İslam Respublikası quruluşu müsəlmanların ümidi kimi*

Bu gün müsəlmanların bütün bu problemlərin arasında baxıb ümidvar olduqları xalq və mərkəz İran xalqı və İslam Respublikası quruluşudur. Hər gün İsrailin cinayətkar hücumlarına məruz qalan, bu günlərdə də gəlib bombaladıqları və bu cinayətlərin davam etdiyi məzlum Fələstin və Livan müsəlmanlarının bu qüvvələrin və iddia edən iddiaçıların heç birinə ümidi yoxdur; əgər ümidləri olsa - təbii ki, var - İslam inqilabına və bizim müsəlman xalqımızın səmərəli hərəkətinədir. Siz müsəlmanların ümidisiniz.

## *Məzlum xalqlarda ruh yüksəkliyi yaratmaq üçün İslam Respublikasının izzətini qorumağın əhəmiyyəti*

Beynəlxalq münasibətlərdə İslam Respublikasının və İran xalqının izzətini və inqilabçı məqamını qorumaq əsas məsələlərdən daha birisidir. İranda İslam inqilabının qələbəsi beynəlxalq münasibətlərdə iki cəhətdən dərin dəyişiklik vücuda gətirdi:

Alovlanmaqda olan bu prosesi qorumaq, eləcə də köklü və məzlum xalqların ruhiyyəsini gücləndirmək üçün İslam Respublikası beynəlxalq münasibətlərdə özünün qüdrətli simasında və izzətli mövqeyində ən az dəyişiklik belə etməməyə borcludur. O, quldurlarla qüdrət mövqeyindən, zəif dövlətlərlə himayə mövqeyindən, ayağa qalxmış xalqlarla riayət və hidayət mövqeyindən çıxış və əməl etməlidir. Fitnə və hegemonluğun başı, qəddarlıq və şeytanlığın rəmzi olan Amerika dövlətini zəif ölkələrə zülm etməsinə, işğalçı sionizmi müdafiə etməsinə, xalqların azadlıq oyanışı ilə düşmən olmasına və İran xalqı ilə dərin və cinayətkar ədavətinə görə məhkum etməli və mənfur bilməli, azadlıq iddiaçılarının hiyləgər simasını ifşa və onları rüsvay etmək və bu həqiqətləri söyləmək üçün heç bir fürsəti əldən verməməlidir.

## *İranın fələstinlilərə örnək olması*

Bizim əziz İranımız, müqəddəs İslam Respublikası quruluşu və bu iftixarlı bölgədə yaşayan böyük xalq dünyaya örnək ola bilərlər. Necə ki, inqilabdan sonra bu günə qədər müxtəlif sahələrdə örnək olmuşlar. Bunda əsla şübhəniz olmasın ki, bu gün tam şücaətlə mübarizə vəziyyətində olan Fələstin xalqı İran xalqını və İranın dərsini özünün unudulmaz dərsi və unudulmaz örnəyi hesab edir. Bunu həm sizin dünya boyunca çoxlu olan dostlarınız, həm də hegemonçu qüdrətin mərkəzləri olan düşmənləriniz yaxşı bilirlər. Fələstin bu gün Allahın adı ilə özünün səmərəli və əzəmətli mübarizəsini davam etdirir. Qəlbləri Allaha imanla və özünəinamla dolu olan insanların iradəsinin bütün maddi qüdrətlər üzərindəki qələbəsi növbəti dəfə aşkar olacaq. Dünya görəcək ki, Fələstin xalqı müqavimətin sayəsində addım-addım öz məqsədlərinə sarı irəliləyir. Fələstin torpağı Fələstin xalqına məxsusdur. Bu gün bu xalq meydandadır. İslam dünyasında da bu xalqın özünün şücaətli müqaviməti ilə beynəlxalq mühitdə yaratdığı həyəcandan tufan qopmuşdur.

Əlbəttə, müsəlman xalqların üzərinə daha ağır vəzifə düşür. Müsəlman hökumətlərin də vəzifələri böyükdür. İslam İranı - xalqı və hökuməti çiyin-çiyinə Fələstin xalqının səsinə səs verib, onunla həmdərdlik və yoldaşlıq edir; müxtəlif sahələrdə bu xalqı müdafiə edir.

## *İran - xalqların müqavimət örnəyi*

Biz fəxr edirik ki, bizim xalqımız, bizim hökumətimiz, bizim məmurlarımız, bizim gənclərimiz və bizim alimlərimiz bütün bu illərdə bu məsələlərə qarşı laqeyd olmayıblar, mövqe bildiriblər, nifrət bildiriblər. İran xalqı bu ruhiyyəni əldən verməməlidir. Xüsusən siz gənclər bu ruhiyyəni əldən verməyin. Bir dəstə adam məsələni tərsinə göstərmək istəyirlər, etiraz edib deyirlər ki, cənab, nə qədər deyəcəksiniz ki, filankəsə ölüm, filankəsə ölüm. Etiraz edirlər ki, nə üçün Amerikanın, yaxud sionistlərin, yaxud onların müttəfiqlərinin cinayətlərini beynəlxalq tribunalarda aşkarlayırsınız. Bunu aşkarlamaq və demək lazımdır. Xalqlar dərs alırlar.

Xalqlar ilham alırlar, hökumətlər öyrənirlər və milli rəhbərlər bir xalqın bu şəkildə müqavimət göstərdiyini gördükdə cəsarətlənirlər.

Biz nə üçün xəcalət çəkək?! ...Bu gün - İslamın əzəməti dövründə, İslam quruluşunun və İran xalqının başucalığı dövründə onun antiimperialist mövqelərinə görə kimsə beynəlxalq tribunalarda Amerika, İsrail, sionizm və onların müttəfiqlərinin qarşısında dayanıb açıq-aşkar danışdıqda burada bir dəstə adam xəcalət çəkir deyir ki, vay, rüsvay olduq. Bu, tağut dövründə birinin namaz qıldığına görə çəkdiyi xəcalətə bənzəyir. Nə üçün xəcalət çəkməliyik?! İran xalqının, xüsusən də gənclərin beynəlxalq zülmlər qarşısındakı açıq mövqeyi heç zaman səngiməməlidir.

### *Fələstini müdafiədə İslam Respublikası hökumətinin qabaqcıl olması*

Bizim əziz xalqımız Fələstin məsələsini bütün varlığı ilə dərk etmiş, İslam dünyasına olunan zülmü duymuş, bu sahədə üzərinə düşən vəzifəni anlamışdır. İslam Respublikası hökuməti həmişə bu sahədə qabaqcıl olmuş, üzərində vəzifə duymuş və bacardığını etmişdir. Şübhəsiz, bunun böyük nəticələri olacaq. Biz ümidvarıq və əlamətlərini də görürük ki, tədricən İslam dövlətləri bəzi həqiqətləri daha artıq dərk edir. Bəziləri məsələnin mahiyyətinə yaxınlaşır və yollarını İslam ümmətinin vəzifəsinə sarı yaxınlaşdırırlar.

### *İmam Xomeyninin hərəkatı vasitəsi ilə Fələstinə yeni ruhun üfürülməsi*

İmam Xomeyni hərəkatı Fələstin məsələsinə yeni ruh üfürdü və həmişə fədakar cihadla birgə olan İslam inancı dayağını onun üçün yenidən yaratdı. Kemp Deyvid müqaviləsindən sonra Amerikanın Orta Şərq siyasətləri Fələstin məsələsinə və Fələstin xalqına zərərli tale yazmışdı. Bu, axırda Oslo müqaviləsi və onun acı nəticələri ilə sonuclanan siyasət idi. Bu siyasətlərdə cihad və müqavimət ruhiyyəsinin məhvi və Fələstin xalqının tədricən regionun bütün qaydalarından silinməsi və o xalqın özünün iradəsinə və zati qüvvəsinə arxalanmasının yerinə puç ümidlərə güvənməsi nəzərdə tutulmuşdu. Yenidən Fələstin xalqının mübarizələrinə qarışan İslam imanı və Allah yolunda cihad ruhiyyəsi hegemonçu siyasətlərin və xain maraqların inkişafı qarşısında ən böyük maneəni vücuda gətirdi. Bu gün Fələstin xalqı həmin ruhiyyənin və marağın sayəsində bütün varlığı ilə səhnədədir, özünün iradəsi, əzmkarlığı və

fədakarlığı ilə Fələstinin düşmənləri və hətta dostları üçün təsəvvür olunmayan gələcəyin əsasını qoyur.

### *İran xalqı - Fələstin xalqının dayağı*

Mən İran xalqına - Məhəmməd (s) yolunun davamçılarına deyirəm ki, yol müqavimət yoludur. İslam Respublikası quruluşu Böyük İmamının ardınca gedərək bu müqaviməti seçmişdir. Biz bu müqavimətdən xeyir gördük, zərər görmədik. İmperializmin bütün səsucaldanları toplaşıb müxtəlif növlü əsaslandırmalarla İran xalqını, İran hökumətini və İslam Respublikası quruluşunu fələstinliləri müdafiədən çəkindirməyə çalışdılar, lakin İran xalqı qəbul etmədi, bundan sonra da qəbul etməyəcəyik. Biz Fələstin xalqını müdafiə edəcəyik.

### *Mərhum imamın vasitəsi ilə İslam bayrağının ucaldılması - Fələstin xalqının oyanış amili*

Əslində bizim Böyük İmamımız ölkəmizdə və İslam dünyasında vücuda gətirdiyi bu əzəmətli hərəkatda iki bayrağı ucaltdı və yüksəkdə saxladı: Biri İslamın dirçəldilməsi, bu əzəmətli və bu tükənməz qüvvənin səhnəyə gətirilməsi bayrağından ibarətdir.

Bu, dünyanın hər bir yerində müsəlmanların kimlik və şəxsiyyət hiss etmələrinə bais oldu. Uzun illər boyunca İslam kimliyinin əzilməsinə çalışıldıqdan sonra bu inqilab vücuda gəldikdə bizim Böyük İmamımızın uca qaməti dünyanın müsəlman xalqı önündə göründükdə hamı bir kimlik, bir şəxsiyyət və bir əsillik əldə etdiyini duydu. Bu, İslam dünyasının Şərqində və Qərbində müsəlmanların oyanış əlamətlərinin yaranmasına səbəb oldu: Fələstin xalqı on illərlə uğursuzluqdan sonra cana gəldi. Ərəb ölkələrinin gəncləri hökumətlərinin sionizm rejimi ilə üç müharibədə məğlubiyyətindən sonra məyus olmuşdular; onlar ruhlandılar. Bunlar İslam dünyasına məxsusdur, təkcə bizim ölkəmizin məsələləri deyil. İslam ölkələrinin qəlbində bir xərçəng vəzisi olan sionizm rejimi o zamana qədər özünü məğlubedilməz bir sima kimi göstərmişdi və İslam dünyasında çoxları onun məğlubedilməz olduğuna inanmışdılar. Lakin o, müsəlman gənclər tərəfindən zərbə gördü. Fələstin intifazəsi başlandı, işğalçı rejimə ardıcıl zərbələr vuruldu; istər birinci intifazədə, istər Əqsa intifazəsində, istər 9 il öncəki

məğlubiyyətdə və Livandan geri çəkilməkdə, istər 33 günlük müharibədə, istər ötən il məzlum Qəzzə xalqı ilə 22 günlük müharibədə. Bütün bunlar sionizm rejiminə zərbələr vurdu. Halbuki İslam inqilabı qələbə çalanda sionizm rejimi müsəlman hökumətlərin və müsəlman xalqların, xüsusən də ərəb xalqların nəzərində məğlubedilməz bir rejim sayılırdı. Bu, sionizm rejiminin hələlik Nildən Fərata qədər şüarını kənara qoymasına və unutmasına səbəb oldu. Afrikadan Şərqi Asiyaya qədər müsəlman xalqlar İslam quruluşu və İslam hökuməti yaratmaq fikrinə düşdülər; mütləq bizim İslam Respublikası quruluşumuz formasında yox, müxtəlif formalarda. Lakin ölkələrində İslam hakimiyyətini qurmaq fikrinə düşdülər. Bəzi ölkələr uğur da qazandılar, bəziləri də İslam hərəkətləri üçün ümidverici gələcək gözləyir.

İslam dünyasında ziyalılar yeni ümidlə meydana atıldılar. Ümidsiz danışan, məğlubiyyət hiss edən şairlərin, sənət adamlarının və yazıçıların İslam inqilabının qələbəsindən, Böyük İmamın əzəmətli hərəkətindən və bu xalqın müqavimətlərindən sonra ruhiyyələri dəyişildi, sözlərinin, şeirlərinin və qələmlərinin tonu dəyişildi, ümid rənginə boyandı.

## *Sionizm və Amerika - İslam Respublikasının əsas düşmənləri*

İslam Respublikasının əsas düşməni kimdir? Bu gün dünyada bizim əsas düşmənimiz sionizm və hegemonluqdur. İslamla, İslam Respublikası quruluşu və İran xalqı ilə düşmənlikdə əsas amil sionizm və Amerikadır.

Əgər hegemonluğu düzgün tərcümə etmək istəsək, bu gün təcavüzkar, hegemonçu, yağı və quldur Amerika dövləti ilə uyğun gəlir.

Əlbəttə, işğal olunmuş Fələstində Amerikadan da mənfur olan sionizm dövləti var. Nə üçün? Çünki hər halda Amerika dövləti bir dövlətdir və bir xalqa söykənir. Halbuki işğalçı sionizm dövləti ümumiyyətlə bir xalqa söykənmir. O regionun sakini olan xalq bu gün qaçqındır. İsrail əvvəldən zülmlə, qətllə, yalan və hiylə ilə vücuda gəlmişdir. O zaman bir qrup quldur və təcavüzkar insan İngiltərənin dəstəyi ilə Fələstin bölgəsinə gəldi. Oranın əhalisini qovdular, onların bir milyondan artıq olan övladları və yaxınları hələ

də çadırlarda və düşərgə şəraitində yaşayırlar; çadırda, çadıra bənzər bir yerdə və daxmalarda yaşayırlar. Fələstin xalqı Fələstindən xaricdə daxmalarda və düşərgələrdə yaşayır. Onların evləri və vətənləri Avropadan, Avstraliyadan, Amerikadan, Asiyadan və Afrikadan oraya getmiş, qondarma və yalançı bir xalq vücuda gətirmiş, orada bir xalq adı ilə yaşayan və dövlət də quran şəxslərin əlindədir. Belə bir xalq isə əsla mövcud deyil və kimliyi yoxdur.

Deməli, bu gün bu xalqın xarici düşmənlərinin başında - bizim xarici siyasətimizin dünyada əsas mübarizəsi onunladır - işğal olunmuş Fələstinə hakim olan fəsadlı, işğalçı, xəbis sionizm rejimi və onun arxasında duran Amerika Birləşmiş Ştatları dayanır. Amerika Birləşmiş Ştatları bütün eninə-uzununa, elmi inkişaflarına, böyük bir ölkə və xalq olmasına rəğmən, sionistlərin əlində oyuncağa çevrilmişdir, sanki cilovu bir itin əlində olan bir div kimidir; it haraya istəyirsə, onu aparır. Bu Amerika dövləti dünyada siyasi, iqtisadi və hərbi baxımdan özü üçün tanıdığı sərvətinin, keçmişinin və əhəmiyyətinin böyüklüyünə rəğmən, sionistlərin və İsrail dövlətinin əlində oyuncaq olmuşdur. Amerika prezidenti İslam Respublikası əleyhinə bir qərar verəndə Amerika sionistlərinin mərkəzinə gedir, orada məruzə edir və bu, dünyada yayımlanır. Bu, Amerika xalqı üçün rüsvayçılıqdır.

Bunlar bizim əsas düşmənlərimizdirlər. Əlbəttə, dünyanın digər yerlərində də bizim əleyhimizə düşmənlik və xəbislik olur. Lakin bunların çox da əhəmiyyəti yoxdur və əsas məsələ deyillər.

## *İslam Respublikasının müqaviməti ilə Fələstində hərəkatın yenidən başlanması*

Sionistlər öz xəyallarına əsasən rahat nəfəs aldılar. Amma sonra gördülər ki, dünyada İslam bayrağının, İslam hakimiyyətinin, xalqın Qurana, hökmlərə və onun ayələrinə imanının sayəsində, qorxmamalarına, şücaətlərinə, böyük güclərə və imperializmə etina etməmələrinə görə xalqın və hökumətin bir yerdə "işğalçı sionizm hökuməti Fələstindən çıxmalıdır" – deyə fəryad ucaldan bir yer var. İran xalqının, hökumətinin və İslam Respublikası quruluşunun bu müqaviməti Fələstin hərəkatının qurumuş damarlarında qanın axmasına və fələstinli gənclərin - yəni fələstinlilərin üçüncü nəslinin həqiqi oyanışa nail olub hərəkatı özünün İslam formasında davam

etdirməsinə səbəb olmuşdur. Onlar bilirlər ki, əgər işğal olunmuş Fələstin sərhədləri daxilində və ətrafında fələstinli gənclərin hərəkatı davam etsə, bunların ərəblərlə bağladıqları bütün bu sülh və müzakirələri puç və mənasız edib işlərini korlayacaq.

## *İslam inqilabının Fələstin məsələsinə təsiri*

Lakin İslam inqilabından sonra iki hadisə baş verdi: Biri budur ki, qeyri-dini hərəkat olan Fələstin hərəkatı bir İslam hərəkatına çevrildi, İslam müqaviməti vücuda gəldi və İslam rənginə boyandı. Bayırdan mübarizə aparan mübarizlər, Livandan, yaxud digər məntəqələrdən İsrailə hücum edib onlara zərbə vuran şəxslər çox güclü İslam hissi ilə meydana qoşuldular.

İkincisi isə budur ki, intifazə vücuda gəldi. İntifazə - işğal olunmuş torpaq və vətən daxilində qiyam deməkdir. Bu qiyamdan qorxurlar; çünki onlar üçün çox mühümdür. Əlbəttə, mətləbi əksinə göstərməyə çalışırlar. Lakin Fələstin xalqının Fələstin torpaqları daxilindəki mübarizələri sionizm rejimi üçün öldürücü və sarsıdıcıdır. Bu onların fəqərə sütunlarını qırır. Nə üçün? Çünki bunlar bütün dünyadan bu yerə cəm olmuş yəhudilərə təhlükəsizlik, rahatlıq və firavan həyat söz vermişdilər. Demişdilər ki, gəlin burada ağalıq edin. Lakin bunlar indi bu torpağın əsas sahibləri olan, oyanmış və ayağa qalxmış yeni nəsillə bacarmırlar. Sionizm quruluşunun təməlləri titrəmişdir.

## *İran xalqının mübarizəyə hazırlığı*

Allahın lütfü ilə İslam İranında bundan əlavə xalqın səsi də Fələstinin xatirəsi ilə fəaldır, yumruqları da düyünlənmişdir, hazırlıqları da var. Lakin biz lazım və məsləhət görmürük ki, mübarizə aparmalı olan Fələstin xalqının özündən başqa kimsə ayrı yerdən oraya getsin. Bir xalqın görməli olduğu işi digəri onun üçün görə bilməz; o xalqın özü görməlidir.

## *İranlı gənclərin Fələstində canfəşanlığa hazırlığı*

Bilin ki, əgər biz - yəni ölkə məmurları xalqın qarşısını almasaydıq, bizim çoxlu gənclərimiz öz cisimləri ilə Fələstin meydanında iştirak etmək üçün yola düşürdülər. Qəzzə hadisəsində bizim gənclərimiz hava limanına getdilər. Nə edirdilərsə,

dönmürdülər, mənim müraciətimlə qayıtdılar. Əgər mən müraciət etməsəydim, hava limanından dönməyəcəkdilər. Deyirdilər ki, bizi Qəzzəyə aparın. Elə bilirdilər özlərini Qəzzəyə çatdıra bilərlər. Bu bizim gənclərimizin marağıdır. Qəzzə və Fələstin məsələsi bizim problemimizdir, bizim İslam məsələmizdir, bütün müsəlmanların məsələsi və bizim vəzifəmizdir. Etdiklərimiz də bizim vəzifəmizdir. Heç kəs üzərində minnətimiz yoxdur, borcumuzu yerinə yetirmişik. Allah-Taaladan da istəyirik ki, vəzifələrimizi yerinə yetirməyə yardım etsin. Lakin burada iştirak edən siz dostlar bu cənabların dediyi sözlərin – yəni əsas məsələnin mübarizədən ibarət olması, Fələstin məsələsində müqavimətdən başqa çıxış yolunun olmaması fikirləri üzərində dayanın. Bu sözləri açıq şəkildə deyin. Siyasi təbəssümlərlə və süni rəy yaratmaqla bu regionu ələ keçirmələrinə imkan verməyin. Fələstinlilərin hansı müqavimət yolundan kənara çıxdısa, zərər gördü.

## *Fələstinin güzəştə getməli olmaması*

Fələstin məsələsində bizim mövqeyimiz aydındır. Biz Fələstin xalqının tərəfdarıyıq. Biz Fələstinin azadlığının tərəfdarıyıq. Biz Fələstin torpaqlarına təcavüz edənlərin əlinin kəsilməsinin tərəfdarıyıq. Biz deyirik ki, Fələstin xalqının öz evində təhlükəsizliyi yoxdur. İslam bu vəziyyəti rədd edir. Odur ki, biz də rədd edirik; digər ölkələr müzakirə stolu arxasında oturub xam xəyalla Fələstini düşmənə satsalar da. Lakin bilsinlər ki, müsəlman xalqlar və Fələstin xalqı Fələstini heç zaman düşmənə satmayacaq.

## *İranın müqəddəs müdafiəsi - Fələstinin örnəyi*

Sizin istər müqəddəs müdafiə dövründə, istərsə də bu ölkənin digər böyük sınaqlarındakı müqavimətiniz bizim zamanımızda bu fəzilətləri qeyd etdi. Bizim zamanımız yaxın rabitələr zamanıdır. Lakin bu yaxın rabitələr həmişə şeytanın və şeytanlıqların xeyrinə olmur, mənəviyyatların və əsilliklərin də xeyrinə olur. Dünya xalqı sizdən çox şey öyrənmişdir. Fələstində öz övladını öpüb döyüşə yollayan ana bir nümunədir. Fələstinin uzun illər qadını, kişisi, qocası və gənci vardı. Lakin zəifliklər səbəbindən və mənəvi qarşılaşmada ağıl qoşunlarının cəhalət qoşunlarına qalib ola bilməməsinə görə Fələstin xarlığa düçar oldu, bu vəziyyətə düşdü və

düşmənlər ona hakim oldular. Lakin bu gün Fələstinin vəziyyəti ayrı cürdür. Bu gün Fələstin ayağa qalxmışdır. Bu gün Fələstin xalqı - qadın və kişi öz daxilindəki mənəvi qarşıdurmada mənəviyyat tərəfini gücləndirib qalib etməyi bacarmışdır. Və bu xalq qələbə çalacaqdır.

## *İslam inqilabının və Livan hizbullahının qələbəsi - intifazənin formalaşmasının amillərindən biri*

İranda əziz Peyğəmbər (s) nəslindən olan alim kişinin – yəni İmam Xomeyninin rəhbərliyi ilə İslam inqilabının qələbəsi bütün dünyada, xüsusən də region ölkələrində İslam oyanışında əsas rola malik idi. Livanın cənubunda müsəlmanların İslam düşmənləri ilə zahirən qeyri-bərabər döyüşdə qələbəsi İslam mübarizələrinin düzgünlüyünə və doğruluğuna başqa bir əlamət və müsəlmanların Allahın vədəsinə etimad edib Allah üçün cihad etdikləri təqdirdə qələbənin qaçılmaz olmasına bir təkiddir.

Şübhəsiz, Livanın cənubunda İslam müqavimətinin heyrətamiz qələbəsi bir tərəfdən, sülh layihələrinin rüsvayçı uğursuzluğu digər tərəfdən, regionun əsas ibrətlərindəndir. Bu, müsəlman Fələstin xalqının yenidən intifazəyə üz tutmasına səbəb olmuşdur. Lakin bu dəfə daha Fələstin, yaxud bölgə daxilində saziş nəğmələri dözümlü, şücaətli və möhkəm fələstinlilərə təsir göstərməyəcək. Onlar öz mübarizələrini qələbəyə qədər davam etdirməkdə israrlıdırlar.

## *İsraillə düşmən olduğuna görə İran əleyhinə təbliğat*

Sionistlər və işğalçı İsrail dövləti Amerikanın alətidirlər. Amerika bu işğalçı dövləti ümumiyyətlə öz işlərini görmək üçün Orta Şərqə qoymuşdur. Onlara bağlı olan xəbər agentlikləri və kütləvi informasiya vasitələri inqilabın ilk günündən indiyədək iri həcm və yüksək keyfiyyətlə İslam Respublikası əleyhinə təbliğat aparmış, ağızlarına gələni demişlər və deyirlər. Misal üçün, dünyada bəzilərinin doğrudan da inanmaları mümkün olan insan hüquqlarının tapdanması məsələsi onların qondarmalarındandır.

Deyirlər ki, İranda insan hüquqları tapdanır. Biz sübut edilməsini və misal göstərilməsini istədikdə bir siyahı verib deyirlər ki, siz bunları edam etmisiniz. Bunlar kimlərdir? Heroin və morfi qaçaqçıları; yəni elə məhkumlar ki, onlar üçün bir dəfə edam azdır.

Əgər mümkün olsaydı, daha artıq edam etmək lazım idi. Məgər bu, insan hüquqlarının pozulmasıdır. Deyirlər ki, İran terrorçudur. İranın hansı dəlilə əsasən terrorçu olduğunu və terrorizmi yaydığını soruşduqda deyirlər ki, görün Fələstin və Livanda xalq nə edir. Bunun İrana nə aidiyyyəti var? Əlbəttə, bunda şübhə yoxdur ki, Fələstin və Livanda bir qrup insan oyanmış və İslam inqilabından ilham almışlar. Onlar deyirlər ki, siz nə üçün işğalçı İsraili, vətənsiz sionistləri və qondarma İsrail dövlətini gətirib Livana və Fələstinə hakim etmisiniz. Bu məsələnin İrana nə dəxli var? Əgər insanlar vətənlərini müdafiə etsələr, bu terrorizmdir və necə deyərlər, bu terrorizmi İran ixrac etmişdir?!

## *İslam Respublikasının günahı: haqqa tərəfdarlıq*

İslam Respublikasının günahı bu sözü deməsidir. İslam Respublikası Amerikanın qorxusundan, yaxud tamahlandırmasından bu haqq sözü gizlədən digər dövlətlərin əksinə olaraq, bu sözü açıq şəkildə deyir; deyir ki, haqq haqdır, batil batildir. Biz Fələstin xalqının olduğunu, amma bu gün didərgin salındığını inkar edə bilmərik. İnkar edə bilmərik ki, Fələstin torpağı Fələstin xalqından qəsb edilmişdir; özü də zahirən nəzakətli bir üsulla yox, qətllə, adam öldürməklə, hiylə ilə, yalanla, zorakılıqla, qəddarlıqla və qətliamla. İsrail dövləti qətliamla, hiylə ilə, qaniçənliklə və insani dəyərlərə təpik atmaqla vücuda gəldi. Bir xalqın hüquqları işğal olunmuş Fələstinə daxil olan sionist mühacirlərin qarşısında qurban kəsildi. Bu qondarma dövlətin ömründən ötən 50 ilə yaxın müddətdə həmişə əzmək, insan öldürmək, yalan, hiylə, insanlara və günahsızlara təcavüz və hücum onun həyatının amili olmuşdur.

Biz bu həqiqətləri deyirik. Biz bu həqiqətləri gizlətmirik. Biz Amerikanın xoşunun gəlməsindən ötrü bu dünyada belə ən aydın həqiqətləri gizlətməyi günah bilmişik. Dünya miqyasında çoxlu şəxsiyyətlər - bizimlə ticarət, yaxud siyasət əlaqələri olanlar məxfi şəkildə bizim məmurlarımıza və şəxsiyyətlərimizə deyirlər ki, Amerikanın sizinlə düşmənliyinin səbəbi bu Orta Şərq məsələsindən və İsrail hadisəsindən ibrətdir. Deyirlər ki, siz nə üçün qarşı çıxırsınız. Açıq şəkildə deyirlər ki, bu insan hüquqları məsələsi, elə mühakimələr, qadın hüquqları və İslam Repsublikasının əleyhinə Amerika və sionist mediasında deyilən sözlərin hamısı sözdür. Biz

özümüz bilirdik ki, bu sözdür, amma indi onlar da bunu etiraf edirlər.

Onların problemi başqa yerdədir, dərdləri başqa yerdəndir. Onlar deyirlər ki, siz nə üçün İsraillə razılaşmırsınız və digərləri kimi Fələstin xalqının qətli hökmünü imzalamırsınız. Sözləri budur. Mən həmişə bu məsələni hamıya deyirdim. İndi onların özləri etiraf edir və bizə deyirlər ki, Amerikanın təzyiqləri, iqtisadi blokada, Amerikanın qanunverici və icraçı qurumlarının bəzi ünsurlərinin İslam Respublikası əleyhinə ədavətli və rəzil təbliğatının hamısı İsrail məsələsinə bağlıdır. Deyirlər ki, siz nə üçün Orta Şərq sülhünü qəbul etmirsiniz; nə üçün deyirsiniz ki, bu sülh deyil, canavar və siçanın barışığıdır; nə üçün bu sazişi imzalamağa gəlmirsiniz? Onlar bizdən fələstinlilərin qətlinin hökmünü istəyirlər. Məsələ bundan ibarətdir.

### *Amerikaya görə İslam Respublikasının ən böyük eybi: sionist işğalçıların işğalını qəbul etməmək*

Amerikalılara görə İslam Respublikasının ən böyük eybi budur ki, sionist işğalçıların Fələstinə qarşı işğalını qəbul etmir. Onların İslam Respublkası quruluşuna qarşı düşmənliklərinin ən böyük nöqtəsi budur ki, siz nə üçün İsrailli hərbçilərin icazəsiz şəkildə xalqın evində hərəkət etməsini, onların başından vurmasını və o xalqın hakimi olmasını qəbul etmirsiniz. Bütün dünya qəbul edib, siz nə üçün qəbul etmirsiniz? Bu xalqın ən böyük müsbət cəhəti onlara görə ən böyük mənfi cəhətidir.

### *Amerikanın İranla əsas problemi - rüsvayçı saziş layihələrinə qarşı çıxmaq*

Qardaşlar və bacılar! Beynəlxalq hegemonluğun və onların başında Amerika rejiminin İrana göstərdiyi hərtərəfli təzyiqlərin əsas səbəbi bizim Fələstini müdafiə etməyimizdir. Onlar açıq şəkildə deyiblər ki, Amerikanın İranla əsas problemi İran İslam Respublikasının Fələstində rüsvayçı saziş layihələrinə qarşı çıxmasıdır. Digər işlər, məsələn insan hüquqlarının tapdanmasına və kütləvi qırğın silahlarının düzəldilməsinə dair gülünc iddialar bəhanədən başqa bir şey deyil. Əgər İran Livan və Fələstin mübarizlərini və xalqını müdafiə etməkdən əl çəksə, onlar da

özlərinin İran əleyhinə düşmənçi üsullarından əl çəkərlər. Əlbəttə, biz yaxşı bilirik ki, onların əsas problemi İslam və İslam hakimiyyətidir. Bu onların bu böyük ölkəyə qarətçi və istismarçı qayıdışına maneədir. Onlar da həqiqətən İslam Respublikasının siyasətlərinin bu cəhətini yaxşı tanıyırlar. Biz onlara rədd cavabı vermişik. Biz Fələstin və Livan xalqını müdafiə etməyi özümüzün mühüm İslam vəzifələrimizdən bilirik. Odur ki, onlar hər tərəfdən öz təzyiqlərini göstərirlər.

Livan və Fələstin mübarizələrinin dairəsi genişləndikcə sionizmin və Amerikanın İslam Respublikası quruluşuna qarşı qəzəbi və şiddəti daha artır, təxribatları daha da genişlənir. Amma onlar bilsinlər ki, bütün təbliğatlarına rəğmən, böyük İran xalqı, ölkə məmurları və başçıları hamılıqla həmrəydirlər. İranın bütün müsəlman xalqı inqilab və İslam amallarını himayə edir. Fələstini və intifazəni müdafiə, sionizm və onun hamiləri ilə mübarizə İran İslam Respublikasının strateji siyasətlərinin əsas təməllərindəndir.

Qardaşlar və əziz xalq! Hegemonluğun İslam Respublikasının bəzi xüsusiyyətlərindən xoşu gəlmir. Üzə gətirmir və dillə də söyləmir, amma eyni zamanda bəhanə olan digər məsələləri söyləyir. Terrorizmə kömək, yaxud insan hüquqlarının tapdanması və yaxud bu qəbildən olan digər iddialar əbəs sözlər və puç bəhanələrdir. Bunu özləri də bilirlər. Əsas məsələ başqa bir şeydir. Əsas məsələ budur ki, İslam Respublikasının sadiq qaldığı bir neçə mühüm mövzü var. Amerika və dünyanın hegemonçular dəstəsi bunlara qarşıdırlar. Biz Fələstin hadisəsində sülhü qəbul etmirik. Biz demişik ki, Fələstin fələstinlilərindir, İsrail dövləti isə işğalçıdır, məhv olmalıdır və fələstinlilərin hökuməti iş başına gəlməlidir.

Bu əsaslı bir məsələdir. Bu məsələ əsasında bu məqsədə qarşı olan hər bir hərəkətlə qarşı çıxırıq. Biz dedik ki, dünyanın harasında müsəlmanlar yaşayırsa, hegemonluq qanlarını tökür və onları zəiflədir; bu, İslam əleyhinə təxribatdır. Biz bunu ifşa etdik. Siz baxın, bu gün dünyada müsəlmanları zəiflətməyin və onlara qarşı şiddətin müxtəlif qisimləri mövcuddur. Bir nümunəsi Bosniya və Herseqovinada elə faciəli və biabırçı formadadır, bir nümunəsi Hindistandadır. İslam yadigarlarından olan o tarixi və böyük məscidi müsəlmanların hisslərini məhv etmək və yaralamaq üçün və Hindistan müsəlmanlarının əhval-ruhiyyəsini korlamaqdan ötrü uçurdular. Xəbərlərdə deyildi ki, Hindistanda sionistlər o nadan

təəssübkeşlərə kömək etdilər, onlar üçün plan hazırladılar. Bu da bir nümunədir.

İnsan hüquqları və bu kimi məsələlərə dair dedikləri, özləri də bilirlər ki, həqiqətin əksinədir. Bunları təzyiq üçün deyirlər. İllərdir Amerika hər hansı bir dövlətin əleyhinə düşmənçilik etmək istədikdə üsullarından biri budur. Yəni o dövlətin əleyhinə şüar ucaldır ki, bu, insan hüquqlarının və demokratiyanın düşmənidir. Onlar özləri də bilirlər ki, bu həqiqət deyil; dünya da bunu bilir. Bu mühüm bir şey deyil.

Onlar dəfələrlə təkrar ediblər ki, İslam Respublikasından həqiqi istəkləri budur ki, İslam Respublikası Fələstin məsələsində öz mövqeyindən geri çəkilsin; yəni Fələstin mübarizəsini unudan ölkələr kimi İsraili rəsmən tanısın. Deyirlər ki, siz bu məsələni buraxın, Amerikanın dünyanın müxtəlif bölgələrində fəaliyyətini qəbul edin, Amerikanın Fars körfəzi regionunun hadisələrindəki iştirakını qəbul edin və hamısından mühüm budur ki, Amerikanın İran hadisələrindəki nüfuzunu qəbul edin. Bu, Amerika rejiminin həqiqi istəyidir. Həqiqi və ciddi şəkildə istədikləri budur. Bunu digər sözlərin, ittihamların, əks-təbliğatın və bu kimi məsələlərin arxasında deyirlər. Lakin məsələnin məğzi budur.

## *Fələstini müdafiəyə görə təcrid olunmaqdan qorxmamaq*

45 il öncə bir zülm baş vermişdir: Fələstin xalqının evi onlardan zorla alınmışdır. Bu ev tam şəkildə və heç bir qeyd-şərt olmadan Fələstin xalqına qaytarılmalıdır. İslam hökumətinin xüsusiyyəti budur ki, süni ajiotajla geri çəkilmir. Dayanmadan deyirlər ki, ağa, təcrid olarsınız. Təcrid olmaq nə deməkdir? Əgər dünyanın həyasız qüvvələri qalmaqal, hay-küy və səs-səda yaratmaqla gəlib nahaqqı haqq etmək istəsələr, biz də digərləri kimi razılaşıb deməliyik ki, düzgün buyurursunuz? Bəs İslam hökumətinin mənası nədir?

Bəli, məlumdur ki, batildən və qanunsuz zorakılıqdan başqa heç bir şeyə önəm verməyən şəxslər arasında insan təcrid olunacaq: “Kafir olanlar səni gördükləri zaman ancaq istehza edərlər“. Məlumdur! Məgər Peyğəmbər (s) dəvətini başlayanda təcrid olunmadı?! Məgər bizim Böyük İmamımız tağut hakimiyyəti dövründə öz evində qərib və təcrid halında deyildi?! Təcrid olmaq nədir? İslam hökumətinin haqq olanı demək, Amerikadan və

dünyada əlbir olan güclərdən qorxmamaq comərdliyi və rəşadəti var. Bizimlə zəif və asılı bir ölkənin fərqi budur. Xalqlarına bağlanmayan hökumətlər qorxurlar. Onlar da əgər xalqlarına bağlansaydılar, öz daxillərində olanı deməyə cürət tapardılar. Biz xalqımıza bağlanmışıq, dayaqsız və köməksiz bir hökumət deyilik. Bir pərdə kimi deyilik ki, onu bir tərəfə çəksinlər və arxasında heç bir şey olmasın. Dayağımız çox güclüdür. Bizim dayağımız əzəmətli bir xalqdır, 50 milyondan artıq olan mömin bir xalqdır. Bizim dayağımız bizə və bizim ruhumuza hakim olan məntiq və əsaslardır.

Biz zülmə təslim olmarıq, Amerikanın və onunla əlbir olan qüvvələrin həyasız hegemonluqlarına və yekəxanalıqlarına təslim olmarıq. Quran bizə öyrətmişdir ki, haqq sözü qüdrətlə deyək, onun üstündə duraq, israr edək və onun üçün qüvvələrimizi toplayaq. Allah-Taala da təsirli edəcək və yardım göstərəcək. Necə ki, İran xalqının bu 15 illik qəhrəmanlıq dövründəki taleyimiz bunu isbat edir.

# Üçüncü fəsil: Sionizm və İsrail

## *Sionizm - İsraildən daha geniş bir məfhum*

Mənim əzizlərim! Düşmənlərimzin bizə göstərdiyi xidmətlərdən biri budur ki, təbliğatda hansı məqamlar üzərində dayanmalı olduğumuzu başa salırlar. Əgər siz bu gün baxsanız, görərsiniz ki, düşmənin bütün təbliğat maşınları əl-ələ verib öz təbliğatlarını bir neçə məqam üzərində toplamışdır; onların başında da sionistlərin təbliğatı durur. Sionistlər dedikdə bizim məqsədimiz təkcə işğalçı sionizm dövləti deyil, o, sionistlər məcmusunun bir hissəsidir. Sionist toplum Amerika da daxil olmaqla bəzi ölkələrin böyük kapitalistlərini təşkil edən və o ölkələrin siyasətlərinə hakim olanlardır.

Bu gün təəssüf ki, Amerika ölkəsi, Amerika dövləti, Amerika Konqresi müxtəlif maliyyə, təbliğat, mədəni və digər sahələrdə sionistlərin tilsiminin əsiri olmuşdur. Dünyanın media təbliğatı da əksərən bunların əlindədir. Sizin gördüyünüz bu məşhur xəbər agentlikləri əsasən həmin toplumun əlindədir. Bəziləri də onlara məxsus deyil, amma onlarla eyni istiqamətdədirlər. Əgər siz bunların təbliğatına baxsanız, görərsiniz ki, bizim əziz ölkəmiz, böyük, qəhrəman və eyni zamanda məzlum xalqımız barəsində bir neçə məqam üzərində dayanmışlar: birincisi ixtilaf, ikitirəlik və təfriqədir; qədim dastan olan "parçala, hökm sür" məsələsi; qədimdən xalqların canına düşmüş həmin əsas dərd və bəla. Onlar təfriqə yaratmaq istəyirlər. Nə qədər çalışsalar da, təfriqə yarada bilmədiklərini gördükdə isə təfriqə şayiəsini yayırlar.

## *Sionistlər – Mədəni NATO çərçivəsində beynəlxalq miqyasda mənfi hadisələrin proyektoru*

Bundan təhlükəlisi odur ki, bu mənfi yeniliklərin ipucu beynəlxalq miqyasda elə şəxslərin əlində olsun ki, onlar bu yeniliklər vasitəsi ilə özlərinin qızıl, yaxud güc olan məqsədlərini təmin etsinlər. Onlar üçün xalqların kimliyi adlı bir şeyin ümumiyyətlə dəyəri yoxdur. Təəssüf ki, son 100-150 ildə bu, dünyada baş vermişdir. Yəni Asiya, Afrika və Latın Amerikası ölkələrinin yeniliyi beynəlxalq güc bandalarının tələsinə düşmüşdür.

Bunların proyektoru sionistlər və beynəlxalq kapitalistlər olmuşlar. Bunlar üçün əhəmiyyətli olan siyasi gücü qazanmaqdır. Onlar bununla Avropa və digər ölkə və hökumətlərə nüfuz edib siyasi gücü ələ ala bilmək, pul qazana bilmək və bu kompaniyaları, əzəmətli kapitalları, kartelləri və trestləri vücuda gətirmək istəyirlər. Məqsəd bu olmuşdur. O zaman əgər xalqların cinsi əxlaqını pozmaq tələb edilmişsə, asanlıqla etmişlər. Onların arasında israfçılığı yaymaq lazım olmuşsa, asanlıqla bu işi görmüşlər. Onlarda milli kimliyə və mədəni təməllərə etinasızlığı yaymaq lazım olmuşsa, bu işi görmüşlər. Bunlar onların təsvir etdiyi böyük məqsədlər olmuşdur. Bunların əlində mədəni imkanlardan, mediadan, çoxlu qəzetlərdən və müxtəlif təbliğat vasitələrindən ibarət bir qoşun da olmuşdur. Bunlar bu gün yavaş-yavaş yayımlanır. Məs srağagün qəzetdə (əlbəttə, üç-dörd ay bundan əvvəl məqaləsini görmüşdüm) mədəni NATO təşkil etmək barəsində bir məlumat oxudum. Yəni amerikalıların Avropada keçmiş SSRİ qarşısında qüdrətli hərbi toplum yaradan NATO müqaviləsi qarşısında bir mədəni NATO da vücuda gətirsinlər (onlar hərbi NATO-dan Orta Şərqdə, Asiyada və digər bölgələrdə özlərinə qarşı ucalan hər bir səsi boğmaq üçün istifadə etdilər). Bu çox təhlükəli bir şeydir. Əlbəttə, indi deyil, illərdir bu baş vermişdir. Müxtəlif media qurumlarının bir-birinə bağlı məcmusu (indi internet də ona daxil olmuşdur; peyklər, televiziyalar və radiolar) cəmiyyətlərin yeniliyinin idarəsini əllərinə almaq üçün müəyyən istiqamətdə hərəkət edirlər. İndi çox asan olmuşdur.

Gürcüstanda bir siyasi yenilik baş verdi və hakimiyyət dəyişikliyi yarandı. Sionist yəhudi olan bir amerikalı milyarder (adı məşhurdur, mən adını çəkmək istəmirəm) elan etdi ki, mən Gürcüstanda on milyon dollar pul xərclədim və siyasi dəyişiklik yaratdım. Çox asan! On milyon dollar xərcləyirlər, bir hökuməti kənarlaşdırıb, başqa birisini iş başına gətirirlər. Bunlar xalq üzərində təsir qoymalıdırlar. Gərək toplantılar təşkil etsinlər. Ukraynada da eyni işi gördülər. Digər yerlərdə də bu işi gördülər. Bəzən təsirləri başqa formada və təyinedici olur. Bunu bəlkə başqa bir tələbə toplumunda demişəm ki, Malayziyanın keçmiş baş naziri, çox işgüzar, dəqiq, ciddi və sədaqətli adam olan Mahathir Məhəmməd Tehrana gəldi, mənimlə görüşdü. O zaman Şərqi Asiyada müxtəlif dəyişikliklər baş vermişdi, Malayziyada, İndoneziyada və Taylandda iqtisadi zəlzələ

vücuda gəlmişdi. Həmin sionist kapitalist və sonra digər iri kapital sahibləri bank və pul oyunları ilə bir neçə ölkəni iflasa uğrada bildilər. O zaman Mahathir Məhəmməd mənə dedi: "Mən sizə təkcə bu qədər deyim ki, biz bir gecənin içində dilənçi olduq". Əlbəttə, bir ölkə iqtisadi cəhətdən müstəqil olmasa, Dünya bankının və Beynəlxalq Valyuta Fondunun iqtisadi layhələrini icra etmək istəsə, belə də olacaq. Bu Dünya bankının və Beynəlxalq Valyuta Fondunun özü də bu böyük cədvəlin parçalarındandır. Bu çox təhlükəlidir ki, dünya yeniliklərinin ipucu beynəlxalq güc bandalarının əlində olsun; necə ki, bu gün belədir. Bunlar sionistlər və iri kapital sahibləridirlər; əsasən də Amerikada və Avropadadırlar. Bu iki-üç məqam yenilik və dəyişiklik barəsində idi. Deməli, yenilikdən qaçmaq olmaz, qorxmaq olmaz, onu hərc-mərcliklə və anarxizmlə səhv salmaq olmaz. Yenilik yaxşı və lazımdır.

## *Bugünkü sionizm rejiminin bir neçə il öncəki sionizm rejimindən olduqda zəif olması*

Bu gün Allaha həmd olsun ki, bizim mövqeyimiz möhkəmdir. Əksinə, düşmənlərin və bizim müxaliflərimizin mövqeyi isə zəifdir. Mən dünən və srağagün də dedim ki, bugünkü Amerika 10 il və 15 il bundan öncəki Amerika deyil. Bugünkü sionizm rejimi də bir neçə il öncəki sionizm rejimi deyil. Bu rejim güclü zərbəyə məruz qalmışdır.

## *Sionizm - İslamın və İslam Respublikası quruluşunun qan düşmənlərinin qəlbi*

Hələ ki, İslam dünyasında islamçılığın zirvəsi olan İslam Respublikası quruluşu qarşısında bu gün müxtəlif düşmən sıraları vardır. Beynəlxalq hegemonluq o sıraların qəlbindədir; sionizm o sıraların qəlbindədir. Bunlar açıq şəkildə İslamın qan düşmənləridirlər. Deməli, İslam Respublikasının da qan düşmənləridirlər. Bu bir meyardır. Əgər bu düşmənin xeyirinə bitən bir hərəkət etsək, bir iş görsək, qafiliksə, ayılmalıyıq, yanlış yol getdiyimizi bilməliyik. Əgər bu düşməni qəzəbləndirən bir hərəkət etsək, bilməliyik ki, yolumuz düzgündür. Düşmən İran xalqının inkişafına qəzəblənir, sizin uğurlarınıza qəzəblənir, İslam

quruluşunun möhkəmlənməsinə qəzəblənir. Siz görün düşmən bizim işlərimizdən hansına qəzəblənir. Düşməni qəzəbləndirən iş düzgün xətdir. Düşməni sevindirən, ürəkləndirən, təbliğatda və siyasətdə həmişə üzərində dayanmağa çalışdığı iş əyri xətdir. Bu meyarları nəzərə alın. Bu meyarlar həqiqətləri aydınlaşdıracaq. Səhvin qarşıya çıxdığı bir çox yerlərdə bu meyarlarla o səhvləri aradan qaldırmaq olar.

### *Sionizmin əksər xəbər agentliklərinə hakim olması*

Düşmənin təbliğatı və bu təbliğatın əsas hissəsi sionistlərin əlindədir. Dünyada mövcud olan məşhur xəbər agentliklərinin əksəriyyəti sionistlərə məxsusdur. Dünyanın bəzi məşhur radioları da onlarınkıdır. Sionistlər də bu regionda hegemonluğun zəncirli iti kimi əməl edirlər; hürmək, ayaqdan tutmaq, ona-buna sarı atılmaq sionistlərin işidir. Onlardan bundan başqasını gözləmək də olmaz. Əlbəttə, heç kim də onlara əhəmiyyət vermir. Amma əgər insan bunların müxtəlif dövrlərdəki təbliğat vəziyyətinə baxsa, maraqlı məsələlər hiss edər.

### *Sionizmin əksər beynəlxalq güc mərkəzlərinə, maliyyə və iqtisadi mərkəzlərə hakim olması*

Biz bu gün bütün güclülər dünyasında böyük bir düşmən cəbhəsi ilə qarşı-qarşıya dayanmışıq. Bu, beynəlxalq güc mərkəzlərində, maliyyə və iqtisadi mərkəzlərdə formalaşmış bir cəbhədir, çoxu da sionistlərin və böyük kapitalistlərin əlindədir. Bu cəbhə İslam quruluşu qarşısında bütün vasitələrdən istifadə edir və daxildə də təəssüf ki, bəzi şəxslər bunlara cavab verirlər; bəzi şəxslər onların etimad göstərdiyi tərəf olurlar, onların sözünü təkrarlayırlar, İslam Respublikası quruluşuna zərbə vura bilmək üçün onlara xidmət göstərirlər. Təəssüf ki, belə bir hal mövcuddur. Lakin onun qarşısında xalqın oyanışı, xalqın agahlığı, xalqın marağı, xalqın fəallığı, xalqın dindarlığı, xalqın quruluşun əsaslarına və təməllərinə sadiqliyi var. Bunlar İslam Respublikasında mövcud olan həqiqətlərdir və biz inkişaf etmişik. Biz bu uzun illər boyunca, Allaha şükür edirik ki, inkişaf etmişik.

## *Ərəb ölkələrinin sükutuna və sazişinə görə sionistlər tərəfindən "Böyük İsrail" məqsədinin elan olunması*

Çoxlu ərəb ölkələrinin xəyanətkar sükutu və sazişi, hətta onların bəzisinin Fələstinin taleyinə qarşı laqeydlik bildirməsi və həssaslıq göstərməməsi vəziyyəti elə həddə çatdırıb ki, işğalçı sionist dövləti uzun il gizlətdikdən və hətta inkar etdikdən sonra indi yenidən Böyük İsrail iddiasını açıq şəkildə söyləyir, utanmadan və həyasızcasına İslam vətəninin yeni torpaqlarına qarşı mənfur işğal niyyətini təkrarlayır.

Bəzi ərəb padşahları və başçıları tanrıları olan Amerikanın diqqətini cəlb etməkdən ötrü hətta daim dəm vurduqları ərəb və milli irq maraqlarını da İsrailin qarşısında unudurlar və onun yerinə Amerikadan yardım almaqda İsraillə yarış meydanını daha da qızışdırırlar. Bu rüsvayçı damğanı ərəb xalqının alnından kim siləcək? Ərəb ölkələrində ayıq müsəlman gənclər satqınların bu xəyanətini bağışlayacaqlarmı?

Bu xəyanətkar rəhbərlərə görə, ərəb milliyyəti və birliyi yalnız Amerikanın İslam İranı və əsl Məhəmməd (s) İslamı qarşısında bəhrələnməsi üçün istifadə olunmalıdır. Hər şeyi əldən vermək hesabına - həm Allahın verdiyi təbii sərvlətləri, həm insan ucalığını, həm İslam inancını, həm öz millətinin hörmətini, dəyərini və şəxsiyyətini əldən vermək hesabına Amerikanın lütf və mərhəmətini istəyən yatmış vicdanlara və murdar ürəklərə ar olsun! Onlar Allahın nemətlərinə küfr etməklə, özlərini və xalqlarını süqut enişinə və ilahi əzaba düçar etmişlər: “(Ey Rəsulum!) Məgər Allahın nemətini küfrə dəyişənləri və ümmətini ölüm yurduna sövq edənləri görmürsənmi? Onlar cəhənnəmə daxil olacaqlar. Ora necə də pis sığınacaqdır!“

İşğalçı İsrail qarşısında göstərilən o şücaət və həyəcan necə oldu? Ərəb hökumət başçılarının öz xalqları ilə İsraillə mübarizəyə dair bağladıqları öhdəlik necə oldu? İsraillə ilk barışıq müqaviləsini imzalayan, özünün qara dünya həyatını və axirət taleyini fironla yanaşı edən ələ Allahın və onun saleh bəndələrinin lənəti olsun! Və həmin yolu davam etdirənlərə və etdirməkdə olanlara, xüsusən də məzlum Fələstin xalqına yalançı ümid verib onların bədbəxtliyi hesabına özləri üçün davamsız eyş-işrət quranlara saleh bəndələrin, mələklərin, peyğəmbərlərin və övliyaların nifrini olsun!

## *İsrailin mahiyyəti*

İndi İslam dünyasının pərişan vəziyyəti və region ölkələrinin Amerikanın cilovsuz qüdrətindən günbəgün artan asılılığı işğalçı dövlətin ədavətli hücumu üçün münasib şərait yaratmışdır. O, İslam və müsəlmanların doğrudan da ən təhlükəli düşməni olan böyük şeytanın himayəsinə arxalanaraq gizlətməsinə heç zaman çox səy göstərmədiyi məqsədlərini aşkar şəkildə izləyir: sovet yəhudilərinin köçürülüməsi (bu, Qərbin keçmiş böyük gücə yardımlarının qiymətinin bir hissəsidir); Fələstini işğal edən amerikalı və avropalı sionistlərə xidmət göstərmək məqsədi ilə Efiopiya və son zamanlar Hindistan yəhudilərini köçürmək; Fələstinin sonuncu dəfə işğal olunmuş hissələrində və hətta güman ki, Livanın işğal olunmuş hissələrində qəsəbələr salmaq; hərbi imkanları və kütləvi qırğın silahlarını artırmaq (halbuki Amerika belə silahların Orta Şərqə ixracına dair embarqo ajiotajı yaratmışdır); Livanın cənubuna gündəlik və ardıcıl hava hücumları, Fələstin və Livanın dinc sakinlərinin bombalanması; Fələstinin ərəb əhalisinə - yəni o torpaqların sahiblərinə qarşı güclü təzyiqlər, xalqa qarşı ən cinayətkar və ən vəhşi polis rəftarları, eyni zamanda siyasi səhnədə ərəb dövlətlərinin günbəgün geri çəkilməsi, bəzi ərəb siyasətçilərinin rəzilliklə zəiflik göstərmələri qarşısında hücumçu siması göstərmək və hətta hər birinin beynəlxalq, yaxud regional konfrans fikrini bir növ rədd etmək və nəhayət Fələstin torpaqlarının bir küncündə Fələstin dövləti qurmağa dair fələstinli tərəflərin geri çəkilməsinin və xarlığı qəbul etməsinin məhsulu olan təklifini açıq şəkildə və qətiyyətlə rədd etmək. Bunlar sionistlərin antiinsan siyasətlərinin və aşkar əməllərinin məcmusudur. Və şübhəsiz, bunların kənarında təxribat, terror, insan oğurlamaq, psixoloji müharibə, zəhərli təbliğat, eləcə də yalnız sionistlərin və onların həmkarlarının əlindən gələn və onlardan gözlənilən tanınan və tanınmaz cinayətlər baş verir.

## *İşğalçı sionizm rejimi - terrorçu dövlətin ən aydın nümunəsi*

İşi "dövlət terrorizmi" adlandırılan terrorçu dövlət də vardır. Bu gün terrorçu dövlətin ən aydın nümunəsi işğalçı sionizm rejimidir. Əslində İngiltərənin mənfur əlinin antiislam, antixalq və antişərq

siyasətinin müsəlman Fələstin ölkəsində sionistlərə hakimiyyət verdiyi gündən - yəni miladi tarixi ilə 1948-dən və ondan öncədən dövlət terrorizmi də formalaşdı və terrora başladı. Sionistlər işlərini terrorla inkişaf etdirdilər və etdirirlər. Misal üçün, Deyr-Yasindəki qətliam terrorizmin nümunələrindəndir.

Bir kəndə hücum edib kişiləri, qadınları və uşaqları atəşə tutanda, yaxud kişiləri öldürüb, yalqız və köməksiz qadınları çöllərdə buraxıb “hara istəyirsiniz gedin” deyəndə və sonra bütün evləri odlayanda terrorizmin ən aşkar nümunələrindən biri baş verir.

İşğalçı İsrail dövləti yarandığı zamandan bu günə qədər, başqa sözlə desək, bu xərçəng vəzisinin İslamın bədənində peyda olduğu təxminən bütün yarım əsr boyunca həmişə işini terrorla görmüş və dövlət terrorizminin kamil nümunəsi olmuşdur. Yəqin eşitmisiniz ki, bu yaxınlarda bu işğalçı dövlət gecə hücumu təşkil edib komandos və silahla birgə Livana bir neçə helikopter və təyyarə göndərdi ki, bir kəndi mühasirəyə alıb bir kişini evindən oğurlasınlar və türməyə aparsınlar. Bundan aşkar dövlət terrorizmi varmı?!

Maraqlı burasıdır ki, bir müddət öncə dünyanın yeddi sənaye ölkəsinin başçıları oturub saqqallarını yellətdilər və terrorizmə dair danışdılar. Siz bilmirsiniz bu gün terrorizmin nümayəndəsi kimdir?! Sizin insafınız yoxdurmu? Siz dünyanın ümumi rəyini bir az da nəzərə alırsınızmı?! Siz insan hüquqlarına bu qədər iddialısınızsa, insanları ağıllı və düşüncəli bilirsinizmi?! Bu gün dövlət terrorizminin və terrorçu dövlətin dünyada nümunəsi kimdir? Hər gün Livana hücum edib qətllər törədən və insanlar oğurlayan dövlət kimdir? Əvvəldən dövləti terror əsasında, qorxu yaratmaq, öldürmək və qətliam əsasında vücuda gələn kimdir? İsrail dövlətindən başqa bu xüsusiyyətlərə malik olan başqa bir dövlət varmı? Dövlət terrorizmi axtarırsınız? Buyurun, İsrail! Nə üçün bu dövlətin terrorist hərəkətləri qarşısında sakit qalır və hətta onu müdafiə edirsiniz? Nə üçün yalan danışırsınız? İşğalçı İsrail dövləti qlobal bir bəladır.

## *Dünya miqyasında iki bəla: terrorizm bəlası və insanlara başçılıq edən iddiaçıların haqsızlıq bəlası*

Baxın, bu gün dünya miqyasında iki bəla mövcuddur: Biri terrorizm bəlasıdır. Dövlət baxımından bunun birinci nümunəsi işğalçı sionistlərin hökumətidir, partiya baxımından münafiqlər və

onlar kimilərdir. Onlar zibillikdə inkişaf edib çoxalan bir mikrob kimi böyük dövlətlərin qanadı altında inkişaf etdilər. İkinci bəla bəlkə də birinci bəladan da böyükdür. Bu, insanlara başçılıq edən iddiaçıların haqsızlığıdır. Bunlar terroru görürlər, terrorçunu tanıyırlar, dövlət terrorizmini də ayırd edirlər, amma haqqı gizlədir və inkar edirlər. Bunların işi həqiqətən bəşəriyyət üçün böyük bəladır.

## *İsrailin hiyləgərliyi: ərəblərin vasitəsi ilə rəsmi tanınmağa çalışmaq*

Bu gün onların hiyləgərliyi Fələstin konfransını - yəni İsrailin tanınması üçün konfrans təşkil etməkdir. Bu Cenevrə konfransı və Amerikanın rejissorluq etdiyi digər beynəlxalq toplantılar bunların hiyləsidir. Ərəblər bunları rəsmən tanıyan kimi və bu mühüm maneə sionistlərin qarşısından götürülən kimi yenə növbə onların zorakılığına, qəddarlığına və xəbisliyinə çatacaq. İndinin özündə də Livanda xəbisliklə və qəddarlıqla məşğul olurlar.

Bu gün növbəti taleyüklü anlardan və ümumi imtahanlardan biri qarşıdadır. Məsələ bundan ibarətdir ki, Amerika soyuq müharibənin bitməsindən sonrakı qələbələrin qızğın çağında, bu regionun bəzi ölkələrinə hakim olan qorxunc sükutun sayəsində və Fars körfəzində işğalçı hərbi müdaxiləsinə arxalanaraq özünün və işğalçı sionistlərin problemini həll etmək fikrindədir; İsrail ərəblər tərəfindən rəsmən tanınsın və Fələstin iddiası birdəfəlik bitsin.

## *İsrailə güzəştə getməklə onun qəddarlığının daha artması*

İran xalqı bu məsələdən agahdır, digər xalqlar da başa düşməlidirlər. Allaha həmd olsun ki, bir çox müsəlman xalqlar və dünyanın azad xaqları bu məsələlərdən az-çox xəbərdardırlar. Bizim nəticə almaq istədiyimiz budur ki, Fələstin torpağının işğalından 45 il ötür. Ərəb ölkələri və Fələstin təşkilatları nə qədər güzəştə getdilərsə, düşmən daha həyasızlaşdı və onun qəddarlığı daha da artdı. Nəticə budur ki, Fələstin xalqının öz qurtuluşu üçün yalnız bir yolu var: o da işğal olunmuş torpaqların daxilində və xaricində aparılmalı olan sərt və fədakar mübarizədir. Bu İslam mübarizəsinə kömək etmək də bütün müsəlmanların vəzifəsidir.

## *İmperialist qüvvənin xüsusiyyəti - digərlərinin hüququna diqqətsizlik*

İmperialist qüvvənin xüsusiyyəti budur ki, bütün dünyaya özünə aid, yaxud istifadə etməyə haqqı çatan bölgə kimi baxır. Əgər bir nöqtəni gücləndirmək lazımdırsa, onun xeyrinə olduğundan heç nəyi nəzərə almadan gücləndirir. Siz görün bu gün İsrail Amerika tərəfindən nə qədər müdafiə olunur! O İsrail ki, Fələstin xalqının hüquqlarını tapdamaqdan əlavə, öz qonşu xalqları üçün də heç bir haqq tanımır; nə vaxt imkan tapsa, təcavüz edir. Bu gün bacardığından Livana təcavüz edir. Nə zamansa lazım bilsə, İordaniyaya, yaxud Suriyaya da hücum edəcək. Ona nə mane olacaq?

İsrail elə bir rejimdir ki, işğal olunmuş Fələstin torpaqları daxilində bu torpaqların əhalisi üçün ən az həyat haqqı və yaşayış heysiyyəti tanımır. Onlara öz evlərində yaşamaq icazəsi də vermir. Sionist qüvvələrin təzyiqi qarşısında fəryad ucaldan şəxsləri elə qəddarlıqla yatırdır, beynəlxalq dövlətlərdə qəbul olunmuş beynəlxalq müqavilərlərin heç birinə, əgər istəməsə, əməl etmir. Onun üçün azacıq problem yaradan hər hansı bir müqaviləni asanlıqla kənara qoyur. Amerika belə bir vəhşi, həyasız, insani qanunlara və beynəlxalq qərarlara etinasız rejimi müdafiə edir.

Bu gün İsrailin gördüyü bu işlərin azını Amerika maraqlarının xidmətində durmayan bir dövlət görsəydi, bilirsiniz o dövlətə qarşı Amerika təbliğatı nə edərdi?! Livan Hizbullahının baş katibi Seyid Abbas Musəvinin - bu şəhid və ixlaslı mücahidin şəhadət hadisəsində sionist helikopterləri başqa bir ölkənin havasına daxil olurlar, azad şəkildə orada get-gəl edirlər, bir nöqtəni seçib mülki avtomobil karvanını raketlə vururlar; kişini öldürürlər, qadını öldürürlər, azyaşlı övladı öldürürlər. Amma siz görün bu aşkar cinayətin - heç kəs bu rəftarın cinayət olmasına ən az şübhə belə edə bilməz - qarşısında imperializm dünyası hansı mövqeni seçir! Məgər terrorizmin mənası nədir?! Məgər terrorizm bundan başqa bir şeydir?! Silahsıza hücum edir, xalqın arvadına-uşağına hücum edir, xalqın evinə hücum edir, evin daxilindən ev sahibini oğurlayır, işgəncə verir və öldürür. Məgər terrorizm nədir?! Amerika Birləşmiş Ştatları, insan hüquqlarının müdafiəçisi və terrorizmlə düşmən olmaqdan dəm vuran təşkilatlar terrorizmin bundan ibarət olduğunu

anlamırlar?! Bilmirlər ki, dövlət terrorizmi 40 ildən artıqdır işğalçı sionizm rejiminin gördüyü işdir?! Yoxsa anlayırlar, amma üz vurmurlar?! Bir xalq bu sözlərin Amerika hegemonluğunun sözlüyündə səhv və yanlış işləndiyini gördükdə Amerikanın ona terrorçu deməsini inkar etməsinə lüzum varmı?! Amerikalılar bir qrupu terrorçu siyahısına salmışlar; qələt eləmişlər! Əgər kimlərsə terroristlər siyahısında olmalıdırsa, digərlərindən daha terrorçu olan və dünyanın ən xəbis rejimini, yəni sionizm rejimini himayə edən Amerikanın özü birinci olmalıdır.

## *Ərəb ölkələri tərəfindən rəsmən tanınmaqda İsrailin məqsədləri*

İsrailin ərəb ölkələrinin müxalifətinə dair nigaranlığından xilas olması Amerikanın təlimatlandırdığı o rejimi əvvəla özünün əsas vəzifəsi - yəni bu regionda Amerika üçün ən böyük ciddi təhlükə olan İslam hərəkətləri ilə mübarizəyə hazırlayır. İkincisi, Amerikanın bu həyati bölgənin ölkələrinə nüfuzunu qətiləşdirib məntəqəni amerikalıların təhlükəsiz evi formasına salır və böyük şeytan Orta Şərqin başağrısız ixtiyar sahibi olur. Üçüncüsü isə İsrail işğal olunmuş torpaqları artırmaq və "Nildən Fərata" arzusunu həyata keçirmək yolunda başqa bir mühüm səngəri fəth edir.

## *İsrailin qüdrətlənməsinin səbəbi: İslam hökumətlərinin xalqlarından ayrı olması*

Nə üçün bu gün işğalçı sionizm rejimi Amerikanın və dünya sionistlərinin pul dəstəyi ilə ərəb xalqlarına belə aşkar şəkildə zorakılıq edə bilir? Nə üçün müsəlmanların və ərəblərin regionda qondarma, köksüz və məcburi işğalçı rejim olan İsraillə müzakirəni boykot etməsindən və onu pis saymasından on illər ötdükdən sonra bu gün təəssüf ki, müzakirə fikri ərəblərin siyasi ünsürləri və bir çox dövlətlər arasında qəbul olunmuş sayılır? Çünki xalq iştirak etmir. Çünki xalqın əli o ölkələrin fəal əlləri ilə birgə deyil. Çünki rejimlər bir yolla gedirlər, xalqlar başqa yolla. Nəticə isə zəiflikdir. Əgər bu gün İsraillə müzakirəni qəbul edən ərəb rejimləri öz xalqlarına arxalansaydılar, nə üçün ev düşməni və öz torpaqlarının işğalçıları ilə oturub işğal olunmuş torpaqlar barəsində danışmağa məcbur olduqlarını hiss etməli idilər?! Əgər xalqları səhnəyə buraxsaydılar,

əgər xalqların hisslərinə, fikirlərinə, iradələrinə və qüvvələrinə hörmətlə yanaşsaydılar, xalqlar ərəb ölkələrini və rejimlərini bu şəkildə zəifləməyə qoymazdılar.

## *Düşmənin müsəlmanların qafiliyyindən sui-istifadə etməsi*

İslam xalqı oyanmalı və bu vəzifəni unutmamalıdır. Allahın düşməni müsəlmanların qafilliyinədn sui-istifadə etdi. İşin əvvəlində bir neçə yüz min sionistin, sonra da bu günədək dünyanın müxtəlif yerlərindən təmin etdikləri ilə birgə bir-iki milyonun məgər nə qədər gücü var?! Əgər İslam ölkələrinin başçıları ayıq olsaydılar, əgər İslam xalqları ayıq olsaydılar, məgər Amerikanın köməkləri İsraili xilas edə bilərdi?! Əsla. Müsəlmanlar qəflət içində qalırlar və düşmən varlığını aşkara çıxara bilir. Düşmən çox da güclü deyil, biz öz gücümüzdən xəbərsizik.

## *İslam dövlətlərinin geri çəkilməsi - hegemonluğun cəsarətlənməsinin səbəbi*

İslam dövlətlərinin Fələstin məsələsində hegemonluğun qarşısından geri çəkilməsinin onları qane edəcəyini düşünmək böyük səhvdir. Görürsünüz ki, bu güzəştə getmələr və geri çəkilmələr Amerika Birləşmiş Ştatlarının imperialist hökuməti üçün Orta Şərq məsələsini xam bir arzu formasına salmışdır. Onlar elə Orta Şərq istəyirlər ki, bütövlüklə və tam şəkildə onların əlində olsun. Bu gün belə bir şey yoxdur. İslam dövlətlərinin süqutu və onların siyasi və beynəlxalq sahədə geri çəkilməsi düşməni günbəgün cürətləndirir.

İslam ümməti bu gün dünyada inkarolunmaz bir həqiqətdir. Müsəlman xalqların ürəyi hegemonçu və işğalçı beynəlxalq qüvvələrə qarşı nifrətlə doludur. Bu xalqların hamısı imkan tapan kimi Fələstin xalqının arxasında dayanacaqlar.

Bunu da hamımız bilməli və anlamalıyıq ki, imperialist qüvvələrin qarşısında geri çəkilmək onları daha da cürətləndirir, müqavimət isə onların uğursuzluğu ilə nəticələnir. Dünyanın böyük güclərinin qüdrəti sarsılmaz və tükənməz qüdrət deyil.

## *Düşmənin zəif nöqtəsi: onun şiddət göstərdiyi nötqə*

Bunu da deyim: düşmənin şiddət göstərdiyini duyduğunuz yer onun zərər gördüyü yerdir. Bu günlər sionistlər tərəfindən məzlum Fələstin müsəlmanlarına göstərilən təzyiqin mənası odur ki, hegemonluq işğal olunmuş müqəddəs Fələstin torpaqlarında ciddi şəkildə təhdid olunur. Əgər təhdid ciddi olmasaydı, təzyiq bu qədər çox olmazdı. Bu günlər işğalçı sionizm dövləti gündəlik olaraq işğal olunmuş torpaqlarda xalqa hücum edir. Hətta eşitmişəm ki, qadınlara hücum edib onların bəzilərini vurmuş, yaralamış, camaatın böyük bir hissəsini özünün hərbçi və polis muzdurları vasitəsi ilə yaralamışdır. Nə qədər insanları tutub öz həbsxanalarında saxlayır, işgəncə verir və son dərəcə təzyiq altında saxlayırlar. Amma müqəddəs şölə işğal olunmuş torpaqlarda günbəgün daha da artır.

## *Düşmənin fəndi: zehinləri Fələstindən ayırıb ikinci dərəcəli və yalançı məsələlərə yönəltmək*

İslam dünyası, xüsusən də ərəb dünyası bu günün özündə diqqət yetirməlidir ki, düşmənin fəndi bu gün onları İslam, xüsusən də ərəb dünyasının əsas problemi olan bu mühüm məsələdən daşındırmaq, zehinləri ikinci dərəcəli və yalançı məsələlərə yönəltməkdir. Onlar bununla öz işlərini görməyə çalışırlar və sözsüz ki, bunu bacarmayacaqlar. Bunlar da əgər göz yumsalar, özləri üçün ziyandan başqa bir şey hasil olmayacaq. Göz yumanlar rüsvay olacaqlar, məsələ isə öz möhkəmliyində qalacaq. Şübhəsiz, bir gün Fələstin xalqı Fələstin torpaqlarını öz haqq hakimiyyətləri altına salacaqlar. Bunda heç bir şübhə yoxdur.

Tarixin ehtiyatlarına və həyatın sərgüzəştinə - tarix hadisələr məcmusundan ibarətdir - diqqət yetirməmək bu nəticələrə gətirib çıxarır. Tarixə və keşmiş hadisələrə, xüsusən də bizə yaxın hadisələrə həmişə diqqət yetirmək lazımdır.

## *Dəlilsizliklə və terror törətməklə qüdrətin tənəzzülü*

Bir quruluş və bir siyasi rejim üçün həqiqi zəiflik və qüdrətin tənəzzülü o zaman başlayır ki, bu rejim və bu quruluş öz işləri üçün özünün siyasi və qaneedici dəlilini əldən verir. Bir rejim özünün siyasi haqlılığını əldən verdikdə, öz varlığı və işləri üçün əsaslandırması əlindən xaric olduqda, o zaman öz mənəvi gücünü

əldən vermiş və onun süqutu başlanmışdır; zahirdə bir şey anlamasa və onun özü başa düşməsə də. Bunlar qüdrət və ehtirasa o qədər məst olublar ki, dünyada siyasi haqlılıqlarını itirmələrini və dəlillərinin zəfiliyinin onlara nə etdiyini anlamırlar.

Sionist cinayətkarı - yəni Şaronu təbrik edirlər ki, sən Əhməd Yasini oldürdün, yaxud Şəhid Rantisiyə terror etdin. Bu iş üçün dəlilin nədir? Budur ki, İsrail dövləti özünü müdafiə edir. Maraqlıdır! Məgər dünya diktatorlarının öz xalqlarını və müxaliflərini yatırtmaqda, tar-mar etməkdə və işgəncə verməkdə məntiqləri başqa bir şeydir?! Dünyanın diktatorluqla məşhur olan mənfur və xəbis siyasi simalarının hamıs öz müxaliflərini həmin məntiqlə tar-mar etmişlər; deyirlər ki, biz öz varlığımızı müdafiə edirik. O deyir ki, İsrail öz varlığını müdaifə edir. Şeyx Əhməd Yasin - əlil arabasında oturmuş iflic qoca kişi məgər danışmaqdan və düşünməqdən başqa bir iş görə bilirdi?! Siz axı deyirsiniz biz söz və fikir azadlığı ilə müvafiqik! Onu vurub şəhid edirlər və o təbrik edir. Görün rüsvayçılıq hansı həddədir! Dünya bunu qəbul etdimi? Əsla. Qərblilərin özləri və ictimai rəy də bunu qəbul etmədi. Bu, siyasi haqlılığın əldən çıxması deməkdir. Yəni bunların daha məntiqi yoxdur və dedikləri dünyanın insaflı düşüncələri tərəfindən qəbul olunmur.

## *Sionistlərin riyakar sülh çağırışları*

25 ildir İran xalqı İsrail əleyhinə şüar verir. İran xalqı dəfələrlə öz şüarında deyib ki, sionistlərin riyakar sülh çağırışlarına güvənməyin. Bu gün bütün ərəb və İslam dünyası öz qarşılarında Fələstinin faciəli səhnəsini görürlər. Bu gün işğalçı sionist dövlətinin başçıları ərəb ölkələri və Fələstin tərəfləri ilə razılaşdıqları bütün qərar və müqavilələri ayaq altında tapdamışlar. Onlar heç kimə, heç bir beynəlxalq öhdəliyə etina etmirlər. Digər xalqlar İran xalqının sözünün doğruluğunu anlayırlar.

## *Sülh istəməkdə İsrailin yalançılığı*

Fələstinlilərdən kim ayağını müqavimət yolundan kənara qoydusa, zərər gördü. İsrail sülh istəməkdə səmimi deyil. Əgər səmimi olsaydı da, qələt edərdi və onun buna haqqı çatmazdı. Amma səmimi də deyil. Müzakirəyə qoşulan şəxslər düşmənin zorla

yeritdiklərini qəbul etməyə məcbur oldular. Əgər ayaqlarını düşmənin dediyi yoldan bir an kənara qoydularsa, ya sıradan çıxdılar, ya təhqir olundular. Siz hər ikisinin nümunələrini gördünüz; bəzilərini ixtisara saldılar, bəzilərini də təhqir edib azdırdılar. Qüdsün yolu, Fələstinin yolu, Fələstin məsələsinin qurtuluşu və Fələstin məsələsinin həlli yolu yalnız mübarizə yoludur. Cənablar bunu dedilər. Mən sevinirəm ki, sizin bu məsələdə yekdil olduğunuzu və hamının bunu qəbul etdiyini görürəm. Bu yolu qəbul etməyən bilərəkdən, yaxud bilmədən Fələstin məsələsinə zərbə vurur. Əgər bilərəkdən olsa, adı xəyanətdir; əgər bilmədən olsa, adı cəhalət və qəflətdir, amma hər halda, Fələstin məsələsinə zərbədir. Fələstin məsələsinə zərbə vururlar. Fələstinin müqavimətdən başqa heç bir yolu yoxdur. Bunu deməli və istəməlidirlər. İslam dövlətləri də bunu təkrar etməlidirlər.

## *Aldadıcı sülh hiyləsi və İsrailin yalançılığı*

Bu gün sionistlərin və onların hamilərinin - Amerika dövləti onların ən mühüm hamisidir - hiyləsi budur ki, gözəl sülh adından istifadə edirlər: "cənab, sülh edin". Bu sözlər nədir?! Bəli, sülh yaxşı bir şeydir. Amma haranın sülhü və kiminlə olan sülh? Bir nəfər sizin evinizə daxil olub, zorla qapını sındırıb, sizi döyüb, ailənizə və övladlarınıza hörmətsizlik edib, üç otağınızdan ikisinin hamısını, birinin də yarısını tutub oturub, sonra deyir ki, siz nə üçün əbəs yerə ona-buna şikayət edirsiniz, daim dava və dartışma yaradırsınız, gəlin sülh edək. Bu sülhdür? Sülh budur ki, siz evdən çıxın, əgər bundan sonra aramızda müharibə olsa, o zaman gəlib sülh bağlasınlar. Siz bizim evimizdə oturmusunuz. Siz burada bu qədər cinayət törətmisiniz. İndinin özündə də imkanınız olsa, yenə törədərsiniz. İndinin özündə sionizm rejimi təxminən hər gün Livanın cənubuna hücum edir; Livanın mübarizlərinə yox, Livanın cənubundakı kəndlərə, Livanın cənubundakı məktəblərə. Bir neçə gün öncə Livanın cənubunda bir məktəbə hücum edib bir dəstə kiçik uşağı öldürdü. Bunlar ki təcavüz etməmişdilər? Bunlar ki əllərinə silah götürməmişdirlər? Xislət təcavüzkar xislətidir. Sionistlərin Livana daxil olduqları, Deyr-Yasində və digər yerlərdə bəlli qətliamları törətdikləri gün heç kim onlara bir şey etməmişdi. Ən azı o camaat bir iş görməmişdi. Düzdür, bir dəstə qeyrətli gənc ərəb onlarla

vuruşurdu. Onda da deyirdilər ki, nə üçün bizim evimizə daxil olub bu işləri görürsünüz. Amma zülmə məruz qalan, tarlalarından və kəndlərindən o şəkildə qətliamla ixrac olunan camaat bir iş görməmişdi. Buna əsasən, bu rejimin xisləti təcavüzkardır. Sionizm rejimi ümumiyyətlə hegemonluq, qəddarlıq və daşürəklilik üzərində qurulmuşdur və belə irəliləyir. Bunsuz inkişafı olmazdı və bundan sonra da olmayacaq. Deyirsiniz bu rejimlə sülh edin. Nə sülhü? Əgər onlar öz haqlarına qane olsalar - yəni Fələstin evini ev sahiblərinə tapşırıb öz işlərinin ardınca getsələr, yaxud Fələstin dövlətindən icazə alıb desələr ki, icazə verin bizim bir qədərimiz, yaxud hamımız bu ölkədə qalaq, heç kim onlarla müharibə etməz. Müharibə budur ki, onlar işğalla və zorakılıqla digərlərinin evinə daxil olmuşlar, onları evdən qovmuşlar, indi də onlara zülm edirlər. İndi də regionun bütün ölkələrinə zülm edirlər və hamı üçün təhlükədirlər. Odur ki, bunlar sülhü də sonrakı təcavüzə hazırlıq məqsədi ilə istəyirlər. Əgər sülh bərqərar olunsa, sonra başqa şəkildə təcavüz etmələri üçün bir hazırlıq olacaq.

## *İmperializmin üsyankar ruhunu cilovlamaq amili - yalnız xalqların oyanışı və iradəsi*

Bu gün hegemonluğun malik olduğu üsyankar və azğın ruhunun qarşısında onu cilovlaya biləcək, bu azğınlığın qarşısını ala biləcək yeganə amil mövcuddur və bu, xalqların oyanışı və iradəsidir. Xalq ayıq olduqda öz hüququnu tanıyır, düşməni tanıyır, onun məqsədini bilir və qarşısında dayanmağa qərar verir. Bu zaman imperializmin və Amerikanın atları və bütün hərbi texnikalar axsayır. Burada daha bir iş görə bilmir. Bu, İslam inqilabının əvvəldən üzərində təkid göstərdiyi və İslam quruluşunun bu möhkəm təməl əsasında özünü ucaltdığı əsaslı məqamdır. Bunun üçün siz gənclər öz qədrinizi bilməlisiniz. Ölkə məmurları bu aktiv, mömin və iradəli gənclərin qədrini bilməlidirlər. Təlim və tərbiyə məmurları, ali təhsil işinin və universitetlərin məsul şəxsləri bu mömin, əzmkar və iradəli gənclərə dəyər verməlidirlər. Milli şərəfə, istiqlaliyyətə və özünün uca dini dəyərlərinə önəm verən şəxslər düşmənin varlığını və hücumunu bəyənmir, onun müdaxiləsini rədd edirlər. Bunlar bir xalq üçün dəyərlidirlər.

### *Sionizmin öz məqsədində uğursuzluğu*

Fələstin xalqı öz vəzifəsini bir şücaətli və qeyrətli xalqın haqlı olduğu kimi və layiqli şəkildə yerinə yetirmiş və dayanmışdır. Hamımız bilməliyik ki, indiki bu işğalçı və zalım sionizm dövləti bu ana qədər öz əməliyyatlarında məğlubiyyətə uğramış, heç bir müvəffəqiyyət əldə etməmiş və fələstinlilərin iradəsinə məğlub olmuşdur. Bu əməliyyatda məqsəd Beytülmüqəddəs intifazəsini yatırtmaq olmuşdur; yəni fələstinlilər əllərini təslim məqsədi ilə qaldırsınlar, Fələstin xalqının azadlıq və qeyrət duyğularını sındırsınlar. Lakin nəticə bunun tam əksidir. Bu gün Fələstin xalqının əzmkarlığı, qərarı və Fələstin məsləsi barədə dərki intifazənin başlanmadığı zamandan artıqdır. Bu gün bu işğalçı rejimin və onun şəriki olan Amerikanın Fələstin xalqına qarşı düşmənliyinin, xəbisliyinin və vəhşiliyinin dərinliyi Fələstin xalqına aydınlaşmışdır.

Bir xalq igidliklə ölməkdən başqa çıxış yolu olmadığını görmək həddinə çatdıqda onun qarşısında daha heç bir şey tab gətirə bilməz; nə sionistlərin gücü - tank, top və digər texnikalar, nə də onların himayədarı olan Amerikanın siyasi və maliyyə gücü təsir göstərə bilər. Onların Fələstin xalqını müzakirə stolu arxasında oturmağa və dırnaqarası imtiyaz almağa həvəsləndirdiyi gün daha bitdi. Bəlli oldu ki, müzakirə stolu arxasında oturub düşmənlə söhbət etməyin heç bir faydası yoxdur. Bu gün Fələstin xalqı dərk etmişdir və öz işini görür. Fələstinli analar, fələstinli gənclər, fələstinli qadın və kişilər və fələstinli yeniyetmələr səhnədədirlər.

Mühüm olan budur ki, İslam dünyası öz vəzifəsinə əməl etsin. İslam dünyası xalqlar və hökumətlərdir. Hökumətlərin özləri üçün bəzi problemlər fərz etmələri mümkündür. Lakin xalqların bu problemləri yoxdur. Alimlərin, ziyalıların, siyasətçilərin və xalqın rəyində təsirli olanların bu problemləri yoxdur. Onlar hərəkət etməlidirlər. Bu hərəkət onların hökumətlərinə də kömək edəcək. Əgər bu gün müsəlman xalqlar, xüsusən də ərəb xalqlar ölkələri daxilində Fələstin xalqını müdafiə etməyə dair öz əzmkarlıqlarını və iradələrini aşkar və davamlı şəkildə göstərsələr, hökumətləri üçün də yaxşıdır. Çünki hökumətlər diplomatik səhnədə düşmənə təzyiq göstərmək üçün bu vasitədən istifadə edə bilərlər.

## *Sionistlərin əvvəldən təbliğat üsulu: özünü məzlum göstərmək*

Sionistlər işlərinin əvvəlindən informasiya və təbliğat vasitələrinə sarı getdilər. Onların siyasətlərindən biri dünyanın təbliğat vasitələrini ələ keçirmək idi. Bu gün belədir. Onlar əvvəldən bir təbliğat fəndi seçdilər. Bu çox əhəmiyyətli və təyinedici idi; bu günə qədər də təsirli olmuşdur. Bu təbliğat fəndi özlərini məzlum göstərməkdən ibarətdir. Özlərini məzlum göstərmək üçün çoxlu dastanlar və əfsanələr quraşdırıldı, xəbərlər düzəldildi, dayanmadan səylər göstərildi. Bu gün qəddarlığın zirvəsində ola-ola həmin təbliğat yenə də davam edir. Yəni yenə də təbliğat dünyasında sionistlərin ən mühüm işi özlərini məzlum göstərməkdir. Bunlar yəhudilərin psixoloji nigaranlıq məsələsini ortaya atıb dedilər ki, yəhudilər uzun əsrlər boyunca təzyiq altında olublar, psixoloji cəhətdən nigaranlığa düçar olublar və psixoloji sabitliyə ehtiyacları var. Sionistlər Qərb ölkələrinin başçıları ilə və sonralar İslam və ərəb ölkələri ilə müzakirələrində psixoloji sabitlik məsələsini irəli sürüb dedilər ki, bizim psixoloji sabitliyə ehtiyacımız var və bu təmin olunmalıdır. Bu psoxoloji sabitlik nə deməkdir? Onun heç bir müəyyən mənası və heç bir sonu yoxdur. Hər hansı bir addım atılmaq istədikdə əgər onların xeyrinə olmasa, psixoloji sabitlik bəhanəsi ilə onu zərərsizləşdirə bilirlər. Dünyada bir çoxlarını qane etdilər ki, psixoloji sabitliyə ehtiyacları var və onların bu sabitliyi təmin olunmalıdır.

İsrailin psixoloji sabitlik ehtiyacını təmin etmək torpaqlara göz yummaqdan daha çətindir. Siz torpağı əldən verdikdə nəyi əldən verdiyinizi bilirsiniz. Lakin İsrailin psixoloji sabitliyə dair ehtiyacını təmin etmək istəsəniz, haraya qədər təslim olmalı və nə qədər güzəştə getməli olduğunuzu bilmirsiniz. Bu güzəştə getmənin sonu yoxdur, ardıcıl olaraq imtiyaz vermək lazımdır. Bu sahədə Avropanın təcrübəsi ibrətamizdir. Almaniya yəhudilərə 150 milyard mark kompensasiya ödədi, amma onların Almaniyadan təzminat istəmələri hələ bitməmişdir. Yenə də təzminat tələb edirlər və onlara verilməlidir. Yəhudilərin Almaniyaya qarşı gördükləri iş az-çox digər Avropa ölkələrinə – misal üçün, Avstriya, İsveçrə, Fransa, hətta bir neçə il öncəyə qədər Vatikana qarşı da edildi. Hamı təzminat verməlidir. Bu təzminat bitəsi deyil.

Psixoloji cəhətdən israillilərin çox əhəmiyyətli fəaliyyətləri vardır. Qərbin bütün siyasətçiləri, jurnalistləri, ziyalıları, məmurları və görkəmli şəxsləri insan yandıran sobanın xatirə binası önündə təzim göstərməlidirlər. Yəni hamı doğruluğu bəlli olmayan əhvalat üzərində təkid göstərməli, özünü o hadisəyə borclu bilməlidir. Bunlar təbliğatda işlətdikləri üsullardır və hamısı özlərini məzlum göstərməyə yönəlmişdir.

Əlbəttə, dünyanın digər bir hissəsində Tövratda qeyd olunmuş dastanlara arxalanaraq - yəni bura İsrail övladlarına bağışlanmış torpaqlardır - bir çox məsihiləri də özləri ilə həmfikir və həmrəy etmişlər. Mən bir statistikada gördüm ki, bunlar bəzi ölkələrdə, əsasən də Amerikada həmin təbliğatla ictimai rəyin dayağı kimi milyonlarla qeyri-yəhudi sionist yetişdirə bilmişlər. Bunlar illərdir bu təbliğatı aparırlar. Bu gün də həmin təbliğat dünyada bacardıqları qədər güclü şəkildə davam edir. Bu gün dünyada sionist media şəbəkələri İsrailin davamlı və gündəlik təcavüzlərini ötəri şəkildə göstərir. Əgər bunu da göstərməyə bilsəydilər, göstərməzdilər. Onların media maraqları bunu tələb edir; amma çox ötəri, çox səthi, çox yarımçıq və seçilmiş formada. Lakin varlıqlarını, şərəflərini, vətənlərini və torpaqlarını müdafiə edən fələstinlilərin əməliyyatlarını elə əks etdirirlər ki, sanki İsrail məzlumdur. Həqiqi məzlum olan Fələstin xalqını terrorçu və cinayətkar kimi təqdim edirlər, qaniçən və cinayətkar işğalçını isə məzlum göstərirlər. Bu gün dünya mediası bu işi görür. Siyasətçilər də öz sözlərində bunları təkrarlayırlar.

## *İslam dövlətləri ilə münasibətdə sionizmin və Qərbin strategiyası*

Bir tərəfdə Qərbin və sionizmin, digər tərəfdə isə yeni təsis olunmuş ərəb dövlətlərinin durduğu bu uzun qarşıdurmada İslam düşmənləri mübarizə üçün müxtəlif və mürəkkəb vasitələrdən istifadə etdilər. Onlardan biri də təbliğat vasitələri və beynəlxalq təşkilatlar idi. Onlar bir tərəfdən müsəlmanları dözümə, təmkinə, sülh danışıqlarına və barışığa dəvət edir, digər tərəfdən də İsraili silahlandırırdılar. Onların müsəlman ölkələri ilə İsrail arasında qeyri-bərabər və ayrıseçkili münasibətinin strateji məqsədləri bu idi ki, İsrailin müsəlman ölkələrindən hərbi üstünlüyünü daim

qorusunlar, beynəlxalq qurumlarda o rejimi müdafiə etsinlər, öz nüfuzları altında olan media qurumlarını işlətməklə İsrailin cinayətlərini düzgün göstərsinlər və müsəlmanların arasında təbliğat aparsınlar ki, İsrail üzərində qələbə fikri xam xəyaldan başqa bir şey deyil.

## *İsrailin hərbi heybətini qırmaq*

İsrail rejimi rəsmən Birləşmiş Millətlər Təşkilatı tərəfindən təsdiq olunduğu dövrdən - yəni yarım əsrdən artıq öncədən ötən ilə qədər yekəxanalıq edirdi. Heç bir şey və heç kim onun qarşısını ala bilmirdi. Lakin imanla silahlanmış bir neçə min silahlı gəncdən ibarət olan Livan İslam Müqaviməti bu rejimin və onun himayədarlarının yuxusunu pərişan etdi. Bu əziz gənclər İsrailə heç bir imtiyaz vermədən o işğalçı rejimi rəzil halda Livanın cənubundan xaric etdilər. Bu əzizlərin qələbəsi digər müsəlman mübarizlərin yoluna işıq saçdı və bu gün Livan İslam Müqaviməti tipindən olan irimiqyaslı Əqsa məscidi intifazəsinin şahidiyik.

## *İsrailin məqsədi - bütün İslam dünyasına hakim olmaq*

Bu gün artıq tam aydın olmuşdur ki, Fələstin məsələsinin bir dövrə və İslam dünyasının kiçik və məhdud bir hissəsinə aid olduğunu güman edənlər çox səhv etmişlər. Sionizm rejiminin topxanalarında saxlanılan nüvə və kütləvi qırğın silahlarının nəhəng ehtiyatları müdafiəsiz Fələstin xalqı ilə vuruşmaq üçün deyil, İslam dünyasına, xüsusən də Orta Şərq regionuna hökmranlığı bərqərar etmək üçündür. Hizbullahın işğal olunmuş torpaqların azadlığı üçün çalışması və İsrailin əvəz çıxmaq üçün Suriya qüvvələrinə hücum etməsi İsrailin və onun qərbli himayədarlarının belə şeytan niyyətinin bariz əlamətidir.

## *İsrail rejiminin daxildən çürüməsi*

Möhtərəm tədbir iştirakçıları! Əmin olun ki, İsrail rejimi daxildən çürümüşdür və indiki nəsil onu qorumaq üçün fədakarlığa əsla hazır deyil.

Allaha həmd olsun ki, ərəb və müsəlman xalqlar bu gün son 50 ildəki hər bir vaxtdan daha artıq güclənmişlər. Onlar müxtəlif sahələrdə qüdrətli olmuşlar.

Müsəlmanlar daha Fələstin xalqının gündəlik boğulmasının şahidi olub sakit otura bilməzlər. İsrailə başa salmalısınız ki, Fələstin xalqının və fələstinlilər yaşayan bölgələrin əzilməsi bütün ərəblərin və müsəlmanların kəskin, ciddi və əməli reaksiyası ilə qarşılaşacaq.

## *Fələstin məsələsinin İsrail üçün qlobal əhəmiyyəti*

O işğalçı, yalançı və qondarma dövlət üçün Fələstin məsələsi daxili bir məsələ deyil, qlobal və əsaslı bir məsələdir. Əhəmiyyəti olan budur ki, yeni fələstinli nəsil həqiqəti dərk etmişdir. Hansı həqiqəti? Bu həqiqəti ki, əgər onun zorla məruz qaldığı bu zəbunluğa, xarlığa, təhqirə və təzyiqə qalib olmaq istəyirsə, yolu mübarizədir. Bunun yolu müzakirə edənlərin də bir şeyə nail olmadığı müzakirə stolu arxasına keçmək deyil.

## *İsrailin bütün region üçün təhlükəsi*

Təhlükəsizlik baxımından İsrail məsələsi təkcə öz xalqına yox, bütün regiona təhlükədir. Çünki indi bunların atom topxanaları var və yenə də istehsal edirlər. Birləşmiş Millətlər Təşkilatı da bir neçə dəfə xəbərdarlıq edib, lakin etina etməmişlər. Əlbəttə, əsas səbəbi də Amerikanın himayəsinə görədir. Yəni sionistlərin və işğalçı dövlətin işlərinin günahı böyük həddə Amerika rejiminin boynuna düşür.

## *İsrailin bütün region üçün iqtisadi təhlükəsi*

İqtisadi baxımdan da İsrail region üçün təhlükədir. Bir müddətdir Fələstinə hakim olan sionistlər Yeni Orta Şərq nəzəriyyəsi adlı bir şeyi irəli sürüblər. Yeni Orta Şərq nə deməadir? Yən İsrailin mərkəzliyi ilə Orta Şərq formalaşsın, İsrail tədricən ərəb və region ölkələrinə və Fars körfəzindəki neft zonalarına iqtisadi hökmranlıq qazansın. Bu, israillilərin məqsədidir. Bəzi dövlətlər xəbərsizdirlər. Onlara etiraz olunanda deyirlər ki, biz əlaqə qurmamışıq, biz tacirlərinə icazə vermişik ki, gəlsinlər. Təsadüfən onlar da bunu istəyirlər. Onlar istəyirlər ki, İsrail Amerikanın himayəsi və özlərinin təhlükəli topxanalarının dəstəyi ilə bəzi dövlətlərin xəbərsizliyindən və zəifliyindən istifadə edib oraya daxil olsunlar, iqtisadi mərkəzləri və maliyyə mənbələrini ələ keçirsinlər. Bu, region üçün çox böyük təhlükədir. Bütün təhlükələrdən daha böyüyü budur. Allah o günü göstərməsin və göstərməyəcək. Müsəlman xalqlar belə bir işin baş

verməsinə icazə verməyəcəklər. Amma onların planı budur ki, iqtisadiyyata arxalanmaqla bu ölkələrdə bütün güc mərkəzlərini ələ keçirsinlər. Buna əsasən, İslam baxımından, insani baxımdan, iqtisadi baxımdan, təhlükəsizlik baxımından, siyasi baxımdan bu gün İsrailin varlığı region xalqları və ölkələri üçün böyük bir təhlükədir.

## *Düşmənlərin hiyləsi: müsəlmanların birlik amilini ixtilaf amilinə çevirmək*

Bu gün İslam dünyasının ən böyük müsibətlərindən biri budur ki, İslam düşmənləri müsəlmanların birlik amilini - yəni düşmənin varlığını, işğalçı sionistlərin varlığını onların ixtilaf amilinə çevirmişlər. Elə ediblər ki, bəzi müsəlman hökumətlər bunu öz qardaşlarının qarşısında dayanmaq və həqiqətən ixtilafın vücuda gəlməsi üçün vasitə edirlər. Halbuki İslam ölkələrinin ürəyində belə bir düşmənin olması müsəlmanları bir-birinə yaxınlaşdırmalı, vahid cəbhə yaratmalı və vahid əl vücuda gətirməlidir. Bu günah da hegemonluğun müdaxiləsinə və işə qarışmasına qayıdır.

## *Sionistlərlə yəhudilərin fərqi*

Əsil-nəsəbsiz dövlət, qondarma dövlət, yalançı dövlət! Dünyanın hər tərəfindən quldur adamları toplayıb İsrail adlı bir amalqama düzəltmişlər.

Bu xalqdır? Harada quldur və xəbis yəhudilər vardısa, oraya toplaşdılar. Əksər ölkələrdə yəhudilər var və yaşayırlar. Bizim ölkəmizdə də var və həyatlarını sürürlər. Heç kimlə işləri yoxdur, heç kimin də onlarla işi yoxdur; ölkələridir və orada yaşayırlar. İşğal olunmuş torpaqlara gedənlər isə dünyanın hər yerindən toplanmış xəbislər, quldurlar, tamahkarlar, oğrular və qatillər idilər. Bu oldu bir xalq?

Bu şəkildə vücuda gəlmiş və adını İsrail qoymuş bir dövlətin və xalqın terrordan başqa bir yolu yoxdur, məntiqli sözü yoxdur. Bu əskik, alçaq və çirkli varlıqlar İran kimi nurlu, başıuca və əziz xalqı və dövləti dünyanın ümumi rəyi qarşısında ittiham etmək istəyirlər. Onların özü hamıdan daha müttəhim, cinayətkar və təqsirlidirlər.

## *İslam dünyasının indisi və gələcəyi üçün ən böyük təhlükə - işğalçı sionizm dövləti*

Beləliklə bu gün işğalçı sionizm dövləti İslam dünyasının indisi və gələcəyi üçün ən böyük təhlükədir. Müsəlmanlar bu təhlükəyə əlac qılmaq və bu böyük zülmü aradan qaldırmaq üçün çarə düşünməlidirlər.

## *İsrailin dünya hadisələrindən sui-istifadə etməsi*

Siz öz işinizi bir təcavüzlə başladınız, maraqlarınız Amerikanın maraqları ilə toqquşdu və ikiniz bir-birinizin canına düşdünüz. Nəticədə isə İraq xalqı və region əhalisi zərər çəkir. Bu hərəkətdən kim istifadə edir? Xəbis İsrail.

O torpağa bir neçə raket düşdü və onlar raketin ləzzətini bir qədər daddılar, bu məzlum fələstinlilərin necə zülm altında olduğunu anladılar. Bu, İsrailin sui-istifadə etməsinə, özünün ekspansionist məqsədlərini daha artıq izləməsinə və Fars körfəzindəki bu dava və döyüş qalmaqalında işğal olunmuş Fələstin torpaqlarına sarı mühacirət seli yaratmasına bais oldu. İraq rejiminin gördüyü iş şübhəsiz, İslam düşmənlərinin və İsrailin xeyrinə, İraq xalqının və regionun müsəlman xalqlarının zərərinədir. Mənfəət üstündə iki nəfər bir-biri ilə vuruşduqda bir dəstə günahsız adam tapdanacaq, əziləcək; insan necə deyə bilər ki, mən sizi müdafiə bayrağını götürmüşəm. Məgər belə bir şey olar?! Bu söz yalandır.

Siz baxın, bu regionda ictimai rəy üçün bir məşğulluq düzələn kimi, yəni İraq Küveytə hücüm edən, Amerika və digərləri Fars körfəzi regionuna ordu yeridən və buralarda bir qapı taxtaya dəyən kimi o yeddibaşlı və təhlükəli ilan və çirkli xərçəng tez öz pəncələrini açıb evlərinin sionistlər tərəfindən işğal olunduğu müsəlmanlarla belə rəftar edir.

Məncə fələstinli gənclər tərəfindən sionizm dövlətinə qarşı daxili təzyiq olmasaydı, sionizmin bu xəbis başçıları Fars körfəzindəki bu hay-küydən istifadə edib indiyə qədər Livanın yarısını tutmuşdular. Əvvəl də başladılar, lakin daxili təzyiq – bu mömin və şücaətli gənclərin əliboş və məzlumcasına hücumu onları öz yerlərində oturtdu. Məsələnin başqa bir üzü budur. Yəni işğal olunmuş torpaqlar daxilində İslam hərəkətinin zirvəsinə görə sionistlərin qəzəblənməsi.

Fələstin məsələsi barəsində İslam dünyası bu məsələyə çox diqqət yetirməlidir: 11 sentyabr hadisəsindən, Nyu-York və Vaşinqtonda Amerika mərkəzlərinə hücumdan, xalqın diqqətinin o məsələlərə yönəlməsindən və bunun ardınca baş verən Əfqanıstan hadisələrindən sonra Fələstin məsələsi diqqətdən kənarda qaldı və sionizm rejimi bu diqqətsizlikdən maksimum sui-istifadə etdi. Sionizm rejimi son bir neçə ayın şiddətli təzyiqlərindən və ardıcıl cinayətlərindən sonra elə bir vəziyyət yaradıb ki, döyüş texnikaları və tankla Fələstin xalqının Fələstin şəhərlərindəki evlərinə daxil olur və çəkinmədən cinayət törədir. Sionistlər həmin hadisələrdən maksimum istifadə etdilər. İslam dünyası diqqət yetirməli və məsuliyyəti dərk etməlidir.

Fars körfəzinin son hadisələri İslam dünyasının Fələstin hadisələrindən bir qədər xəbərsiz qalmasına səbəb oldu. Bu xəbərsizlik sionistləri fürsətdən istifadə etməyə və Fələstin xalqına qarşı təzyiqləri artırmağa həvəsləndirdi. Əvvəla Fələstindən və müxtəlif ölkələrdən olan yadların və əcnəbilərin müqəddəs və müsəlman Fələstin torpağına sarı axışmasına bais oldu. İslam hökumətləri və xalqları qafil oldular. Qafil olmasaydılar da, bir çox dövlətlər bəlkə də əsla vəzifə hissi keçirməzdilər. Böyük bəla budur. İkincisi isə bu ixlaslı və sədaqətli mübarizlər, evlərində qərib olan bu məzlum müsəlmanlar, son 3 ildə Fələstin intifazəsini vücuda gətirən şəxslər ən ağır təzyiqlərə məruz qaldılar. Elə bir gecə və gündüz yoxdur ki, bu məzlum müsəlmanlara təzyiq göstərməklə İslam cəmiyyətinə zərbə vurulmasın.

Sözsüz ki, mübarizə davam edir, lakin mühüm olan budur ki, İslam dünyası Fələstin məsələsindən qafil olmasın. Xalqlar Fələstin məsələsini yaddan çıxarmasınlar, onu unutmasınlar. Amerika, imperializm və sionsitlərin daimi himayədarları müsəlmanlara bunu zorla unutdurmaq istəyirlər. Siz qoymamalısınız. İslam ümməti qoymamalıdır. İran xalqı qoymamalıdır.

## *İsrailin sülhə ehtiyacı*

İsrailin məqsədi böyüməkdir. Sionizm dövləti indiki Fələstin torpaqları ilə qane olmur. Əvvəl bir qarış yer istəyirdilər, sonra Fələstin torpağının yarısını tutdular, daha sonra bütün Fələstin torpaqlarını tutdular. Bundan sonra Fələstinin İordaniya, Suriya və

Misir kimi qonşu ölkələrinə təcavüz etdilər, onların torpaqlarını tutdular. İndi də sionizmin əsas məqsədi Böyük İsrail yaratmaqdır. Əlbəttə, bu günlər bunun adını az çəkirlər, onu gizlətməyə çalışırlar. Yenə də ictimai rəyi aldadırlar. Nə üçün? Çünki indiki mərhələdə özlərinin ekspansionist məqsədlərini gizlətməyə ehtiyacları var.

Bu gün sionistlərin problemi sülhə ciddi ehtiyaclı olmalarıdır. Nə üçün? Çünki 1947-ci ildən 1967-ci ilə qədər mübarizə yox idi. Həmin 20 il yaxşı ötdü, sonra isə silahlı mübarizələr başlandı. Bu silahlı mübarizələr Fələstin torpağının xaricindən idi. Bu Fələstin Azadlıq Təşkilatının və digər qrupların mərkəzi İordaniyada, Suriyada, yaxud başqa yerlərdə idi; qruplar göndərir, hücum edir, zərbə vurur və geri çəkirdilər. Fələstin torpaqları daxilində mübariz təşkilat formalaşmamışdı. Fələstin daxilində xalq qorxur və heç bir iş görə bilmirdi.

Odur ki, bunlar indi region ölkələri ilə necə olsa, sülh məsələsini bitirib öz daxili məsələləri ilə məşğul olmağa məcburdurlar. Fələstin Azadlıq Təşkilatı ilə bu dırnaqarası sülh məsələsi və Ərəfat məsələsi də bunun davamıdır. Onlar sülh sazişi layihəsinə bir fələstinli ünsürü daxil edib bununla işğal olunmuş torpaqlar daxilindəki mübariz fələstinliləri sakit etməyə çalışdılar, amma bacarmadılar. Bu gün belə olan halda daha işğalçı sionizm dövləti özünün əsas məsələsini - Nildən Fərata qədər ekspansiya məsələsini irəli sürməyə cürət etmir. Batil gümanlarına əsasən sionistlərə vədə verilmiş torpaq Nil çayından Fərata qədər uzanır. Nə qədərini almayıblarsa, bundan sonra almalıdırlar. Proqramları budur, lakin ndi söyləməyə cürət etmirlər.

## *Sionistlərin ekspansionist xisləti*

Bir gün işğalçı sionistlər dünyanın ozamankı müstəmləkəçi qüvvəsinin – yəni ingilislərin himayəsi ilə gəlib İslam ölkələrinin ürəyində və həssas Fələstin nöqtəsində bir küncü tutdular. Sonra da dövlət qurmaq iddiası edib ev sahiblərini qovdular. Ondan sonra daim ora-bura hücum və təcavüz etdilər, torpaqları genişləndirdilər və bütün Fələstin torpaqlarını, İordaniyanın, Livanın və Suriyanın bir hissəsini işğal etdilər.

Bu gün onların qəsbkar işğalı Fələstinə məxsus deyil. Əgər bacarsalar, bu təcavüzü və ekspansiyanı yenə də davam etdirəcəklər.

Bu gün dünyada onlar üçün şərait münasib deyil. Hələlik səbir edirlər, amma şəraitin münasib olduğunu və bacaracaqlarını hiss edən kimi yenə təcavüzü davam etdirəcəklər.

Onlar bu gün əllərində olanlarla qane olmurlar. Onlar düşünürlər ki, o tərəfdən Mədinəyə, bu tərəfdən Fərata qədər ərazilər onlara məxsusdur. Onlar kifayət qədər su mənbələrinə malik olan əzəmətli ölkə istəyirlər. Onlar öz ətraf ölkələrinin hamısına və bütün Orta Şərq regionuna iqtisadi, siyasi, hərbi və ictimai baxımdan hakim olmaq fikrindədirlər. Onlar bu gün əllərində olanlarla qane olmurlar.

Bu gün işğalçı sionistlər Fələstin torpaqlarında özlərini ərəb ordularının hücum təhlükəsindən – bu, bir neçə il öncəyə qədər onları təhdid edirdi - xilas etdikdən sonra digər ölkələrin iqtisadi və siyasi zonalarına əl uzatmaq fikrinə düşmüşlər; o da yenə Amerikanın təzyiqi ilə. Amerika ixtiyarında olan müxtəlif rıçaqlarla, insan hüquqları kimi siyasi yollarla, beynəlxalq qurumlara və beynəlxalq iqtisadi fondlara müdaxilə kimi iqtisadi yollarla Fələstin bölgəsinin ətraf ölkələrinin və hətta ucqar ölkələrin hər birinə o qədər təzyiq göstərir ki, İsraillə rabitəsi olmayan zəif hökumətlər bu işğalçı rejimlə rabitə qurmağa, rabitəsi olanlar da onu gücləndirməyə məcbur olsunlar. Bu təzyiq ondan ötrüdür ki, yolu açsın və işğalçı İsrail ölkələrə daxil olsun, orada iqtisadi və ticarət fəaliyyətləri göstərsin, ölkələrin sərvət mənbələrinə hakim olsun. Bu böyük bir təhlükədir və bu gün müsəlmanları təhdid edir.

Əlbəttə, bəllidir ki, genişlənən bu xərçəng vəzisi işğalçı İsrail və sionizmdir. Ona kömək edən əl isə beynəlxalq hegemonluğun zirvəsi, yəni Amerika dövlətidir. Müsəlman xalqlar bu məsələni unutmamalıdırlar. Necə ki, bizim əziz, şücaətli, qeyrətli, agah və sayıq xalqımız sözlə, əməllə siyasi və digər lazımi səhnələrdə iştirak etməklə Amerikanın təzyiqinə dözmədiyini və onu zərbə formasında özə qaytardığını sübuta yetirmişdir.

Siz xalq Amerikaya, inqilab düşmənlərinə, Fələstinin və şərafətli Qüdsün adını zehinlərdən və yaddaşlardan silmək istəyən şəxslərə zərbə vurdunuz.

## *İslam hərəkətlərini müşahidə etdikdən sonra düşmənlərin ciddiləşməsi*

Bu gün İslam inqilabı İslamın kəsərliliyini göstərdikdən sonra İslamın və müsəlmanların düşmənləri daha ciddiləşmişlər. İslam inqilabı İslam əleyhinə yeni cəbhələr vücuda gətirdi; yalnız buna görə ki, İslamı tanıtdırdı, İslamın zülmlə müxalif olduğunu göstərdi və həqiqi müsəlmanın quldurluğun, zülmün və beynəlxalq istismarçı quruluşun qarşısında təslim olmayan və boyunduruq altına düşməyən şəxsin olduğunu başa saldı. Bu, istismarçıları çox qəzəbləndirdi və İslamın qarşısında yeni cəbhələr vücuda gətirdi.

Bunun nümunələrini dünyanın hər yerində müşahidə edirsiniz. Həm Avropada müşahidə edirsiniz ki, müsəlman qrupların və fərdlərin əleyhinə hansı işlər görülür; həm Afrikada müşahidə edirsiniz ki, bu xristian müjdə hərəkətlərini yalnız əsl İslamla mübarizə üçün başlatmışlar; həm İslam ölkələrinin özündə müşahidə edirsiniz ki, İslam hərəkatı üzərində nə qədər təzyiq var; hər yerdə bir formadadır. Onun nümunələrini digər ölkələrdə, misal üçün, Hindistanda müşahidə edirsiniz. Bu Babiri məscidi hadisəsi həmin məsələlərdəndir; onun mövzusu bir məscid və bəlkə də bəzilərinə görə kiçik olsa da, kiçik deyil. Bu onu göstərir ki, İslam düşmənləri bir dəstə adamı İslam müqəddəsləri əleyhinə təhrik edib müsəlmanların həyatını zəhərləməyə qədər gedirlər.

Dünyanın hər yerində İslam əleyhinə yeni düşmənçi hərəkətlər var. Bu hərəkətlərdən alınmalı nəticə bir cümlədir: müsəlmanlar İslamı müdafiədə daha ciddi olmalı, özlərini sözün həqiqi mənasında İslamın əsgəri bilməli və bu əsgərliyin tələblərinə uyğun əməl etməlidirlər. Şübhəsiz, düşmən müsəlmanların ümumi hərəkəti qarşısında bir iş görə bilməyəcək. İslamı müdafiə üçün qərar verib qiyam edən müsəlmanlar və İslam şübhəsiz, qalib olacaq.

## *İsrailin məqsədinin indiki zəfərlərdən üstün olması*

Fələstin torpağının işğalçılarına görə Qüds məsələsi bitməmiş bir məsələdir. Heç kəs xəyal etməməlidir ki, işğalçı sionistlər və onların beynəlxalq himayədarları Fələstini tutub hökumət qurmaq istəyirdilər; tutdular, hökumət qurdular və məsələ bitdi. Belə deyil. Fələstin torpağında işğalçı sionizm dövlətini təşkil etməkdə mövcud olan məqsədlər indiki İsraillə tam şəkildə təmin olunmur, məqsəd

bundan üstündür. Məqsəd bu gün işğal olunandan daha böyük və daha çox əhalisi olan bir torpaqda ölkə qurmaqdır.

Gördünüz ki, İsrailin dövlət statistikası işğal olunmuş Fələstində müsəlmanların artımının o ölkəyə mühacirət edən sionistlərin artımından çox olduğunu göstərən kimi himayədar qüvvələrin və dövlətlərin köməyi ilə yenə mühacirət sahəsində öz köhnə planlarını gücləndirdilər və sürətləndirdilər. Buna əsasən, İsrail məsələsi bunlardan daha üstündür.

## *İsrailin yalnız bütün müsəlmanların köməyi ilə sıradan çıxarılması*

Təsəvvür olunurdu ki, işğal olunmuş torpaqla qonşu olan ərəb və İslam dövlətləri bu xərçəng vəzisinin İslam dünyasının ürəyində, Asiya, Afrika və Avropa qitələrinin birləşdiyi yerdə genişlənməsinə mane ola biləcək, yaxud ən azı buna iradə göstərəcəklər. Əvvəldə fələstinlilər və bəlkə başqaları da bu təsəvvürü edirdilər. Lakin bu gün sübut olunmuşdur ki, bütün İslam məmləkətlərində olan xalqların hərəkətindən və müsəlmanların iradəsindən başqa heç bir yol yoxdur.

## *İsrailin heç bir insani prinsipə və beynəlxalq qanuna boyun əyməməsi*

İsrail dövləti özünün Fələstin və Livanda cinayətkar əməlləri, düşərgələri vəhşicəsinə bombalaması, Fələstin sərhədləri daxilində və xaricində oğurluqla, adam oğurlamaqla və digər fəsadlarla göstərmişdir ki, (bu qanunlara) boyun əymir. Keçmişləri unudanlar sionistlərin Fələstində və Livanda dayanmadan davam edən gündəlik cinayətlərini necə görməzliyə vura bilərlər?!

## *İsrail rejimi - etimadsız bir rejim*

İşğal olunmuş Fələstin torpağında qurulan sionizm rejimi millətçi bir rejimdir. Məgər millətçi bir rejimdən ədalət gözləmək olar?! Dünyanın siyasi və iqtisadi gücləri tərəfindən vücuda gəlmiş bir rejim ümumiyyətlə İslam dünyasının birlik görməməsi, izzət görməməsi və müsəlmanların əzəmətli bir vahidi təşkil edib təhlükəli olmamaları üçün yaranmışdır; ümumiyyətlə bunun üçün vücuda gəlmişdir. Ondan insaf və ədalət gözləmək olarmı?! Bu

rejimlə müzakirə aparmağın mümkün olduğunu güman edənlər sadəlövhdürlər. Sionizm rejimi üçün hər bir müzakirə onun irəliləməsi üçün bir meydanı açmaq deməkdir. Dünən müzakirələrdə ona kömək etdilər, bu gün gəlib Əqsa məscidinə iddiaçı oldular. İnsan belə bir hegemonçu varlıqla necə rəftar etməsini bilmədikdə, Amerikanın, dünyanın güclü və pullu sionistlərinin təzyiqləri altında qərar qəbul etmək istəyəndə belə olur. Nəhayət xalqın özü meydana qoşuldu.

## *Müzakirənin İsrailin cinayətlərinə çəkindirici olmaması*

Amerikanın icbarı və təzyiqi ilə təcavüzkar sionistlərlə müzakirə stolu arxasında oturduqda özlərini bu təcavüzkar və işğalçı ilə qarşıdurmadan qurtaracaqlarını xəyal edən şəxslər səhv edirlər. Bu işğalçı rejim onları rahat buraxmaz. Əgər buraxsaydı da, İsrailin təzyiqinə görə öz müzakirə və imzaları ilə müsəlmanlara və Fələstin xalqına məxsus olan torpaqdan keçmələrinə haqları yox idi.

## *İslam ümmətinin oyanışını söndürmək üçün düşmənin psixoloji silahdan istifadəsi*

Hal-hazırda Fələstin xalqı bu yolun açılmasında və gedilməsində böyük bir rolu öhdəsinə götürmüşdür. Hamı o məzlum, qorxmaz və ayıq xalqa kömək etməlidir. Digər xalq və dövlətlər qəhrəman Fələstin xalqına kömək etməklə bu yolda öz rollarını ifa edə bilərlər.

İslam ümmətinin oyanışının qanunsuz tamahlarını və maraqlarını təhdid etdiyi hegemonçu düşmənin bu artan dalğa qarşısında əlində tutduğu ən mühüm silah psixoloji silahdır: məyus etmək, kimliyin təhqiri, özünün qüdrətini və maddi imkanlarını göstərmək. Bu gün və gələcəkdə müsəlmanları aydın gələcəyə ümidsiz edən, yaxud öz çirkli niyyətlərinə uyğun gələcəyə həvəsləndirən minlərlə təbliğat vasitəsi işə düşmüşdür və düşəcəkdir.

## *İsrailin cinayəti*

Bu torpağın işğalının ildönümü düşmənlərin Fələstin xalqına qarşı ədavət və kinlərini artırmalarına səbəb olmuşdur. Fələstinə hakim olan sionistlərdən gözlənti yoxdur. Onlar gəldikləri zamandan bu cinayətləri və zorakılıqları başlatdılar, bu günə qədər də davam

etdirdilər. Nə qədər ki, oradadırlar, onların varlığı şər və fəsaddan başqa bir şey yaratmayacaq.

## *Sionizm dövləti - palcığa batmış və işdə aciz*

Əlbəttə, bu işlər sionistlərin düyününü açmayacaq; bu da məlum olsun. Bu gün sionizm dövləti elə palçığa batmış və aciz qalmışdır ki, nə iş gördüyünü bilmir. İşğalın, zülmün və zorakılığın aqibəti yaxşı olmur. Bu məsələlər işğalçı sionizm dövləti üçün qarşıya çıxmalı idi, daha pis günlər isə qabaqdadır. Onları qəzəbləndirən amil bu intifazədir. Sionistlərin, Amerikanın və onların siyasətlərinin bütün zəhmətləri, səyləri, əlaqələri, vurnuxmaları intifazəni yatırda bilmələri üçündür. İntifazə nədir? Yəni bir xalqın öz hüquqları uğrunda qiyamı. Elə bir xalq ki, torpağını tutublar, evini tutublar, mallarını alıblar, tarlalarını alıblar, onu təhqir ediblər, öz ölkəsi daxilində onunla başıqapazlı bir azlıq kimi rəftar edirlər. Bu xalq bir müddət səhlənkarlıq etmişdi, amma bu gün gəncləri meydana daxil olmuşlar. Bu gənclər mübarizə meydanında cürətlənmişlər, başdan-ayağa silahlı bir orduya qarşı daşla mübarizəyə qalxmışlar və eyni zamanda onları aciz etmişlər. Sionizm rejimi Əqsa məscidi intifazəsinin başladığı son bir il və bir neçə ayda həqiqətən aciz qalmışdır. Onların bütün səyi bu müqəddəs şöləni və haqlı qiyamı yatırtmağa yönəlmişdir. Bunun üçün xalqa təzyiq göstərirlər. Bu bir neçə gündə yazıq Fələstin xalqına və uşaq məktəblərinə müxtəlif qisimli hücumlar etmişlər.

## *Amerika dövlətinin və sionistlərin Fələstində tam çıxılmaz vəziyyətə düşmələri*

Əgər kimsə Fələstin məsələlərini daha artıq və dərindən nəzərdən keçirsə, onun üçün bu məsələ daha çox aşkarlanar ki, Amerika dövləti və Fələstindəki sionistlər tam çıxılmaz vəziyyətə düşmüşlər; nə irəliyə yolları var, nə geriyə. Onlar məğlubiyyətə məhkumdurlar. Fələstinin yeni nəsli oyanmış və anlamışdır ki, işğalçı düşməndən qurtulmaq üçün mübarizədən başqa bir yol yoxdur. Anlamışdır ki, beynəlxlq toplantılarda iştirak etmək, işğalçıların və onların himayədarlarının istəyinə uyğun danışmaq Fələstinin xilas yolu deyil. Anlamışdır ki, müqavimət göstərməlidir, istəməlidir, iradə və fədakarlıq nümayiş etdirməlidir ki, məqsədə çatsın. Bunu Fələstin

xalqı bütün vücudu ilə bilmiş və anlamışdır. Odur ki, müqavimət göstərir. Bu hiss dindən və tövhidə etiqaddan qaynaqlandıqda - bu gün Allaha həmd olsun ki, Fələstində belədir - heç zaman qurumayacaq. Ümidvarıq Allah-Taala fələstinlilərin qələbə gününü tezləşdirsin!

## *İsrailin Misirdə İslam oyanışından qorxuya düşməsi*

Bu gün amerikalılar çox əl-ayağa düşmüşlər. İsraillilər isə onlardan da artıq əl-ayağa düşmüşlər. Misir məsələsində bir çıxış yolu axtarırlar, amma tapmayacaqlar. Aldatmaqla məşğuldurlar. Xalqa tərəfdar olmaqdan dəm vururlar. İndi amerikalıların da ona "gərək tez kənara çəkilib gedəsən" – dediyini söylədilər. Bu, Misir xalqının necə əməl etməsindən və qərar verməsindən asılıdır.

Regionun keçmişdə əsla görünməmiş bir vəziyyətdədir. Regionda vücuda gəlmiş İslam oyanışı və bu əzəmətli hadisə inqilabın əvvəlindən bu günə qədər İslam Respublikasının həyatında bənzəri, yaxud buna yaxın bir halın əsla görünmədiyi bir şeydir. Böyük hadisə baş vermişdir, böyük iş görülmüşdür. Misir xalqı kimi bir xalq bu əzəmətli hərəkəti etmiş, rejimi devirmiş, sonra İslam şüarı vermişlər. Regionun vəziyyəti qondarma yəhudi və sionist hökumətini bu şəkildə təhdid edir. Bunlar elə şeylərdir ki, ümumiyyətlə adi dəyərləndirmələrə sığmır, çox əzəmətlidir. Bəli, biz belə bir şəraitdəyik. Bu, İslam Respublikası üçün möhtəşəm və aydın bir üfüqü təsvir edir.

## *İslamın əmrindən irəli gələrək İsrail və Amerika ilə müxaliflik*

Mərhum imamın həyatı dövründən indiyədək İslam İranı ilə düşmənliyin ən mühüm səbəbi odur ki, bu ölkədə bütün siyasətlər İslam meyarları ilə təyin olunur; seçilir, yaxud rədd edilir. Bütün siyasi mövqelər İslam əmrlərinə əsasən formalaşır.

Hökumətlərin sionizmlə sazişi rədd edilir. Çünki bu, Fələstin xalqının həmişəlik qaçqınlığı və Fələstinin düşmən tərəfindən həmişəlik işğalı deməkdir.

(İslam Respublikası) Fələstin xalqını və digər məzlum və müsəlman xalqları müdafiə edir. Çünki Quran məzlumları müdafiəni açıq şəkildə lazım bilmişdir: “(Ey müsəlmanlar!) Sizə nə olub ki,

Allah yolunda: “Ey Rəbbimiz, bizi əhalisi zalım olan bu şəhərdən kənara çıxart, bizə öz tərəfindən mühafizəçi göndər, yardımçı yolla!” – deyə dua edən aciz və məzlum kişilər, qadınlar və uşaqlar uğrunda vuruşmursunuz?“

Amerikanın hökmranlığına, onun İslam ölkələrində və bütün məzlum ölkələrdə nüfuzuna və müdaxiləsinə qarşı çıxır. Çünki Quran buyurmuşdur: “Ey iman gətirənlər! Nə mənim düşmənimi, nə də özünüzün düşmənini dost seçin! Onlar sizə gələn haqqı inkar etdikləri halda, siz onlarla dostluq edirsiniz“. Öz ölkəsində İslam hökmlərini qanunvericiliyin qanyağı və meyarı seçmişdir. Çünki bir xalq üçün izzəti, istiqlaliyyəti, rifahı, maddi və mənəvi kamilliyi İslam hökmlərinə əməl etməkdə görür.

Bütün bunlar imperialist cəbhə başçılarının sionist təxribatçıların dəllallığı və şeytanlığı ilə İslam İranını özlərinin bir nömrəli düşməni bilmələrinə və imkanları qədərincə onunla düşmənçilik etmələrinə bais olmuşdur.

## *İsrailin zülmünü görmələrinə rəğmən, insan hüquqları və İslam mərkəzlərinin sükutu*

Nə üçün dünya reaksiya vermir? Nə üçün müsəlman xalqlar bütün bu faciə və cinayətlərin qarşısında sükut edirlər? Məgər İsrail və sionist düşmən haraya arxalanır? Məgər Amerikanın nə qədər qüvvəsi və qüdrəti var ki, İslam ölkələrinin məsul şəxsləri və siyasətçiləri bu qədər qorxurlar? Xalqlar başlarını qaldırmalı və oyanmalıdırlar. Görürlər ki, bu gün dırnaqarası insan hüquqları, xeyirxah və humanist mərkəzlər başlığa, ada və tabloya uyğun heç bir qələt etmədilər və bütün iddiaları yalan çıxdı. Bunu görmürlər?!

Bir işğalçı, qəddar və zorakı dövlət bir qrup müdafiəsiz insanı, gəncləri, yeniyetmələri və azyaşlı uşaqları evlərinin daxilində və onlara məxsus olan küçələrdə qana boyayır, amma dünyadan heç bir səs çıxmır. Lakin bir fələstinli gənc reaksiya verəndə, iki-üç nəfəri cəhənnəmə vasil edəndə biri dünyanın bu tərəfindən, biri o tərəfindən qalxıb təəssüflənir. Nə təəssüfü?! Çox yaxşı edib, sağ olsun. Öz haqqını müdafiə edə bilməyən xalq başıqapazlı olmalıdır. Birinci gün fələstinlilər yatdılar, qafillik göstərdilər və düşmən onlara belə hakim oldu. Bu gün isə fələstinlilər oyanmışdır, Fələstində müsəlmanlar oyanmışlar.

# Dördüncü fəsil: Qərb, Amerika və sionizm

## *İsraili yaratmaqda imperializmin məqsədi*

Beynəlxalq imperializm və müstəmləkəçi dövlətlər əvvəldən bu günə qədər işğalçı İsrail rejimini regionun ərəb və İslam ölkələrinə təzyiq vasitəsi kimi yaratmış və saxlamışlar. Onlar bu zəhərli xəncəri həmişə İslam dünyasının yanında saxlamaq istəyirlər. Bu gün böyük şeytan bu öyrədilmiş itin cilovunu əlində tutmuşdur. Deməli, beynəlxalq qanunların ardıcıl pozulması, insan hüquqlarının ən faciəli şəkildə və sürəkli tapdanması, qonşu ölkələrə ardıcıl təcavüzlər, terrorçu əməliyyatları, aşkar şəkildə insan oğurluğu, atom və ona bənzər silahların günbəgün daha artıq əldə olunması - Amerika və digər böyük dövlətlərlə ərbab və rəiyyət rabitəsində olmayan ölkələrin hər hansı birində bunların hər biri böyük hadisə sayılır - sionistlərdən qəbul olunur, dünyanın imperialist şəbəkəsində, xüsusən də böyük şeytanda heç bir ciddi etiraz oyatmır.

## *Qərb dövlətlərində sionistlərin nüfuzu*

İnsanın keçirdiyi ilk hiss bəşəriyyətdən xəcalət hissidir. Avropa və Qərb hökumət başçıları bəşəriyyətdən xəcalət çəkməlidirlər ki, sionistlərin bu qədər nüfuzu altındadırlar. Öz xalqlarından da xəcalət çəkməlidirlər. Məgər dünyada digər dövlətləri qəbul etməyən, onların siyasi kimliyini inkar edən dövlətlər yoxdur?! Məgər ürəyində başqa bir ölkənin başçısının məhv olmasını arzulayan ölkə başçıları dünyada azdır?! Dilləri ilə deyirlər də, təkrar da edirlər. Harada belə bir həssaslıq yaranır?! Sionistlərin Qərb və Avropa dövlətləri üzərindəki nüfuzu təəssüf ki, belə ajiotajlar yaradır. Sonra da fürsətdən istifadə edib bunu atom enerjisi məsələsinə bağladılar. İlk dəfə bu sözü deyib bunu atom enerjisi hadisəsinə bağlayan nadan anlamadı ki, atom silahı hökumətləri, sistemləri və rejimləri məhv etmək üçün deyil. Sistem və rejimlər atom silahı ilə məhv olmurlar. Atom silahı yalnız insanları və məmləkətləri məhv edə bilir. Rejimləri məhv edən isə xalqların müqavimət qüvvəsi, əzmkarlığı və mübarizəsidir. Bu əzmkarlıq və mübarizə Fələstində mövcuddur və Allahın lütfü ilə mütləq sionizm rejiminin məhvi ilə nəticələnəcək.

## *Sionistlərin Avropa ölkələrinə nüfuzu*

Bunlar (Amerika və İsrail) bizim əsl düşmənlərimizdirlər. Sözsüz ki, dünyanın digər yerlərində də bizim əleyhimizə düşmənlik və xəbislik olunur, amma bunların o qədər də əhəmiyyəti yoxdur və əsas məsələ deyil. Sionistlərdən ötrü çox çirkin və nifrət oyadan bir hərəkət edən Almaniya məhkəməsinin son hadisələri bu qədildəndir. Əlbəttə, Almaniya hökuməti özünü kənara çəkir və deyir ki, bu, ölkəsinin məhkəmə sisteminə aiddir. Həm biz bilirik, həm də onlar bilirlər ki, belə deyil və Almaniya hökuməti ölkəsinin məhkəmə sisteminə hakimdir. Nüfuzlarını işlətdikləri bəzi yerlərdən bizim özümüz xəbərdarıq. Bu, əslində sionistlərin Almaniya hökumətinə və o ölkənin məhkəməsinə təzyiqidir. Amma mühüm deyil. Bunlar bizim hökumətimizin və öz Xarici İşlər Nazirliyimizin həll etməli olduğu işlərdir. Allaha şükür olsun ki, gözəl şəkildə xidmətlə məşğuldurlar, işləyirlər və həll də edəcəklər. Bunlar xalq üçün bir problem sayılan məsələlər deyil. Xalq üçün mühüm olan məsələ işarə vurduğum məqamdır; yəni Amerika və İsrail məsələsi. Əsas məsələ budur.

## *Hegemonluğun məqsədi - hər bir müqavimət qüvvəsini sıradan çıxarmaq*

Bunlar istəyirlər ki, bu regionda heç bir müqavimət qüvvəsi mövcud olmasın. Əsl müqavimət qüvvəsini İslam Respublikası bilirlər. Əlbəttə, bunu düzgün anlamışlar. Bura müqavimətin mərkəzidir. Bura elə bir yerdir ki, heç bir addım atmasaq, heç bir söz danışmasaq da, İslam Respublikasının varlığının özü region xalqlarına ilham verir. Bütün hegemonçu qüvvələrin iradəsinin əksinə və onların acığına, bu regionda bir varlıq bu şəkildə qamət ucaldıb və günbəgün möhkəmlənir, günbəgün güclənir. Bu əzəmətli və möhtəşəm varlığın özü imperializmin gözünün tikanı və xalqların ümididir. Bəli, bura müqavimətin mərkəzidir, bunda heç bir şübhə yoxdur. Digərləri də buradan ilham aldılar, lakin bu müqaviməti sındırmaqdan ötrü zəif halqanı birinci hədəf seçdilər; Qəzzədə xalq tərəfindən seçilmiş Həmas hökumətini. Onu məzlum görüblər, onu əzməkdədirlər. İslam dünyasında hər kəs bu gün Qəzzə məsələsini regional, şəxsi və lokal bir məsələ bilsə, indiyə qədər xalqların evini yıxan həmin dovşan yuxusuna düçar olmuşdur. Xeyr, bu Qəzzə

məsələsi yalnız Qəzzənin məsələsi deyil, məntəqənin məsələsidir. Hələlik orada daha zəif nöqtə var; hücumu oradan başlayıblar. Əgər uğur qazansalar, məntəqədən əl çəkməyəcəklər. O bölgənin ətrafında yerləşib kömək etməli olan və edə bilən, lakin etməyən müsəlman ölkələrin hökumətləri kömək etmirlər və səhvə yol verirlər. İsrailin mismarı bu regionda nə qədər dərinə batsa, hegemonluğun hökmranlığı artsa, bu hökumətlərin bədbəxtliyi, zəifliyi və xarlığı daha da artacaq. Nə üçün başa düşmürlər? Hökumətlər xalqları da öz arxalarınca xarlığa sarı çəkirlər. Xar, itaətkar və asılı bir hökumət bir xalqı itaətkar, xar və asılı edir. Buna görə xalqlar özlərinə gəlməlidirlər.

## *Amerikanın himayəsi və ərəb hökumətlərinin səhlənkarlığı - İsrailin daxili zəifliyini əvəzləyən amil*

Xalqlar İran xalqı kimi İsrail rejimini regionda qondarma və zorla yaradılmış bir rejim bilirlər. Əlbəttə, hökumətlər xalqların yanında deyillər və təssüf ki, İsraili gücləndirən də budur. Sionizm rejiminin öz daxilindən qüdrəti yoxdur, öz ayağı üstə dayanmaq bacarığı yoxdur. Bu gün iki amil sionizm rejimini ayaqda saxlamışdır: biri Amerikanın bu mənfur rejimi qeyd-şərtsiz və həyasızcasına himayəsi, digəri isə ərəb və İslam hökumətlərinin Fələstin xalqını müdafiə etməməsi. Təəssüf ki, müsəlman hökumətlərin və dövlətlərin bir çoxu bu gün Fələstin qarşısında özlərinin vəzifələrinə layiqincə əməl etmir və xalqlarının səsinə səs vermirlər. Əgər onlar öz xalqları ilə həmfikir olsalar və məzlum Fələstin xalqını müdafiə etsələr, regionda vəziyyət bütünlə dəyişiləcək. Bu, xalqların ümumi istəyi və bizim Böyük İmamımızın xəbər verdiyi güclənmədir.

## *Amerikanın və onun əlaltılarının İsrailin məğlubiyyətlərinə şərik olmaları*

Bu otuz üç günlük müharibənin bir qalib tərəfi vardı, bir məğlub tərəfi. Məğlub tərəf sözsüz ki, sionistlər idilər, qondarma İsrail dövləti idi. Amma dünyada Amerikanı da məğlub tərəflərdən saymayan bir kəs qalmadı. Avropalılar da bunu açıqca söylədilər, digərləri də dedilər. Amerikalıların özləri də lal dili ilə müxtəlif formalarda dedilər. Bu hadisədə Amerika da məğlubiyyətə uğradı.

Bəllidir ki, regionda bunların müxtəlif səviyyələrdə əlaltıları var; onlar da məğlub olmuş cinahdan sayılırlar.

## *Amerikanın Böyük Orta Şərq layihəsi - Nildən Fərata qədər əfsanəsi sikkəsinin o biri üzü*

Bu gün imperializmin İslam dünyası üçün əsas planı tam hakim olmaqdır. Amerikalıların ortaya atdığı Böyük Orta Şərq layihəsi sionizm rejiminin mərkəzliyi ilə Orta Şərq adlı böyük bir ölkə yaratmağın başqa təbiridir. Bu ölkələrdə olan bütün dövlətlər İsrailin əlaltı dövlətinə çevrilməlidirlər. Böyük Orta Şərqin mənası budur ki, biz əzəmətli bir bəşəri sahəni İsrailin ixtiyarına verək, o da kapital qoyub ucuz istehsal etsin və daha da kökəlsin; əgər Nildən Fərata qədər əfsanəsini hərbi yollarla həyata keçirə bilmədisə, iqtisadi, siyasi, maliyyə və texniki üsullarla təmin etsin. Amerika və demək olar ki, Qərb bunu istəyir. İslam dünyasnı nə üçün belə bir istəyə təslim olmalıdır?!

Bu sahələrdə inkişafın düşüncəyə, ağla, götür-qoya və hikmətə ehtiyacı var. Qəlblərimizi bir-birinə daha artıq yaxınlaşdırmağımıza ehtiyacımız var. Əldə etməyə çalışmalı olduğumuz və uzaqda olan iksir müsəlman ölkələrinin müxtəlif sahələrdə birliyindən və həmrəyliyindən ibarətdir.

Böyük Orta Şərq məsələsi bir Amerika arzusudur. Onların dediyi Böyük Orta Şərq Orta Şərqdə İsrailin mərkəz olduğu böyük bir ölkədir. Sözsüz ki, onların məqsədi vahid bir dövlət təşkil etmək deyil. Xeyr, indiki coğrafi sərhədlərdə olan dövlətlər olsunlar, lakin amerikalıların əlində olan hökumətlər olsunlar. Xalq zahirdə onları seçsin, amma amerikalılar istəsinlər; necə ki, son aylarda Ukrayna və Gürcüstanda baş verdi.

Onlar istəyirlər ki, İsrail təbii sərvətlərlə dolu olan bu zəngin regionda dəyərli bir mərkəz olsun, Qərbin maddi sivilizasiyasının nümayəndəsi və bazası bu ölkələrdə əl-ayaq açsın, onların ucuz işçisindən istifadə etsin, onların pullarından istifadə etsin, öz iqtisadiyyatını genişləndirsin, öz əkinçiliyini inkişaf etdirsin və əslində özünü qidalandırsın. Sanki bir ağacın kökü qonşunun evinə daxil olur və oradan qidalanır; əslində ağacın meyvəsi o evin sahibinindir.

Bir dəfə hərbi güclə əldə etmək istədiklərini elan etdikləri Nildən Fərata qədər layihəsini indi əslində siyasi və iqtisadi güclə əldə etmək istəyirlər. Sözsüz ki, əsla bu məqsədə çatmayacaqlar; nə amerikalılar, nə sionistlər və Fələstinin işğalçıları.

Xalqlar oyaqdır. Biz oyaq olmalıyıq. İslam Respublikası oyaq olmalıdır. Bizim oyaqlığımız bir şüar deyil; diqqətimizi cəm etməliyik.

## *İsraili himayə etməkdə Amerikanın məqsədi*

Düşmən Fələstini birdəfəlik İslam dünyasından ayırmaq və sionizmin lənətlənmiş ağacını müsəlmanların evində həmişəlik etmək istəyir. Amerika işğalçı rejimi möhkəmləndirməklə bu həssas regionun bütün idarəsini ələ keçirmək və özünü Orta Şərq və Afrikada İslam oyanışı nigaranlığından xilas etmək istəyir. İslamın düşmənləri özlərinin İslama olan köhnə kinlərini və son illərdə müsəlmanların oyanışı səbəbindən uğradıqları məğlubiyyətləri burada düzəltmək istəyirlər. Bu hadisə Orta Şərq barəsində son bir neçə ildə baş verən təxribatların heç biri ilə müqayisə olunası deyil. Burada söhbət bir ölkənin işğalından, bir xalqın əbədi didərginliyindən və İslam dünyasının bir parçasının, böyük İslam vətəninin coğrafi mərkəzinin və müsəlmanların ilk qibləsinin ayırmaq işinin yekunlaşdırılmasından gedir.

## *Amerikanın sionistlərin cinayətlərini müdafiəsi*

Amerikanın mövqeyinə gəlincə isə, Amerika bu hadisədə ən pis mövqeyi seçdi. Daha bundan pisi ola bilməz. Bu hadisələrin həddən artıq gərginləşdiyi bu yeddi, səkkiz, on gündə Amerikanın prezidenti iki-üç dəfə çıxış etmişdir. Sonuncusu dünənki çıxış idi. Geniş çıxış oldu və təxminən başdan-ayağa İsrailin əməliyyatlarını və işlərini himayə etdi. O, ərizənin boş olmaması üçün çıxış əsnasında sionist cinayətkarlara dair çoxlu himayələrdən sonra bunu da yerləşdirdi ki, İsrail dövləti fələstinlilər yaşayan yerlərdə yəhudi qəsəbələri salmamalıdır. Bəli, özü bilir, bütün dünya da bilir ki, bu bir yalançı, formal və səthi tövsiyədir. Uzun illərdir beynəlxalq təşkilatlar qərar çıxarmış, beynəlxalq güc mərkəzləri və beynəlxalq siyasət də demişdir ki, israillilərin fələstinlilər yaşayan yerlərdə yəhudi qəsəbəsi salmağa haqları çatmır. Bu gün işğal olunmuş Fələstində

hakimiyyətin başında duran bu yırtıcı Məskən naziri olan zaman bunların hamısının qarşısında dayandı və dedi ki, mən düzəldəcəyəm. Düzəltdi və indiyədək də davam edir. Bunların sözünə kim qulaq asır?! Özü də bilir ki, qulaq asmırlar. Başdan-ayağa sionistləri müdafiə; özü də zəif məntiqlə, səhv və dünyanın ümumi rəyi üçün qəbul olunmayan məntiqlə. Onun sözləri və mövqeyi dəqiqliklə beynəlxalq sülh və təhlükəsizliyin qarşı tərəfidir. Bunları kim idarə edir? Düşünmək lazımdır. Kim siyasət meydanına yeni qoşulmuş, vəzifəpərəst və mənəviyyatdan xəbərsiz adamları yaratdıqları vəziyyətə sarı yönəldir? Bu çox diqqətəlayiq məsələdir.

## *İmperializmin böyük səhvi: sionizm rejimini müdafiə*

Beynəlxalq sahədə - qeyd etdiyimiz kimi - imperializm böyük səhvlərə düçar olur. Bu səhvlərdən biri bu gün Amerikanın sionizm rejimini müdafiəsində yaranan vəziyyətdir. Bu gün sionizm rejimində iki məsələni görmək olar: Biri həddindən artıq qəddarlıq və yırtıcılıqdır. Bu gün sionistlərin Fələstin torpağının sahiblərinə qarşı etdikləri vəhşilik doğrudan da qəribə, heyrətamiz və misilsiz bir sərgüzəştdir. İkinci məqam budur ki, sionizm rejimi tam çıxılmaz vəziyyətdə qalıb və heç bir yolu yoxdur. Amerikanın səhvi budur ki, bu vəziyyətdə aşkar şəkildə sionizm rejimini müdafiə edir, İsrailə və onun məsul şəxslərinə boş çek verib ki, nə qələt istəsələr, etsinlər, hansı cinayəti istəsələr, törətsinlər. Bu, amerikalıların düzəldilməsi mümkün olmayan səhvlərindəndir və onlar bunun altını çəkəcəklər. Fələstin xalqı göstərib ki, layiqli və möhkəm bir xalqdır; göstərib ki, boş əllə İsrail rejimi kimi iqtidarlı, silahlı, rəhmsiz və qəddar bir rejim qarşısında dayanıb müqavimət göstərə bilir. Bu da digər xalqlara bir dərsdir. Bu gün Fələstin xalqını mənəvi və maddi cəhətdən dəstəkləmək bizim vəzifəmizdir.

Əlbəttə, bu gün Amerika İsrailin cinayətinə şərikdir. Özünü vasitəçi kimi tanıtdıran Amerika prezidenti açıq şəkildə deyir ki, İsraili müdafiə etmək bizim xarici siyasətimizdəndir. O, ərəb dünyasının qarşısında, ərəb ölkə başçılarının və İslam ümmətinin qarşısında belə aşkar şəkildə və həyasızcasına Fələstin torpağının işğalçısı olan İsrailə qarşı öz tərəfdarlığını göstərir.

## *İsrailin cinayətləri və Amerikanın himayəsi*

Bu ramazan ayında sionistlər maksimum faciə törətdilər. Siz görürsünüz ki, bəlkə də bir-iki yaşlı kiçik uşaqdan tutmuş yeniyetməyə, gəncə, qoca kişiyə və xəstəyə qədər müxtəlif insanlar bu hadisələrin qurbanlarına çevrildilər. Bu, İslam və müsəlmanların düşməninin – yəni İslam vətəninin bu hissəsinə hakim olanların insani meyarlarla və insan hüquqları ilə zidd olmalarını göstərir. Eyni zamanda Amerikanın senatorları, siyasətçiləri və siyasi şəxsiyyətləri açıq şəkildə bunları müdafiə edirlər. Bu işi görsünlər; öz istəkləridir, siyasətləri budur. Onların mahiyyəti bu fəsadlı adamları, şeytansifətləri və yırtıcıları müdafiə etməkdir. Bundan artıq bir şey gözləmək olmaz. Lakin dünya xalqı bundan ibrət almalıdır. Xoşbəxtlikdən bizim xalqımızın gözü və qulağı açıqdır. Həmişə müxtəlif hadisələrdə insan hüquqlarını, əksəriyyətin hüquqlarını və öz sözləri ilə desək, demokratiyanı müdafiə etdiyini və bununla fəxr hissi keçirdiyini amerikalıların dilindən eşidən dünya xalqı Fələstin güzgüsündə Amerika siyasətlərinin həqiqi çirkin simasını müşahidə etməlidirlər.

## *Qərbin İsrail cinayətlərinə həyasızcasına dəstəyi*

İmperialist Amerika rejiminin başçıları da buna görə qəzəblənmişlər və öz iç üzlərini göstərirlər. Onların qəlbində olan və həmişə qalın riyakarlıq pərdələri arxasında gizlətdikləri bu gün onların sözlərində özünü göstərir. Bu gün amerikalılar təkcə qaniçən sionizm rejimini yox, onun açıq cinayətlərini də pərdəsiz şəkildə və həyasızcasına müdafiə edirlər. Yalnız terror məsələsi deyil, böyük və aşkar bir cinayət baş vermişdir; bunu müdafiə edirlər; küçə və xiyabanlara tank yeritmələrini müdafiə edirlər; xalqın evini dağıtmalarını müdafiə edirlər. Bu, hegemonçu rejimin iç üzüdür. İslam inqilabının sözlərində təkrarlanan hegemonluq budur.

Həması, İslam Cihadını və Hizbullahı terrorçu kimi təqdim edirlər. Nə üçün? Məgər bunlar nə etmişlər? Bunların cinayəti odur ki, öz şərəflərini, vətənlərini, evlərini və xalqlarını müdafiə etmişlər. Amerikanın istəyi budur ki, İsrail öz cəlladları ilə kiçik uşaqları, bu kişinin oğlu kimi uşaqları atalarının gözü qarşısında qətlə yetirsinlər və heç kim etiraz etməsin, heç nə deməsin, cavab istəməsin və qəzəblənməsin. Həmasın, İslam Cihadının, Livan Hizbullahının və

döyüş səhnəsinin bütün həqiqi mübarizlərinin yeganə günahı budur ki, belə daşürəkli və bənzərsiz təcavüzlərə əməli cavab verir və addım atırlar. İslam Respublikasının cinayəti də budur ki, haqqı və ədaləti açıq-aşkar müdafiə edir. Biz heç zaman haqq və ədalətin müdaifəsini hegemonçu qüvvələrin istəyinə görə kənara qoymamışıq. Biz bu sahədə heç zaman sazişə girməmişik, riyakarlıq etməmişik. Biz açıq şəkildə haqqı və ədaləti irəli sürmüş və müdafiə etmişik. Bu bizim cinayətimizdir.

Amerikalılar öz içlərini göstərdilər. Amerikanın prezidenti son nitqində insanların qanına təşnə olan adam kimi danışırdı. Ölkələri və xalqları təhdid və ittiham edirdi. Bütün dünya bilir ki, böyük şeytan Amerikadır. Bu, dəlilə söykənən bir sözdür. Bu "böyük şeytan" adı Amerika üçün dəlilsiz bir ad deyil. Siz son 30-40 ilin tarixinə baxın, müstəqil və xalq hərəkatlarına qarşı ən çox pozuculuq işlərini Amerika görmüşdür. Dünyada mömin və təmiz şəxsiyyətlərin ən çox terrorunu Amerikanın CİA casus şəbəkəsi törətmişdir. Dünyada antixalq rejimləri ən çox Amerika müdafiə etmişdir. Dünyada odlu silahların ən çox satışını Amerika həyata keçirmişdir. Xalqların sərvətlərinə qarşı ən çox qarətçiliyi Amerika törətmişdir. Bunlar şeytanlıqdır. Deməli, o, ən böyük şeytandır. Düzdür, bu işləri dünyada digər şeytanlar da görürlər, lakin heç biri Amerika qədər şeytan deyillər. Deməli, o doğrudan da böyük şeytandır.

### *İsrailin cinayətləri qarşısında Qərbin və Amerikanın sükutu və dəstəyi*

Bu gün Amerika və Qərb Fələstin məsələsində və bir çox digər məsələlərdə açıq şəkildə yalan deməkdədirlər; açıqcasına yalan danışırlar. İyirmi iki günlük müharibədə Qəzzə faciəsi kimi əzəmətli bir faciəni əksinə göstərirlər. Buna diqqət yetirməliyik. Mən bunu yada salmaq istəyirəm. Bu gün Qəzzə və Fələstin Qərbin rüsvay olduğu sahədir. Qərb insan hüquqları iddiası ilə Qəzzədə ən böyük və ən faciəli hüquq pozuntusuna göz yumdu. Qərblilər ötən il uzun müddət Qəzzə xalqının xeyrinə və onları müdafiəyə dair bir söz də demədilər. Günlər ötürdü, biz qulaq asırdıq ki, görək Amerika heç, bəlkə Avropada insan hüquqları təşkilatlarından, dırnaqarası azadlığı müdafiə təşkilatlarından Qəzzə xalqının xeyrinə bir söz deyilsin.

Olmadı. Xalqın səs-küyü ucalandan sonra, müxtəlif ölkələrdə xalq səs ucaldıb yürüş edəndən, mitinq keçirəndən, danışandan və rüsvayçılıq yüksələndən sonra danışmağa başladılar; yalnız söz. Hamının gözü önündə baş verən belə bir əzəmətli faciədə Qərb Qəzzə xalqını əsla himayə etmədi. Bu günə qədər də Qərb həmin mövqedədir. Birləşmiş Millətlər Təşkilatı özünü rüsvay etdi. Amerika rüsvay idi, daha da rüsvay oldu. Qoldstonun məruzəsindən hamınız xəbərdarsınız. Bu gün sionizm rejiminin cinayətkar başçıları mühakimə olunmalı və cəzalandırılmalıdırlar. Amma heç bir xəbər yoxdur, heç bir iş görülmür. İşğalçı və qondarma sionizm dövlətinə dəstəklər hətta artır da. Bunlar Qərbi rüsvay etdi. Amerika bu yeni hökumətlə və yeni prezidentlə dəyişiklik yaratmaq istədiyini iddia etdi. Dəyişiklik şüarı Amerikanın İslam regionunda rüsvayçılığını və bədnamlığını bir qədər düzəltmək üçün idi. Amma düzəldə bilmədilər və bilsinlər ki, sona qədər də düzəldə bilməyəcəklər. Çünki yalan danışırlar; çünki açıq şəkildə xalqa yalan deməkdədirlər. Onlar çoxlu məsələlərdə yalan danışırlar. İslam Respublikasında olan bizlər daim bunların yalanlarını görürük və eşidirik. Həqiqətləri tərsinə göstərmək, reallıqları tərsinə göstərmək otuz ildir bizim gözümüz önündədir. Biz buna adət etmişik. Lakin dünya mühakimə yürüdəcək. Tarix mühakimə yürüdəcək. Bu gün mən sizə deyirəm ki, Qərb sivilizasiyası Fələstin məsələsində böyük problem içərisindədir. Bu gün Qərbin liberal-demokratiya iddiası sual altındadır. Yəni siz Fələstində müqavimətinizə görə Qərbin dünyaya hökmranlıq amili olan bir neçə yüz illik bir iddiasını endirdiniz, bu iddianı puç etdiniz. Sizin göstərdiyiniz bu müqavimət bu qədər mühüm və əzəmətlidir!

### *Sionistlərin günahı Amerika rejiminin boynunda*

Sionistlərin və işğalçı dövlətin işlərinin günahı böyük həddə Amerika rejiminin boynuna düşür. Siz bunu bilin. Bunların iş başında olduğu bu əlli il boyunca BMT-nin Təhlükəsizlik Şurasında İsrail əleyhinə 29 qətnamə qəbul olunmuşdur. Amerika bu 29 qətnamənin hamısına veto qoymuşdur. İndi də keçmiş SSRİ-nin dağılmasından sonra indiyədək ötən on ildə Təhlükəsizlik Şurasında İsrail əleyhinə heç bir qətnamənin qəbul olunmasına icazə vermir. Deməli, bu cinayətlərin günahı Amerikanın boynuna düşür. Bu

qədər sülhsevərlik siması göstərən və bəzən bütün xalqlara - o cümlədən bizim şərafətli və məzlum xalqımıza zəhərli təbəssümlər nümayiş etdirən Amerika Fələstin məsələsində birinci dərəcəli cinayətkardır. Günahlarının biri budur. Bu gün Amerikanın əli dirsəyə qədər fələstinlilərin qanına batmışdır. Bunlar region ölkələrini təhdid edirlər. Əlbəttə, Suriya, Livan və orada olan digər ölkələrin çətinlikləri və problemləri var. Hökumətlərin söhbəti xalqların söhbətindən ayrıdır. Xalqların hər yerdə ürəyi doludur. Hökumətlər də bəzi təzyiqlər altında bəzi sözləri deməyə, müzakirələri aparmağa və mövqeləri seçməyə məcbur olurlar.

## *Hegemonluğun İsrailə dəstəyi - onun yaşamasının zəmanətçisi*

Əgər hegemonluğun və onun başında duran Amerikanın Fələstin işğalçılarına və İslam ölkələrinin ürəyində mərkəzləşmiş beynəlxalq terrorçulara - yəni qondarma İsrail dövlətinin indiki hakimlərinə dəstəkləri olmasaydı, yaşaya bilməzdilər. İndi də belədir.

Amerikalılar Fələstin məsələsində vasitəçi ola bilməzlər. Onlar münaqişə tərəfidirlər, İslam hökumətləri və İslam xalqları qarşısında dururlar. Son bir neçə ildəki hadisələrdə də bunu göstərdilər. İndinin özündə sionistlərin törətdikləri bu böyük faciədə - yəni əslində Beytülmüqəddəsin və müsəlmanların qibləsinin ikinci işğalında da bunları cürətləndirən amil Amerikanın himayəsidir; yoxsa bunlar cürət etməzdilər. Əgər Amerikanın himayəsi olmasaydı, İslam hökumətləri bu azğın zümrə ilə bacarardılar. İndi də əgər İslam ölkələri və İslam hökumətləri bir olsalar, bacararlar.

Amerikanın İslam İranı ilə əsas düşmənliyi iki amilə görədir: biri İslama bağlılıq, digəri isə Fələstin məsələsi qarşısında qətiyyətli mövqe. Bunu sizin hamınız bilin, dünyada hamı bilsin: Amerikanın İslam İranı qarşısında bu qədər cəsarətli, cürətli, qəzəbli və inadkar olmasını səbəbi bu iki məsələdir: İslam və Fələstin hadisəsindəki mövqe; inqilabın birinci günündən bu günə qədər dəyişməyən, günbəgün aydınlaşan və aşkarlanan açıq və qətiyyətli mövqe. İslam İranına göstərilən bütün təzyiqlər bu iki məsələyə görədir: İslamdan əl çəkmək, İslamın müqəddəs hökmlərinin hakimiyyətindən daşınmaq və Fələstin məsələsində mövqeni dəyişdirmək. Nə qədər ki, bizim bu mövqeyimiz var, Amerikanın ürəyi bizimlə

düzəlməyəcək. Son zamanlar müşahidə olunan bu zahirən mülayim tonların bir qədəri adi, siyasi və riyakar işdir, bir qədəri də İranın daxili vəziyyətinə dair yanlış təhlildən doğur. İranda nə baş verdiyini bilmirlər, səhv təhlillər edirlər, səhv təsəvvürlər edirlər, səhv bölgülər aparırlar.

## *Sionistlərin və Amerikanın məqsədi: Fələstinin adını silmək*

İndi bəlkə də iki həftədən çoxdur ki, Fələstin torpağında işğalçı sionizm rejimi tərəfindən yeni faciələr törədilməkdədir və məzlum Fələstin xalqı öz evində Amerikanın dəstəyi ilə ona qarşı istədiyini edən işğalçıların vəhşiliyinə düçar olmuşdur.

Nə üçün bu işi görə bilməlidirlər? Nə üçün müsəlman xalqlar bütün dünyada vahid hərəkətə başlamasınlar? Nə üçün Amerika ilə mübahisə edib, sözlərini ağır yuxuya getmiş Amerika rəsmilərinin qulaqlarına çatdırmasınlar? Nə üçün İslam hökumətləri belə bir həssas məsələdə lazımi vəhdəti, birliyi və həmrəyliyi yaratmırlar? Bu, qələbənin əvvəlindən bugünədək İslam Respublikasının fəryadıdır.

Necənci dəfədir Fələstin xalqına qarşı bu işi görürlər. Fələstin xalqının öz evində yaşamaq istəməsindən başqa günahı yoxdur; yalnız budur. İstəyir ki, öz evində yaşasın, evi ona məxsus olsun, düşmən öz evində ona hücum etməsin, qanını tökməsin, təhlükəsizliyini pozmasın. Belə bir həqiqi, doğruçu və haqlı ehtiyaca rəğmən, amerikalılar qollarını çırmayıb öz xəyallarına görə Fələstin məsələsini bütünlüklə unutdurmaq, Fələstin adını dünya xalqının yaddaşından tamamilə silmək üçün sülh formulu, sülh müzakirələri və danışıqlar stolu düzəltdilər. Bir neçə il də özlərini məşğul etdilər. Məgər olasıdır?!

Məgər elə tarixi keçmişə malik olan bir coğrafi ərazini yer üzündən silmək mümkündür? Məgər bir çox qədim tarixi sivilizasiyaların vətəni olan, Allahın böyük peyğəmbərlərinin tövhid bayrağını və ədalət nidasını ucaltdığı Fələstini dünya xəritəsindən silib onun yerinə İsrail adlı yalançı və qondarma bir ölkəni qoymaq olar?! On il, iyirmi il, qırx il və əlli il ötdükdən sonra tarixi həqiqətləri unutdurmaq olmaz. Səhv etdilər, elə bildilər ki, bacararlar. Gördünüz ki, işğalçıların özü yenidən belə bir qalmaqalın

yaranmasına səbəb oldular. Fələstin xalqını daha ağır təzyiqə məruz qoydular. Bəllidir ki, xalq fəryad ucaldır, qiyam edir və nəsillər oyanır.

## *Qərbin paradoksu: heyvanları xilasına çalışmaq, insanların qətli qarşısında sükut*

Bu gün şeytan qüvvələr - yəni sizin hegemonluq adlandırdığınız və nümunəsi Amerika olanlar bəşəriyyətin və insani dəyərlərin əleyhinə qiyam etmişlər. Bunlar üçün milyonlarla insanın canının əhəmiyyəti yoxdur. Siz gördünüz ki, 15-16 gün ərzində on minlərlə insanı öldürdü, yaraladı, didərgin saldı, dağladı, lakin beynəlxalq hegemonluğun qaşı da əyilmədi. Bir pişik filan evin quyusuna düşəndə bunlar riyakarcasına təşkilatlarını səfərbər edir və pullar xərcləyirlər ki, bir heyvan olan bu pişiyi quyudan xilas etsinlər. Yaxud bəzən humanistlik nümayiş etdirirlər. Bunları yaxşı tanıdığımızdan biz hərdən doğrudan da şübhə edirik ki, maraqlıdır, görəsən bütün bu qayğıkeşliklər səmimidir. Onlar bu qədər riyakarlıq edirlər.

## *Fələstinlilərin qətli qarşısında bəzi hökumət və siyasətçilərin biganəliyi*

Çox təəssüflüdür ki, dünyanın bəzi hökumətləri və siyasətçiləri əxlaqi məsələlərdən və vicdan mühakimələrindən çox uzaqdırlar. Onlar üçün iyirmi iki gündə Qəzzədə 1350-dən artıq insanın qətliamı, təxminən 5500 silahsız insanın və çoxlu uşaqların yaralanması heç bir həssaslıq oyatmır. Qatillər və cinayətkarlar nəinki cəzalandırılmır, hətta mükafat da alırlar. Qaniçən rejimin təhlükəsizliyi müqəddəs bir iş sayılır; hər bir halda onu müdafiə etmək lazımdır. Məzlum tərəf - həm xalqın böyük səs çoxluğu ilə iş başına gəlmiş hökumət, həm də o hökuməti iş başına gətirmiş xalq müttəhim və məhkum olur. Əxlaqla, vicdanla və dəyərlə münasibəti olmayan siyasət divanının hökmu budur. Bu hökumətlər ictimai rəyin özlərinə qarşı dərin nifrətini müşahidə etdikdə onun aşkar səbəbini görmək yerinə yenə də siyasətbazlığa sarı gedirlər və bu nöqsanlı vəziyyət davam edir.

Bütün İslam dünyasından olan əziz qardaşlar və bacılar! Təcrübələrdən dərs alaq. Bizim böyük ümmətimiz bu gün İslam

oyanışı sayəsində əzəmətli qüdrətə malikdir. İslam ölkələrinin çoxlu problemlərinin həllinin açarı bu möhtəşəm toplumun iradəsində və birliyindədir. Və Fələstin məsələsi İslam dünyasının ən təcili məsələsidir.

## *İslamla düşmənlikdə Amerika və sionizmin mənfur birliyi*

Dünya müsəlmanları barəsində həqiqətən təəssüfə və ağrıya səbəb olan budur ki, müsəlmanlar bu gün hamıdan artıq ehtiyaclı olduqları məsələyə daha az diqqət yetirirlər. O, İslama qayıdışdan, İslamın qüvvəsinə güvənməkdən, müsəlmanlar arasında birliyin və vəhdətin möhkəmləndirilməsindən ibarətdir. Səbəb budur ki, İslam düşmənləri bu din qarşısında daha qəddar və daha aşkar mövqe seçmişlər. Keçmişdə də İslamla çox düşmənçilik olunmuş və vuruşulmuşdur. Amma bu gün bu düşmənlik həmişəkindən daha qəddar, daha aşkar və daha ədavətlidir.

Bu düşmənlərin başında Amerika və sionizmin mənfur birliyi durur. Amerika dünya hegemonluğunun başçısı kimi rəftar edir, sionizm də müsəlmanların bir-biri ilə münasibətlərində pozuculuq və siyasi fəsad amili, eləcə də xalqların, İslam xalqlarının və ölkələrinin inkişaf prosesinə maneə funksiyasını yerinə yetirir. Bu iki qüvvə birləşmişlər. Təəssüf ki, ərəb regionu ölkələrinin başçılarının çoxunun vəziyyəti - gözlənilirdi ki, onlar Fələstinin işğalçılarına qarşı və bu rüsvayçı, aşkar və həyasızcasına təcavüz qarşısında düzgün mövqe seçsinlər - müsəlmanları günbəgün bu mənfur birlik qarşısında zəiflədən və o hökumətlərin özlərini də daha zəif və dayaqsız edən vəziyyətdir. Yaxşı olardı ki, İslam ölkələrinin başçıları onlara qüdrət, şəxsiyyət, istiqlaliyyət və hegemonçular qarşısında müqavimət gücü verən İslamın qədrini biləydilər. Təəssüf ki, müsəlman rəhbərlərin çoxu bu böyük nemətin qədrini bilmirlər.

İslam öz imanının, uca və nurlu təlimlərinin, mütərəqqi bilgi və hökmlərinin sayəsində İslam ölkələrində elə qüdrət vücuda gətirə bilər ki, heç kəs o xalqlara və ölkələrə hegemonluq edə bilməz, yekəxanalıq edə bilməz, onları nəyəsə məcbur edə bilməz. Nə üçün bu əzəmətli qüdrətdən istifadə etmirlər?

## *Qərb mətbuatının İsrailin cinayətləri barəsində ixtilafı*

Əlbəttə, İslam ümmətinin vicdanı tufan qopardı. Bu sahədə maksimum səhlənkarlığı və təqsirkarlığı Qərb mətbuatı etdi. İsrail radiosundan və sionizm rejiminin mətbuatından bir gözlənti yoxdur. Onların özləri qatildirlər. Qatildən özünü məhkum etməsini gözləmək olmaz. Lakin dünyanın necə deyərlər, azad mətbuatı nə üçün bu qədər haqsızlıq edir? Nə üçün bu qədər sükut edir və hadisəni kiçik sayırlar?

Bu yaxınlarda Amerikada bir ərəb əlinə silah götürüb bir neçə nəfərə hücum etdi və səhv etməsəm, onlara bir o qədər də zərər yetirmədi. Siz görün Amerika mətbuatı son bir neçə gündə necə ajiotaj yaratdı. Bütün qəzetlər və Qərbin digər media qurumları bir müsəlman ərəbin hücum xəbərini bütün dünyada əks etdirdilər. Lakin o acı hadisə qarşısında sükut etdilər. Əgər desələr də, tam təhrif olunmuşdu. Onlar belə faciələri bir nəfərə aid edirlər. Bunların hamısı zülmdür. Amerikada və Qərb dünyasında mətbuat işçiləri və idarəçiləri həqiqətən nə qədər təəssübkeş, daşürəkli və iddia etdikləri azadlıqdan uzaq olmalıdırlar ki, bu hadisəyə qarşı bu şəkildə pis və etinasız davransınlar.

## *İsrailin cinayətlərinə qarşı hökumətlərin sükutu*

Hökumətlər hansı münasibətlə özlərinə icazə verirlər ki, bir ölkəyə və bir xalqa bu şəkildə hücum və təcavüz etsinlər? Bu vəhşilik deyil?!

Onlardan soruşmaq lazımdır ki, "biz İraqı ağıllandırmağa qərar verdik" deməkdə dəliliniz nədir? Məgər siz kimsiniz? Dünyada sizi kim ağıllandırmalıdır? Əgər siz beynəlxalq məsələlərə belə müdaxilə etmək və öz xəyalınıza görə Təhlükəsizlik Şurasının qəyyumu olub onun qərarlarını icra etməyi öz haqqınız bilirsinizsə, nə üçün İsraillə belə münasibətdəsiniz? Nə üçün bu gün İsrailin fələstinlilərin əleyhinə törətdiyi cinayətin qarşısında gözləriniz bağlıdır?

## *Acı məqam: İşğalçıya dair məzlum siması və məzluma dair zalım siması yaratmaq*

Fələstin məsələsi barəsində demək istədiyim budur ki, bu məsələdə çox acı bir məqam mövcuddur. Fələstinə aid olan bütün məsələlər acı olsa da, bu məqam həqiqətən çox üzücüdür ki,

beynəlxalq təbliğatda Fələstinin işğalından ötən bütün bu qırx beş ildə, xüsusən də son bir-iki on illikdə gəlib Fələstini tutmuş yəhudiləri məzlum, hüquqlu, təzyiq, zülm və təcavüz altında olan bir xalq kimi göstərilməsinə çalışılmışdır. Lakin öz evlərini geri almağa çalışan ərəblər qəddar, hegemonçu və qanunlara boyun əyməyən xalq kimi göstərilir.

Dünyada Amerikanın və sionizmin təbliğatı bu böyük yalanı və bənzərsiz hiyləni inandırdı. Bu çox üzücü və acıdır. Onlar hətta film və şəkil göstərməkdə də aldadıcı nöqtələrə riayət edirlər. Misal üçün, öz jurnal və qəzetlərində ərəbləri göstərmək istədikdə bir qrup məzlum və qaçqın arvad-uşağı göstərən şəkilləri seçmirlər; yaxud zalım sionistlərin zülmündən tələf olan, dünya nemətlərindən və yer üzünün bütün xeyirlərindən məhrum olan gəncləri göstərmirlər. Başına şal atmış və əlində silah tutmuş kobud bir simanı göstərib deyirlər ki, fələstinlilər bunlardır.

Digər tərəfdən rus sionistlər və yəhudilər Fələstinə mühacirət etmək istəyəndə demirdilər ki, bunlar işğalçıdırlar, bunlar fələstinli deyillər, bunlar rusiyalıdırlar, ukraynalıdırlar, Avropa və Amerika ölkələrindəndirlər, öz torpaqlarında hər birinin yeri, məqamı, evi, sərvəti, pulu və imkanları var. Bununla yanaşı Fələstinə gedirlər ki, bir fələstinlinin haqqını tapdasınlar, onun evinə sahib çıxsınlar, sərvətini və torpağını işğal etsinlər, ailə qurmaq imkanını ondan alsınlar; bunları demirdilər. Bundan əlavə, sionizmin və Amerikanın muzdurları öz media qurumlarında bir qrup yorulmuş yəhudi arvad-uşağın şəkillərini göstərirlər; qoy dünya xalqı desin ki, işə bax, nə üçün ərəblər bu yazıqlarla belə rəftar edirlər.

Bunlar beynəlxalq hegemonluğun əlamətləridir. Amerikalıların dediyi yeni düzən budur. Yəni elə iş görsünlər ki, bütün dünya onların istədiyi kimi düşünsün və həqiqətləri əksinə anlasın. Fələstin hadisəsi elə hadisələrdəndir ki, mən bu formada onun üçün tarixdə bir bənzər tanımıram. Bir xalqı öz ölkəsindən və torpaqlarından necə qovmaq olar?! Fərz edin İraq rejimi bir qrup insanı öz ölkəsindən qovdu; təxminən 1-2 milyon nəfərlik bir cəmiyyəti. Amma bir xalqı bütünlüklə öz torpaqlarından qovmaq, torpaqlarının üzərindən onların adını götürmək, coğrafiyada və tarixdə o torpağın kimliyini məhv etmək - belə bir iş baş verməmişdir. Əgər bu iş bir qeyri-müsəlman ölkəsində baş versəydi, Avropa hökumətləri nə edərdilər?

Əgər bu əməl İslam məntəqəsi kimi bu həssas məntəqədən digər bir yerdə edilsəydi, dünya hökumətləri nə edərdilər?

Bu, xəbər hegemonluğunun sionizm və Fələstinin işğalı məsələsi ilə davranış tərzidir. Mənim fikrimcə Fələstinin ən üzücü hadisəsi budur ki, həqiqətlər belə çevrilir və əksinə göstərilir.

Hadisənin həqiqəti budur ki, bir xalqı öz evindən və həyatından didərgin salıblar və bu xalqın qayıdıb öz evini geri almağa haqqı çatır. Bu mübarizə haqlı mübarizədir. Amerika bu mübarizəni terrorizm adlandırır, amma sionistlərin fələstinli mübarizlərə qarşı xəbisliyini terrorizm adlandırmır. Görün həqiqətlər bu gün bəşəriyyətin çobanlığına və dünyanın rəhbərliyinə iddiaçı olan şəxslərin zehnində və əməlində nə qədər əksinə çevrilmişdir! Görün onlar həqiqətdən və insaniyyətdən nə qədər uzaqdırlar! Görün bu siyasət nə qədər qeyri-insanidir! Sionistlər Livana daxil olub Seyid Abbas Musəvi kimi bir uca və ləyaqətli insanı şəhid edirlər. Təkcə onun özünü öldürmürlər, həyat yoldaşını və uşağını da öldürürlər. Halbuki onlar döyüş meydanında deyildilər. Onlar yolda avtomobillə hərəkətdə idilər. Amerikalılar bu cinayəti məhkum etmirlər. Deməli, bəlli olur ki, siz zülmün tərəfdarısınız. Nə üçün bunu inkar edirsiniz? Siz xəbisliyin tərəfdarısınız, təcavüzün tərəfdarsınız, terrorun tərəfdarısınız. Bundan üstün və aşkar terror yoxdur. Digər tərəfdən Fələstinin evləri olduğu bir neçə fələstinli gənc ayağa qalxıb fədakarlıqla işğalçı sionizm dövləti əleyhinə bir iş gördükdə deyirlər ki, bu terrorçu hərəkətdir. Siz hansı haqla tərsinə adlar qoyursunuz və özünüzü haqlı bilirsiniz?

Siz baxın, bu gün sionistlərin gördüyü iş Amerika tərəfindən təsdiqlənir. Hansı terrorçu hərəkət bundan daha qəddar və daha zülmkar ola bilər?! Bəzən televiziya xəbərlərində görürük ki, bir ölkədə xalq çaxnaşma yaradır və həmin ölkənin polisi onlara qarşı qəddarlıq edir. Belə mənzərələr bir çox ölkələrdə görünür. Amma heç bir ölkədə polisin xalqla rəftarı sionistlərin Fələstin xalqına qarşı kobudluğu, xəbisliyi və əsəbiliyi kimi deyil; halbuki Fələstin xalqına hücum edən polis əcnəbidir. Polisin tutub elə qəddarlıqla döydüyü gənc ev sahibidir.

Böyük təxribat budur ki, Fələstin məsələsində həqiqəti tərsinə göstərirlər. Fələstin məsələsinə - yəni öz evinə, özünün insani və milli haqqına dair bir iş görən şəxs dünya hegemonluğunun mətbuatında, hegemonluğa və sionizmə bağlı təbliğat maşınlarında

terrorçu kimi tanıtdırılır. Böyük müsibət budur ki, bu faciələri sivil dünyanın qəbullluğu və təsdiqi ilə bir xalqın başına gətirirlər. Dırnaqarası sivil dünya, insan hüquqlarının dırnaqarası tərəfdarı olan dünya bir xalqın bütün bu insani, ilahi və qanuni hüquqlarını görməzdən gələn şəxslərin tərəfində durmuşdur.

Sionistlər gəlib fələstinlilərin evini işğal etdilər, onları ən ilkin hüquqlarından məhrum etdilər, onların torpağında onların əleyhinə olan bir dövlət yaratdılar. Bu gün dırnaqarası sivil dünya - Amerika və hegemonluğun səsucaldanları zülmə məruz qalmış xalqın yanında olmaq əvəzinə bu qırx beş il ərzində bu zülmləri törədən qurumun yanında durmuşlar. Doğrudan da bundan böyük müsibət varmı?! Biz bu böyüklükdə bir zülm tanımırıq. Bir xalqa belə böyük həcmdə zülm edirlər və sonra o xalq çarəsizlikdən bir hərəkət etdikdə, bir addım atdıqda, o addımı terrorizm və kobudluq adlandırıb vururlar. Bu gün dünyanın hegemonçu siyasətinin vəziyyəti belədir. Bu gün dünyanın qızıl və güc mərkəzləri Fələstin xalqının hüququnu tapdamaq üçün əl-ələ vermişlər. Onlar bu məsələnin insani cəhətini tamamilə görməzliyə vurmağa və hətta əksinə göstərməyə çalışırlar.

Amerika demokratiyadan danışdı, xalqların səsinin mötəbər olmasından danışdı, amma Fələstində hökumət seçmiş xalqın səsini görməzdən gəldi, heçə saydı, ona etina etmədi. Bu, xalqın zehnində hansı nəticəni yaradır? Məlumdur. Amerika Fələstin xalqının hüquqlarına, yəni on illərdir öz evindən, öz vətənindən zorakılıqla, qəddarlıqla və zülmkarlıqla qovulan bir xalqın - bunu hamı bilir; bu məchul tarix deyil, altmış il öncəyə aiddir. Fələstin xalqı bu vəziyyətdə öz hüquqlarından məhrum oldu və müxtəlif ölkələrə didərgin düşdü - hüququna heç bir diqqət göstərmədi, onları himayə etmədi, hətta əksinə, işğalçı rejimi yüz faiz himayə etdi. Əgər məzlum fələstinlilər etiraz etmək fikrinə düşdülərsə, o etirazı iğtişaş və pozucu fəaliyyətlər adlandırdı. Bu necə düzələcək?!

## *Terrorizmlə rəftarda hegemonluğun ikili standartı*

Qondarma və yalançı İsrail dövlətinin sionist terrorçuluğu əlli ildən artıqdır Fələstin xalqını zülm altında saxlayır, sionist hərbçilərin təpikləri onları əzir, aşkar şəkildə evləri uçurur, xalqı öldürür, gəncləri məhv edir, kişiləri həbs edir, qadınları xar və təhqir edir. Bu aydın terrorizmdir. İsraillilərin özləri də onu inkar etmirlər,

deyirlər ki, biz terror edirik. Bu cənab isə bunu görməzliyə vurur, amma öz şərəfini, öz evini müdafiə və təcavüzkar qarşısında kiçik qarşılıq üçün qəzəbli bir hərəkət edən fələstinli gənci terrorçu adlandırır. Onların terrorizm əleyhinə hərəkata tərəfdarlığı budur. Bunların məntiqində terrorizmin mənası da budur. Region xalqlarının qəlbi Amerikaya və onun avropalı törəməsinə, yəni İngiltərəyə nifrətlə doludur. Bu təkcə bizim xalqımıza məxsus deyil, regionun bütün xalqları bunlara nifrət edirlər. Bu nifrəti onların özləri vücuda gətirmişlər. Xalqların hüququna, istiqlaliyyətinə, izzətinə, namusuna və sərhədlərinə hücum edən şəxslərin özləri bu xalqları öz nifrətləri ilə doldururlar. Onlara nifrət etdiklərinə görə nə üçün gileylənirlər? Bəli, biz sizə nifrət edirik.

Amerika dövləti, ona bağlı media qurumlarının daim dünyanın rəhbərliyi, insan hüquqları və digər bu kimi məsələlərin lazım olması barədə ağız dolusu söylədiyi bütün iddialara rəğmən, İsrail dövlətinin arxasında dayanmışdır. İnsan doğrudan da dünyanın bəzi hegemonçu dövlət başçılarının həyasızlığına təəccüb edir. Bunu ədaləti müdafiə bilirlər, amma ədalətin mənasını anlamırlar. Amerika hökuməti ədalətin mənasını dərk etmir. Bunların hansı işi ədalətli olmuşdur? Bu cinayətləri bir ədalətli müharibə və terrorizmlə müharibə hesab edirlər, halbuki ən faciəli terrorçuluq işlərini aşkar şəkildə müdafiə edirlər. Doğrudan da xəcalətdən bəşəriyyətin alnı tərləyir.

Başqa bir nümunə işğal olunmuş Fələstindir. Bu gün israillilər dünya xalqının gözü önündə işğal edir, həbsə salır, işgəncə verir, məhkum edir, sürgün edir, bombalayır və dünya da heç bir söz demir. Bundan da maraqlısı odur ki, hegemonçu dünya o məzlumlara "nə üçün müdafiə edirsiniz?" – deyə qeyzlənir. Hegemonçu dünya - birinci növbədə hamısından quldur və xəbis olan Amerika və sonra Amerikanın ardıcılı olan digərləridir.

Hegemonçu dünya o işğalçıya "nə üçün işğal etdin" demək əvəzinə öz evlərini müdafiə edənlərə deyir ki, nə üçün müdafiə edirsiniz. Görün doğrudan da dünyaya necə çirkin yeni düzən hakimdir! Dedikləri yeni dünya düzəni budur? Fərz edin güclü və hegemonçu bir fərd bir qrup yetim uşağın evinə daxil olur, evi tutur, əşyalarını alır, ərzağı alır, rahat otaqları alır, evi tutur, uşaqları evin anbarında həbs edir, yaxud onlar üçün məhdudiyyət yaradır. Uşaqlar da fürsət tapıb fəryadlarını ucaltdıqda və "nə üçün" dedikdə işğalçı

hegemonçu tez qaşlarını çatır ki, siz də həmişə mübarizədən dəm vurursunuz, sülh haraya getdi; sülh istəyin, siz nə qədər kobudsunuz".

Bir xalqın hüquqları işğal olunmuş Fələstinə daxil olan sionist mühacirlərin ayaqları altında qurban edildi. Bu qondarma dövlətin ömründən ötən əlli ilə yaxın müddətdə daim kobudluq, insan öldürmək, yalan, hiylə, təcavüz, insanlara və günahsızlara hücum onun həyat amili olmuşdur.

İsrail budur. Həqiqətən insan təəccüb edir ki, Amerikanın prezidenti xəcalət çəkmədən günün aydın çağında və dünyanın ümumi rəyi qarşısında dayanıb uca səslə "biz terrorçuluğun qarşısını almaq üçün İsraillə həmkarlıq etmək istəyirik" - deyir. İnsan həqiqətən təəccüb edir ki, bu mövqeyin adı nədir. Bunun adı qafillik, insafsızlıq, hegemonluq və zorakılıqdır. Bu sözün mənası nədir? Bu gün də dünyanın ən təhlükəli və ən çirkin terrorçuları işğal olunmuş məzlum Fələstin ölkəsində hakimiyyət başında olanlardır. Siz terrorizmin və terrorçuların qarşısında bunlarla həmkarlıq etmək istəyirsiniz? Hansı terrorçular? Öz vətənindən didərgin düşüb uzun illərdən sonra zülmdən cana doyan, əlini qaldırıb yumruğunu düyünləyən və fəryad qoparan şəxslər terrorçudurlar?

Mən zəiflik hissi keçirən şəxslərə həmişə deyirdim ki, siz təbliğata nə üçün aldanırsınız; nə üçün elə bilməlisiniz ki, Amerika insan hüquqlarından danışdıqda doğrudan da İranda insan hüquqlarının tapdanmasına nigarandır? Onlar insana ürək yandırmırlar. Onların özləri insan hüquqlarını ən çox tapdayanlardırlar. Onlar günün aydın çağında Amerika şəhərlərinin birində 80 nəfər insanı bir evdə yandıran və qaşlarını da əyməyən şəxslərdirlər. Onların insanla və insan hüququ ilə nə işləri var?! İnsan hüquqlarını nə tanıyırlar?!

Terrorçuluq yeni bir məsələ və son dövrlərin məhsulu deyil. Amma dəhşətli silahların yaranması, kütləvi və faciəli qırğınların asanlaşması bu çirkin məsələni yüz dəfələrlə qorxulu və təhlükəli etmişdir.

Başqa bir mühüm və heyrətləndirici məqam hakim qüvvələrin şeytani hesablarıdır. Onlar qanunsuz məqsədlərinə çatmaq üçün terrorçuluqdan istifadəni bir alət kimi öz siyasətlərinə və proqramlarına daxil etmişlər.

Bizim regionumuzun xalqlarının tarixi yaddaşı heç zaman unutmayacaq ki, müstəmləkəçi dövlətlər Fələstini işğal etmək və onun məzlum xalqını öz yurd-yuvalarından didərgin salmaq üçün Ümumdünya Sionist Təşkilatı və buna bənzər ondan artıq digər təhlükəki terrorçu qrupları necə idarə edib Deyr-Yasin və ona bənzər faciələri yaratdılar.

Sionizm rejimi yarandığı zamandan bu günə qədər Fələstin daxilində və xaricində aşkar terrorçu rəftarlarını davam etdirmiş və onları həyasızcasına elan da etmişdir. Sionizm rejiminin qabaqkı və indiki başçıları açıq şəkildə özlərinin terrorçu tarixləri və hətta bəzi yerlərdə terror əməliyyatlarında iştirakları ilə fəxr edirlər.

Amerika və onun davamçısı olan Avropa ölkələri isə öz torpaqlarının xilası üçün məzlumcasına mübarizə aparan fələstinli mübariz qrupları terrorçu adlandırırlar. Terrorizm haqqında bu çaşdırıcı tərif indiki dünyada terrorizm probleminin əsas təməllərindən biridir.

İstismarçı sistem başçılarına görə terrorizm onların qanunsuz maraqlarını təhdid edən hər hansı bir amildən ibarətdir. Onlar işğalçılar və müdaxiləçilər qarşısında özlərinin qanuni hüquqlarından istifadə edən mübarizləri terrorçu adlandırırlar. Amma özlərinin günahsız xalqın canının və təhlükəsizliyinin bəlasına çevrilmiş xəbis və muzdur qüvvələrini terrorçu saymırlar.

Sizin indiki toplantınızın əsas işlərindən biri terrorizm haqqında aydın və dəqiq tərifin ortaya qoyulması ola bilər.

## *Amerikanın nəzərində fələstinlilərin terrorçuya, İsrailin isə müdafiəçiyə çevrilməsi*

Amerikanın bu prezidenti işğalçı İsrail hökumətinin hərəkətlərini dəstəkləyib deyir ki, İsrail özünü müdafiə edir. İsrail bu qırğınları törədir, o isə deyir ki, özünü müdafiə edir; onun işini terrorçuluqla mübarizə sayır. Qadını, uşağı və gənci öldürmək, fələstinlilərin palçıq evlərini buldozerlə uçurmaq özünü müdafiədir?! Özünü müdafiə edən Fələstin xalqıdır, işğalçıların zülmündən cana doyan şəxs, daha dözümü qalmayan və çarəni səhnəyə gəlməkdə bilən bu fələstinli qadın və kişidir. Kim razı olar ki, gənc övladı bir qanlı hadisəyə qoşulub bir saatdan sonra qətlə yetirilsin. Bir ana öz gəncini qucaqlayır, öpür, amma ağlamır, deyir ki, mən bunu

göndərirəm. Görün siz bu ananın başına nə bəla gətirmisiniz! Siz görün bu xalqın başına nə bəla açmısınız ki, bu şəkildə gəncini meydana göndərib "əgər yüz övladım olsaydı, hamısını bu şəkildə öldürülmək üçün göndərərdim" - deyir. Siz bu xalqa nə etmisiniz ki, 17-18 yaşlı bir qız özünə bomba bağlayıb sionist düşmənlərin arasına girməyə və onları öldürmək üçün özünü də öldürməyə razı olur? Siz bunların qarşısındakı bütün yolları bağlamısınız. Sonra deyir ki, İsrail özünü müdafiə edir. Müdafiə budur?! Bu söz məntiqlidir?! Bu söz bir prezidentə yaraşar?! Bu söz o dövlətə yaraşar ki, özünü dünyanın rəhbəri bilir və bütün dünyanın ona tabe olmasını istəyir?! Dünya xalqı gəlib bu zəif dəlili və bu zəif məntiqi dəstəkləsinlər və ona itaət göstərsinlər?! Bir xalqı təhqir etmisiniz, hiylə və zorla evini ondan almısınız, həyatını qaraltmısınız. Hər gün onu təhqir edirsiniz. Bu şəhərdən o şəhərə getdikdə öz evində və öz ölkəsində əcnəbilər tərəfindən yoxlanılmalıdır. Əgər nə vaxtsa hücum edib birini öldürsələr, dövlət şuraları oturub qərar çıxarır ki, bu adamları harada görsəniz terror edin. Dünya belə bir şeyi sionistlərdən başqa harada görüb?! Belə olan halda bu xalqa terrorçu deyir. Bu həyasız, yırtıcı və rüsvayçı terrorçuları müdafiə edərək deyir ki, özlərini müdafiə edirlər. Amerika hökuməti bundan da pis mövqe seçə bilərdimi?! İsrailin hərəkəti də Amerikanın bu təsdiqləri ilə başlandı. Əgər Amerika təsdiq etməsəydi, əgər yaşıl işıq göstərməsəydi, əgər müdafiə sözü verməsəydi, bunlar bu şəkildə daxil olmağa cürət etməzdilər. Onlar Amerikanın məntiqsiz himayələrinə arxalanıb bütün bu cinayətləri törədirlər. Buna əsasən, Amerika bu gün Fələstində baş verən bütün cinayətlərə şərikdir.

Diqqət yetirin, Fələstin xalqının intifazəsi bir xalqın qiyamıdır. Fələstin xalqı öz əlini qaldırmışdır, bunu onun-bunun boynuna atmayın. Bir xalq qiyam edib; şərəfi, izzəti, kimliyi və agahlığı onu meydana çəkib. İndi bunlara deyirsiniz terrorçu? Bunlar terrorçudurlar?! Əgər İsrail dövləti kiçik bir qrupla qarşılaşdığını iddia edirsə, bəs nə üçün xalqın evinə soxulurlar? Nə üçün evləri dağıdırlar? Nə üçün küçə və bazarda bu qədər cinayətlər törədirlər? Gedin həmin kiçik qrupla vuruşun. Xalqın arvad-uşağı nə günah etmişlər?! Başdan-ayağa səhv məntiq; müqəddimələri səhv, nəticə səhv. Belə olan halda bir prezident dünya xalqının gözü qarşısında o sözləri dilinə gətirir və ərizənin boş olmaması üçün də bu hökuməti, o hökuməti - İslam Respublikasını, İraqı, Suriyanı və digərlərini

müttəhim edir. Bu iddialar Amerikanı dünya xalqının gözündə mənfur edir. Bunlarsa diqqət yetirmirlər.

### *Amerika məmurlarının terrorizm məfhumunu yanlış anlamaları*

Sonrakı mətləb budur ki, Amerika məmurlarının zehnində olan terrorizm məfhumu yanlış məfhumdur. Onlar terrorizmi pis izah edirlər. Elə izah edirlər ki, iki fələstinli düşərgə olan Səbra və Şətila əhalisinin bu gün işğalçı sionizm hökumətinin başında duran şəxsin əmri ilə bir gecədə kütləvi qırğını və qətliamı terrorizm sayılmır.

Bir neçə il bundan öncə Livanın Qana əhalisinin çoxu şikayət üçün Birləşmiş Millətlər Təşkilatının bu ölkədəki nümayəndəliyi qarşısına toplaşmışdılar. Amma İsrail helikopterləri gəlib qadının, kişinin, uşağın, acın və susuzun olduğu bir neçə yüz nəfər insanı atəşə tutdu və hamısını öldürdü. Amerikalılar bunu terrorizm bilmirlər. Dəfələrlə Livana gəlib insanları oğurlayıblar, yaxud öldürüblər. Amma bunların heç biri terrorizmin nümunəsi deyil. İşğalçı sionizm dövləti bir-iki ay öncə rəsmən qərar çıxardı ki, bəzi fələstinlilər terror olunmalıdırlar. Hətta terror sozünü də işlətdilər, terror da etdilər, maşınlarını partlatdılar, çoxlu insanlar öldürdülər. Amma bunların heç biri terrorizmin nümunəsi deyil. Lakin öz torpaqlarını və tapdanmış hüquqlarını müdafiə etmək üçün qiyam edən, fəryad ucaldan, silahı da olmayıb əlində daş tutan Fələstin xalqı terrorçudur. Amerikalıların məntiqi budur. Bu səhv məntiqdir və dünya bunu qəbul etmir.

### *Amerikanın İsrailin dövlət terrorizminə dəstəyi*

Digər tərəfdən, son bir neçə gündə Amerikanın müttəfiqi, yəni işğalçı sionizm dövləti Fələstin şəhərlərində bu torpaqların müsəlman əhalisinə qarşı belə bir hücum həyata keçirdi; tankla, təyyarə ilə, helikopterlə və hərbi gəmilərlə xalqın müdafiəsiz evlərinə, qeyri-hərbçilərə, uşaqlara, məktəblərə və xəstəxanalara hücum etdi. Vəziyyət dəhşətlidir. İslam ümməti çox tez nəticə almalı və bu qafillikdən çıxmalıdır. İslam dünyasının hər bir tərəfi hücuma məruz qalır. Cənablar müjdə də verirlər ki, bura ilə kifayətlənməyəcəyik, başqa ölkələrə də hücum edəcəyik. İraqın və Somalinin adını çəkirlər. İslam dünyasının terrorizmlə mübarizə adı

altında müxtəlif meydanlara daxil olub öz maraqlarını təmin etməyə çalışan və dünyanın ən böyük terrorçu qurumu, yəni sionizm hökuməti ilə nəinki mübarizə aparmayan, hətta onu dəstəkləyən şəxslərin hücumuna məruz qalması planlaşdırılır. Əgər tankla xalqın evlərin hücum etmək terorizm deyilsə, bəs terrorizm nədir? Əgər ev F-16 təyyarələri və döyüş helikopterləri vasitəsi ilə xalqın evlərini raket atəşinə tutmaq terrorizm deyilsə, bəs terrorizm nədir? Hər halda, bu iki məsələ çox mühüm məsələlərdir və mən hər biri barəsində bir neçə cümlə deyəcəyəm.

## *Terrorizmlə mübarizədə Amerikanın ikili standartı*

Heç kəs Amerika hökumətinin bu cinayətlərdəki məsuliyyətini inkar edə bilməz. Amerikalılar terrorizmlə mübarizə şüarı ilə Əfqanıstan xalqına hücum etdilər. Əfqanıstanda bir neçə nəfəri terrorçu kimi elan etdilər. Amma Fələstin xalqının terroru və onların əleyhinə vəhşicəsinə hücumlara nəinki qarşı çıxmadılar, hətta onu dəstəklədilər də. Həqiqətən dünyanın xalqı və ümumi rəyi üçün çox ibrətli məsələdir. Bunlar nə deyirlər? İnsan hüquqlarından, azadlıqdan və xalqların hüquqlarından dəm vurmağa necə üzləri gəlir? Bir xalqla öz evində bu şəkildə qəddar, vəhşicəsinə və rəhmsiz rəftar olunsun, amma nəinki qarşı çıxmasınlar, hətta dəstəkləsinlər də. Təəssüf ki, həm Amerika hökuməti, həm İngiltərə hökuməti ümumi rəy qarşısında çox pis imtahan verdilər. Mənim fikrimcə, Amerikanın məmurları Amerika xalqını tarixdə xəcalətli etdilər; İngiltərə məmurları İngiltərə xalqını tarixdə başıaşağı və xəcalətli etdilər. Bunlar hökumətlərin və xalqların başında dururlar və bütün bu iddialarla bu böyük insani cinayət qarşısında hətta laqeyd də qalmır, onu müdafiə də edirlər.

## *Ən böyük zülm - məzlum Fələstin xalqını terrorçu tanıtdırmaq*

Bu məzlum xalq əgər özünü müdafiə etsə, əgər fəryad qoparsa, əgər İslam dünyasını köməyə çağırsa, terrorçudur. Sionizm rejimi isə terror işlərini bacardıqca çirkli və həyasız şəkildə günbəgün şiddətləndirir. Onun əməlləri qarşısında öz gözlərini yumurlar, amma bu məzlum xalqı terrorçu təqdim edirlər. Bu ən böyük

zülmdür. İslam dünyası özünə gəlməli və məsuliyyət hissi keçirməlidir.

### *Qərb mediası vasitəsi ilə intifazənin gələcəyinə ümidsizliyin yayılması*

Bu gün bizim ehtiyaclı olduğumuz budur ki, mübarizə ilə məşğul olanlar ruhlansınlar və gələcəklərinin ümidverici olduğunu bilsinlər. Təəssüf ki, bəzən bunun əksi görünür. Qərbin təbliğat maşınları bu ümidi sındırmağa çalışırlar. İntifazənin himayə və köməyə ən çox ehtiyacı olan bu son aylarda İslam dünyasında bəzi qələmlərin intifazə üçün zəhərli mətləblərə sarı çəkilməsi müşahidə olundu; intifazənin gücsüzlüyündən və zəifliyindən danışdılar. Bunlar zəhərdir. Bu mətləblərin mənası odur ki, Fələstin xalqının təlsim olmaqdan və sionistlərin ayağına düşməkdən başqa yolu yoxdur.

### *İsrail - Amerika dövlətinin zəncirli iti*

Amerika və onun zəncirli iti olan İsrailin vasitəsi ilə Argentina hadisəsi haqda yaranan son məsələ bu düşmənliklərin bir nümunəsidir. Əlbəttə, belə təbliğat bizim üçün yeni və mühüm deyil.

Amerikanın öyrətdiyi bu itlər - heyvandan da pis olan bu israillilər işğal olunmuş Fələstində bütün bu rüsvayçı faciələri törədirlər, amma dünyada əsla işıqlandırılmır, çünki tərəflər müsəlmandır. Bu həmin dünyadır ki, Hitler Almaniyasının süqutundan otuz-qırx il sonra bir qədər yəhudini öldürməsi, yaxud onlara işgəncə verməsi iddia olunan bəzi şəxsləri təqib etdi. Bəlkə də baş verən deyiləndən olduqca az olmuşdur.

### *Amerika və İsrailin istəyi: fələstinlilərin yalnız təlsim olması*

Amerika və İsrail də mütləq təslimçilikdən az bir şey barədə fikirləşmirlər. Amma onlar düşməndirlər və əlbəttə, səhv edirlər. Bu olacaq bir şey deyil. Onlar Fələstin tərəfdən mütləq təslimçilikdən başqa bir şeylə razılaşmırlar. Onların fələstinli tərəflə rəftarı bir daha bunu sübut etdi. Onlar fələstinli tərəfə heç bir imtiyaz vemək istəmirlər. Onlar fələstinli tərəfdən də Fələstin intifazəsini məhv etmək üçün vasitə kimi istifadə etmək istəyirlər. Bundan azına qane olmurlar.

## *İsrailin maraqları - Qərbdə azadlığın qırmızı xətti*

Biz illər öncə bir cümlə eşidirdik, onu təkrarlayırdılar. O cümlə bu idi: “Ey Azadlıq, sənin adınla baş verməyən cinayət varmı?!”. Bu gün bizim düşmənlərimiz həmin cümləni bir daha reallığa çevirirlər. İndi Amerika bizim söz azadlığımızın tərəfdarı olub. Məgər bu məmləkətdə uzun illər boyu muzdur və çirkin Pəhləvi rejimini dəstəkləyən siz deyildiz?! Halbuki o rejimdə heç kimin bir kəlmə söz deməyə cürəti yox idi.

Mən uzun illər bu Məşhəd şəhərində, bu elmi hövzədə, bu küçə və xiyabanda və tağut dövrünün mübarizələrində bu xalqla birgə olmuşam. O zaman bir ruhaninin dini məsələlər münasibəti ilə Fələstin torpaqlarının sionistlər tərəfindən işğalına azacıq işarə belə etməsinə icazə vermirdilər. Bu ölkə belə idi. Bəli, həm İsrailə ölüm olsun, həm İsraili müdafiə edənlərə, həm də uzun illər sionistlər barəsində bir kəlmə danışmağa qoymayanlara! Bu gün Qərb ölkələrində qəzetlərin sionistlər haqqında pis danışmağa icazəsi yoxdur. Bir nəfər bir kitabda yazır ki, yəhudilər İkinci Dünya Müharibəsində Hitlerin vasitəsi ilə baş verən qətliamlarını şişirtmişlər. Bu kitabı qadağan edirlər; bu heç. Kitabın müəllifi üçün cinayət işi açırlar. Özləri bu gün azadlığa qarşı belə rəftar edirlər.

Qərbdə qəzetlər azaddır, hər şeyi yazırlar, amma onlar kimlərə məxsusdur? Məgər xalqa məxsusdur?! Bu aydın məsələdir, gedib baxsınlar. Siz bütün Avropa və Amerikada sayılan bir qəzet göstərin ki, kapitalistlərə məxsus olmasın. Deməli, "qəzet azaddır" dedikdə, yəni kapitalist öz sözünü deməyə azaddır; kimi istəsə, gözdən salar, kimi istəsə, böyüdər, ictimai rəyi hansı tərəfə istəsə, çəkər. Bu, azadlıq olmadı. Əgər bir nəfər peyda olub sionizm əleyhinə danışsa - sionistlərin əleyhinə bir neçə cild kitab yazıb yəhudilərin insan yandıran sobalarda yandırılmasının həqiqət olmadığını deyən fransalı (Roje Qarodi) kimi - onunla başqa cür rəftar edirlər. Əgər biri kapitalistlərə və kapitalizmin güc mərkəzlərinə bağlı olmasa, nə sözü danışılır, nə səsi kiminsə qulağına çatır, nə də söz azadlığına malik olur.

## *Amerikanın müdaxiləsi və Fələstin düyününün daha da bərkiməsi*

Bu regionun təhlükəsizliyi bu regionun hökumətləri tərəfindən təmin olunmalıdır. Necə ki, Fələstin məsələsində Amerikanın müdaxiləsi bu hadisənin daha da düyünlənməsinə səbəb olur.

Fələstin düyünü Amerikanın müdaxiləsi ilə açılmır, daha da bərkiyir. Amerikalılar bu hadisəyə nə qədər müdaxilə etsələr, düyünü daha da bərkidəcəklər. Fələstin xalqı ayıq xalqdır, azad xalqdır, aydın düşüncəli xalqdır. O, hökumət seçmişdir. Qoyun o hökumət bu xalqın dəstəyi ilə öz işlərini görsün. Onların müdaxiləsindən, özü də birtərəfli, hegemonçu və işğalçı sionizm rejiminin xeyrinə olan müdaxiləsindən nə qədər ötsə də, Fələstin hadisəsi daha da çətinləşir. Sözsüz ki, bu məsələlər həll olunacaq; həm İraq məsələsi həll olunacaq, həm Fələstin məsələsi. Amma elə bir gündə həll olunacaq ki, bu məsələlərin həlli ilə Amerika hegemonluğunun heysiyyətindən, kimliyindən və varlığından heç bir şey qalmayacaq.

## *Sionist şeytanların Amerika hökumət başçılarını təhrik etməsi*

Mən belə hiss edirəm ki, sionist şeytanlar hətta Amerika hökumət başçılarını da təhrik edirlər. Müəyyən mənada və bəzi yerlərdə onlar bunların alətidirlər. Bu gün belə hiss olunur ki, İran xalqı və İslam Respublikası əleyhinə hücum, qarşıdurma, xəbislik və düşmənlik üçün sionist şeytanlar tərəfindən Amerika hökumət başçılarına qarşı kəskin və şiddətli təhrik mövcuddur. Lakin keçmiş təcrübə bizim və onların qarşısındadır.

## *Hegemonluğun həmişəki arzusu - Fələstin amalını sionistlərin ayağı altında qurban kəsmək*

Görün bu gün Fələstin barəsində nə edirlər, bu xalq üçün və əslində region üçün hansı yuxunu görmüşlər. Bu da böyük həddə son bir ilin hadisələrindən qaynaqlanır.

Amerika bu regionda tankla, topla, hərbi donanma ilə, bombalamaqla və bu kimi vasitələrlə özünə davakar bir qüdrət düzüb-qoşa bilən kimi tez regionun əsas məsələsinə - yəni Fələstin

məsələsinə sarı getdi, tamahlandı və elə bildi ki, İraq rejiminin təhlükəsini uzaqlaşdırdığı üçün regionun zəif ruhiyyəli hökumətləri özlərini ona borclu və minnətdar biləcəklər. Düşündü ki, bu arada istifadə edib hegemonluğun son illərdəki həmişəlik arzusunu həyata keçirməyin zamanıdır. O arzu nədir? O arzu Fələstin amalını qəddar sionistlərin ayağı altında qurban kəsməkdir. Bu işi görmək istəyir və görməkdədir. Ümidvarıq ki, İslam ümmətinin və Fələstinin müsəlman gənclərinin qeyrəti ilə bu böyük xəyanətdə uğurlu olmayacaq.

## *Region məsələlərinə müdaxilə etməyə Amerikanın haqqının çatmaması*

Amerika bu məsələdə nəçidir? Amerika hökuməti hansı münasibətlə bu xalqa və bu regiona aid olan bir məsələdə bir qəyyum, bir ixtiyar sahibi və bir quldur kimi müdaxilə edib ona-buna nə iş görməsini diktə etməyə özünü haqlı bilir? Sizə nə var? Siz Amerika qitəsinə əl uzadıb təcavüz etdiniz, icazəsiz daxil oldunuz, insan öldürdünüz; bəsiniz deyil? Bu Orta Şərq regionunda bu xalqların sayıq və agah insanlarının hər birinin ürəyi sizə qarşı nifrət və ədavətlə doludur. Yenə də yaxınlaşır və öz gümanınıza görə Fələstin məsələsini həll etmək istəyirsiniz. Həll yolu budur? Fələstin məsələsinin həlli işğalçı dövlətin dağılıb məhv olmasındadır. Torpaqların sahibləri gəlib orada hökumət təşkil etməlidirlər. Müsəlman, məsihi, yəhudi - nə varsa, birlikdə yaşamalıdırlar.

## *Amerika sionizm rejiminin cinayətlərinin şəriki kimi*

Şübhəsiz, bu cinayətlərdə yalqız deyil. Şübhəsiz, onun cinayətlərinin şəriki Amerika Birləşmiş Ştatlarıdır. Bu gün kim o zalıma kömək etsə, onun cinayətinə şərik olur. Bu gün bunun təsirinin görünməməsi mümkündür, lakin xalqların və tarixin yaddaşından silinməyəcək.

## *Fələstin məsələsində liberalizmin rüsvayçılığı*

Məmurlar barəsində mövcud olan ən mühüm mənfi cəhətlər bir neçə şeydən ibarətdir. Mən o gün də İmam meydanında qısa işarə vurdum, indi onları siz gənclər üçün bir qədər açmaq istəyirəm:

Biri bəzi məmurlarda inqilabi və dini baxışın və imanın zəifləməsidir. Bunlar Qərbin siyasi proqramlarına valeh olmuşlar; özü də səhv çıxan proqramlara. Bir zaman insan fikrinin və əməlinin təkamül zirvəsi sayılan və ondan üstün bir şeyin mövcud olmadığı deyilən Qərb liberal-demokratiyası (mənim fikrimcə bunun özü bir dar düşüncəliyin əlamətidir ki, insan bir nöqtəni tapıb insanın hərəkət etməsi üçün ondan üstün bir nöqtənin olmadığını desin. Xeyr, insan öz hərəkətində nəhayətsizdir) bu gün öz əli ilə özünü rüsvay etmişdir. Bu gün Əfqanıstan məsələsini və uzun illərdir Fələstin məsələsini vücuda gətirən bu liberalizmdir. Qərbin bu yalançı humanizmi əlli ildir Fələstin xalqını görməzdən gələn və onu bütövlüklə silmək istəyən amildir. Özlərindən soruşmurlar ki, ümumiyyətlə dünyada Fələstin xalqı mövcud olub, yoxsa yalandır. Əgər Fələstin adlı bir torpağın olduğunu qəbul edirsinizsə, bəs onun xalqı hanı? Bir xalqı və bir coğrafi adı bütövlüklə Yer kürəsindən silmək istədilər. Bu gün onların humanizmi, liberalizmi və demokratiyası elə bir qapalı və avtoritar həddə çatmışdır ki, Əfqanıstan xəbərlərini yayımlamaq üçün hətta bir xarici media qurumuna da icazə vermək istəmirlər. Bu, Qərbin nəzərində xəbərin azad yayımıdır. Bu nüsxə rüsvay olmuş və səhv çıxmışdır. Eyni zamanda İslam inqilabının sayəsində izzət və hörmət əldə etmiş, ona görə, İslamın, imamın və inqilabın tərəfdarı olduğunu bildiyinə görə dörd nəfərin hörmət etdiyi filan məmurumuz qəflətən İslam demokratiyasının qarşı tərəfi olan Qərb liberal-demokratiyasının tərəfdarı olur. Ümumiyyətlə İslam demokratiyası və İslamda azadlıq bu deyil, başqa bir həqiqətdir. Bəzən belə nümunələr nadir şəkildə tapılır. Əlbəttə, mən Allaha şükür edirəm ki, ölkənin birinci dərəcəli məmurları İslamın əsaslarına dərindən etiqadlıdırlar. Düşmən özünün düşüncə və siyasi təsirini həssas yerlərə çatdıra bilməmişdir. Bu gün üç hakimiyyətin başçıları və ölkənin birinci dərəcəli məmurları imamın və inqilabın amalına dərindən etiqadlıdırlar. Amma bəzi orqanlarda belə nümunələr peyda olur. Mən o gün də buna toxundum.

## *Amerikanın cihad qrupları ilə düşmənliyi*

Amerikalılar rəsmən elan etdilər ki, Fələstində Həmasın qarşısında hansı qrup dayansa, onlara pul verməyə hazırdılar və

verdilər. Onlar üçün təbliğat imkanı da yaratdılar. Amma bütün bunlara rəğmən və Amerikanın və Fələstini işğal edən sionistlərin acığına, Həmas mübarizləri qələbə çaldılar. Əgər bu gün İslam dünyasının hansı bir yerində azad seçkilər keçirilsə, həmin hadisə baş verəcək və Amerikaya müxalif olan qrup səs qazanacaq. Çünki xalqın könlü, hissləri və siyasi meyli bu gün budur.

### *"Ar olsun sizə! Azadlığı müdaifə budur?!"*

Fələstin xalqı haqlıdır; haqq onunladır, o məzlumdur. Ar olsun azadlıq iddiaçılarına, insan hüquqlarının iddiaçılarına, bu xalqa edilən bütün bu zülmlərə göz yumub yenə də insan hüquqlarını müdafiə iddiası edənlərə və xəcalət də çəkməyənlərə! Mən təəccüb edirəm. Əgər fələstinlilər öz ölkələrində bir əcnəbi azlıq olsaydılar - demirəm ki, ölkə sahibi, fərz edin fələstinlilər öz torpaqlarında azlıq olsaydılar, Fələstinə gəlmiş mühacirlər olsaydılar - dünyanın harasında bir insaflı insan bunlara qarşı bütün bu zülmlərə dözərdi?! Evlərini uçururlar, gənclərini öldürürlər, kişilərini həbs edirlər, daim bunları təhdid edirlər, evlərini bombalayırlar, ərzaqlarının qarşısını alırlar, iqtisadi blokadaya salırlar, bağlarını dağıdırlar, bütün həyatlarını korlayırlar. Amma cənab Buş xəcalət də çəkmir və durub deyir ki, biz azadlığa sadiqik. Bu azadlıqdır?! Ar olsun sizə! Sizin azadlıq tərəfdarlığı budur.

### *Fələstin xalqı adlı həqiqəti inkar etməkdə hegemonluğun həyasızlığı*

Hegemonluq müsəlman xalqlara qarşı özünün zülmünə bir hədd tanımır. Bu gün işğalçı sionistlər və onların hərtərəfli himayədarı kimi Amerika o qədər irəliləyiblər ki, hətta Fələstin milliyyətini də inkar edir və Fələstin xaqlı adlı bir həqiqəti tanımırlar. Halbuki Fələstin xalqı dərin tarixi köklərə və inkarolunmaz coğrafi bağlara malik bir xalqdır. Nə tarixi kökü olan, nə coğrafi rabitəsi olan isə qondarma və yalançı İsrail xalqıdır.

### *İnsan hüquqları məsələsində Qərbin ikili standartı*

İşğal olunmuş Fələstində xəyanətkar sazişlərə etina etməyib boş əllə haqlı mübarizələrini davam etdirən müsəlmanlar kobud və qeyri-insani üsullarla əzilirlər. Qadınları, uşaqları və qocaları əmr

almış sionist əsgərlərin əli ilə işgəncə görür, tar-mar olurlar və Qərb dövlətlərindən olan bütün bu insan hüquqları iddiaçılarının isə səsi çıxmır. Amerika, İngiltərə və digərləri əməli cəhətdən himayə edir və dillə həvəsləndirirlər də.

Livanda məzlum fələstinli qaçqınların düşərgələrindən əlavə, livanlı müsəlmanların ev və yurdları İsrailin reaktiv təyyarələri vasitəsi ilə bombalanır. Yoldan keçən və mülki qadın, kişi, qoca və gənc qana boyanır, möhtərəm bir ruhani gecə yarısı sionsit muzdurların vasitəsi ilə öz evindən oğurlanır. Uzun illərdir terrorizmi və insan oğurluğunu məhkum etməyi bütün sözlərinin nəqəratı edən və bəhanə göstərmək üçün daim öz maraqlarına qarşı çıxan hər bir dövləti onda ittiham edən bütün bu Qərb dövlətlərindən hətta bir nəfər də bu iyrənc və vəhşi terrorçu hərəkətlər qarşısında ciddi mövqe seçmir, bir dövlətin belə quldurcasına başqa bir ölkə əhalisinin evinə bomba tökməsinə, yaxud adam oğurlamasına narahat olmur.

# Beşinci fəsil: İsrail, ərəb və müsəlman hökumətləri

## *İsraillə düşmənliyin onun himayədarları ilə dostluqla bir yerə sığmaması*

Çox zaman İsrail adı ilə şüar verənlərin nəzərindən iki məqam uzaq qalır. Biz bu iki məqamı ixitsarla deyəcəyik. Bu iki məqamın biri budur ki, İsrail işğalçıları ilə düşmənlik onları hərtərəfli himayə edən şəxslərlə dostluqla bir yerə sığmır. Bu mümkün deyil. Amerika və müttəfiqlərinin yolu ilə Fələstini xilas edə bilmələrini güman edən şəxslər təəssüflü bir səhvdədirlər. İsrail hökuməti vasitəsi ilə Fələstini xilas etməyin mümkün olmadığı kimi, Amerika və müttəfiqlərinin vasitəsi ilə də Fələstini xilas etmək mümkün deyil. İşğalçı dövlətin himayədarlarına arxalanmaqla sonuclanan hər bir hərəkət şübhəsiz, bir yayınma və böyük bir səhvdir. İsrailə qarşı olduğunu şüar verən, amma bu məsələdə İsrailin müttəfiqləri ilə söhbət edən və onlara güvənən şəxs bilməlidir ki, yalan deyir. Belə bir şey mümkün deyil.

İsraili qidalandıran şəxslər İsrailin cəbhəsindədirlər. Hər hansı bir yolla İsrailə kömək edən şəxslər İsrailin cəbhəsindədirlər. Sionistlərlə müzakirə aparan şəxslər İsrailin cəbhəsindədirlər. Fələstin torpağını xilas etmək üçün aparılan mübarizə özünün həqiqi mənasına malik olmalıdır. Mübarizənin qarşı tərəfi barışıqdır. Bu məsələdə barışıq xəyanət, mübarizə isə vəzifədir. Heç kim barışığı mübarizə saymamalıdır.

## *İslam hökumətlərinin səhlənkarlığı - düşmənin geri çəkilmədən məqsədlərinə çatmasının amili*

Hegemonluğun və onun əlaltılarının bu yekəxanalığına müsəlman xalqlar və fərdlər tərəfindən ümumi bir iradə və bir-birinə uyğun hərəkətlərlə cavab verilməlidir və hegemonluğun təxribatlarının şəri müsəlman xalqların başı üzərindən uzaqlaşdırılmalıdır. İslam hökumətlərinin işğalçı İsrail rejimi ilə mübarizədəki səhlənkarlığı Amerikanı ərəblərlə İsrail arasında birbaşa müzakirələr başlatmağa həvəsləndirdi və təəssüf ki, bəzi ərəb başçıları hegemonluğun bu zərbəsinin çox geniş cəhətlərinə diqqət yetirmədən sözügedən

rəzilliyə boyun əydilər. Nəticə bu oldu ki, işğalçı İsrail hökuməti öz məqsədinə - yəni ərəb ölkələri tərəfindən tanınmağa nail oldu; halbuki özünün təcavüzkar mövqeyindən iynə ucu qədər də geri çəkilmədi.

İndi sionistlər terrordan, adam oğurluğundan, Fələstin və Livan torpaqlarını işğal etməkdən, fələstinliləri əzməkdən, özünün keçmişdəki kütləvi qırğınlarından və digər dəhşətli cinayətlərindən əlavə, gündəlik olaraq Livanın cənub kəndlərini özünün hava hücumları ilə yerlə-yeksan edir. Amerika və Avropa tərəfindən ona heç bir təzyiqin göstərilməyəcəyinə güvənməklə o bölgənin əhalisinə qarşı ən qəddar cinayətləri törədir. Ərəblərin İsraillə müzakirələri hətta sionistlərin təcavüz və cinayətlərinin qarşısını da ala bilməmişdir.

Bu, düşməni daha tələbkar və daha cəsarətli edən geri çəkilmələrdən bir nümunə idi.

### *Ərəb dövlət başçılarının xəyanətli sükutu və Fələstinə rəhbərlik iddiasında olanların rüsvayçı mövqeyi*

Ərəb ölkələri başçılarının əksəriyyətinin bəzi yerlərdə hətta aşkar xəyanətlə birgə olan razılıqlı sükutu və Fələstin xalqına rəhbərlik iddiasında olanların rüsvayçı və xəyanətkar mövqeləri müsəlman Fələstin torpağını həmişəlik tutmaq, onun yaralı və məzlum xalqını həmişəlik əsir və didərgin etmək istəyən hiylə, zülm, təcavüz və xəyanət zəncirinin bitişik halqalarıdır.

İsraillə düşmənçiliyə dair İraq rejiminin başçıları tərəfindən başlanılan və Qərbin sionist mediasında da geniş işıqlandırılan yalançı ajiotaj hegemonluğun planlarının təkmili və ərəb hökumətlərinin sükutu ilə Fələstin məsələsinə qarşı baş verən xəyanəti örtmək üçün vasitə, həmçinin Sovet yəhudilərinin işğal olunmuş Fələstinə köçürülməsi kimi mühüm bir məsələni kölgədə saxlamaq vasitəsidir.

### *Müsəlman xalqların İsrailin cinayətlərinə etiraz etmək azadlığının olmaması*

Bu gün İslam dünyasında müxtəlif ölkələrdə yaşayan müsəlmanların qəlbini qüssəyə qərq edən mühüm hadisələr baş verir. Onlar kədərlənirlər, ürəkdən yanırlar, amma bir söz deyə

bilmirlər. Nə üçün? Çünki təəssüf ki, ölkələrinin bir çox başçıları İslam ümmətinə bu kədərləri yaratmaqda və İslam ölkələrində gənc təbəqələrin ümidlərini məhv etməkdə şərikdirlər. Bir məsələ məzlum Fələstin müsəlmanlarına aid məsələdir. Bunların hamısı dərddir. Öz ölkəmizə baxmayın ki, bu dərdləri ölkənin ən yüksək məmurlarından adi insanlara qədər hamı azad şəkildə söləyir, danışır, varlığını bildirir və ürək sözünü deyir. Təəssüf ki, digər ölkələrdə xalqa ən azı İslam ümmətinin bu əzəmətli hadisələrinə dair öz qüssələrini dilə gətirmək imkanı vermirlər. Siz baxın, ərəb ölkələrində nə qədər insanların qəlbi sionist düşmənlə sazişdən kədərlə doludur, amma bir söz deyə bilmirlər; düz keçmiş rejim dövründəki kimi. Biz burada sionistlərin əleyhinə bir söz deyə bilmirdik. O zaman bizim ürəyimiz dolu idi, amma bir söz deyə bilmirdik. Mən həmin illərdə bir dəfə tələbələr arasında Bəqərə surəsinin əvvəllərində Bəni-İsrailə adi ayələri təfsir edərkən bəzi sözlər demişdim. Sonra həbslərin birində məni sual və istintaq məngənəsinə saldılar ki, siz İsrailin adını çəkmisiniz. Bəni-İsrailə aid ayələrdən danışmışdım. Dedilər nə üçün İsrailin adını çəkmisiniz. Yəni Quranı təfsir edən şəxsin də Bəni-İsrail barəsində bir söz deməyə haqqı yox idi. Çünki o zaman İsraillə isti münasibətləri olan xəbis və xain rejimin müttəfiqinin acığına gələ bilər. Bu gün bəzi İslam ölkələrində vəziyyət elədir.

## *Muxtar təşkilatın xəyanəti*

Fələstinlilərin adı ilə bu işi görən bu şəxslərin xəyanəti bu günə qədər Fələstinə olunmuş bütün xəyanətlərdən çirkin, ağır və pisdir. O xalq üçün də nə bir iş gördülər, nə də görə bilərlər. Amerikada yaşayan bir fələstinli ərəb yazıcı yazmışdır ki, Ərəfatın bu təşkilatı hələ Qəzzə şəhərinin zibillərini küçələrdən yığışdıra bilməmişdir. Amma həmin müddətdə xalqın casusluğunu etmək üçün beş təhlükəsizlik komitəsi təşkil etdilər. Bu oldu Fələstin dövləti? Bu oldu Fələstin xalqının qayıdışı? Bu oldu Fələstin hüququnun bərpası? Bunlar bu qədər həyasızdırlar. Bu şəxs israillilərlə ilk müzakirələrinə başlayanda mən dedim ki, o həm xaindir, həm də axmaq. Əgər xain, amma ağıllı olsaydı, bundan yaxşısını edərdi. Əlbəttə, mən tam bilmirəm, amma güman edirəm ki, amerikalılar və İsrailin casus şəbəkələri bunların zəif cəhətlərindən istifadə etdilər. Bunların zəif cəhətləri çoxdur, dünya adamıdırlar. İşdə din

olmadıqda belə olur. Bunlar Fələstin Azadlıq Təşkilatını idarə etdikləri bu bir neçə ildə Allah bilir ki, maddi baxımdan, rəftar və əxlaq baxımından nə qədər problemləri olmuşdur. Onlar da deyəsən həmin nöqtələr üzərində dayanmışlar. Bir tərəfdən də yorulmaq, qırılmaq və amallardan imtina etmək bunları bu dəhşətli fəlakətə, həlakət, bədbəxtlik və əbədi lənət bataqlığına saldı. Siz elə bilirsiniz bunları ürəkdən lənətləməyən bir fələstinli ola bilərmi?! Yalnız bunların əlaltılarından və maraqlarda bunlarla şərik olanlardan ola bilər. Dörd-beş milyon fələstinli qaçqın Fələstindən bayırda, təxminən üç milyon fələstinli daxildədir. Baxmaq lazımdır ki, bunların Fələstin barəsində nəzərləri nədir. Bunların yumruqları möhkəmdir, bunların ürəkləri dağlıdır.

### *Ərəb hökumətləri arasında İsraillə rabitənin qəbahətinin aradan qaldırılması*

Bir zaman ərəb hökumətləri İsraillə söhbət etməyi və hətta İsrailin adını çəkməyi çox çirkin işlərdən bilirdilər. Bunlar bu məsələni ortaya qoymaqla onları bir-bir ərəb xalqının sıralarından xaric etdilər və günahı onun boynuna yıxdılar. Elə iş gördülər ki, tədricən bu məsələnin qəbahəti aradan qalxdı. Hətta İsrailin sərhədlərində olmayan və İsraildən heç bir təhlükə və zərər görməyən hökumətlər də öz evlərində oturub İsraillə müzakirədən danışırlar. Doğrudan buna nə lüzum var?! Amma edirlər; çünki qəbahət aradan qalxmışdır.

### *Fars körfəzi ölkələrinin İsraili rəsmən tanımaq xəyanəti*

Bu gün Fars körfəzi hövzəsinin bəzi ölkələri öz tarixlərinə və ərəb ölkələrinin tarixinə ən böyük xəyanəti etdilər. Yəni bir İslam ölkəsini və bir ərəb xalqının ölkəsini işğal edən İsrailin zülmünü və işğalını təsdiqlədilər, onu müdafiə etdilər. İsraili tanımaq bu deməkdir. Onlar İsrailə qarşı embarqoları götürürlər və bu, İslam və ərəb xalqlarına xəyanət, Fələstin xalqına isə ən böyük xəyanətdir.

Fars körfəzi Əməkdaşlıq Şurasının üzvü olan ölkələrin hökumətləri bu xəyanətdən keçəcəklərmi? Bu ölkələrin xalqları başçılarının xəyanətinə göz yumacaqlarmı?

Dünya həqiqətləri siyasi oyunlarla ötəri və dövri hadisələrlə dəyişən deyil. Fələstin fələstinlilərə məxsusdur. Sionizm hökuməti

işğalçı və yalançı bir dövlətdir. İsrailin yerli Fələstin xalqından başqa heç bir həqiqi vətəndaşı yoxdur. Dünyanın hər tərəfindən fələstinlilərin evlərinə sahib olmaq üçün toplaşanlar müsəlman xalqların səyi ilə bir gün bu evi öz sahiblərinə qaytarmağa məcbur olacaqlar. O günün tez, yaxud gec olması mümkündür, lakin mütləq və qaçılmazdır.

## *Ərəb hökumətlərinin geri çəkilməsi və işğalçı ilə rabitənin bərqərar edilməsi*

Əvvəlcə İsraillə müzakirənin qəbahəti ortadan götürüldü. Allah adını çəkmək istəmədiyim bu Misir siyasətçisinin günahından keçməsin! Əlbəttə, uzun illər bu tribunadan ona çox lənət göndərilmişdir və mən bir daha adını çəkmək istəmirəm. Əvvəl bu adam işğalçı hökumətlə müzakirə apardı və onun qəbahətini ortadan götürdü. Əvvəlcə bayraqlarını gətirdilər. Sonra da yavaş-yavaş bir-bir ərəb ölkələrini və qonşuları – bu qədər övlad verən, bu qədər müsibət çəkən, bu qədər şüar verən və bu qədər iddia edənləri müzakirə stolu arxasına apardılar.

Biz o zaman da dedik ki, sionistlərin ərəblərlə bu müzakirələri hiylə üzərində qurulmuşdur. Sionistlər ərəblərlə problemlərini həll etmək istəmirlər. Öz gümanlarına əsasən şəri özlərindən azaltmaq və təcavüzlərini yenidən davam etdirmək istəyirlər. Çünki sionizmin təcavüzü bitməyib və hələ bundan sonra təcavüzlər olacaq. Coğrafi baxımdan möhkəmlənəndən sonra hələ növbə bu ərəb ölkələrinin həyati, maliyyə və iqtisadi sərvətlərinə əl uzatmağa çatacaq. Məgər bunlara nəfəs çəkməyə qoyacaqlar?! Qüvvələnən kimi evlərini yıxacaqlar. Təəssüf ki, ərəb ölkələrinin başçıları bu məsələlərə diqqət yetirmədilər, ölkələrinin və xalqlarının maraqları və gələcəkləri barədə düşünmədilər. Sözsüz ki, Amerikanın təzyiqi bu sahədə ən çox təsirə malik idi.

## *İslam hökumətlərinin İsraillə həmrəy olmalarına dair nigaranlıq*

Mən bu günlərdə Mərakeşdə toplantı keçirən İslam konfransından nigaranam. Olmaya İslam ölkələrinin başçılarını toplayıb hiylə və kələklə bunlardan işğalçı sionizm rejiminin maraqları istiqamətində bir kəlmə söz almaq və İslam ölkələrinin belə razılığa gəldiyini

söyləmək istəsinlər. Bu konfransda iştirak edən İslam ölkələri başçıları ayıq olsunlar. Düşmən adamlarının və İslam dünyasına xəyanət edənlərin öz işlərini görmələri mümkündür. Əlbəttə, bizim əmanətdar nümayəndəmiz - yəni Xarici İşlər Nazirimiz oradadır; əgər bu sahədə bir ümumi razılaşma elan etmək istəsələr, orada bizim qətiyyətli nəzəriyyəmizi elan edəcək. Amma həqiqətən İslam dünyası üçün belə təhlükələr var. İslam adı ilə bir konfrans təşkil olunsun, lakin müsəlmanların dərdlərinə əlac etmək yerinə Amerika və İsrailin istəklərinin və dərdlərinin ardınca getsin, onlara əlac qılmaq istəsin. Ümidvarıq ki, belə olmaz; Allah etsin belə olmasın!

### *Ya Fələstinlə, ya düşmənlərlə!*

İkidən artıq cəbhə yoxdur: ya Fələstini və onun ədalətli mübarizələrini müdafiə, ya da qarşı cəbhədə durmaq.

# İkinci bölmə: Məğlubiyyətlər və qələbələr

## *Birinci fəsil: İşğalın tarixcəsi və ibrətlər*

### İşğalın müxtəsər tarixcəsi

Siz bu gün Fələstin hadisəsi kimi bir hadisəyə baxın. Orada daha haqq və batil cəbhələri bəllidir. Bir xalqı öz ata-baba yurdundan - babalarının sümükləri bu torpaqda dəfn olunub və bütün tarix buranın onlarınkı olduğunu deyir - öz torpaqlarından, həyatlarından, evlərindən və öz ölkələrində seçim hüququndan məhrum etdilər. Avropadan, Şərqi Avropadan, Rusiyadan, Amerikadan və digər yerlərdən bir qrup əcnəbini toplayıb dedilər ki, siz buranı idarə edin. Əgər ortada başqa heç bir amil olmasaydı da, bunun özü haqq və batilin harada olduğunu göstərərdi, o ki qala işğalçı əcnəbi qrup müxtəlif növlü qəddar və yırtıcı üsullarla o torpağın sahibi olanları məhv edə; yəni vurur, əzir və öldürür. Daha bundan da aydın və ayırd olan haqq və batil varmı?! Siz görün bu regionda İsrailin tərəfdarları – Amerika, sionistlərin özü və digər hökumətlər bunun özünü dünyanın ümumi rəyində necə dəyişmişlər! Yəni ümumi rəyi elə dəyişmişlər ki, bu gün bu acı hadisələrin qarşısında dünyada mühüm hərəkət baş vermir.

## *İsrail - xərçəng vəzisi*

Fələstin tarixi bir ölkədir. Tarix boyu Fələstin adlı bir ölkə mövcud olmuşdur. Dünyanın zalım qüvvələrinin dəstəyi ilə bir qrup gəlib bu xalqı ən kobud və ən şiddətli yolla bu ölkədən çıxarıb; öldürüb, sürgün edib, işgəncə verib, təhqir edib və bu milləti qovub. Bu gün işğal olunmuş Fələstinlə qonşu ölkələrdə və digər yerlərdə əksəriyyəti düşərgələrdə olmaqla bir neçə milyon fələstinli qaçqın yaşayır. Əslində gəlib ölkəni coğrafiyadan çıxardılar, xalqı bütünlüklə varlıqdan sildilər. Onun yerinə zorla qondarma və yeni bir inzibati vahid yaradıb adını İsrail qoydular. Görün məntiq nə tələb edir? Bizim Fələstin barəsində sözümüz bir şüar deyil, yüz faiz məntiqli bir sözdür.

Əvvəllər başında İngiltərənin durduğu, sonra da Amerikanın qoşulduğu və ardınca Qərb ölkələrinin gəldiyi qüdrətli bir qrup deyir ki, Fələstin ölkəsi və Fələstin xalqı məhv olmalı, onun yerinə İsrail

adlı bir ölkə və İsrail xalqı adlı qondarma bir xalq yaranmalıdır. Bu bir sözdür. Bunun qarşısında başqa bir söz də var. O, imamın sözüdür; deyir ki, xeyr, bu qondarma və zorla yaradılmış vahid silinməlidir. Onun yerinə əsl xalq, əsl ölkə və əsl inzibati vahid iş başına gəlməlidir. Bu iki sözün hansı məntiqlidir? Süngüyə və məhvə söykənən, siyasi bir sistemi, bir neçə minillik keçmişi olan tarixi bir inzibati yeri bütünlüklə coğrafiydan silmək istəyən söz məntiqlidir, yoxsa bu əsl inzibati vahidin qalmasını, qondarma və zorla yaradılmış vahidin məhv olmasını deyən söz? İmam bunu deyirdi. İşğalçı İsrail və Fələstin məsələsi barəsində deyilməsi mümkün olan ən məntiqli söz budur. İmam bunu açıq söylədi. İndi əgər kimsə bu sözü işarə ilə desə, imamın xəttinin iddiaçısı olan bir qrup deyəcək ki, cənab, nə üçün bu söz deyildi. Bu, imamın sözüdür. Bu, imamın məntiqidir. Bu düzgün məntiqdir. Dünyanın bütün müsəlmanları, dünyanın bütün azad insanları və bitərəf xalqlar bu sözü qəbul etməlidirlər. Bu düzgündür. Bu, imamın mövqeyidir.

## *İsrailin formalaşdığı zaman edilən diqqətsizlik*

İslam dünyası bu böyük problemin və müsibətin yarandığı zaman diqqətsizlik etdi; bu problemə qarşı düzgün yol seçilmədi və işlədilmədi. Düzdür, Fələstində və Fələstindən bayırda dəyərli şəxsiyyətlər vardı. Onların zəhmətlərini görməzdən gəlmək olmaz; misal üçün, mərhum İzzəddin Qəssam, mərhum Hacı Əmin Hüseyni, mərhum Şeyx Məhəmməd Hüseyn Kaşif əl-Ğita. Bunların hamısı sionizm dövlətinin və hökumətinin bu regiondakı varlığının təhlükəsini duydular, söylədilər və mübarizə apardılar. Lakin İslam dünyası və onun vəzifəli şəxsləri öz rollarını düzgün ifa edə bilmədilər. Odur ki, Fələstin xalqının çox təhlükəli olan bu məsələ ilə mübarizəsində tarix boyu yıxılıb-durmalar olmuşdur.

## *Mübarizələr tarixi; işğalın əvvəli*

Fələstinin işğalının əvvəlində Şeyx İzzəddin Qəssam və Hacı Əmin Hüseyni kimi mücahid alimlər Fələstini xilas etmək üçün müsəlmanları köməyə çağırdılar. Böyük təqlid müctəhidi olan mərhum Şeyx Məhəmməd Hüseyn Ali-Kaşif əl-Ğita sionistlər əleyhinə cihad hökmü verdi. Amma təəssüf ki, tədricən mübarizələrin İslam şəkli zəiflədi və onun milli rəngi çoxaldı.

## *Fələstinin fəthi - Qərbin köhnə arzusu*

Bəzi Qərb qüvvələri Fələstin torpağı və şərafətli Qüdsə həmişə tamah salmışlar. Müsəlmanların əleyhinə olan uzun Xaç müharibələri onların bu müqəddəs torpağa qarşı tamahlarının bariz nümunəsidir. Osmanlı imperiyasının məğlubiyyətindən sonra Beytülmüqəddəsə girən müttəfiqlər ordusunun bəzi komandirləri belə dedilər: "Bu gün xaç müharibələri başa çatdı".

## *Sionizm dövlətini qurmaqda müstəmləkəçiliyin məqsədi*

Ümumiyyətlə yəhudi dövlətinin, yaxud daha doğru desək, sionizm dövlətinin İslam dünyasının bu nöqtəsində təşkil edilməsi hegemonluğun uzunmüddətli bir məqsədi ilə vücuda gəldi. Ümumiyyətlə İslam dünyasının təxminən ürəyi olan bu həssas nöqtədə - yəni İslamın Afrikadan ibarət olan qərb hissəsini Orta Şərq və Asiyadan ibarət olan İslam şərqinə birləşdirən, Asiya, Afrika və Avropa arasında üç yol ayrıcı olan bir yerdə bu dövləti yaratmaq uzun müddət üçün başında İngiltərə dövlətinin durduğu ozamankı müstəmləkəçilərin İslam dünyasına hökmranlığını təmin etməkdən ötrü idi. Yəni əgər nə vaxtsa Osmanlı hökumətinin bəzi dövləri kimi iqtidarlı İslam dövləti vücuda gəlsə, müstəmləkəçilərin, İngiltərənin, Fransanın və digərlərinin bu regiona təsirinin qarşısını ala bilməsin. Odur ki, özlərinə bir baza düzəltdilər. Tarixi sənədlərə əsasən, orada sionizm hökumətini təşkil etmək yəhudi xalqının arzusundan çox İngiltərə dövlətinin müstəmləkəçi bir istəyi idi. Sənədlərə əsasən, o zaman çoxlu yəhudilərin fikri bu idi ki, bu dövlətə ehtiyac yoxdur, bu dövlət onların xeyrinə deyil. Odur ki, bundan qaçırdılar. Buna əsasən, bu bir yəhudi arzusu və ideyası deyildi, daha çox müstəmləkə və İngiltərə ideyası idi. Əlbəttə, sonralar dünya siyasətinin və imperializmin (idarəsi) amerikalıların vasitəsi ilə İngiltərədən alındıqda, bu da müstəmləkə mirasının tərkib hissəsi idi və Amerikaya çatdı. Amerikalılar da maksimum istifadə etdilər və indi də edirlər. Buna görə Fələstinin xilası və işğalçı sionizm dövlətinin məhvi bu regionun xalqlarının, o cümlədən bizim əziz İran ölkəmizin maraqları ilə əlaqədardır. İnqilabın ilk günündən proqramlarının birini sionistlərin nüfuzu və iqtidarı ilə mübarizə edənlər bu hesabla bu işi gördülər.

## *Fələstinin işğalının məqsədləri*

Bu torpağın işğalı çoxcəhətli və mürəkkəb bir layihə əsasında hazırlanıb müsəlman birliyinin və yenidən güclü müsəlman hökumətlərinin təsis olunmasının qarşısını almaq məqsədi güdürdü. Mövcud dəlillər göstərir ki, sionistlər alman nasistlərlə yaxın münasibətdə olmuşlar. Yəhudilərin qətliamna dair şişirdilmiş rəqəmlər göstərməyin özü cəmiyyətin rəhmini qazanmaq, Fələstinin işğalı üçün şərati yaratmaq və sionistlərin cinayətlərini ört-basdır etmək üçün bir vasitə idi.

Hətta bəzi dəlillərə görə Şərqi Avropanın bir qrup qeyri-yəhudi quldur və oğrularını yəhudi adı ilə Fələstinə köçürdülər ki, şovinizm qurbanlarının övladlarını himayə adı altında İslam dünyasının ürəyində İslama düşmən bir hökumət qursunlar və 13 əsrdən sonra İslam şərqi və qərbi arasında ayrılıq salsınlar. Sionistlərin və onların qərbli himayədarlarının planlarının mahiyyətindən xəbərsiz olduqlarına görə müsəlmanlar əvvəldə çaş-baş qaldılar.

## *Sionist işğalçılığının üç təməli*

Sionistlərin Fələstinə qarşı bu işğalçılığının üç təməli vardı:

Bir təməli ərəblərə qarşı qəddarlıqdan ibarət idi. Onların əsl sahiblərlə rəftarları daşürəkli, şiddətli və çox kobud rəftar idi; bunlarla heç cür yola getmirdilər.

İkinci təməl dünyanın ümumi rəyini aldatmaq idi. Dünyanın ümumi rəyini aldatmaq qəribə məsələlərdən biridir. Onlar yəhudilərin əlində olan bu sionist informasiya vasitələri ilə o qədər yalan dedilər ki, həmin yalanlara görə bəzi yəhudi kapitalistlərini tutdular. Çoxları da onların yalanlarına inandılar. Hətta özümüz gənclikdə bir müddət çox sevdiyimiz insan və insanlar növündən bu fransalı ictimai filosof və yazıçını - Jan Pol Sartrı da aldatdılar. Jan Pol Sartr bir kitab yazmışdı. Mən otuz il öncə onu oxudum. Yazmışdı: "Torpaqsız xalq, xalqsız torpaq"! Yəni yəhudilər torpağı olmayan xalq idilər. Onlar xalqsız torpaq olan Fələstinə gəldilər. Xalqsız nə deməkdir? Orada bir xalq vardı və işləyirdi; çoxlu dəlillər var. Bir xarici yazıçı deyir ki, bütün Fələstin torpaqlarında göz işlədikcə uzanan yaşıl dəniz kimi buğda tarlaları vardı. Xalqsız torpaq nə deməkdir? Dünyaya belə göstərdilər ki, Fələstin xaraba qalmış, boş qalmış və buraxılmış bir yer idi, biz gəlib buranı

abadlaşdırdıq. İctimai rəyə yalan söyləmək budur! Həmişə özlərini məzlum göstərməyə çalışırdılar; indi də belədir. Bu Amerika jurnallarında, məsələn Taym və Nyusvikdə - mən hərdən bunlara baxıram - əgər bir yəhudi ailəsinə qarşı ən kiçik hadisə baş versə, öldürülənin şəklini, təfsilatını, yaşını və uşaqlarının məzlumluğunu böyüdürlər. Lakin işğal olunmuş Fələstində və Livanda fələstinli gənclərə, fələstinli ailələrə, fələstinli uşaqlara və fələstinli qadınlara qarşı yüzlərlə və minlərlə qəddarlıq nümunəsi baş verir, amma ən kiçik işarə belə etmirlər.

...İndi də sionizmin əsas məqsədi Böyük İsrail yaratmaqdır. Əlbəttə, bu günlər bunun adını az çəkirlər, onu gizlətməyə çalışırlar. Yenə də ictimai rəyi aldadırlar. Nə üçün? Çünki indiki mərhələdə özlərinin ekspansionist məqsədlərini gizlətməyə ehtiyacları var.

Üçüncü təməl də dəm-dəsgah, müzakirə və özləri demiş, lobbidir; otur bu hökumətlə, o şəxsiyyətlə, o siyasətçi ilə, o ziyalı ilə, o yazıçı ilə, o şairlə söhbət et və anlaş. Bunların işinin indiyədək üç təməli olmuşdur. Bu hiylə və kələklə bu ölkəni tuta bilmişlər. Xarici qüvvələr də bunların yanında olmuşdur. Əsas İngiltərə idi. Millətlər Təşkilatı və ondan öncə müharibədən sonra dırnaqarası sülh məsələləri üçün yaradılan Millətlər Cəmiyyəti bəzi yerlər istisna olmaqla həmişə bunları müdafiə etmişdir. Həmin 1948-ci ildə Millətlər Cəmiyyəti bir qətnamə qəbul edib dəlilsiz və səbəbsiz olaraq Fələstini böldü. Dedi ki, Fələstin torpaqlarının 57 faizi yəhudilərə məxsusdur. Halbuki ondan öncə Fələstin torpaqlarının təxminən beş faizi bunlara məxsus idi. Onlar da dövlət qurdular və sonra da müxtəlif hadisələr - kəndlərə, şəhərlərə, evlərə və günahsızlara hücum başlandı. Düzdür, ərəb hökumətləri də səhlənkarlığa yol verdilər. Bir neçə müharibə baş verdi. 1967-ci il müharibəsində israillilər Amerikanın və digər dövlətlərin köməyi ilə Misir, Suriya və İordaniyanın bəzi hissələrini ələ keçirə bildilər. Sonra 1973-cü ildə bunların başlatdığı müharibədə yenə də o qüvvələrin köməyi ilə müharibənin nəticəsini öz xeyirlərinə tamamlayıb digər yerləri ələ keçirə bildilər.

## *Fələstin macərasının məğzi*

Fələstin macərasının məğzi nədir? Macəranın məğzi budur ki, dünyanın nüfuzlu yəhudilərinin bir qrupu yəhudilər üçün müstəqil

bir ölkə qurmaq fikrinə düşdülər. İngiltərə bunların fikrindən istifadə edib öz problemini həll etmək istədi. Onlar əvvəlcə Uqandaya gedib oranı öz ölkələri etmək istəyirdilər. Bir müddət düşündülər ki, Liviyanın paytaxtı Tripoliyə getsinlər. Odur ki, o zaman Tripolini ələ keçirmiş italiyalarla söhbət etdilər. Amma italiyalılar bunları rədd etdilər. Nəhayət ingilislərlə razılaşdılar. O zaman ingilislərin Orta Şərqdə çox mühüm müstəmləkə məqsədləri vardı. Gördülər ki, bunların bu regiona gəlmələri yaxşıdır; əvvəlcə bir azlıq kimi daxil olsunlar, sonra tədricən genişlənsinlər, həssas bir tərəfi - Fələstin həssas nöqtədə yerləşir - tutub dövlət qursunlar, İngiltərənin müttəfiqi olub İslam dünyasının, xüsusən də ərəb dünyasının o bölgədə ittifaq yaratmasına mane olsunlar. Düzdür, əgər digərləri sayıq olsalar, düşmən ittifaq yarada bilər. Amma xaricdən o şəkildə himayə olunan düşmən casus fəaliyyətləri və müxtəlif üsullarla ixtilaf yarada bilər. Onlar həmin işi də gördülər: birinə yaxınlaşdılar, birini vurdular, birini əzdilər, biri ilə pis davrandılar. Buna əsasən, birinci dərəcədə İngiltərənin və bəzi Qərb ölkələrinin köməyi oldu. Sonra bunlar tədircən İngiltərədən ayrılıb Amerikaya birləşdilər. Amerika da bunları bu günə qədər öz qanadı altında saxlamışdır. Bunlar bu mənada bir ölkə yaradıb Fələstini işğal etdilər. İşğal etmələri də belə idi: əvvəl müharibə ilə gəlmədilər, hiylə ilə gəldilər. Gedib Fələstinin ərəb əkinçilərinin işlədiyi böyük və çox münbit torpaqları dəyərindən bir neçə dəfə baha qiymətə bu böyük torpaqların Avropa və Amerikada olan əsas sahiblərindən aldılar. Onların da ürəklərincə oldu və torpaqları bu yəhudilərə satdılar. Əlbəttə, onların dəllalları da vardı. Deyirlər bu dəllalların biri 1900 çevrilişində Rza xanın şəriki olan məşhur Seyid Ziya idi. O buradan Fələstinə getdi, orada müsəlmanların torpaqlarının yəhudilərə və israillilərə satılmasına dəllalıq etdi. Torpaqlar bunların mülkü olanda həqiqətən çox qəddar, yırtıcı və daşürəkli yollarla tədricən əkinçiləri bu torpaqlardan ixrac etməyə başladılar; vururdular, öldürüdülər və eyni zamanda dünyanın ümumi rəyini yalan və hiylə ilə özlərinə sarı cəlb edirdilər.

## *İşğalın mərhələləri*

Bu gün biz təşəbbüsçülüyü ələ almalıyıq. İndiyə qədər həmişə düşmən təşəbbüsçü olmuş, biz isə uzaq başı şikayət etmiş və

gileylənmişik. Fələstin düşmənin onlarla təşəbbüsçülüyündən ibarət olan tarixi bir prosesdə sionistlərin tam mülkünə çevrilmişdir. Əvvəlcə fələstinlilərin torpaqlarını almaq, sonra mühacir sionistlərin silahlanması, ondan sonra daxili müharibə, Fələstinin bölünməsinin elan olunması, daha sonra o İslam və ərəb ölkəsinin yeni hissələrinin ələ keçirilməsi və nəhayət hamısının tutulması, Misir, Suriya və İordaniyanın bəzi hissələrinin də ona əlavə olunması. Buraya qədər Fələstinin ərəb qonşuları yalnız bir dəfə təşəbbüsçülüyü ələ almışdır. O da Suriya və Misirin hicri tarixi ilə 1393-cü ilin ramazan hücumu idi. Bu hücum Amerikanın İsraillə birliyinə və İslam ölkələrinin iradə zəifliyinə görə tam nəticələrə çatmasa da, yenə də ərəb cəbhəsinin fəxrinə və ərəb torpaqlarının bir hissəsinin azad olunmasına səbəb oldu. Ondan sonra bu günə qədər həmişə sionistlər, onların himayədarları və birinci növbədə Amerika barışıq şüarları verməkdə və Fələstinin işğalının möhkəmləndirilməsi istiqamətində təşəbbüsçü olmuş və öz həriflərini bacardıqları yerə qədər arxalarınca çəkmişlər. Biz müsəlman dövlətlər Fələstinin xilası yolunda ön xətdə olan ölkələrə daha ciddi köməklər etməli idik. Keçmişdə bizim bəzi hökumətlərimiz ön xətdə olan ölkələrin cəbhəsinə hətta arxadan xəncər də vurublar. Onun bariz nümunəsi Pəhləvi dövründəki İran hökumətidir. Təəssüf ki, o zaman İran sionistlərin təhlükəsiz evi və işğalçı dövlətin səmimi həmkarı idi.

## ***İşğal***

Sionistlər gəlib bir İslam ölkəsini işğal etdilər və bir müsəlman xalqı qovdular. Sonra da quldurluqla, inadkarlıqla və tacir sionistlərin etdiyi siyasi işlərlə öz işlərini ört-basdır edib ərazilərini genişləndirdilər. Sionistlər yüz, yaxud yüz əlli il öncədən anladılar ki, pul qazanmağa çalışmalıdırlar. Əgər Avropa ölkələrindəki bu rəzillikdən çıxmalarını istəyirlərsə, gərək özləri pul qazansınlar, həssas mərkəzləri tutsunlar, xəbər agentliklərini, mətbuatı və radioları ələ keçirsinlər. Onlar bunun ardınca getdilər. Dünyada sionist olan böyük kapitalistlər var. Bunların hamısı öz təzyiqləri, siyasi işləri və təbliğat fəaliyyətləri ilə düşündülər ki, qırx, yaxud əlli ildən sonra nəhayət məsələ unudulacaq. Kim təsəvvür edərdi ki, gəlib bir xalqı bu ölkədən qovsunlar, dünyanın müxtəlif yerlərindən bir qrup adamı toplayıb buraya gətirsinlər və dırnaqarası bir ölkə

qursunlar. Çox qəribə və inanılmaz bir işdir. Bunlar dedilər ki, biz bu ərəblərin sözünə, bu inamlarına, Birləşmiş Millətlər Təşkilatının bu qətnamələrinə və bu səs-küylərə etina etməyək, nə istəyirlər etsinlər. Biz yalnız dayanıb tədricən qlobal təzyiq göstərək və bunlar unutsunlar. Təəssüf ki, elə də oldu.

## *Fələstinin işğalı dövründə sionistlərin hiyləgərliyi*

Sionistlər öz məqsədlərindən daşınmırlar. Söylədikləri "Nildən Fərata qədər" məqsədlərini geri götürməyiblər. Hələ də məqsədləri Nildən Fərata qədər hər yeri tutmaqdır. Lakin sionistlərin strategiyası budur ki, əvvəlcə hiylə və kələklə öz yerlərini möhkəmləndirirlər və bundan sonra təzyiqlə, hücumla, insan öldürməklə, zorakılıq və qəddarlıqdan istifadə etməklə bacardıqları qədər irəliləyirlər. Bunlar ciddi bir dirənişlə - istər siyasi, istər hərbi dirənişlə üz-üzə gələn kimi dayanırlar. Yenə də hiylə və kələyə sarı gedirlər ki, bununla bir addım da irəliləyə bilsinlər. Bir addım irəlilədikdə yenidən həmin hücumlarını və qəddarlıqlarını davam etdirirlər. Onlar 60-70 il öncədən bu günə qədər bu işi görmüşlər. Yəni Fələstini rəsmən işğal etmələrindən 25 il öncədən bu üsulu icra ediblər. Bunlar əvvəlcə Fələstinə daxil olanda demədilər ki, biz Fələstinə mühacir gətiririk. Fələstin xalqı təccüblənirdi ki, buraya gələn bu adamlar kimdirlər. Yalandan deyirdilər ki, mütəxəssis gətiririk. Bu sözlər əsaslıdır. Bunlar İngiltərə Xarici İşlər Nazirliyinin sənədlərində olmuş və sonradan ifşa edilmişdir. Dünyanın bəzi Xarici İşlər Nazirlikləri köhnə sənədləri nəşr edir və hamının ixtiyarında qoyur. Dediyim sənədlər 60-70 ildən sonra bizim əlimizə çatmışdır. Bu sənədlərdə Fələstində çalışan bir ingiltərəli zabit öz məruzəsində yazır: "Biz Fələstin xalqına dedik ki, Fələstinə daxil olan şəxslər mütəxəssisdirlər, mühəndisdirlər, doktordurlar və sair. Onlar sizin ölkənizi abadlaşdırmağa gəlirlər. Sizin torpaqlarınızı abadlaşdırdıqdan sonra da gedəcəklər".

Həmin ingilis zabit bir məktubda yazmışdır: "Amma biz bu xalqa yalan deyirdik". İxtisası və sənəti olmayan yəhudiləri dünyanın müxtəlif yerlərindən toplayıb Fələstinə apardılar. Onlara imkanlar yaratdılar, torpaq və hər şey verdilər. Çünki Fələstinin əsl sahiblərini o ölkədən çıxarmaq istəyirdilər. Əvvəlcə hiylə ilə başladılar və yerləri möhkəmlənəndən sonra hücuma keçdilər.

1948-ci ildə İsrail dövlətinin təşkil olunmasını elan etdilər. Ondan bir il sonra isə daha artıq torpaqlar tutmaq üçün Misirə və digər müsəlman ölkələrinə hücum etdilər. Məğlub olduqda bir müddət səbir etdilər. Əlbəttə, çoxlu torpaq tutdular, amma daha irəliləyə bilmədiklərindən dayandılar və yenə hiyləgərliyə başladılar ki, görsünlər necə yeni ayaq yeri tapa bilərlər. Bu günə qədər həmin formada irəliləmişlər.

## *Fələstinlilərin zəifliyi, hakimiyyət istəyi, rahatçılığı və sayıq olmaması; işğalın səbəbləri*

"Bismillahir-Rəhmanir-Rəhim. Zülmə məruz qaldıqlarına görə vuruşanlara (kafirlərə qarşı Allah yolunda döyüşməyə) izin verilmişdir. Allah onlara kömək etməyə, əlbəttə, qadirdir! O kəslər ki, haqsız yerə, ancaq “Rəbbimiz Allahdır” - dediklərinə görə yurdlarından (Məkkədən) çıxarıldılar. Əgər Allah insanların bir qismini digər qismi ilə dəf etməsəydi, sözsüz ki, içərisində Allahın adı çox zikr olunan soməələr (rahiblərin yaşadığı monastırlar), kilsələr, məbədlər (yəhudi məbədləri) və məscidlər dağılıb gedərdi. Allah Ona yardım edənlərə, şübhəsiz ki, yardım edər. Həqiqətən, Allah yenilməz qüvvət, qüdrət sahibidir!"

Xalqların tarixində elə anlar olur ki, onda qərar vermək o xalqın ömrünün uzun bir dövrünə təsir qoyur, nəsillərə əzab, əziyyət, xarlıq və əsarət, yaxud azadlıq, izzət və səadət ərməğan edir.

Əgər sionistlərin müsəlmanlara məxsus torpaqlarda Fələstin milliyyətinin yerinə yalançı, qondarma və köksüz milliyyəti qoymaq üçün onun dərin kökünə ilk dəhrələri vurduğu gün müsəlman dövlət başçıları, təsirli qüvvələr və onların ardınca xalq kütlələri fəallıq, ciddi müqavimət və sayıqlıq göstərsəydilər, bu gün bu regionda sionizm dövlətinin xəbis ağacının zəhərli meyvələri olan bütün bu müsibət və bəlalardan xəbər-ətər olmazdı, bəlkə də region xalqları, xüsusən də məzlum Fələstin xalqı bu qırx beş ildə çəkdiklərindən uzaq qalardı.

O zaman bəzilərinin zəifliyi, bəzilərinin hakimiyyət istəyində olması, bəzilərinin rahatçılığı, bəzilərinin sayıq olmaması əl-ələ verib ümumi xəyanəti formalaşdırdı və nəticəsi qarşıya çıxdı: minlərlə günahsız insan qanı axıdıldı, minlərlə namus təhqir olundu, minlərlə ev dağıdıldı, minlərlə sərvət hədər getdi, minlərlə arzu dəfn

olundu, minlərlə acı və müsibətli gecə-gündüz bir xalqın İordaniya və Livanın qaçqın düşərgələrində aclıqla, didərginliklə, evsizliklə, göz yaşı və ah-nalə ilə ötdü. Yaxud işğal olunmuş vətəndə düşmənin çəkməsi və süngüsü altında yaşayan minlərlə insan heç bir günahı olmadan dövrün ən çətin cəzalarına məruz qaldı və özlərinin işğal olunmuş evlərinin qonşuluğundakı qaçqın düşərgəsində, yaxud əcnəbinin qəyyumluğu altında olan evlərində tədrici can vermək təcrübəsini yaşayanlardan başqa heç kəsin dərk etməyə qadir olmadığı minlərlə digər deyilməyən qəm-qüssə. Bütün bunların hamısı o böyük xəyanətdən yarandı. O xəyanət ardınca digər xəyanətləri də gətirdi. Bu xəyanət dalğaları nə qədər fəzilətləri qurutdu, nə qədər ruhiyyələri öldürdü və nə qədər şölələri söndürdü...

O zaman bu böyük zülmü uzaqlaşdırmaq üçün kim bir iş görə və bir addım ata bilərdisə, amma görməyibsə və atmayıbsa, bu iki fələstinli nəslin lənətinə və nifrininə məhkumdur. Müasir və gələcək tarixin qətiyyətli və ağır mühakiməsinə, eləcə də cəza günündə Allahın əzabına və qisasına məruz qalacaq. Bunda siyasət adamları, iqtisadiyyat adamları, mədəniyyət və ədəbiyyat adamları, yaxud müharibə və hərb adamları arasında fərq yoxdur.

## *Rüsvayçı Kemp Deyvid müqaviləsinin dağıdıcı təsiri*

Misir xalqının qabaqkı rejiminin Fələstin, Qəzzə və Rəfəh keçidinə dair mövqeyinə etiraz edən bu əzəmətli hərəkəti çox dəyərli hərəkət idi. Bu davam etdirilməlidir. Misir ərəb dünyasında təsirli ölkədir. Məhz buna görə də ərəb ölkələrini işğalçı sionizm rejimi önündə diz çökdürmək istəyən şəxslər Misirə getdilər, rüsvayçı Kemp Deyvid müqaviləsini Misirdə başlatdırdılar. Bundan sonra tədricən digər ərəb ölkələri də təslim olub Amerikanın qarşısında əyildilər və Fələstin məsələsi ərəb ölkələrinin qərar səhnəsindən bütünlüklə xaric oldu. Gərək ehtiyatlı olsunlar; Misirin üzərində həssasdırlar. Qərblilərin və imperializmin qovulduğu Camal Əbdünnasirin dövründən bir gün sonra yenidən qayıtdılar. Bu təcrübə Misirdə təkrarlanmamalıdır. Misir xalqı oyaqdır, sayıqdır. Ümidvarıq Allah bu sahədə onlara kömək edəcək.

Region xalqları əvvəldən öz mövqelərini aydın göstərmişlər. Odur ki, bir hökumət Fələstini müdafiə etdikdə öz xalqının, ərəb və

müsəlman xalqların himayəsini qazanır. Bunu Misir 60-70-ci illərdə sınamışdır. Amma özünü digər cəbhəyə saldıqda xalq ondan üz çevirir. Misirdə rüsvayçı Kemp Deyvid müqaviləsindən sonra Misir hökuməti ilə xalqı arasında bu ayrılıq yarandı. 67 və 73-cü illərdə öz canı və malı ilə Fələstinin köməyinə getmiş Misir xalqı tədricən gördü ki, hakimlər Amerikaya itaətdə çox ifrata varıblar və Misir sionist və işğalçı düşmənin vəfalı müttəfiqinə çevrilmişdir. Amerikanın Misir başçılarına hakim olması onların Fələstini müdafiədə çəkdikləri keçmiş zəhmətlərinin hamısını bada verdi və Misir Fələstinin ən böyük düşməninə, sionistlərin ən böyük himayədarına çevrildi.

## *Sayks-Peyko müqaviləsi*

Osmanlı məğlub oldu. Müharibənin qalibləri arasında Orta Şərqin İslam ölkələrinin bölünməsi üçün gizli şəkildə Sayks-Peyko müqaviləsi imzalandı. Millətlər Cəmiyyəti Fələstinin qəyyumluğunu İngiltərəyə tapşırdı. Onlar da sionistlərə kömək sözü verdilər, dəqiq layihələrlə yəhudiləri Fələstinə gətirdilər, müsəlmanları öz ev və yurdlarından didərgin saldılar.

## *Birinci intifazənin məğlubiyyətinin səbəbləri*

Birinci intifazə sionistlərin və himayədarlarının təlqinlərinin təsiri altında, sülh vasitəsi ilə fələstinlilərin imtiyazlar əldə etməsi vədi ilə, təslimçilərin nüfuzu, Amerika və Qərbin təzyiqi ilə dayandı. Amma o tarixdən ötən on il göstərdi ki, sionizmin dünyadakı himayədarlarının bütün səyləri İsrail rejimini müsəlmanların mübarizələrindən irəli gələn təzyiqlərdən xilas etmək olmuşdur. Fələstinin müzakirə edənlərinə verdikləri söz isə ilğımdan başqa bir şey olmamışdır.

Bu gün İsrailin törətdiyi işğalçılıq, ekspansiya və yırtıcılıq əvvəldən İslam cəmiyyətlərinin agah və qayğıkeş insanları tərəfindən proqnoz olunurdu.

İsrailin formalaşmasının əvvəlindən bu işğalçı və yalançı rejim həmişə fələstinlilərin danılmaz hüquqlarına təcavüz etmiş, bəzi Qərb hökumətləri, xüsusən də Amerika onu ört-basdır və müdafiə etmişlər. Beynəlxalq qurumlar da bu rejimin hərəkətlərini ört-basdır

etməklə onun kimliyinə və təcavüzlərinə qanuni don geyindirməyə çalışmışlar.

### *Oslo müzakirələri - birinci intifazənin məğlubiyyət amili*

Bu intifazə bütün sülh yollarından ümidini üzüb, qələbənin yalnız özlərinin müqavimətində olduğunu dərk edən xalqın qiyamıdır. Fələstin xalqı özünün qabaqkı intifazəsində çoxlu ziyanlara uğradı, İslam yolunda və İslam torpağının azadlığı yolunda çoxlu şəhid və əlillər təqdim etdi. Amma nəhayət Oslo müzakirələri onu dayandırdı. Oslonun nəticəsi nə idi? Bu gün hətta Oslonun fələstinli tərəfləri və müdafiəçiləri də onu müdafiə etmirlər. Çünki əməli cəhətdən anladılar ki, İsrail yalnız öz problemini həll etmək istəyirdi. Yəni əlidaşlı mübarizlərlə qarşılaşmaqdan xilas olsun və özünə yönələn zərbələri azaltsın. Əgər fələstinli tərəfə azca nəsə verdisə və adını imtiyaz vermək qoydusa, yalnız intifazə alovunu söndürmək və özünün təhlükələrini azaltmaq üçün idi. Öz probleminin həll olunduğunu görən kimi və yanlış olaraq Fələstin xalqının daha intifazə, müqavimət və onlarla qarşılaşmaq işini yenidən başlamağa qadir olmadığını duyan kimi həmin az imtiyazları da dayandırdı və özünün zati istismarçılığını aşkara çıxardı. Oslo sazişinin və layihəsinin gediş prosesi Fələstin xalqını elə vəziyyətə saldı ki, qiyamdan başqa bir yolun olmadığını anladılar.

### *Sionistlərin murdar və mənfur ünsürü - ikinci intifazənin başlanmasının səbəbkarı*

Ötən üç həftədə murdar və mənfur sionist ünsürünün Əqsa məscidindəki fəaliyyəti xalqı dözümsüz etdi. Əgər həmin gün Fələstin məsələsinə iddialı rəhbərlər, yaxud ərəb ölkələrinin başçıları etiraz etsəydilər, xalq onların sözünü deyən bir kəsin olduğunu hiss edərdi və bəlkə də işlər belə olmazdı. Amma xalq gördü ki, özü meydana gəlməlidir və meydana gəldi. İndi üç həftədir Fələstin torpağında müqavimət şöləsi alovlanmışdır. Mən bu fələstinli gənclərə dedim ki, siz bilin, bir nəsil oyanmış, bir nəsil meydana atılmışdır; məgər onu bu sözlərlə söndürə bilərlər?! Bəziləri cinayət və terror törətməklə gənclərdən və məzlumlardan bir qədərini qətlə yetirirlər. Amma bunların qanı Fələstin hərəkatının və Fələstin inqilabının ağacını suvarır. Məsələ elə deyil ki, Amerika

hegemonluğu, yaxud onun muzduru olan sionist hökuməti ona əlac edə bilsinlər. Bunun əlacı yoxdur. Bir xalqı öz evindən, öz vətənindən, öz ölkəsindən qovublar. Qalanlar da oraya çəkilmiş əcnəbilərin hökmranlığı altındadırlar. Məgər bu xalqı sakitləşdirmək olar?! İmperialist qüvvələr İslam İranından gileylənirlər ki, siz sülh prosesinə qarşı çıxırsınız. Biz əlbəttə, buna qarşıyıq, amma siz bilin, əgər İslam İranı qarşı çıxmasaydı, əgər dünya xalqlarının və hökumətlərinin heç biri kömək etməsəydi də, bir xalqı tarixin səhifəsindən silib onun yerinə qondarma bir xalq vücuda gətirməyi güman etməniz xam xəyaldır. Fələstin xalqının mədəniyyəti var, tarixi var, keçmişi var, sivilizasiyası var. Bu xalq minillərlə bu ölkədə yaşamışdır. Amma siz gəlib bu xalqı öz evindən, öz şəhərindən, öz tarixindən ayırırsınız, qovursunuz və sonra bir dəstə mühaciri, tüfeylini, cürbəcür adamları, xeyrini güdənləri dünya ölkələrindən toplayıb qondarma bir xalq vücuda gətirirsiniz. Məgər bu mümkündür?! Bir neçə gün zorla və zülmlə bir iş görə bilərsiniz. Məgər bu işlərin davam etməsi mümkündür?! Bu davam etməyəcək və bu gün onun əlamətləri aşkara çıxmışdır.

## *İsrail legitimlik böhranında*

İndi Fələstinin işğalından altmış il ötür. Bütün bu müddətdə maddi qüdrətin bütün vasitələri işğalçıların xidmətində durmuşdur; puldan, silahdan və texnologiyadan tutmuş siyasi və diplomatik fəaliyyətlərə, xəbər və informasiya imperatorluğunun əzəmətli şəbəkəsinə qədər.

Bu geniş və heyrətamiz şeytani fəaliyyətlərə rəğmən, işğalçılar və onların himayədarları sionizm rejiminin legitimlik məsələsini nəinki həll edə bilməyiblər, hətta bu məsələ zaman ötdükcə daha mürəkkəbləşmişdir.

Qərb və sionist mediasının və sionizmi himayə edən dövlətlərin Fələstin işğalına bəhanə olan holokast barəsində hətta sual və tədqiqata da dözümsüzlüyü bu zəifliyin və çaşqınlığın əlamətlərindən biridir. Bu gün sionizm rejiminin dünyanın ümumi rəyindəki vəziyyəti özünün bütün qara tarixindən daha pis və onun yaranmasının dəlili haqda sual daha ciddidir. Şərqi Asiyadan Latın Amerikasına qədər hər yerdə o rejimin əleyhinə misli görünməyən və özfəaliyyət formasında olan beynəlxalq etiraz, dünyanın 120

ölkəsində - o cümlədən bu xəbis ağacın vətəni olan Avropada və İngiltərədə xalq yürüşləri, onların Qəzzə İslam Müqavimətini və otuz üç günlük müharibədə Livan İslam Müqavimətini müdafiə etmələri göstərir ki, sionizmin əleyhinə son altmış ildə heç zaman bu qədər ciddi və genişmiqyaslı olmayan beynəlxalq bir müqavimət yaranmışdır. Belə demək olar ki, Livan və Fələstinin İslam Müqavimətləri dünyanın vicdanını oyada bilmişdir.

Bu, həm İslam ümmətinin, zorakılıqla qondarma və sifarişli bir dövlət və xalq yaratmaq, zaman ötdükcə onu danılmaz reallığa çevirmək və belə zalımcasına boyunduruğu İslam dünyasında adiləşdirmək istəyən düşmənləri üçün, həm də İslam ümməti, xüsusən də onun qeyrətli gəncləri və vicdanlı şəxsləri üçün böyük bir dərsdir. Onlar bilsinlər ki, tapdanmış haqqı qaytarmaq yolunda mücahidlik heç zaman hədər getmir və Allahın bu vədəsi haqdır: "Zülmə məruz qaldıqlarına görə vuruşanlara (kafirlərə qarşı Allah yolunda döyüşməyə) izin verilmişdir. Allah onlara kömək etməyə, əlbəttə, qadirdir! O kəslər ki, haqsız yerə, ancaq “Rəbbimiz Allahdır” - dediklərinə görə yurdlarından (Məkkədən) çıxarıldılar. Əgər Allah insanların bir qismini digər qismi ilə dəf etməsəydi, sözsüz ki, içərisində Allahın adı çox zikr olunan soməələr (rahiblərin yaşadığı monastırlar), kilsələr, məbədlər (yəhudi məbədləri) və məscidlər dağılıb gedərdi. Allah Ona yardım edənlərə, şübhəsiz ki, yardım edər. Həqiqətən, Allah yenilməz qüvvət, qüdrət sahibidir!"

"Allah Öz vədəsindən əsla dönməz!"

"Allah Öz vədinə əsla xilaf çıxmaz!"

"Allah vəd etdi. Allah Öz vədinə xilaf çıxmaz. Lakin insanların çoxu bilməzlər!"

"Allahın peyğəmbərlərə verdiyi vədə xilaf çıxacağını sanma! Həqiqətən, Allah yenilməz qüvvət sahibi, intiqam sahibidir!"

Və hansı vəd Allahın bu vədindən açıqdır: "Allah aranızdan iman gətirib yaxşı işlər görənlərə - yalnız Mənə ibadət edərlər, heç nəyi Mənə şərik qoşmazlar deyə - onları özlərindən əvvəlkilər kimi yer üzünün varisləri edəcəyini, onlar (möminlər) üçün onların Allahın Özü bəyəndiyi dinini möhkəmləndirəcəyini və onların qorxusunu sonra əmin-amanlıqla əvəz edəcəyini vəd buyurmuşdur. Bundan sonra küfr edənlər, şübhəsiz ki, əsl fasiqlərdir!"

## *İkinci intifazədə İsrailin məğlubiyyəti*

Radikal sionistlərin bütün ümidi bu gün qondarma və yalançı dövlətin və hökumətin başında duran yırtıcıya bağlanmışdı. Ümidvar idilər ki, o, dəmir çəkmələrlə gəlib polad yumruqla və süngü ilə ayağa qalxmış Fələstin xalqını diz çökürdə və intifazəni söndürə bilər. Lakin bunun gəldiyi gündən intifazə günbəgün daha da alovlanmışdır. Bu son ümidləri idi. İndi öz daxillərində ixtilaf yaranmışdır. Uzaq yerlərdən gəlib bu torpaqda və işğal olunmuş ölkədə təhlükəsiz yaşamaq istəyənlər bu gün qayıtmaq barədə düşünürlər. Onların bir çoxu qayıtmaq halındadırlar və daha heç kim gəlməyə cürət etmir; ruhdan düşüblər, zəiflik hiss edirlər və öz aralarında ixtilaf yaranmışdır; öz gələcəklərinə ümidsiz olublar və gələcəkdə aydın üfüq görmürlər. Bu işğalçı sionistlər təşvişdə və iztirabdadırlar; işləri və sözləri bunu göstərir. Əgər bu hadisələr Fələstin xalqı üçün acı və qəmlidirsə, onların düşməni üçün də çox acıdır. Quranın bu şərafətli ayəsi necə də səlisdir: "Əgər siz əziyyət çəkirsinizsə, onlar da sizin kimi əziyyət çəkirlər. Halbuki siz onların ummadıqlarını Allahdan umursunuz". Əgər siz bu mübarizədə əzaba və əziyyətə düşürsünüzsə, düşmən də əzab-əziyyətə düçar olur, o da yaralanır, həm də sizdən çox. Fərq bundadır ki, Fələstin xalqının qarşıda işıqlı üfüq var, lakin sionist işğalçı üçün bu işıqlı üfüq yoxdur. Fələstin xalqının işıqlı üfüqü var, özünü oraya çatdıra bilər; hamının edəcəyi səylə, çalışmaqla və fəaliyyətlə.

## *İkinci intifazənin təsiri - fələstinlilərin birliyi*

Saziş prosesi və konkret olaraq Oslo layihəsi fələstinlilərin parçalanmasına səbəb oldu. Amma bu mübarək intifazə Fələstinə milli birliyi qaytara bildi. Görürsünüz ki, xalqın müxtəlif təbəqələri bu mübarizədə iştirak edirlər. İslam cərəyanları və milli cərəyanlar bir-birinin yanındadırlar. Hətta könlü hələ də başqa yerdə olan şəxslər də məcbur qalıb bu əzəmətli hərəkətlə yoldaşlıq edirlər.

## *Payız konfransının təsirsiz olması*

Ötən il mən Fitr bayramı namazında müsəlman xalqa dedim ki, bunların təşkil etmək istədikləri, payız konfransı adlandırdıqları və regiona daha artıq hökmranlıq üçün proqram və planları nəzərdə tutan bu konfrans məğlubiyyətə uğrayacaq. Bu gün görürsünüz ki,

oturub danışdıqları və durduqları o konfransdan Fələstin, Livan və Orta Şərqin əsas regionunda heç bir əsər-əlaməti yoxdur. Bu onu göstərir ki, İslamla qarşılaşan, İslam ümməti ilə vuruşan və məqsədi bu həssas regiona daha artıq hökmranlıqdan ibarət olan qurum daha irəliləyə bilmədiyini hiss edir. Əlbəttə, biz özümüzü ifratçı nikbinliklərlə arxayın etmək istəmirik. Hamının gözü önündə çətin, ağır və acı həqiqətlər var. Hamı onları görür. Amma söhbət bundan gedir ki, hegemonçu qüvvə xalqların iradəsi qarşısında bir iş görə bilməmişdir və bundan sonra da bir iş görə bilməyəcək.

## *Mübarizənin dərs və ibrətlərinin onun dərd və müsibətlərindən böyük olması*

Aylardır Fələstinin işğalçı rejimi tərəfindən zorakılıq, qəddarlıq, qan tökmək və insan öldürmək dalğası bütün bu torpağı bürüyüb. Məzlum və qaçqın müsəlmanları - qocaları, gəncləri, azyaşlıları və xəstələri şəhadətə yetirirlər. Zərərçəkənlər və yaralılar seli müalicə üçün İslam ölkələrinin xəstəxanalarına köçürülür. Bu mübarək ramazan ayında sionistlər oruc tutan müsəlmanlara qarşı hər gün yeni cinayətlər törədirlər. Lakin bu mübarizənin dərs və ibrətləri onun dərd və müsibətlərindən olduqca böyükdür; qəlblərdə ümid işığı yandırır və gələvək üfüqləri daha işıqlandırır. Bu gün Fələstində yeni nəsil müxtəlif müsibətlərə dözür, qalib və əmin-amanlı gələcəyə çatmaq üçün dözüm və müqavimət yolunu rəhbər tutur: "Əlbəttə, Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal, can və məhsul qıtlığı ilə imtahan edərik. (Ey Rəsulum! Belə imtahanlara) dözən şəxslərə müjdə ver!"

Əqsa məscidi intifazəsi Fələstin xalqının mübarizələrində böyük yeniliyin başlanğıcıdır. Fələstin müqaviməti enişli-yoxuşlu yolları sınayıb, müxtəlif hiylələrdən keçib, çətin əngəlləri arxada qoyub, müxtəlif silahların çaqqıltısını, düşmən qırıcılarının və topxanalarının gurultusunu eşidib, bu gün cinayətkarların və onların himayədarlarının caynağından qurtuluş üçün yeganə yolun davamlı cihad və müqavimətdən ibarət olduğunu yaxşı bilir. Müsəlmanların ictimai rəyi də bu strategiyanı təsdiqləmişdir. Böyük xalq yardımları və İslam ölkələrinin cümə namazlarında intifazəni müdafiə və ona dəstək məqsədilə edilən fədakarlıq və qəhrəmanlıq bunun əlmətləridir.

İsrailin məğlubiyyəti və Livanın cənubundan qovulması Əqsa məscicidi intifazəsinin qəhrəmanlarına böyük bir dərs verdi, fələstinli mübarizlər bu məğlubiyyətdə düşmənin işğal olunmuş torpaqlardakı məhvinin və məğlubiyyətinin əlamətlərini ağıl və fərasətlə dərk etdilər, dinin, mənəviyyatın və İslamın həyatverici təlimlərinin tükənməz mənbəyinə arxalanmaqla əsl İslam yoluna qayıdıb mübarizə bayrağını daha da ucaltdılar.

Sionistlər hakimiyyət bölgüsünü Fələstin xalqının təhqiri və xarlığı əsasında aparmışdılar. Lakin fələstinlilər sionizm rejiminin, Amerikanın istismarçı quruluşunun və məğlub olmuş sülh tərəfdarlarının bu bölgüsünün və bu rəzil müqavilələrinin əksinə olaraq ayağa qalxdılar, şərəf və izzət yolunu seçdilər, cinayətkar İsrail rejimini daxildə böhranla, sərhədlərdə intifazə və müqavimətlə üz-üzə qoydular. Bu il mübarək ramazan ayının bütün cümə günləri Fələstin xalqını müdafiə və işğalçı sionistlərə nifrət bildirmək səhnəsidir. Dünyanın hər yerində müsəlmanlar və cümə namazı qılanlar Ümumdünya Qüds Gününün möhtəşəm mərasimini keçirmək üçün özlərini hazırlayırlar. Onlar bir daha məzlum Fələstin xalqına öz himayələrini əsirgəmədiklərini göstərəcəklər.

## *Dırnaqarası sülh müzakirələrinin məqsədi - Fələstin məsələsini unutdurmaq*

Bu gün Fələstin məsələsini unutdurmaq və onun İslam ümmətinin ümumi rəyində ortaya qoyulmasının qarşısını almaq üçün görülən işlərdən biri fələstinlilərin bir qrupu - yəni Ərəfat və onun dəm-dəsgahı ilə israillilər arasında cərəyanda olan dırnaqarası sülh müzakirələridir; yəni barışıq məsələsi, dırnaqarası Fələstin Muxtar Hökuməti və bu kimi məsələlər. Bu da israillilərin ən çirkin hiylə və kələklərindən biridir. Təəssüf ki, bəzi müsəlmanların və fələstinlilərin bəziləri onun tələsinə düşmüşlər.

## *Muxtar təşkilatın rüsvayçı razılaşması*

Növbəti məsələ bu yaxınlarda sionistlərlə özlərini Fələstinin nümayəndəsi bilənlər arasında baş verən rüsvayçı razılaşmadır. Mən bu məsələnin təfərrüatına toxunmaq istəmirəm. Bunu radio və televiziya, ölkə məmurları, Xarici İşlər Nazirliyinin əməkdaşları və belə məsələlərin izahını öhdəsinə götürən digər şəxslər bizim

xalqımıza aydınlaşdırmalıdırlar və xalqımız çox çirkin və təhlükəli olan bu məsələdən xəbərdar olmalıdır. Hələ təxminən iki il bundan öncə bağladıqları müqaviləyə əməl olunmamış gəlib məzlum Fələstin xalqının, Fələstin ölkəsinin, ərəb dünyasının və İslam dünyasının tam əleyhinə olan başqa bir müqavilə imzaladılar.

Amerika bu məsələ ilə ciddi məşğul oldu. Səbəb də bu idi ki, Amerika prezidentinin düçar olduğu şəxsi problemlərə və həmçinin Amerika diplomatiyasının Orta Şərqdəki rüsvayçılığına görə onların da bu məsələyə ehtiyacları vardı. Amerikalıların özləri dəfələrlə deyiblər ki, dırnaqarası Fələstin Azadlıq Təşkilatı ilə İsrail arasındakı sülh müqavilələri kağız üzərindədir və real deyil. Amerika diplomatiyasının bu işdə zəifliyi, Amerikanın gücsüzlüyü, bacarıqsızlığı Amerikanı dünyada rüsvay etdi. Digər çoxlu daxili və xarici məsələlər də var. Oturub bir neçə qısa həftə ərzində təcili bir işlə özünü Fələstin xalqının nümayəndəsi bilən şəxsdən bir müqaviləyə imza aldılar. O, əskik və xəyanətkar bir insandır, eqoizm və dünyagirlik bataqlığında o qədər batıb ki, Fələstin müqavimətinin üzvü sayılmağa ləyaqəti yoxdur, nəinki o müqavimətin rəhbəri olmağa. O əslində fələstinli mübarizələrin təqib məsuliyyətini öhdəsinə götürüb; yəni sionizm dövlətinin Fələstinin müsəlman inqilabçıları tərəfindən böyük problemini onun üzərindən götürmək və öz üzərinə almaq. Onun daşımalı olduğu yükü bu daşıdı və düşmənin işi asanlaşdı; Fələstin inqilabçıları üçün problemlər və başağrıları yaratdı, Amerikanın çirkin müdaxiləsini və amiranə fəaliyyətlərini artırdı. Bundan əlavə, sionistlərin və Ərəfatın dəm-dəsgahının ardıcıl olaraq iki həftədən bir bu işlərdən ötrü iclasları keçirilir. O, amerikalılarla da iclas keçirib onlara məruzə etməlidir ki, mən bu işləri gördüm, bu şəxsləri tutdum, bu şəxsləri həbs etdim, bu insanları cəzalandırdım. Əgər bir məhbusu azad etsə, amerikalılar ona etiraz edəcəklər ki, nə üçün inqilabçılardan olan bu məhbusu azad etdin, nə üçün səhlənkarlıq etdin, nə üçün filankəsi tutmadın. Burada İsrail məruzəçidir və siyahı verir, Amerika hakimdir və hökm edir, cənab Yasir Ərəfat da o hakimin hökmünün icraçısıdır. Ar olsun belə alçaq insanlara!

Əlbəttə, məsələnin zahiri tərəfi hələlik budur ki, bu muzdur qurum fələstinliləri tar-mar etməlidir. Lakin bu, məsələnin zahiri tərəfidir. Məsələnin məğzi budur ki, fələstinliləri malik olduqları qədər torpaqdan uzun müddət üçün məhrum etsinlər. Məsələnin

zahiri budur ki, fələstinli mübarizlər əzilirlər, amma məğzi budur ki, sionizm hökuməti hətta fələstinlilərin bu qədər iştirakına da qane deyil. İşi o qədər çətinləşdirmək və ağırlaşdırmaq istəyir ki, rahat yaşamaq istəyən azad bir fələstinliyə israillinin nökərliyindən başqa yaşamaq imkanı qalmasın. O, Amerikanın ayağını açdı, CİA-nın ayağını əvvəlkindən daha artıq açdı. Onların müdaxilə imkanını genişləndirdi və mübarizlərin işini çətinləşdirdi. Əlbəttə, bunların hamısı onların xəyalında və gümanındadır.

Bu müqavilə ondan ötrüdür ki, bəlkə xain fələstinlilərin əli ilə özlərinə bu təhlükəsizliyi yarada bilsinlər. Çünki təcrübə etdilər və özləri bacarmadılar. İstəyirlər Ərəfatın vasitəsi ilə təhlükəsizliyə nail olsunlar. Lakin mən deyirəm ki, Fələstin xalqı sionistlərlə düşməndir. Yasir Ərəfat olmuş olsa belə, sionistlərin nökərləri ilə də şiddətli düşməndir.

## *İsraillə müzakirə sözünü təkrarlamaq – onun qəbahətinin sınmasının səbəbkarı*

Mən düşünürəm ki, bu sözlərin onlar tərəfindən təkrar edilməsi də pis işdir. Bu mənim fikrimdir. Mənim fikrimcə, bir günahı əməldə yaymaq üçün onun yollarından biri o günahı dillərdə əzbər etməkdir. O qədər desinlər ki, pisliyi aradan götürülsün. Siz bu Fələstin məsələsinə və bəzi fələstinlilərin özləri və Fələstin xalqı üçün qəbul etdikləri bu acı taleyə baxın. Bu gün bu, çox böyük təcrübə və dünyada böyük bir ibrətdir. Hər tərəfdə davamlı olaraq bir nəfər bir söz dedi, digərləri də ona qəzəblənmədilər, daim dedilər ki, bizim İsraillə söhbət etməyimizin nə eybi var? Daha iş o yerə çatdı ki, "işğalçı düşmən" demədilər. Demədilər ki, bu, işğalçı düşməndir. O, fələstinlilərin evində oturub. Nə müzakirəsi?! Onunla müzakirə budur ki, desinlər ay filan-filan olmuş, bizim evimizdən çıx. İşğalçı ilə müzakirə belə olur. Zalımla müzakirə budur ki, filan-filan olmuş, niyə bu qədər zülm edirsən? Müzakirə budur, dostcasına müzakirə aparmaq, getmək, demək, gülmək, onun bir söz deməsi, bunun bir söz deməsi, sonra çənə vurmaq yox. Bundan sonra "işğalçı ilə belə sözlərimiz yoxdur" deməyin nə mənası var?! Davamlı olaraq İsraillə müzakirədən söhbət açan şəxslərə heç kim etiraz etmədi.

Nəhayət fikirlərdə onun pisliyi ortadan götürüldü. Sonu da bu acı və qara məsələlərə çatdı.

## *Fələstinə dair xəyanətkar konfransın səmərəsi*

O xəyanət konfransı bitdi; sözlərini danışdılar, sionistləri və işğalçı rejimi praktiki olaraq rəsmən tanıdılar. Nəticə nə oldu? Fələstinlilər nə qazandılar? Ərəb dünyası nə qazandı? İşğalçı və yalançı İsrail rejimi belə bir hadisənin qırx neçə ildən sonra baş verməsini arzulayırdı. Eyni zamanda özünü buna həvəssiz göstərirdi; hey naz edirdi, şərt qoyurdu. Sonra da konfransa gedib ərəblərin qarşısında ən kəskin və ən həyasız sözlərini danışdı və konfransdan ayrılıb gəldi. Nə üçün ərəb hökumətləri belə hiylənin və belə yalanın qarşısında silahı yerə qoydular? Tarix bunlara nə deyəcək? Allah qiyamətdə bunlarla necə sorğu-sual edəcək? Xalqları bunlarla nə edəcək?

## *İsraillə müzakirə aparanlara müsəlman xalqların nifrət bəsləməsi*

Mən güman etmirəm ki, bəzi qeyrətli ərəb hökumətləri bu rəzilliyə dözməyə razı olsunlar və dözməməlidirlər. Xalqlar əsla dözməyəcəklər. Əgər amerikalılar Orta Şərq məsələsini bu formada həll etmələrini güman edirlərsə, səhvdədirlər. Onlar bilsinlər ki, işğalçı sionizm rejimi ilə müzakirə stolu arxasında oturan hər bir rejimin xalqı arasındakı mövqeyi zəfiləyəcək və regionda təhlükəli vəziyyət günbəgün artacaq.

Xalqlar öz yollarını gedirlər. Xalqlara zidd olan rejimlər dünən Kemp Deyvid müzakirələrində gördüyümüz taleyi yaşayacaqlar.

## *İki xəyal: İsrailin məğlubedilməzliyi və birgə yaşamağa ümid*

İstər sionizm rejiminin məğlubedilməzliyi xəyalı ilə realistlik şüarı verib işğalçılara sarı barışıq və təslimçilik əli uzadanlar, istər öz səhv gümanlarına əsasən sionist siyasətçilərin ikinci və üçüncü nəslini birinci nəslin cinayətlərindən uzaq bilib onların bir-birinin yanında sağlam birgəyaşayışına dair ürəklərində ümid yetişdirənlər indi öz səhvlərini anlamalıdırlar. Əvvəla İslam ümmətinin oyanış dalğası və İslam müqavimətinin çiçəklənməsi ilə o yalançı heybət

dağılmış, işğalçı rejimdə bacarıqsızlıq və acizlik əlamətləri aşkar olunmuşdur. İkincisi isə o rejimin idarəçilərində olan təcavüzkarlıq xisləti və cinayətə həyasızlıq eynilə birinci onilliklərdə olandır. Əgər bacarsalaq, yaxud bacardıqlarını güman etsələr, heç bir cinayətdən çəkinməzlər.

## *Fələstinlilər üçün rifah dövrü imtahanının çətinlik dövrü imtahanından ağır olması*

Bəzən çətinlik dövrünün imtahanı rifah və asayiş dövrünün imtahanından daha asan olur. İşağlçı, əxlaqsız və zalım israillilərlə məzlum mübarizə dövrünün imtahanı çətin imtahan idi. Bəziləri onun öhdəsindən gəldilər və bir neçə il ötdükdən sonra həmin mübarizələrin sayəsində xalqın arasında hörmət qazandılar, pullar töküldü, hörmətlər olundu və rahatlıq dövrü başlandı. Daha mübarizə yox idi, daha ölüm təhlükəsi yox idi, daha çiyinə avtomat atmaq yox idi. Odur ki, asayiş dövrünün imtahanından kəsildilər; özü də çox pis kəsildilər. Fələstinin satılması rüsvayçılığını gördünüz. Müasir tarixdə belə nümunələrimiz çoxdur. Mən çətinlik dövrlərini ən təmiz vəziyyətdə keçirən, lakin rifah dövründə çirkinliyə və fəsada düçar olan mübarizlər görmüşəm.

## *İsraili məhv etməkdə İslam ölkələrinin bacarıqsızlığının səbəbi - ilahi rəhbərliyin olmaması*

Digər ölkələrə baxın. Digər İslam ölkələrinin xalqı da müsəlmandır. Demək olmaz ki, filan ölkənin xalqının düzgün dini və imanı yoxdur. Əgər bəzi ölkələrdə bəzi amillərə görə xalq iman zəifliyinə düçar olsa və bəzi qeyri-dini adətlərə malik olsa, bu başqa bir məsələ, amma xalqın imanı əksər İslam ölkələrində dərin imandır və bunun nümunələrini tapmaq olar. Təxminən səksən il din əleyhinə iş aparılan Mərkəzi Asiya ölkələrində də xalqda hələ dini sevgilərin olduğunu görürsünüz. Çoxlu ölkələrdə xalq namazı, orucu - yəni dinin onlardan istədiyini anladıqlarını düzgün yerinə yetirirlər. Amma düşmənlərin mədəni hücumu qarşısında, düşmənlərin siyasi hücumu qarşısında, dünya hegemonluğunun kompaniyalarının iqtisadi hücumu qarşısında və əgər nə zamansa baş versə, düşmənlərin hərbi hücumu qarşısında həmin xalqın əlindən heç bir iş gəlməyəcək. Nə üçün? Nə üçün Orta Şərq regionunda çoxlu əhalisi

olan böyük ölkələr və işğalçı sionizm rejimi ilə qonşu və çoxlu əhalisi olan bəzi ölkələr bu xərçəng vəzisinə əlac edə bilmirlər?

Səbəb nədir? Səbəb böyük İran xalqının din və imanının olması ilə yanaşı, inqilabdan qabaqkı dövrlərdə yaranan bütün hadisələrdə uğursuzluğa düçar olmasına bais olan səbəbdir. Səbəb hər yerdə birdir. Səbəb budur ki, bizim xalqımız keçmişdə bu səkkiz il ərzində malik olduğu üstün xüsusiyyətlərdən məhrum idi. Bu gün də təəssüf ki, bir çox müsəlman ölkələri ondan məhrumdurlar. Amma bizim xalqımız inqilabdan sonrakı illər boyunca ona malik olmuşdur. Bu nədir? Bu əsaslı bir məsələdir. Bu, İran xalqının uğurlarının və böyük qələbələrinin amilidir; yəni bu əzəmətli mömin xalqın, bu gənclərin, bu kişilərin, qadınların və müxtəlif təbəqələrin bütün vücudu ilə İslam məqsədləri yolunda çalışan və xalqı hərəkət etməli olduğu yola yönəldən mərkəzlə - ilahi və iman rəhbərliyi ilə rabitəsidir. Bir rəhrəblik, bir mərkəz və bir yönəltmə orqanı bizim Böyük İmamımızda – o hikmətli və mənəvi insanda təcəssüm olunmuşdu. Bizim bu əzəmətli, müsəlman, mömin və öhdəlikli xalqımıza yolu göstərən o idi. Xalqa deyirdi ki, kiminlə mübarizə aparsın; xalqı dəvət edirdi ki, Allahla ürəkdən rabitə qursunlar və Allaha təvəkkül etsinlər; xalqı xəbərdar edirdi ki, düşmən qarşısında özünü necə təchiz etsin, hazır saxlasın və düşmən onları aldada bilməsin. Yeri gəldikdə xalqın bilməsinin lazım olduğunu xalqa deyirdi. İmamın arxasında da ölkəni idarə edən qurum - yəni İslam Respublikası quruluşu vardı. Amma məsələ şəxsən imamla məhdud olmur. Kimsə düşünməsin ki, İslam Respublikası quruluşunda xalqın əzəmətli kütlələri yalnız rəhbərlə rabitədə olmalıdırlar və xalq qüvvəsinin cəlb olunmasında, yönəldilməsində, idarəsində və onlara dəstəkdə ölkəni idarə edən qurumun rolu yoxdur. Xeyr, bu səhvdir. Məhz buna görə siz görürdünüz ki, Böyük İmam dəfələrlə ölkənin rəsmi məmurlarını himayə edir və dəstəkləyirdi.

### *Məyusluq - meydana atılmaqdan çəkinməyin səbəbi*

Məyusluq bəzilərinin meydana atılmamasına səbəb olurdu. Məyusluğu uzaqlaşdırmaq lazımdır. Siz qəddar Bəs rejiminin türmələrində olanda nə qədər baxırdınızsa, gözünüzün önü qaranlıq idi. Əlinə qamçı almış o kobud məmurdan, o sərt Bəs zabitindən tutmuş Səddam Hüseynin özünə qədər biri o birindən sonra sizə

sanki şəxsi qan düşməni və ata-baba düşməni idilər. Hansının əlinə düşsəydiniz, sizə əziyyət və işgəncə verir, incidirdi. Belə deyildi?! Bütün mühit qaranlıq idi. Burada, sizdən uzaqda evdə oturan və siz qardaşların yoxluğundan qəm çəkən bizim hamımız da belə idik. Mənim özüm şəxsən bu hissləri keçirirdim və bilirdim ki, İran xalqının əksəriyyəti də bu hissləri keçirir; istər evlərində, yaxud qohumlarında əsir olsun, yaxud olmasın; hamı bu hissi keçirirdi. Onlar da baxdıqda mühiti qaranlıq görürdülər. O məyus baxışın arxasında ilahi lütfün və ümidin günəşi parlayırdı, amma biz görmürdük. Bu bir dərsdir. Nə üçün bəzi adamların dünyanın hegemonçu qüvvələrinə qalib gəlmək ümidləri yoxdur? Nə üçün bəzi adamlar bu regiondan İsrailin kökünü kəsməyə ümidsizdirlər? Nə üçün bəzi adamlar bütün dünya müsəlmanlarını bugünkü vəziyyətdən və məzlumluqdan xilas etməyin mümkünlüyünə ümidsizdirlər?

## *Müsəlman xalqların çətinlik və bəlalarının etiqad və söz tövhidi xəttinin itirilməsindən qaynaqlanması*

Bu gün müsəlmanların başına gələn çətinlik və bəlaların hamısı tövhid sayəsi altında həyat idarəsini itirməyə görədir. Tövhid təkcə zehnə aid olan bir məsələ deyil. Tövhid real bir məsələ, bir sistem və bir həyat proqramıdır. Tövhid bizə deyir ki, dostlarımızla necə olaq, düşmənlərimizlə necə olaq, ictimai quruluşda necə olaq və necə yaşayaq. Bəziləri elə bilirlər ki, tövhidə etiqad ölümdən sonraya aiddir. Halbuki tövhidə etiqad bu dünyanın və həyatın qurucusudur. Bu gün bizim buna ehtiyacımız var. Müsəlman xalqların buna ehtiyacı var.

Biz nə qədər tövhidə və Allah bəndəliyinə sarı getsək, tağutların və Allah şəriklərinin şəri bizdən bir o qədər azalacaq. Müsəlman İran xalqı tövhid xəttində nə qədər irəliləmişsə, bu gün Amerikanın və dünya hegemonlarından olan başqa qüvvələrin diluzunluğundan və əluzunluğundan rahat olmuşdur. Onların əmrlərindən azaddır. Bu, tövhidin və Allah bəndəliyinin xüsusiyyətidir. Allahın bəndəsi olsanız, (görəcəksiniz ki,) bu, digərlərinin bəndəliyi və nökərliyi ilə uyuşmur. Bu, birinci şərtdir.

İkinci şərt də söz tövhidir. Müsəlman xalqlar bir-biri ilə birləşməlidirlər.

# İkinci fəsil: Qələbələr və dərslər

### *Sionizm rejiminin uzunmüddətli bir qarşılaşma üçün gücsüzlüyü*

Bu gün Hizbullah və onun tarixi qələbəsi Fələstin xalqının intifazəsinin dayağıdır və sözsüz ki, çox güclü dayaqdır. Sionizm rejiminin fələstinlilərlə davamlı və üzünmüddətli bir qarşılaşma üçün əsla lazımi gücü yoxdur. Yəhudiləri aldadıb bu ümidlə Fələstinə gətiriblər ki, ərəblər onlarla vuruşmayacaqlar və əgər bu fikrə düşsələr, Qərbin təzyiqi onların uzunmüddətli müqavimətinə mane olacaq. Belə puç ümidlə Fələstinə gələn şəxslərin öz canlarını sionizmin banilərinin siyasi məqsədlərinə qurban vermək hazırlıqları yoxdur. Məlumatlara əsasən, sionistlərin turizmi kəskin şəkildə zəifləyib və hətta əks-mühacirət prosesi başlanmışdır.

### *Qələbənin dəyərinə görə fəlakətlərə dözmək*

Şübhəsiz, mübarizənin təəssüflü zərərləri də vardır; insanlar öldürülür, evlər dağıdılır, iqtisadi təzyiq xalqı sıxır və qəm-qüssəsi bizim ürəklərimizi heç zaman buraxmayan digər onlarla fəlakət. Amma görək bu fədakarlığın nəticəsi nədir? Qələbə o qədər qiymətlidir ki, onun dəyərini mütləq vermək lazımdır.

### *Fələstinlilərin qiyamı ilə İsrailin bütün proqnozlarının puç olması*

Çox əhəmiyyətli olan ikinci məqam budur ki, bu qiyam işğalçı sionizm dövlətinin bütün proqnozlarını ruç etdi. Onların əsas proqnozları bu idi ki, əvvəldəki təzyiqdən sonra əsas Fələstin əhalisinin yarıdan çoxunun ölkə xaricinə sürgünündən və uzun illər ötdükdən sonra Fələstin xalqının daha mübarizə üçün gücü, hövsələsi, iradəsi, həvəsi və canı qalmayacaq. Hal-hazırda bu proqnozlar yanlış çıxmış və bu təməl dağılmışdır. Fələstinin özündə olan milyonlarla insan - Fələstinin əsl sərhədlərindən kənarda, Livanda, İordaniyada, yaxud digər yerlərdə olan fələstinli qruplar yox - o rejimlə mübarizə aparmağa qərar verəndə daha özləri üçün vəd olunmuş cənnət saydıqları və qeyri-fələstinli mühacirləri, yəni dünya yəhudilərini oraya çəkdikləri təhlükəsiz mühit daha mövcud

olmayacaq. Bu gün proqnozlar pozulmuşdur. Odur ki, hökumətlərinin istefa verməyə məcbur olduğunu görürsünüz. Bu məcburilik və çarəsizlikdir. Əlbəttə, bu istefa üçün ən çox təzyiqi göstərənlərin radikallığın daha da artırılmasını və daha daşürəkli hökumətin iş başına gəlməsini xəyal etmələri mümkündür. Lakin bu da səhv bə xətadır. Məsələ kiçik məsələ deyil, böyük məsələdir. İslam dünyasının və bütün müsəlman ölkələrinin taleyidir. Xüsusən də bu təhlükə ocağına və bu fəsad vəzisinə daha yaxın olan ölkələrin taleyi onların taleyinə bağlıdır.

## *İsraillə müzakirənin onu öz cinayətlərindən döndərməməsi*

Mən burada İslam dövlətlərinin siyasi başçılarına da deyirəm: Onlar düşünməsinlər ki, belə böyük bir məsələdə güzəştə getməklə işğalçı İsrail və onun arxasında duran Amerika öz təcavüzlərini dayandıracaqlar. Onlar bir addım önə gəldilər, təslim oldunuz, daha bir addım gəldilər. İndiyə qədər bu şüarı rəhbər tutanların bir silahı vardı. Nə üçün onu əldən verdilər? Hansı düzgün təhlillə? İran İslam Respublikası bu on beş ildə sözünü Böyük İmamının və İran xalqının dilindən demişdir. Söz yenə də həmin sözdür. Zamanın ötməsi ilə haqq köhnəlmir və nahaq olmur. Zülm də zamanın ötməsi ilə qanuniləşmir.

## *Məzlumluqla yanaşı Fələstin xalqının qüdrəti, qəddar və zalım sionistlərin acizliyi*

Bu gün Fələstin xalqı məzlum olmaqla yanaşı, arxalarında Amerikanın durduğu qəddar və zalım sionistlərin qüvvəsini əngəllə üzləşdirmiş və onları aciz etmişdir. Bu gün İsrail hiss edir ki, fələstinli mübarizlərin qarşısında heç bir düzgün və məntiqli yolu yoxdur. Bu, o xalqın müqavimətinə görədir. Çünki o xalq dayanmışdır.

Bir gün onların düşməni bugünkündən daha zəif idi, amma Fələstin xalqına hakim ola bildi. Çünki müqavimət yox idi. Bu gün düşmənləri o zamandan yüz dəfə artıq güclüdür. Amma Fələstin xalqının qarşısında aciz qalmışdır. Çünki bu xalq dayanmış və qiyam etmişdir. Hansı nöqtədə olursa olsun, İslam ümmətinin müqavimətinin mənası budur. Bu gün gündəlik olaraq sionizm

rejiminin fəlakətlərinə və qəddarlığına düçar olan məzlum Fələstin əhalisi o zalım və haqsız rejimi problemə düçar etməyi bacarmışdır. Bu gün bir çox ərəb ölkələri və Fələstinin qonşuları İsrailin hücumuna məruz qalmırlarsa, o məzlum xalqın müqavimətinə görədir. Onların bütün İslam ümmətinin və ərəb xalqlarının - xüsusən də Fələstinin qonşuları üzərində böyük haqları vardır.

Bu gün düşmən öz məqsədlərini açıq söyləyir. Açıq şəkildə deyir ki, İslam oyanışına qarşıdır və onu məhv etmək istəyir. Açıq şəkildə deyir ki, Orta Şərqin xəritəsini dəyişdirmək istəyir. Orta Şərqin xəritəsini dəyişdirmək nə deməkdir? Mənası budur ki, beynəlxalq hegemonluğun muzduru olan zalım sionistləri regionun sahibi etsinlər. Bu regionda sionistlərin istismar pəncəsində olmayan heç bir ölkə, hökumət, qüdrət və xalq olmasın. İslam ümməti bu məqsədlərin qarşısında dayanmalıdır.

## *Hər bir fədakar fələstinli gəncin bir qoşun qədər təhlükəsi*

Bu gün Fələstin xalqının başladığı mübarizə bir ordunun digər ordu ilə mübarizəsi deyil ki, onun nə qədər tankı olduğunu, bunun nə qədər tankı olduğunu, onun daha çox, yaxud bunun daha çox imkanları olduğunu deyək. Bu, ölümdən qorxmayan insanların bədənlərinin, cisimlərinin və canlarının mübarizəsidir. İşğalçı rejim qarşısında dayanan hər bir fədakar gənc onları bir qoşun qədər təhdid edir. Bu insanın cavabını daha tank, raket, təyyarə və Apaçi helikopteri vermir. Yalqız olsa belə, bir insan ölümdən qorxmadıqda, özünü Allah və vəzifə yolunda fədakarlığa hazır etdikdə, insafsız dünya adamları üçün ən böyük təhlükə olur. Buna görə siz gördünüz ki, amerikalılar ən yüksək səviyyədə şəhadət istəyən bu gənclərin qarşısında açıq mövqe göstərdilər. Mən deyirəm ki, bu işlərin faydası yoxdur. Bu şəhadət istəyi emosiya üzündən deyil. İslama, qiyamət gününə və ölümdən sonrakı həyata etiqaddan irəli gəlir. İslam özünün həqiqi mənasında harada mövcud olsa, hegemonluq əleyhinə bu təhlükə mövcuddur. Hegemonluq Fələstinə hökmranlıq üçün İslamla mübarizə aparmağa məcburdur. İslamla mübarizə isə İslam dünyası ilə mübarizədir və bu mübarizənin faydası olmayacaq.

## *İsrailin qüvvəsinin müsəlmanların bir olmamasından irəli gəlməsi*

Müsəlmanlar özlərinin bütün şüarlarından - milliyyət şüarından, özlərinə məxsus məzhəb şüarından, öz siyasətlərinə aid şüarlardan qabaq İslam ümmətinin vəhdət və birliyi şüarını verməlidirlər. Bu gün onlar üçün ən təsirli şüarlardan biri budur. Müstəmləkəçiliyin, hegemonluğun və əcnəbi qüvvələrin əlinin həmişə müxtəlif növlü hiylələrlə bu vəhdəti pozmağa çalışdıqlarını bilirik. Ən xəbis hiylələrdən biri Fələstin torpağının işğalı hiyləsi və müsəlman Fələstin torpağında - yəni müsəlman xalqların və İslam ölkələrinin ürəyində sionizmin xəbis ağacının əkilməsi olmuşdur.

Əgər bu gün bizim vəhdətimiz olsaydı və əgər İslam mənəviyyatına arxalansaydıq, düşmən Fələstin xalqını öz evində belə aşkarcasına və bu cür işgəncəyə, təzyiqə, təqibə və əzaba məruz qoya bilməzdi. Fələstin hadisələri çox dindar olmasa belə, hər bir qeyrətli insanın qəlbini yandırır və rahatsız edir. Qətlə yetirilmiş bir-iki yaşlı uşağın həyəcanlı dəfn mənzərəsini görüb kim rahat yata bilər? Kim xalqın onlara məxsus olan evlərdə, küçələrdə, xiyabanlarda, şəhərlərdə və əsrlərdir babalarının sümüklərinin dəfn olunduğu torpaqda mühasirə olunduğunu görüb təsirlənməz? Bu gün Beytülmüqəddəs, əl-Xəlil, Qəzzə və işğal olunmuş torpağın digər bölgələrinin əhalisini həbs etmişlər. Onları öz evlərində öldürürlər, öz evlərində ata və analarını övladlarının qəminə oturdurlar, onlara ac qoyurlar, iqtisadi blokadaya salırlar. Əgər İslam ümməti bir olsaydı, məgər belə bir hal yaranardı? Bu gün də biz müsəlman xalqların və hökumətlərin ən vacib əməli bu məsələdə bir-birimizlə söz birliyinə nail olmaqdır.

## *İyirmi iki günlük müharibədən sonra müraciət*

Bismillahir-Rəhmanir-Rəhim.

Mücahid qardaş cənab İsmayıl Həniyyə

Salam!

Sizin, igid və fədakar mücahidlərin və bütün Qəzzə xalqının dünyanın və tarixin ən faciəli döyüş cinayətlərindən biri qarşısında iyirmigünlük dözümü İslam ümmətinin başı üzərində izzət bayrağını dalğalandırmışdır. Siz zülm və şiddət qarşısında xarlığı və təslimçiliyi qəbul etməyən müsəlmanın Allaha və qiyamətə imanla

dolu qəlbinin, uca və əziz ruhunun zalım və hegemonçu hökumətləri və geniş imkanlı orduları aciz və rəzil edən bir qüdrət yaratdığını sübut etdiniz.

Sizin fədakarlıq və şəhadət istəyindən yaranan qüvvənizin iyirmi gündür Qəzzə darvazaları arxasında bataqlığa salıb rəzil etdiyi ordu altı gün ərzində üç ərəb ölkəsinin böyük hissələrini əlinə keçirən bir ordudur. Öz imanınız və Allaha güvənmənizlə, Allahın vədəsinə inamınızla, öz dözümünüz, şücaətiniz və fədakarlığınızla fəxr edin. Bu gün bütün müsəlmanlar onunla fəxr edirlər. Sizin bu günə qədərki cihadınız Amerikanı, sionizm rejimini, onun himayədarlarını, Birləşmiş Millətlər Təşkilatını və İslam ümmətinin münafiqlərini rüsvay etmişdir.

Bu gün təkcə müsəlman xalqlar yox, Avropa və Amerika xalqlarının çoxu sizin haqq olduğunuzu ürəkdən qəbul etmişlər. Siz bu gün də qalibsiniz. Bu şərafətli müqaviməti davam etdirməklə inşallah zəbun və antiinsan düşməni daha artıq rəzilliyə və məğlubiyyətə çəkəcəksiniz.

Bilin ki, "Rəbbin səni nə tərk etdi, nə də sənə acığı tutdu" və bilin ki, "Həqiqətən Rəbbin sənə bəxş edəcək və sən (Ondan) razı qalacaqsan!" inşallah. Lakin bununla yanaşı fələstinli mülki şəxslərin, xüsusən də məzlum və məsum uşaqların qanlı və faciəli hadisələri bizim ürəklərimizi qana qərq etmişdir. Hər gün dəfələrlə bizim bütün televiziya kanallarımızdan yayımlanan və Fələstinin işğalçılarının cinayətlərindən qaynaqlanan hadisələr bizim xalqımızı matəmə salmışdır. Allah sizə böyük mükafat versin və sizə yardımı tezləşdirsin. Bilin ki, Allahın vədi doğrudur. O buyurub: "Allah Ona yardım edənlərə, şübhəsiz ki, yardım edər. Həqiqətən, Allah yenilməz qüvvət, qüdrət sahibidir!" və buyurub: "(Allah yolunda) cihad edən ancaq özü üçün cihad edər!"

Ərəb xəyanətkarları da bilsinlər ki, onların taleyi Əhzab döyüşünün yəhudilərindən yaxşı olmayacaq. Allah buyurub: "Allah kitab əhlindən onlara (kafirlərə) kömək edənlərin ürəklərinə qorxu salıb onları öz qalalarından endirdi". Xalqlar Qəzzə xalqı və mücahidləri ilə həmrəydirlər. Hansı hökumət bunun ziddinə əməl etsə, özü ilə xalqı arasındakı məsafəni dərinləşdirir və belə hökumətlərin taleyi bəllidir. Onlar da əgər öz həyatları və hörmətləri barədə düşünürlərsə, Əmirəl-mömininin (ə) bu sözlərini yada

salmalıdırlar: "Ölümünüzdəki həyat izzətlidir, həyatınızdakı ölüm isə zillətlidir".

Sizi, Qəzzə mübarizlərini və sizin bütün məzlum və müqavimətli xalqınızını salamlayıram. İran İslam Respublikası hökumətinin sizi müdafiə etməyə dair öz vəzifəsi bildiyi bütün fəaliyyətlərin yanında gecə-gündüz sizə dua edirəm, İzzətli və Qüdrətli Allahdan sizin üçün dözüm və yardım diləyirəm.

Allahın salamı, rəhməti və bərəkətləri olsun sizə və Allahın saleh bəndələrinə!

## *Qəzzədə Fələstin müqavimətinin qələbəsindən sonra sionizm rejiminin və onun himayədarlarının rüsvayçılığı*

İki ay öncə İslam ümməti üçün başqa bir qələbə yarandı. O, Fələstin müqavimətinin Qəzzədə sionist düşmən üzərində qələbəsi idi; böyük və şanlı qələbəsi. Bundan böyük qələbə ola bilərmi?! 67-73-cü illərdə ölkələrin üç böyük ordusunu məğlub edə bilən geniş imkanlı bir ordu iyirmi iki gün çalışdı, amma Qəzzədəki bu müqavimətli gəncləri, bu mömin mücahidləri geri çəkilməyə məcbur və onları məğlub edə bilmədi. Uğursuz halda əliboş qayıtmağa məcbur oldu; bundan əlavə, sionizm rejimi, onun himayədarları və ilk növbədə Amerika dünyada rüsvay oldu. Bu, müsəlmanları həmrəyliyə yaxınlaşdıran böyük qələbə idi. Burada daha şiə və sünni məsələsini irəli sürə bilməzdilər. İndi gəlib milliyyət məsələsini ortaya qoyurlar; ərəb və qeyri-ərəb məsələsini. İddia edirlər ki, Fələstin məsələsi ərəblərə məxsusdur, qeyri-ərəbin Fələstin məsələsinə müdaxilə etməyə haqqı yoxdur. Nə üçün? Fələstin məsələsi İslam məsələsidir, ərəb və qeyri-ərəbin fərqi yoxdur.

## *İsrailin otuz üç və iyirmi iki günlük müharibələrdə məğlubiyyəti - süqutun iti enişi*

Bu mühüm hadisələrin nümunələri İsrailin Livanla otuz üç günlük müharibədə İslam müqaviməti qarşısında hərbi və siyasi baxımdan təəccüblü məğlubiyyəti və Qəzzənin Fələstin xalqı və legitim hökuməti ilə iyirmi iki günlük cinayətkarcasına müharibəsində xiffətli uğursuzluğudur.

Bir neçə onillikdə öz ordusu və imkanları, eləcə də Amerikanın hərbi və siyasi dəstəyi ilə qorxunc və məğlubedilməz görünən işğalçı

rejim indi silaha və texnikalara arxalanmaqdan çox Allaha və xalqa arxalanmaqla vuruşan müqavimət qüvvələrinə iki dəfə məğlub olmuşdur, hərbi məşq və hazırlıqlara, böyük təhlükəsizlik şəbəkələrinə, Amerikanın və bəzi Qərb hökumətlərinin tükənməz dəstəyinə və İslam dünyasının bəzi münafiqlərinin əlbirliyinə rəğmən, parçalanma, süqutun iti enişi və İslam oyanışının güclü dalğası qarşısında bacarıqsızılğını aşkara çıxarmışdır.

## *Düşmənin şiddəti - zəiflik əlaməti*

Düşmənin şiddəti çox zaman onun zəifliyinin və plansızlığının əlamətidir. Fələstin səhnəsinə, xüsusən də Qəzzəyə baxın. Düşmənin Qəzzədəki bəşəri zülmlər tarixində bənzəri az görünən rəhmsiz və cəlladcasına hərəkətləri boş əllə işğalçı rejim və onun himayədarları - yəni Amerikanın böyük qüdrəti qarşısında dayanıb onların Həmas hökumətindən üz çevirməkdən ibarət olan istəklərini ayaq altına atan o kişilərin, qadınların, gənclərin və uşaqların möhkəm iradəsinə qalib gəlməkdə zəifliyinin əlamətidir. Allahın salamı olsun o müqavimətli və böyük xalqa! Qəzzə xalqı və Həmas hökuməti Quranın bu həmişəyaşar ayələrini izah etdilər: "Əlbəttə, Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal, can və məhsul qıtlığı ilə imtahan edərik. (Ey Rəsulum! Belə imtahanlara) dözən şəxslərə müjdə ver!"; "Əlbəttə, siz malınız və canınızla imtahan ediləcəksiniz. Sizdən əvvəl kitab verilmiş kimsələrdən və (Allaha) şərik qoşanlardan bir çox əziyyətli sözlər eşidəcəksiniz. Əgər dözüb Allahdan qorxsanız, əlbəttə, bu, məqsədə müvafiq (dəyərli) işlərdəndir".

Haqq və batilin bu döyüşündə son qalib yalnız haqdır. Bu məzlum və dözümlü Fələstin xalqı nəhayət düşmən üzərində qələbə çalacaq: "Allah yenilməz qüvvət sahibi, qüdrət sahibidir!". Bu günün özündə də fələstinlilərin müqavimətini sındırmaqda uğursuzluqdan əlavə, siyasi sahədə də azadlıq, demokratiya və insan haqları şüarlarının yalan çıxması ilə Amerika rejiminə və daha çox Avropa rejimlərinə bu tezlikdə düzəldilməsi mümkün olmayan ağır zərbə vurulmuşdur. Hörmətsiz sionizm rejimi həmişəkindən daha üzüqaradır. Bəzi ərəb rejimləri də bu möhtəşəm imtahanda özlərinin olan-qalan hörmətlərini də uduzdular: "Zülm edənlər isə hansı dönüşə dönəcəklərini mütləq biləcəklər!"

# Üçüncü bölmə: Məsuliyyətlər

## *Birinci fəsil: Fələstin xalqının məsuliyyəti*

### Fələstinlilərin vəzifəsi

İntifazəni davam etdirməyin birinci yolu Fələstin xalqının müqavimətidir. Allaha həmd olsun ki, indiyə qədər möhkəm dayanmışlar. Bu müqavimətin zirvəsi bu şəhadət əməliyylatlarıdır. Bir kişinin, bir gəncin, bir oğlanın və bir qızın xalqının və dininin maraq və məsləhətləri uğrunda öz canını fəda etməyə hazır olması fəxrin, şücaətin və igidliyin son həddidir. Bu, düşmənin qorxduğu amildir. Buna görə siz gördünüz ki, Amerika prezidentindən tutmuş bütün dünyada Amerika xəttində işləyənlərin və çalışanların hamısı rişxəndlə, məzəmmətlə və özlərindən fəlsəfə çıxarmaqla şəhadət əməliyyatlarını dayandırmağa çalışdılar. Xeyr, şəhadət əməliyyatları bir xalqın əzəmətinin zirvəsi və qəhrəmanlığın uca nöqtəsidir. Bir hərbi qüvvənin tam fədakarlıqla öz vətənini müdafiə etməsi məgər şəhadət əməliyyatı deyil?! Zalım bir ordunun bir ölkəyə təcavüz etdiyində, o ölkənin xalqının həmin ordu qarşısında dayanması məgər şəhadət əməliyyatı deyil?! Kim bu işi məhkum edə bilər?! Bu işin vicdanlı və insaflı insanların gözündəki əzəmət və dəyərini kim azalda bilər?! Şəhadət əməliyyatları onların əzəmətinin zirvəsidir. Qoy bəziləri oturub özləri üçün danışsınlar, yazsınlar, əlli ildir keçmişdəkilərin səhlənkarlığından, özlərindən qabaqkı nəslin uzunmüddətli maraqlara diqqət yetirməməsi səbəbindən bu gün öz canı ilə meydana atılıb hüquqlarını bərpa etməyə məcbur olan xalqı qınasınlar. Məgər bu o xalqa təsir edər?! Fələstin xalqı yaşayır, oyaqdır və irəliləyir.

### *Fələstinlilərin birliyi qorumaq vəzifəsi*

Fələstin xalqının daxili birliyi və Fələstinin müxtəlif cərəyanlarının vəhdəti önəmli bir məsələdir. Yolun yayınmasına və əsas düşmənə diqqətsizliyə səbəb olan heç bir şey şübhəsiz, Fələstin amalının xidmətində durmayacaq. Allaha həmd olsun ki, fələstinlilər bu əlli il boyunca bu imtahandan başıuca çıxıb öz püxtəliklərinin göstərmişlər. Gördük ki, mücahidlərin arasında ixtilaf yaratmaq üçün İsrailin bütün səyləri uğursuz qaldı. Bütün əsas cərəyanlar,

mücahid və mübariz hərəkatlar fərqli təmayüllərinə rəğmən, inqilabçı dözümü ilə düşmənin istəyinin həyata keçməsinə mane oldular. Bundan sonra da belə olmaq lazımdır.

## *Sayıqlığı və birliyi qorumağın lazımlığı*

Bütün xalqlar sayıq olmalıdırlar. Bizim xalqımız, Livan xalqı və Fələstin xalqı sayıq olmalıdır. Regionun ərəb xalqları, İraq xalqı və digər müsəlman xalqlar da sayıq olmalıdırlar. Ehityatlı olsunlar, Amerika və sionizmin yeni xəyanətkar planlarının müvəffəqiyyəti istiqamətində bir hərəkət etməsinlər. Bu gün Amerika dövləti və İsrail rejimi üçün müvəffəqiyyət sayılan işlər bütün İslam ölkələrinin ziyanınadır. Belə deyil ki, bəziləri zərər görsünlər, bəziləri isə fayda. Əsla! Bu regiona təcavüz edənləri, onu qarət edənləri və ona tamah salanları sevindirən iş bu regionun bütün xalqlarını qəmli və kədərli edəcək. Əgər qısa müddətdə ona diqqət yetirməsələr də, orta müddətdə şübhəsiz, ona düçar olacaqlar. Ölkələr ehiyatlı olub öz birliklərini qorusunlar, xalqların daxilində milli birliyi qorusunlar. Müxtəlif cinah və qruplardan olan fələstinli qardaşlar bilsinlər ki, onların birliyi bu gün bütün qələbə amillərindən mühümdür. Olmaya Fələstinli qruplar arasında ixtilaf yaratmaq istəyən düşmənin istəyi ilə bir-biri ilə ixtilafa girsinlər və düşmənlərin onlar üçün cızdığı plandan qafil olsunlar!

## *Fələstin xalqının müqavimət vəzifəsi*

Orada zəhmətlərə qatlaşan əziz fələstinli qardaşlarımıza deyirik: Əgər müqavimət göstərsəniz və dözsəniz, həm ilahi savabı və həm qələbəni əldə edəcəksiniz. Qələbə həmişə dözümlə və Allah yolunda hərəkətlə yanaşıdır: "Allah Ona yardım edənlərə, şübhəsiz ki, yardım edər. Həqiqətən, Allah yenilməz qüvvət, qüdrət sahibidir!" Bunda şübhə yoxdur. Buna görə qələbə olacaq, lakin dözmək lazımdır.

Bu həssas və mühüm mübarizənin mehvəri məzlum və qorxmaz Fələstin xalqıdır. O fəlakətləri bütün vücudu ilə dərk etmişdir və indi İslama sarınmaqla, qəsb olunmuş vətən daxilində özünün fədakar mübarizəsi ilə düşmənə əzəmətli təhlükə yaratmışdır. Hegemonluğun böyük hiyləsi bu mübarizəni yatırtmağa yönəlmişdir. Lakin Allahın güc və qüvvəsi, şücaətli fələstinlilərin iradəsi,

müsəlman xalqların və hökumətlərin köməyi ilə bu şölə günbəgün alovlandırılmalıdır ki, düşmənin bütün zəif quruluşunu udsun. Bu baş verəcək və Allahın yardımı onlara nazil olacaq: "Allah Ona yardım edənlərə, şübhəsiz ki, yardım edər. Həqiqətən Allah yenilməz qüvvət, qüdrət sahibidir!"

## *Fələstinlilərin vəzifəsi - müqavimət və vəhdəti qorumaq*

Mən fələstinli qardaş və bacılara deyirəm: Cihadınızı davam etdirin, müqavimətinizi davam etdirin. Bilin ki, heç bir xalq müqavimət və mübarizə olmadan öz şərəfini, şəxsiyyətini və müstəqilliyini əldə edə bilməz. Düşmən yalvardığına görə heç bir xalqa bir şey verməyəcək. Heç bir xalq düşmən qarşısında zəif olmasına və boyun əyməsinə görə bir şeyə nail olmaz. Dünyada hansı xalq bir yerə çatmışsa, əzmkarlığa, iradəyə, müqavimətə, sinəsini sipər etməyə və başını uca tutmağa görə çatmışdır. Bəzi xalqların bu gücü yoxdur, amma İslama etiqadı olan, Qurana etiqadı olan, Allahın vədəsinə etiqadı olan, Allahın Ona və Onun dininə kömək edənlərə təkidlə kömək edəcəyinə etiqadı olan xalqın bu gücü vardır.

Mənim digər tövsiyəm budur ki, bu gün düşmənin bütün səyi Fələstin qüvvələri arasında ixtilaf yaratmağa yönəldilmişdir. Hətta düşmənlə həmkarlıq edən fələstinli xain qüvvələr də ixtilaf yaratmağa çalışırlar. Düşmənin bu təxribatına təslim olmayın. Həmas, İslam Cihadı və Fəth qüvvələri - bu meydana yeni qoşulmuş Fəth gəncləri bu meydanı buraxmasınlar və hamı birgə olsun. Düşmənin xeyrinə danışan və fərman verən rəislərinin və sərkərdələrinin əmrləri dinləməyə layiq deyil. Fələstin xalqı ixlaslı, mömin və fədakar qüvvələrin ətrafında toplaşsınlar. Bu gün İslam dünyasının gözünün dikildiyi Fələstin xalqı bilsin ki, İslam ümmətinin qəlbi onları alqışlayır və onlar üçün dua edir. Əgər kömək yolu açıq olsaydı, bu gün İslam ümməti öz köməklərini yollayardı; istər hökumətlər razı olub istəsinlər, istər istəməsinlər. İslam ümməti Fələstindən əl çəkməz, Fələstin xalqından əl çəkməz, Fələstin gənclərinə göz yummaz.

## *Düşmənlərin məqsədi: Fələstində təfriqə yaratmaq*

Bu gün düşmənlər İraqda, Fələstində, Livanda və İslam dünyasının bacardıqları hər bir nöqtəsində alov yandırır, müxtəlif məzhəb, millət, partiya və digər bəhanələrlə müsəlmanları bir-birinin qarşısında dayanmağa və qardaş qırğınına təhrik edirlər. Müsəlmanlar bu rəzil və təhlükəli məqsəddə onlara yardım etməməlidirlər.

## *Müqavimət - qələbənin yeganə yolu*

Qeyd etdiyimiz kimi, bir tərəfdən bu qələbə (Hizbullahın otuz üç günlük müharibədəki qələbəsi) və bir tərəfdən məğlubiyyət böyük hadisə idi və ibrətləri vardı. Xalqlar - düşmənlər istəsə də, istəməsə də - bu ibrətlərdən istifadə edəcəklər. Yəni Fələstin xalqı, İraq xalqı, İran xalqı və digər xalqlar öz gözləri ilə gördülər ki, müqavimət və dirəniş yolu qələbənin yeganə yoludur, başqa bir yol yoxdur; müqavimət göstərən kiçik bir qrup olsa da, qarşı tərəfdəki qüvvə dünyanın birinci dərəcəli ordusu olsa və Amerika tərəfindən himayə olunsa da. Nə olsa, bu bir ilahi sirr və qanundur.

Müqavimət qələbə amilidir. Lakin müqavimət göstərənlər müqavimətin təhlükələrindən qorxmamalıdırlar. Əgər qorxsalar, müqavimətlərində nöqsan yaranacaq və qələbə əldə olunmayacaq. Bu, yolun ortasında qorxuya düşən əksər xalqların və qrupların təhlükəsidir. Əgər müqavimət göstərmək istəyən qrup, xalq və toplum həyatın ləzzətlərinin olmamasından, həyatın olmamasından və rahatlığın olmamasından qorxmasa, narahat olub təşvişə düşməsə və irəliləsə, şübhəsiz, müqavimət qələbəyə nail olacaq. Bu müqavimət imanla olduqda davam edəcək. Buna görə həmişə deyirik və demişik ki, müqavimətlə yanaşı olan imanın ardınca qələbə gəlir. Bizim məqsədimiz təkcə dini iman da deyil, burada söhbət hər hansı bir prinsipə inancdan gedir. Əlbəttə, əgər dini iman olsa, o zaman Allah-Taala təbiətin və tarixin bütün qanunlarını bu müqavimətçilərin xidmətində qoyacağına söz vermişdir: "Hər kəs fani dünyanı istəsə, dilədiyimiz şəxsə istədiyimiz neməti orada tezliklə verərik." Bu, dünyanı istəyən şəxslərə aiddir; niyyətləri dünyadır, amma iradələri var, istəyirlər və Allah da verir. Din iradəsinə malik olan şəxs də belədir: "Onların və bunların hər birinə Rəbbinin nemətindən verərik". Bu, ilahi qanundur.

## *Fələstinlilərin yumruq və daşdan odlu silahlara keçməsinin lazımlığı*

Sionistlərin Fələstin xalqına qarşı öz vəhşilikləri qarşısında heç bir reaksiya görmədikləri gün ötdü. Bu gün əgər zərbə vursalar, bir zərbə də Fələstin xalqı tərəfindən onlara vurulacaq. Bu gün əgər işğalçı dövlət Fələstin xalqı qarşısında dayanmalı olduğunu hiss edirsə, Fələstin xalqı da onun qarşısında dayanmalı olduğunu hiss edir. Mən bilmirəm bu nə zaman baş verəcək, amma şübhəm yoxdur ki, Fələstin xalqı həmişə daş və yumruqla kifayətlənməyəcək. Fələstin xalqı çarəsiz qalıb öz varlığını, öz şərəfini, öz vücudunu, öz evində yaşamaq haqqını odlu silahlarla olsa belə, müdafiə etməyə məcbur olacaq.

# İkinci fəsil: İslam ümmətinin məsuliyyəti

## *Fələstinə qarşı biganə qalan müsəlman hökumətlərin üzrünün qəbul olunmaması*

Bu gün Fələstin məsələsinə qarşı biganə qalan müsəlman hökumətlərinin heç bir üzrü məqbul deyil. İşğalçı dövlət vəhşiliyi və heyvanlığı ən uca dərəcəsinə çatdırıb və sübut etmişdir ki, özünün ekspansionist və təhlükəli məqsədləri yolunda hər bir cinayəti törətməyə hazırdır. Fələstin xalqının İslam qiyamı da hamıya höccəti tamamlayır və göstərir ki, düşmənin hərtərəfli təzyiqlərinə və dost iddiaçılarının xəyanətinə rəğmən, müqavimət ağacı qurumamış, daha artıq kök atmış və meyvə vermişdir. Buna görə Fələstin İslam məsələsini sədaqətlə özlərinin birinci dərəcəli məsələləri sırasında bilmək və imkanları daxilində ona kömək etmək bütün xalqların və hökumətlərin borcudur.

## *Cihad hərəkətlərinə maddi, mənəvi və siyasi dəstəklərin artması*

Bu gün cihad və intifazə hərəkətlərinə maddi, mənəvi və siyasi dəstəklər artmaqdadır. Bu gün insan hüquqlarının yalançı iddiaçılarının səsi təsirsiz olmuş, İsrailin himayədarlarının rüsvayçılıq təbli çalınmış və onların muzdur mahiyyəti aşkara çıxmışdır. Belə ki, onların çoxu bu cinayətləri məhkum etməkdən çəkinə bilmirlər.

## *Müqavimətin sütunları*

Qurtuluş yolu direniş və müqavimətdir; fələstinlilərin söz tövhidi və cihad hərəkatının tükənməz ehtiyatı olan tövhid sözü ilə. Bu müqavimətin sütunları bir tərəfdən Fələstinin mücahid qrupları, o ölkənin daxilində və xaricində olan mömin və müqavimətli xalq və digər tərəfdən bütün dünyada olan müsəlman hökumətlər və xalqlar, xüsusən də dini alimlər, ziyalılar, siyasi elita və universitet nümayəndələridir.

Əgər bu iki sütun möhkəm şəkildə öz yerində dursa, hegemonluğun və sionizmin xəbər imperatorluğunun təbliğat tilsiminin dəyişdirdiyi düşüncələr, qəlblər və ayıq vicdanlar

şübhəsiz, dünyanın hər bir yerində haqq sahibinin və məzlumun köməyinə tələsəcək, hegemonçuları düşüncə, hiss və əməl tufanı qarşısında qoyacaqlar.

Bu həqiqətin nümunəsini son günlərdə Qəzzənin möhtəşəm müqavimətində hamımız gördük. Bir beynəlxalq yardım təşkilatının qərbli rəsinin media kameraları qarşısında ağlaması, humanist təşkilatların fəallarının acıları bölüşməsi, Avropa paytaxtlarının və Amerika şəhərlərinin ürəyində xalqın böyük və səmimi nümayişləri, Latın Amerikasında bir neçə dövlət başçısının şücaətli hərəkəti göstərir ki, qeyri-müsəlman dünya da hələ fəsad və fəlakət yaradan qüvvələr - Quranda bunların adı şeytandır - tərəfindən tam şəkildə ələ alınmayıb və həqiqət üçün meydan hələ açıqdır.

Bəli, Fələstin mücahidlərinin və xalqının müqaviməti, dözümü və bütün İslam ölkələrindən onlara hərtərəfli yardım və dəstək Fələstin işğalının şeytan tilsimini sındıra bildi. İslam ümmətinin əzəmətli enerjisi İslam dünyasının problemlərini, o cümlədən gərgin və təcili Fələstin problemini həll edə bilər.

## *Bütün müsəlmanların və agah vicdanların vəzifəsi*

İndi mənim müraciətim bütün dünyada olan siz müsəlman qardaş və bacılara və həmçinin hər bir ölkədən və xalqdan olan bütün vicdanlı insanlaradır: Çalışın sionist cinayətkarların toxunulmazlıq tilsimini sındırın. İşğalçı rejimin Qəzzə faciəsində rolu olan siyasi və hərbi rəhbərlərini mühakimə masasına çəkin, ədalətin və ağlın hökm etdiyi cəzaya çatdırın. Bu, lazım olan ilk addımdır. İşğalçı rejimin siyasi və hərbi başçıları mühakimə olunmalıdırlar. Əgər cinayətkar cəzalandırılsa, ona marağı və dəliliyi olanlar üçün cinayət yolu bağlanacaq. Böyük cinayətləri törədənlərin azad buraxılmasının özü digər cinayətlərin amili və həvəsləndiricisidir. Əgər İslam ümməti Livanın otuz üç günlük müharibəsindən və o dəhşətli faciələrdən sonra faciəni törədən sionistlərin cəzasını ciddi şəkildə tələb etsəydi, əgər bu haqlı tələb Əfqanıstanda toy karvanlarının qana boyanmasından sonra, İraqın "Blək Vater" cinayətlərindən sonra, Amerika əsgərlərinin Əbu Qüreybdəki rüsvayçılıqlarından və digər hadisələrdən sonra baş versəydi, bu gün biz Qəzzə Kərbəlasına şahid olmazdıq.

Biz müsəlman hökumətlər və xalqlar o hadisədə ağıl və ədalət qanununun hökm etdiyi vəzifəni yerinə yetirmədik və nəticəsi bu gün şahidu olduğumuzdur.

## *Fələstin xalqına yardım və onları tam dəstəkləmək - bütün müsəlmanlara yetərli vacib*

Fələstin xalqına hərtərəfli yardım və onları tam dəstəkləmək bütün müsəlmanlara yetərli vacibdir. İran İslam Respublikasına və bəzi digər müsəlman ölkələrə Fələstinə yardımdan ötrü irad bildirən dövlətlərin özləri bu yardım və himayəni etsinlər ki, İslamın bu vacib əməli digərlərinin üzərindən götürülsün. Əgər buna iradələri, gücləri və şücaətləri çatmırsa, yaxşı olar ki, irad bildirmək və maneə törətmək əvəzinə digərlərinin məsuliyyətli və şücaətli hərəkətlərinin qədrini bilsinlər.

## *Mənəvi yardımın maddi yardımdan üstün olması*

Mənəvi yardım maddi yardımdan üstündür. Çünki fələstinlilər xalqların onlarla olduğunu hiss edirlər. Bu günlərdə İslam dünyasında keçirilən bu nümayişlər çox dəyərli idi. Bu gün sizin Fələstin meydanında Fələstinin səfirliyi qarşısında yürüş etməniz çox dəyərli işdir. Bunların çox dəyəri var. Bunların xəbəri yayılır və məzlum Fəlsətin xalqı xalqların onların arxasında olduğunu duyurlar. Əlbəttə, Allaha həmd olsun ki, bizim xalqımız bu sahədə heç zaman əlindən gələni əsirgəməmişdir. Nə zaman bu məsələ üçün çağırılmışsa, iştirak edib mövqe bildirmişdir. Və nəhayət beynəlxalq təşkilatlar və Birləşmiş Millətlər Təşkilatı fəal olmalıdır. Həmişə, yaxud çox zaman imperialist məqsədlərin xidmətində duran bu insan hüquqları təşkilatları bir dəfə olsa belə, imperialist qüvvələrin istəyinin əksinə və xalqların xeyrinə iş görməlidirlər, dünyada ümumi rəyi özünə yönəltməli, zalım və təcavüzkarı məhkum, məzlum Fələstin xalqını isə təsdiq etməlidirlər. Əgər bu təzyiqlər baş tutsa, İranın Fələstinə dair layihəsi həyata keçəcək və təcavüzkar məcbur olacaq. Əgər ərəb dövlətləri, İslam dövlətləri, müsəlman xalqlar və beynəlxalq təşkilatlar hamılıqla bu yolda fəal olsalar, o iş baş tutacaq. Kim bu sahədə səhlənkarlığa yol versə, şühəsiz, xalqların nəzərində, tarixin nəzərində və ən üstünü, Allah-Taalanın

yanında pislənilənək və məzəmmət olunacaq. Hamımızın üzərinə vəzifə düşür.

## *Müsəlmanların və bütün insanların maliyyə dəstəyi vəzifəsi*

Bu, yardım yollarından biri və çox təsirli yoldur. Digər yardım yolları da mövcuddur. Xalqlar maddi yardım göstərməlidirlər. Cümə namazında öz xalqımıza və digər xalqlara dediyimiz kimi, kömək etməlidirlər. Öz vətənini, oz dinini, Beytülmüqəddəsi və bir İslam xalqının heysiyyətini müdafiə edən, bu regionda hegemonluğun təsirini kəsmək istəyən bu məzlum xalqı müdafiə etmək lazımdır. Fələstinə qonşu dövlətlər, həmçinin xalq qüvvələri müqavimətlər və digərləri müdafiə etməlidirlər və edirlər də. Kim onlara kömək edə bilərsə, bu işi görməlidir. Bu hamının vəzifəsidir.

Bütün xalqlar bu məsələdə təsirli olub iştirak edə bilərlər. Bütün müsəlman xalqlar kömək edə bilərlər. Fələstinlilərə maddi yardım hökumətlərə məxsus deyil ki, filan hökumət "biz on milyon dollar, iyirmi milyon dollar, əlli milyon dollar vermişik" - desin. Bəlli də deyil ki, haraya veriblər, necə veriblər, kimə veriblər. Bu gün Fələstin xalqının yeməyə ehtiyacı var, dərmana ehtiyacı var. Fələstin xalqı dilənçi deyil, möhtərəm xalqdır, lakin düşmənin istismarı altındadır. Hamı ona kömək etməyə borcludur. Fərz edin əgər bütün İslam dünyasında - bizim ölkəmizdə və digər ölkələrdə xalqın hər bir nəfəri Fələstin xalqına təkcə min tümən yardım etsə, görün nə baş verər, bir milyard nəfərin min tüməni Fələstin xalqına və onun yaşayışına necə təsir göstərər!

Ailə üzvlərinin sayınca hər biri bu xeyir işə min tümən yardım etsin. Ən azı budur; kim artıq vermək istəsə, artıq versin və bunu Fələstin xalqına çatdırsınlar. Onlar üçün ərzaq, dərman, digər imkanlar, müqavimət və dirəniş üçün lazım olan hər bir şey alsınlar və göndərsinlər. Xalqlar bu işi görə bilərlər. Daha ehtiyac olmaz ki, filan hökumət "mən filan qədər verirəm" desin. Nə qədər verir, necə verir, verir, yoxsa vermir; sonra da təhdid altında qalır. Xalqlar bu işə qoşulsunlar. Xalqlara nə edə bilərlər?! Bizim ölkəmizdə xalq bu işi görmək istəsə, bu min tümənləri yardım mərkəzlərinə, misal üçün Qırmızı Aypara, İmdad komitəsi və bu kimi yardım fondlarına verə bilərlər. Bu böyük sərvət olub Fələstin xalqına kömək edə bilər.

## *Hamının vəzifəsi: fələstinlilərin yardım çağırışını eşitmək*

Məzlum Fələstin xalqını, onların şücaətli və məzlum qiyamını müdafiə etmək bizim hamımızın dini vəzifəmizdir. Bu gün bir müsəlman xalq qanlı çöhrəsi ilə döyüş meydanının ortasından İslam ümmətini köməyə çağırır. Mən jurnalistin kamerası önündə özünün batmış səsi ilə "Ey müsəlmanlar!" - deyə qışqıran fələstinli qadının fəryadını unutmuram.

Bütün müsəlmanlar və ərəblər Fələstin xalqının mübarizələrinin qanuniliyini dəstəkləməlidirlər. Beynəlxalq təşkilatlarda bu məqam üzərində təkid göstərilməlidir ki, hüquqları əlindən alınan və işğal altında olan müdafiəsiz bir xalqın öz hüquqları uğrunda mübarizə aparmağa haqqı var. Buna görə Fələstin xalqının intifazəsini və müqavimətini davam etdirmək onların qanuni haqqıdır, beynəlxalq qanunlar da onu möhtərəm saymışdır. Hərçənd bu qanunlar təəssüf ki, adətən hegemonluğun və beynəlxalq qüvvələrin istəyi istiqamətində izah olunur.

## *Müsəlmanların vəzifəsi*

Bu gün bizim sözümüz və işimiz budur ki, Fələstin məsləsi İslam baxımından bütün müsəlmanlar, o cümlədən bizim üçün əsaslı bir məsələ və vacib əməldir. Bütün qədim şiə və sünni alimləri açıq şəkildə söyləmişlər ki, əgər İslam vətəninin bir hissəsi İslam düşmənləri tərəfindən işğal olunsa, müdafiə edib işğal olunmuş torpaqları qaytarmaq hamının vəzifəsidir. Hər kəs bacardığı tərzdə və bacardığı keyfiyyətdə Fələstin məsələsi qarşısında məsuliyyət daşıyır. Əvvəla İslam baxımından məsuliyyət daşıyır; torpaq İslam torpağıdır, İslam düşmənlərinin işğalındadır və qaytarılmalıdır.

İkincisi isə səkkiz milyon müsəlmanın bəzisi qaçqındır, bəzisi işğal olunmuş torpaqlar daxilində vəziyyətləri qaçqından da pisdir. Nə özlərinin adi get-gəllərini etməyə cürətləri var, nə öz sözlərini danışmağa icazələri var, nə öz ölkələrinin idarəsində nümayəndələrinin olmasına. Çox zaman namaz qılmalarının da qarşısı alınır. Müsəlmanların qibləsi olan Əqsa məscidini təhdid etdilər. İllər öncə bir dəfə onu odladılar. Sonra da orada guya qazıntı işləri apardılar. Qanunsuz işlər görür və müsəlmanların qibləsi olan Əqsa məscidini ümumiyyətlə İslam formasından çıxarmaq istəyirlər.

İslam baxımından bunların hamısı müsəlman üçün məsuliyyət yaradır. Heç bir müsəlman bu məsuliyyətin altından qaça bilməz; bacardığı qədər öz vəzifəsinə əməl etməlidir.

## *Müsəlmanların əli ilə əlac*

Bu təhlükənin həqiqi əlacı müsəlmanların əlindədir. Onlar müsəlman mübarizlərə həqiqi köməklə Fələstin ölkəsinin daxilindəki qiyamı gücləndirib daha təsirli edə bilərlər; həmçinin müxtəlif yollarla region hökumətlərinin Amerikanın istəyini və məcburiyyətini qəbul edib İsraillə sülhə razılaşmasına imkan verməyə bilərlər. Quldur sionistləri və himayədarlarını dəfələrlə geri çəkilməyə məcbur edən başıuca Livan müsəlmanlarının fədakar və qəhrəman addımları mömin xalqların və gənclərin bir çox böyük işləri görməyə qadir olduqlarına doğruçu şahiddir.

## *Müsəlmanların mübarizlərə dəstək və yardım vəzifəsi*

Bu bizim vəzifəmizdir. Bu bütün İslam ölkələrinin vəzifəsidir. Fələstin məsələsi təkcə ərəblərə və Fələstin qonşularına aid deyil. Dünyanın harasında olursa olsun, bütün müsəlmanlar Fələstin məsələsinə qarşı məsuliyyət hiss keçirməlidirlər. Daxildə, yaxud xaricdə işğalçı sionizm hökuməti ilə həqiqətən vuruşan şəxslər - əlləri Amerikanın və İslam düşmənlərinin əlində olan azadlıq iddiaçıları yox - bizim xalqımız və hökumətimiz, eləcə də digər müsəlman xalqlar və hökumətlər tərəfindən pulla, silahla və təbliğatla yardım edilməlidir. Bu gün mümkün olan hər bir yolla kömək göstərilməlidir. Bizim özümüz Fələstinlə qonşu olub işğalçılarla üz-üzə mübarizə apara bilmədiyimizdən, həmçinin qonşu olmayan digərləri, yaxud qonşu olub hər hansı bir səbəbdən mübarizə aparmaq imkanı olmayanlar mübarizləri təchiz etməlidirlər. Bu bütün müsəlmanlar üçün qəti bir şəriət vəzifəsidir. Bu vəzifəyə əməl olunmayınca Fələstin məsələsi həll olunmayacaq. Əgər əməl olunsa, şübhəsiz, sionistlər və himayədarları məğlub olacaqlar.

İslam dünyasının ictimai rəyi də bilsin ki, Amerika və hegemonçu dövlətlər qayğıkeş, xeyirxah və vasitəçi mövqeyində durub bizim ölkələrimizin hadisələrinə müdaxilə edə bilməzlər. Onların mövqeyi düşmənçilik, zalım və təcavüzkarları himayə mövqeyidir. Bizim

vəzifəmiz bitmir. Bu vəzifə qalası və hamının öhdəsinə düşən vəzifədir. Müsəlman xalq Fələstinin müsəlman xalqını təchiz etməli, ona kömək göstərməli və ruh yüksəkliyi verməlidir ki, özünün şücaətli cihadını davam etdirsin. Əlbəttə, sizə deyim: Bu gün Fələstin xalqı özünün müqaviməti, dirənişi, şücaəti və yorulmazlığı ilə sübut etmişdir ki, qan xəncər qarşısında dayana bilər. Və inşallah sübut edəcək ki, qan xəncərə qalibdir.

## *Siyasi, maddi və beynəlxalq yardımlar*

Bu gün bütün müsəlmanların üzərinə vəzifə düşür. Bu vəzifə nədir? Bu vəzifə yardımdan ibarətdir. Yardım necədir? Bunun müxtəlif formaları var; siyasi yardımlar, maddi yardımlar, beynəlxalq yardımlar. Onlara müxtəlif növlü yardımlar etmək olar. Buna İslam dünyasının yüksək təşkilatlarında qərar verilməlidir. Buna İslam dünyasının məsul və iqtidarlı şəxsləri qərar verməlidirlər. Əgər onlar qərar verməsələr, o zaman müsəlman xalqlar vəzifənin birbaşa özlərinə yönəldiyini hiss edəcəklər.

## *Müsəlmanların Fələstinə köməyi - Qurana əməl etmək*

Əgər müsəlmanlar onlara kömək etsələr - bu hamının Qurandan irəli gələn vəzifəsidir - şübhəsiz, bu yol qısalacaq. Əgər müsəlmanlar da kömək etməsələr, onların özləri müqavimət göstərsələr, yenə də qalib olacaqlar. Lakin qürbət və yalqızlıq halında qələbə çətin olur. Bizim xalqımız da yalqız şəkildə müqavimət göstərdi. Şərq və Qərb ona qarşı idi. Bizim əleyhimizə yaradılan məcburi müharibədə bütün güc mərkəzləri bizim əleyhimizə çıxdılar. Biz qərib şəkildə müqavimət göstərdik, qürbətə dözdük, lakin müqavimətdən əl çəkmədik. Allah-Taala da bizi qalib etdi. Fələstin xalqı da belədir. Layiqli insan həyatına nail olmaq üçün mübarizə lazımdır. Bütün müsəlmanların vəzifəsi bu mübarizədə iştirak etmək və İslam torpaqlarının düşmənin əlində olan hissəsini geri almaq üçün kömək göstərməkdir. Qurana əməl etməyin bir nümunəsi budur. Əgər müsəlmanlar bu bir qanuna və bir əmrə əməl etsələr, çoxlu işlər düzələcək.

## *İsrailin cinayətləri qarşısında müsəlmanların vəzifəsi*

Dünyanın hər bir yerində olan müsəlman xalqlardan gözlənilir ki, Fələstin xalqını unutmasınlar, bu xalqı həmişə öz gözləri önündə canlandırsınlar və onların vəziyyətindən xəbərsiz qalmasınlar. Müsəlman xalqların bir müsəlman xalqını unutmaları yolverilməzdir.

## *İslam dünyasında hər bir təfriqəçi hərəkətin tarixi günah olması*

Bu gün İslam dünyasında hər bir təfriqəçi hərəkət tarixi günahdır. Müsəlmanların böyük hissələrini inadkarcasına puç bəhanələrlə kafir bilənlər, batil gümanlarla müsəlman firqələrinin müqəddəslərinə hörmətsizlik edənlər, İslam ümmətinin başucalığına səbəb olan fədakar Livan gənclərinə arxadan xəncər vuranlar, Amerikanın və sionizmin xoşuna gəlmək üçün "Şiə hilalı" adlı xəyali təhlükədən danışanlar, İraqda müsəlman və xalq hökumətinin məğlubiyyəti üçün təhlükəsizliyi və qardaş qırğınını genişləndirənlər, Fələstin xalqının sevib seçdiyi Həmas hökumətini hər tərəfdən təzyiq altında saxlayanlar... - istər bilsinlər, istər bilməsinlər - İslam tarixinin və gələcək nəsillərin nifrətlə yad edəcəyi və qəddar düşmənin muzdurları biləcəyi günahkarlar sayılırlar.

## *İsrailin cinayətləri qarşısında İslam ümmətinin fəryadının lazım olması*

İslam ümməti fəryad qoparmalı, İslam hökumət başçıları işğalçı rejimə öz xalqlarının qəzəbini göstərməlidirlər. Amerika dövlətinin əli də məzlum Fələstin xalqının qanına bulaşmışdır. Sionistlər o hegemonçu və azğın dövlətin dəstəyi ilə cəsarətlənib bu bağışlanmaz cinayətləri törədirlər. İslam xalqları və hökumətləri məzlum fələstinlilərin məzlumiyyət nidasını bütün dünyaya çatdırmalı və yatmış vicdanları oyatmalıdırlar. Amerika xalqı onun başçılarının bütün bəşəri hörmətləri bu şəkildə sionistlərin ayaqları altında qurban etdiklərini bilirmi? Avropa xalqları sionist kapitalistlərin onların ölkələrinə hakim olmasından, onların siyasətçilərini hansı işlərə çəkdiyindən xəbərdardırlarmı?

## *İslam ümmətinin təhdidlər qarşısında Allahın müqəddəs vücudundan kömək istəməyə ehtiyacı*

Belə bir şəraitdə İslam ümmətinin həmişəkindən daha çox ehtiyaclı olduğu məsələ Allaha diqqət, Allahın müqəddəs vücudundan kömək istəmək və qəlbi o tükənməz qüdrət mənbəyinə birləşdirməkdir. Allahın tükənməz qüdrəti ilə tanış olan qəlb düşmənlərin təhdidləri və gurultuları qarşısında yerindən oynamaz, qorxmaz, zəiflik duymaz, gələcəyə ümidsiz olmaz. Və bu yol sınaqdan keçmiş yoldur. İslam Respublikası otuz il hegemonçu qurumun düşmənlikləri, əngəlləri və xəbislikləri qarşısında qüdrətlə dayandı, müsəlman İran xalqı bütün səyləri, bütün iradələri ilə müxtəlif meydanlarda dayandı və Allahın lütfü ilə günbəgün irəlilədi. Bu inkişaf Allahın izni ilə, Allahın qüdrəti və qüvvəsi ilə günbəgün artacaq və bütün İslam dünyası inşallah İslamın izzət və əzəmət gününü görəcəklər.

İlahi hidayətlərin qədrini bilək! İlahi yardımların qədrini bilək! Fitr bayramı gününün qədrini bilək! Əllərini duaya qaldıran, üzünü qibləyə çevirən, müəyyən bir gündə ürəklərini Allaha birləşdirən və ünsiyyət quran bu əzəmətli toplumun qədrini bilək! Öz birliyimizi qoruyaq, öz səyimizi və iradəmizi qoruyaq və gələcəyə ümidimizi günbəgün artıraq!

## *Qəzzəyə dəniz karvanı yollamaqdan ibarət olan simvolik işin təkrarlanmasının lazımlığı*

Fələstin daha nə yalnız ərəb məsələsi və nə yalnız İslam məsələsidir. Bu, müasir dünyanın ən mühüm insan hüquqları məsələsidir.

Qəzzəyə dəniz karvanı yollamaqdan ibarət olan simvolik və dəyərli iş onlarla başqa formada və tərzdə dəfələrlə təkrarlanmalıdır. Qaniçən sionizm hökuməti və onun himayədarları, xüsusən Amerika və İngiltərə dünyanın ümumi vicdanının, əzmkarlığının və oyanışının məğlubedilməz qüvvəsini öz qarşılarında görməli və hiss etməlidirlər.

## *Fələstinin vəziyyəti; İslam dünyasının zəifliyi*

Bu gün siz Fələstinin vəziyyətinə baxın. Fələstin bir nümunədir. Əlbəttə, çox mühüm bir nümunədir, amma təkcə Fələstinə məxsus deyil. Fələstinə baxın; İslam ümmətinin vücudunda böyük bir yara var və bu, böyük Fələstin xalqı, tarixi və müqəddəs Fələstin torpağı məsələsidir. Bu torpağın başına nə müsibət gətirdilər? Bu xalqın başına nə müsibət gətirdilər? Bu xalqa qarşı nə edirlər? Məgər Qəzzə hadisəsi yaddan çıxasıdır?! Məgər İslam ümmətinin yaddaşından silinəsidir?! Bu günün özündə Qəzzə xalqına qarşı təzyiqlər, rəhmsizliklər, daşürəkliklər və zülmlər edilir. Hətta sionizm dövlətinin uğursuz qaldığı və öz məqsədlərini həyata keçirə bilmədiyini iyirmi iki günlük müharibədən sonra bu günə qədər Qəzzə xalqına bu zülm edilir və İslam ümməti onu müdafiə edə bilmir. İslam ümməti bu məsələ qarşısında elə dayanıb ki, sanki ona aid deyil, onun haqqı alınmayıb, ona zülm edilməyib. Biz nə üçün beləyik? Nə üçün İslam ümməti bu vəziyyətə düşmüşdür? İslamın və İslam ümmətinin düşmənlərinin əli ilə bu regionda qondarma sionsit İsrail dövləti adlı məhvedici və təhlükəli bir xərçəng vücuda gəlmişdir. Onun zülmünə və böyük günahlarına şərik olan himayədarları hələ də onu müdafiə edirlər, İslam ümməti isə özünü müdafiə edə bilmir. Bu bizim zəifliyimizdir. Nə üçün? İslama qayıtmaqla, əziz İslam Peyğəmbərinin (s) təlimlərini əsas götürməklə bu zəifliyi düzəltməliyik.

## *Yeni İslam Orta Şərqi qurmaqda xalqların məsuliyyəti*

Qəzzə məsələsi bir parça torpaq məsələsi deyil. Fələstin məsələsi təkcə coğrafi məsələ deyil, bəşəriyyət məsələsidir, insaniyyət məsələsidir. Bu gün Fələstin məsələsi insani prinsiplərə boyun əymək, yaxud onlara qarşı çıxmaq arasında meyardır. Məsələ bu qədər əhəmiyyətlidir. Amerika da bu münasibətdən şübhəsiz, ziyan görəcək. Bu tarixi dəyişikliklərdə on il, iyirmi il və otuz il bir an kimidir, tez ötəcək. Şübhəsiz, Amerikanın tarixi və gələcəyi son 50-60 ildə amerikalıların Fələstin məsələsi ilə bağlı etdikləri bu hərəkətə məğlub olacaq. Fələstin məsələsi gələcəkdə uzun əsrlər boyunca Amerikanın bədnamlığına basi olacaq. Fələstin azad olacaq. Bunda heç bir şübhəniz olmasın. Fələstin qəti şəkildə azad olacaq və xalqa qaytarılacaq. Orada Fələstin hökuməti formalaşacaq.

Bunlarda heç bir şübhə yoxdur. Amma Amerikanın və Qərbin bədnamlığı aradan qalxmayacaq. Bunlar eləcə bədnam olacaqlar. Şübhə yoxdur ki, Allah-Taalanın istəyi əsasında yeni bir Orta Şərq formalaşacaq. Bu Orta Şərq İslam Orta Şərqi olacaq; Fələstin məsələsinin bir İslam məsələsi olduğu kimi. Bütün xalqlar Fələstin qarşısında məsuliyyət daşıyırlar. Bütün hökumətlər Fələstin qarşısında məsuliyyət daşıyırlar; istər müsəlman hökumətləri, istərsə də qeyri-müsəlman hökumətəri. İnsaniyyət tərəfdarı olduğunu iddia edən hər bir hökumət məsuliyyət daşıyır. Lakin müsəlmanların vəzifəsi daha ağırdır. İslam hökumətlərinin üzərinə vəzifə düşür və bu vəzifəyə əməl etməlidirlər. Fələstin məsələsində öz vəzifəsinə əməl etməyən hər bir hökumət onun zərərini görəcək. Çünki xalqlar oyanmışlar və hökumətlərdən tələb edirlər. Hökumətlər bu məsələyə razı və təslim olmağa məcburdurlar.

## *Fələstinlilərin kömək çağırışına cavab - müsəlmanlığın şərti*

Bu mühüm anda dünya müsəlmanları məsuliyyət hiss etməli, müsəlmanlığın onların üzərinə qoyduğu vəzifəni dərk etməlidirlər. Bu bir tərəfdən, İslam torpaqlarını qorumaq vəzifəsidir. Bu müsəlman fiqhinin zəruri məsələlərindəndir. Digər tərəfdən də, məzlum bir xalqın yardım istəyinə cavab verməkdir. Peyğəmbər (s) buyurmuşdur: “Kim bir müsəlmanın kömək çağırışını eşidib cavab verməsə, müsəlman deyil”. Bu gün isə bir fərd yox, bir xalq kömək çağırışı ucaltmışdır.

## *Müsəlmanların vəzifəsi: Fələstinə yardım üçün hökumətlərə təzyiq göstərmək*

Müsəlman xalqlar bilsinlər ki, Allah yanında və tarix yanında onlar da hökumətlər qədər məsuliyyət daşıyırlar. Siz hökumətləri hegemonluğun təzyiqləri qarşısında müqavimət göstərməyə vadar və bu işdə onlara kömək edə bilərsiniz. Və siz bu zəruri vəzifəni ayaq altına atan hökumətlər üçün böyük təhlükə yarada bilərsiniz.

## *Ürəkdən və dini imana arxalanan canlı, yorulmaz və kollektiv bir beynəlxalq kimlik – qüvvələrə əngəl törətməyin amili*

İqtisadi qüvvələr böhran yarada bilirlər. Böhran yaratmaq, müharibə yaratmaq, İsrail kimi kobud və daşürəkli quruluşlar yaratmaq bunların işidir. Bunlara mane olmaq lazımdır. Kim bacarar? Canlı və yorulmayan beynəlxalq toplumun ürəkdən gələn imana söykənən heysiyyəti. İnsanı yorulmağa qoymayan budur. Dini təravətli imandan başqa hər bir şey yorulasıdır. Bu həmin qüvvələrə əngəl törədib onları zərərsizləşdirə və nəhayət ortadan götürə bilər. İnşallah İmam Mehdinin (ə) ədalətli hökumətində bu işlər baş verəcək. Lakin biz də onun üçün hazırlıq görə bilərik; əgər iradəmiz, əzmkarlığımız, müqavimətimiz və siyasətimiz olsa. Bu işlər üçün həm müqavimət, şücaət və qüvvə lazımdır, həm də ağıl və siyasət. Bunlar əl altında olan və bitirilməsi asan işlərdən deyil, amma mümkündür. İndiyə qədər də mümkün olmuşdur.

## *Fələstinlilərin qiyamı nemətinin şükrü*

Əgər biz müsəlmanlar bu nemətə görə şükür etsək, qalacaq: “Əgər (Mənə) şükür etsəniz, sizə (olan nemətimi) artıracağam”. Əgər bu nemətə küfr etsək, əldən çıxacaq. Bu nemətin şükrü odur ki, dünyanın hər bir yerində olan bütün müsəlmanlar bu gün İslam adı ilə mübarizə aparan bu mübarizləri dəstəkləməyi özlərinin şəriət vəzifələri bilsinlər. Bu gün bundan başqa çıxış yolu yoxdur.

Bu dəstək geniş və hərtərəfli olmalıdır; həm siyasi dəstək, həm informasiya dəstəyi, həm əxlaqi dəstək, həm də hərbi dəstək lazımdır. Mümkün olan hər bir şey lazım və vacibdir. Dünya müsəlmanları görsünlər bu dəstəklərin hansını edə bilirlər. Hansını bacarsalar, onların şəriət vəzifəsidir və ondan boyun qaçırmamalıdırlar.

# Üçüncü fəsil: İran İslam Respublikasının və İran xalqının məsuliyyəti

### *Bizim şəriət vəzifəmiz: məzlum xalqları müdafiə*

İran xalqı işıqlı yol açdı. Siz xalq dünya hegemonluğunun və istibdadının xalqları istismardan ibarət olan bağlı yolunu açdınız. Bunu siz sındırdınız. Xalqlar sizin ardınızca hərəkət edirlər. Hərəkət edən xalqları müdafiə etmək bizim vəzifəmizdir və müdafiə edəcəyik. Mən Bosniya-Herseqovina xalqını müdafiə etməyi öz şəriət vəzifəm bilirəm və müdafiə edəcəyəm. Bacardığımız qədər bu məzlum xalqı dəstəkləyəcəyik. Onlar ön xətdədirlər və düşmən özünün bütün güc və qüvvəsini onların başına endirmişdir, komplimentlərlə və dil dəstəkləri ilə məsələni bitirmək istəyirlər. Əlbəttə, bizim yolumuz təəssüf ki, bağlıdır, tam şəkildə yardım çatdırmaq mümkün deyil. Amma dünyanın bu qərarını qəbul etmirik ki, onların düşmənləri günbəgün müxtəlif yollarla daha artıq təchiz olunsunlar. Bəziləri deyiblər ki, onların düşmənləri işğalçı İsrail tərəfindən himayə olunurlar. İran xalqı o məzlum xalqı dəstəkləməyi İslam yolu və bu vəzifəni bir İslam vəzifəsi bilir.

### *İran xalqının maddi dəstək vəzifəsi*

Öz əziz xalqımıza da deyirəm: Əziz fələstinli qardaşlara qarşı bu dəstək və fədakarlıq rəşadətinin - siz Allaha həmd olsun ki, İslam dünyasında fələstinli qardaşlarınızı aşkar şəkildə və hərtərəfli himayə etməklə başıuca və dəyərlisiniz - qədrini bilin. Bu çox dəyərlidir. Bütün dünya bilir ki, bizim əziz İslam İranımız - xalq, hökumət, fərdlər, qadın və kişi Fələstin məsələsi ilə maraqlanırlar, həssas, iradəli və əzmlidirlər; əgər bacarsalar, kömək edərlər. Çox yaxşı olar ki, imkanlı insanların maddi kömətkləri toplansın və imkanı olanlar maliyyə yardımı göstərsinlər. Əgər silah cəhətindən kömək edə bilmiriksə, əgər insani resurs baxımından xalqın və gənclərin getməsinə imkan yoxdursa, maliyyə cəhətindən onlara kömək etmək olar, bəzi dərdlərinə dərman etmək olar, bəzi yaralarına məlhəm qoymaq, analarının qəlbini və atalarının iradəsini bu sevgilərin təsiri altına salmaq olar. Atasının qucağında qətlə yetirilən yeniyetməni gördünüz. Bu yeganə nümunə deyildi, digər

nümunələr də olmuşdur. Bu hərəkətin əzəməti o qədər böyükdür ki, belə fədakarlıqlar onların özlərinin gözündə böyük görünmür. Məcburi müharibə dövründə də siz o qədər fədakarlıq etdiniz ki, öz gözünüzə görünmürdü, amma sizin fədakarlıqlarınız dünyanı heyrətə saldı. Bu gün də Fələstin xalqı elədir; öz gözlərinə gəlmir, amma dünyanı valeh edir. Bir şəhadət - o yeniyetmənin atasının qucağında şəhid olması dünya xalqlarının qəlbində tufan oyadır. Bunlar çox dəyərlidir.

## *Bizim xalqımızın və hökumətimizin ən böyük vəzifəsi*

Fələstin məsələsi İslamın brinci qlobal məsələsidir. Bu gün Fələstin xalqının İslam bayrağı altındakı mübarizələri işğalçı sionizm dövlətinin və himayədarlarının yuxusunu qaçırdığından, bizim xalqımızın və hökumətimizin, bütün müsəlman xalqların və hökumətlərin ən böyük vəzifəsi bu mübarizələri himayə etməkdir. İsrailin xərçəng vəzisinin kökünü yalnız bu mübarizələrlə kəsmək və İslam dünyasını onun məhvedici təhlükələrindən xilas etmək olar.

# Dördüncü fəsil: Qüds günü

## *İsrailin cinayətlərinə qarşı xalq etirazlarının faydası*

Bizim əziz xalqımız həmişə öz mövqeyini elan etmişdir. Kimsə deməsin ki, bunun nə faydası var. Bu mövqe bildirmək dünyanın hansı nöqtəsində olsa, işğalçıya ən mühüm zərbəni endirir. Əgər xalqlar öz ölkələrində belə bir hadisə qarşısında qiyam etsələr, yürüş etsələr və yumruqlarını düyünləsələr, cinayətkarların vəziyyətini ağırlaşdıracaqlar. Bütün hadisələrdə belədir. Amerika əleyhinə də belədir. Xalqlar öz varlıqlarını elan etməlidirlər. Xalqların varlıq elanının beynəlxalq vəziyyətə və dünya siyasətinə çox təsiri var.

## *Qüds gününü uca tutmaq*

Bu gün İran xalqının görə biləcəyi və bütün işlərdən əhəmiyyətli olan məsələ bugünkü kimi yürüşlər keçirməkdir. Bu iş çox mühümdür. Bunların məqsədlərindən biri Fələstinin adını unutdurmaqdır. Elə bir iş görmək istəyirlər ki, ümumiyyətlə belə bir şeyin mövcud olduğu unudulsun. Amma siz qoymursunuz, Qüds günü qoymur. Bizim Böyük İmamımız özünün siyasəti ilə qoymadı. Bu böyük iş idi. İnsani baxımdan da fələstinli ailələrin məzlumluğu hər bir insan üçün məsuliyyət yaradır. Fələstinin daxilində olan xalqın məzlumluğuna dair bəzi filmləri və kasetləri bu günlərdə gördünüz. Bunlar Fələstin xalqına qarşı nə qədər zalım rəftar edirlər və maraqlı budur ki, bu insan hüquqları təşkilatları da ölmüşlər. Bu amerikalılar, bəzi qərblilər və dünyada demokratiyanı inkişaf etdirmək missiyasını öhdələrinə götürdüklərini iddia edənlər bu məsələdə özlərini rüsvay etdilər. Çünki indi elə bir xalq mövcuddur ki, öz ölkəsinin və vətəninin heç bir işinə təsir göstərmək qüvvəsi yoxdur, sözləri heç bir yerdə deyilmir və o, Fələstin xalqıdır; insani baxımdan məzlum bir xalq. Digər tərəfdən, onun qarşısında o qədər zalım olan millətçi bir hökumət durur. Və bu da Amerikanın, beynəlxalq təşkilatların və necə deyərlər, qərbli mütəfəkkirlərin demokratiya iddiasına dair dediklərinin böyük yalanı.

## *Ümümdünya Qüds Gününü uca tutmağın təsiri*

İmam Xomeyni belə bir günü (Ümümdünya Qüds Gününü) elan etməklə Fələstin məsələsini bəşəri vicdanlarda canlı saxladı, bütün fəryadları sionizm əleyhinə yönəltdi və biz hər il müsəlmanların bu mərasimdə çoxlu və geniş iştirakının şahidi oluruq.

## *Qüds günündə xalqların vəzifəsi*

İndi bu üç əsaslı və həssas məqama malik olan bu məsələdə (İsrailin bənzəri az olan cinayətləri, Fələstin xalqının fədakar müqaviməti, beynəlxalq təşkilatların və hökumətlərin sükutu) xalqlar nə edə bilərlər? Qüds günü küçələrə çıxıb şüar verə, yumruqlarını düyünləyə, o mübariz, mücahid və dözümlü xalqa göstərə bilərlər ki, biz sizin tərəfdarınızıq; bizim hökumətlərimiz sizə kömək etməyə qoymasa, yaxud edə bilməsələr də, bilin ki, ürəklərimiz sizinlədir. Bu onları həvəsləndirəcək. Bu böyük köməkdir.

## *Qüds günü - işğalçı düşmənin məğlubiyyət amili*

Gələn cümə Qüds günüdür. Əgər inşallah İslam dünyası bu günü sözün həqiqi mənasında uca tutsa və işğalçı sionistlərə fəryad ucaltmaq üçün fürsət bilsə, düşməni böyük həddə məğlub və geri çəkilməyə vadar edəcək. Siz İran xalqı inşallah öz iştirakınızla göstərəcəksiniz ki, Qüds günündən və Fələstinə dair mövqe bildirmək imkanından istifadə nə deməkdir. İran xalqı Allahın lütfü ilə bu sahədə yaxşı çalışdı; hökumət də yaxşı çalışdı, Xarici İşlər Nazirliyi də yaxşı çalışdı. Yəni vaxtı tələf etmədilər və sözləri dedilər. Fələstinli məzlumlar dünyada onların hadisəsinə qarşı həssas olan şəxslərin olduğunu anladılar. Bu həssaslıq sübuta yetirilməli, İsrailə qarşı təzyiqlər artırılmalıdır. Gərək fələstinlilərin özləri Fələstin məsələsini canlatmaq məsuliyyətini ciddi şəkildə öhdələrinə götürüb çalışsınlar. Mücahidlik çətin olsa da, sionistlərin təzyiqləri altında yaşamaq mücahidlikdən daha ağır və daha çətindir. Əgər mücahidlik etsələr, gələcəkləri yaxşı olacaq. Lakin belə yaşamaq günbəgün çətinlikləri artıracaq. Əlbəttə, bu gün işğal olunmuş torpaqlarda və işğal olunmuş Fələstində müsəlman xalq oyanmışdır. Amma Fələstin daxilində mübarizələr ümumi,

müntəzəm, xaricə və İslam ümmətinin dərinliklərinə bitişik olmalı və dünyanın müsəlman xalqları onlara kömək etməlidirlər.

Fələstin xalqı isə şübhəsiz, ondan lazımi ibrəti götürəcək. Bu gün o məzlum xalq üçün bir daha bu acı həqiqət aşkarlandı ki, öz evində yaşaya bilmək üçün orada mübarizə aparmağa məcburdur. Aşkar oldu ki, bəzi başçılarının nəzakətli sözlərinə rəğmən, sionistlər əlli il öncəki millətçi və təəssübkeş vəhşilərdirlər. Əgər azca fürsət və bəhanə tapsalar, ev sahibi olan müsəlmanlara ən qəddar zərbələr endirəcəklər. Ən gec inanan fələstinlilərə də sübut olundu ki, sionistlərin təhlükəsizliklərindən bu qədər dəm vuran hegemonçu rejimlər fələstinli müsəlmanların təhlükəsizliyinə ən az əhəmiyyət də vermirlər. Əks təqdirdə, İsrail ordusu namaz qılanların müqəddəs sıralarında belə qətliam törətməyə cürət göstərməzdi. Fələstinlilər yalnız silahlanmaqla və işğalçı dövlətin maraqlarına zərbə vurmaqla öz evlərində həyat haqqını əldə edə bilərlər. Əl-Xəlilin cümə səhərindəki hadisəsinin ibrəti budur.

## *Mübarizlərə dəstək nümayişinin təsiri*

İşğal olunmuş torpaqlar daxilində məzlumcasına mübarizə aparan, əziyyət çəkən və altını çəkən şəxslər - Fələstinin azadlığı və işğalçı dövlətin məhvi üçün yeganə ümid daxili mübarizələrdir - hiss etməli və bilməlidirlər ki, bütün İslam dünyasında xalqlar onları xatırlayır və dəstəkləyirlər. Əgər öz evlərində qərib olan bu məzlum mübarizlərin bu hissi keçirməsini istəyiriksə, İslam dünyasında belə xalq nümayişləri yaranmalıdır. Bizim Böyük İmamımız və əzəmətli rəhbərimiz tərəfindən bu Qüds günü təşəbbüsü buna görə idi. Əks təqdirdə, bəllidir ki, Tehranın xiyabanlarında yeriyən xalq İsrailə qarşı silahla vuruşmur.

Bu gün İsrail və himayədarları, xüsusən də Amerika üçün sizin düyünlənən yumruq və verilən şüar silahınız hər bir silahdan daha kəsərlidir. Onların başqa silahlara qarşı alətləri var. Gördük ki, ərəb ölkələri bir neçə müharibə əsnasında İsrailə qarşı silahla vuruşub onu məğlub etməyə qadir olmadılar. Hər dəfə o ya tamamilə qalib oldu, ya da müharibənin birinci mərhələsində qalib olmasa da, nəticədə irəlilədi.

İsrailin ətrafında olan ərəb ölkələrinin bu ölkənin onların hədəfində olması üçün nə qədər silahları olsa da, bu vəzini İslam

dünyasının ürəyində əkən qüvvələr onu iki qat, yaxud daha artıq silahlandıracaqlar; fikirləri budur. Cavabı olmayan, Amerikanın, SSRİ-nin və İsrailin digər himayədarlarının qarşısına bərabər və oxşar silah çıxara bilmədikləri silah xalqların iradə və istəyi silahıdır.

Dünya siyasətçiləri bilsinlər ki, İslam dünyası icazə verməyib və verməyəcək. Bilsinlər ki, biz işğalçı düşmənin öz evimizdəki varlığını unutmamışıq. Belə deyil ki, sionistlər İslam dünyasını daim bitmiş bir iş qarşısında qoya bilsinlər. Xeyr, xalqlar oyaqdır.

## *İsrailin himayədarlarının Qüds günü ilə mübarizəsi*

İsrailin rəsmi himayədarları və onların müttəfiqləri - yəni qeyri-rəsmi himayədarları tərəfindən Qüds günü ilə aparılan mübarizə tamaşa etməli bir mübarizədir. Qüds günü üçün rəqib düzəldib bu günü xatirələrdən silməyə çalışdılar. Biz İslam dünyasının heç bir yerində görməmişik ki, beynəlxalq qüvvələr yerli hökumətlərin xalqı bu hərəkətə və yürüşə vadar etmələrinə icazə versinlər. Təəssüf ki, dünyanın yekəxana qüvvələrinin siyasəti bir çox İslam ölkələrində keçərlidir. Bu, müsəlmanların və İslam dünyasının bədəbəxtliklərindəndir. Nə üçün Qüds günündə İslam ölkələrinin hökumətləri xalqı küçələrdə yürüş keçirməyə həvəsləndirməməlidirlər? Məgər onlardan nə azalacaq? Əgər Fələstin amalı ilə birgə və müvafiqdirlərsə, nə üçün icazə vermirlər?

## *Qüds günü - İslam tarixinin bugünkü qədr gecəsi oyanışı*

Qarşıdan mübarək ramazan ayının bizim mərhum və əzəmətli imamımız tərəfindən Qüds günü adlandırılan son cüməsi gəlir. Bu gün builki ramazan ayında qədr gecələri ilə qonşudur. Qədr gecəsində səhərə qədər oyaq qaldığımız, Allah dərgahına dua və münacatımızla bizim üçün yaxşı gələcəyin yazılmasını istədiyimiz kimi, Qüds gününü və İslam tarixinin qədr gecəsi olan bu həssas günləri ayıq-sayıq şəkildə keçirməliyik və müsəlman xalqların, xüsusən də şücaətli və məzlum Fələstin xalqının qurtuluş şəfəqinin doğuşuna qədər səyimizi dayandırmamalıyıq.

Mən ümidvaram ki, bizim böyük xalqımız həmişə olduğu kimi bu Qüds günündə də hamılıqla xiyabanlardakı iştirakı və cümə namazları qılınan yerə qədərki yürüşləri ilə uca fəryadlarını və

şimşəyə bənzər səslərini bütün dünyanın qulağına çatdıracaq, əzəmətli İmam Xomeyni ümmətinin həmişə Fələstinin yanında və onun düşmənlərinə qarşı olduğunu təkrar edəcək.

## *Qüds gününü uca tutduğuna görə İran xalqına təşəkkür*

Dünya və müsəlman xalqları fələstinli məzlum mübarizləri dəstəklədilər. Bizim əziz xalqımız özünün bütün fəryadı ilə Fələstin xalqının hərəkətinə qarşı öz dəstəyini göstərdi. Mən Qüds gününün əzəmətli yürüşündə və cümə namazının möhtəşəm izdihamında çox əzəmətlə parlayan siz əziz xalqın səyinə görə bütün varlığımla təşəkkür etməyi lazım bilirəm.

Bizim əziz xalqımız həmişəki kimi öz ölkələrini, öz tarixlərini və ölkə məmurlarını başıuca etdi. Bu il bütün İslam dünyasında Qüds günü xüsusi tərzdə keçirildi. Belə keçiriləcəyi qabaqcadan da proqnoz verilirdi. Bu, Fələstin xalqının məzlumcasına fəryadının haqq olduğuna görədir. Ümidvarıq ki, hökumətlər də öz xalqları ilə beləcə həmkarlıq etsinlər və Fələstin xalqına kömək göstərsinlər. Ən daşürəkli və ən yırtıcı düşmənlər tərəfindən mühasirə olunmuş o məzlum xalqın köməyə ehtiyacı var. Həm bizim xalqımız, həm bizim hökumətimiz, həm digər müsəlman xalqlar və hökumətlər bacardıqları qədər bu məzlum xalqa kömək etməyə borcludurlar. Bu bir dini, insani və əqli vəzifədir; ağıl buna hökm edir. Bu həm də tarixi bir vəzifədir; tarix onun barəsində mühakimə yürüdəcək.

İran xalqının təqdirəlayiq olan iki işinə görə təşəkkür və minnətdarlıq etmək lazımdır. Birinci iş mübarək ramazan ayının son cüməsində Qüds günü münasibəti ilə xalqın əzəmətli yürüşüdür. Bu səhnə bütün dünyada olan dostlar üçün fərəhli və ümidverici idi; fələstinli mübarizləri sevindirdi, ürəklərini bərkitdi. Düşmənlər üçün də bir zərbə idi; istər Fələstin məsələsini bütünlüklə xalqların yadından çıxarmaq, müsəlmanlara ümumiyyətlə belə bir mühüm məsələnin mövcud olduğunu və indi də olmasını unutdurmaq istəyən düşmənlər, istərsə də İran xalqının əsaslı İslam və inqilab məsələləri ilə məşğul olmaq yerinə dəyərsiz işlərlə məşğul olmasını, ixtilaflara və şəxsi məsələlərə qoşulmasını istəyən düşmənlər. Canlı, lazım olanda sayıq və səhnədə olan bu xalq hər bir şəraitdə lazımi hərəkəti edir.

Mən öz əziz xalqımıza və mübarək ramazan ayının Ümümdünya Qüds Günü olan son cüməsində öz fəallığı ilə Qüds gününü dünyada bir daha yaşadan digər xalqlara təşəkkür etməliyəm; baxmayaraq ki, Qüds məsələsi həmişə yaşayır.

Həmçinin lazım bilirəm ki, hələlik bu münasibətlə Qüds günü yürüşündə möhtəşəmlik göstərən və əzəmət təcəssüm etdirən əziz xalqımıza səmimi təşəkkürümü və minnətdarlığımı bildirim. Həqiqətən bu il Qüds günü İran xalqının fəallığına və maraqlarına bir simvol oldu. Bu, regiona ümid verir və xalqları müqavimətə vadar edir.

Lazım bilirəm ki, Qüds günü yürüşündə dəyərli və təntənəli iştirakına görə şərafətli və əziz xalqımıza təşəkkür edim. Mən bu böyük xalqa təşəkkür etməyə layiq deyiləm, bir şeyin sahibi də deyiləm; xalqın özünə məxsusdur. Özləri üçün etdilər və düzgün addım atdılar. Bu ümumi agahlığa, bu ümumi iradəyə, müsəlman qadın və kişilərin qəlbində olan bu böyük marağa görə bizim Allaha şükür etməyimiz lazımdır. Bu il Qüds günü çox möhtəşəm keçdi. Regionda baş verən hadisələr bəzi başqa müsəlman xalqların da bu il bu böyük imtahanda bu əzəmətli antiimperialist hərəkətə ötən illərdən artıq dəstək vermələrinə bais oldu. Ümidvarıq Allah-Taala zalım və qaniçən sionistlərin şərini fələstinlilərdən və məntəqədən uzaqlaşdırsın.

## *Soyuqda və istidə Qüds günü yürüşündə iştirak etmək - xalqın İslam Respublikası quruluşuna etimadının dəlili*

Dünyada İran xalqının İslam Respublikası quruluşuna qarşı göstərdiyi etimadı öz hökumət quruluşlarına qarşı göstərən az ölkə var. Bu etimadın dəlili də hamının gözü önündə olan bu aydın məsələlərdir. Yenə bəziləri bunları görmür, daim xalqın etimadsızlığından dəm vururlar. Xeyr, xalqın quruluşa etimadı var. Bir dəlil iki il öncəki seçkilərdir. Səsvermə hüququ olan və səs verməyə qadir olan əhalinin səksən faizindən çoxu seçkilərdə iştirak etdi. Dünyanın harasında belə bir şey var?! Bir nümunə bizim hər il keçirdiyimiz bu iki yürüşdür: 22 bəhmən (11 fevral) yürüşü və Qüds gününün yürüşü. Bu yürüşlər quruluşa aiddir. Heç bir hökumətə və heç bir xüsusi cərəyana aid deyil, quruluşunkudur. Siz görün xalq bu əzəmətli hərəkətdə nə edirlər; 22 bəhmənin soyuğunda və ramazan

ayında oruc ağızla, istər hava soyuq olanda, istər indiki kimi isti olanda. İnşallah Qüds günündə xalqın necə əzəmət göstərəcəyini yenə görəcəksiniz. Bu, xalqın quruluşa sevgisinin göstəricisidir. Quruluşa bundan yaxşı və aydın etimad ola bilməz. Bu fəallıq çox mənalı fəallıqdır.

## *Qüds günü - xalqların təzyiq amili*

Mən sizə deyirəm: Mənim əzizlərim! Əziz İran xalqı! Bütün müsəlman xalqlara da deyirəm: Bütün sahələr kimi burada da təyinedici ola bilən amil xalqların və ictimaiyyətin qərarıdır. Xalqlar öz istək və tələb təzyiqləri ilə hökumətləri bu hərəkətə vadar edə bilərlər. Qarşıdan Qüds günü gəlir. Bu il Qüds günündə müsəlman xalqlar sionizm rejiminə və himayədarlarına qarşı qəzəbli olduqlarını, bu məsələyə laqeyd yanaşanlara və o istiqamətdə olan hər bir siyasətə qarşı qəzəbli olduqlarını və qəzəbli rəftar edəcəklərini göstərməlidirlər.

## *Şanlı Qüds günü - Böyük İmamın unudulmaz yadigarı*

Mən əminəm ki, bizim Böyük İmamımızın unudulmaz yadigarı olan şanlı Qüds günü ötən il qabaqkı illərdən izdihamlı keçirildiyi kimi, inşallah bu il də həmişəkindən izdihamlı və geniş keçiriləcək, İslam dünyası işğalçı sionizm qarşısında öz mövqeyini aydınlaşdıracaq, sionistlərin məhvi daha yaxınlaşacaq. Bu qüdrətlər həqiqi qüdrətlər deyillər. İşğalçı dövlət günbəgün və tədricən öz istibdad və hegemonluğundan yaranan ömrünün sonuna yaxınlaşır və inşallah İslam dünyası Fələstinin Fələstin xalqı tərəfindən idarə olunacağı günü görəcək.

## *İlahi qüdrətin əli - Qüds günü yürüşündə iştirak etmək üçün ürəkləri cəlb edən amil*

Sonra növbə Qüds günündə xalqın siyasi iştirakına çatır. İnsan yenə ilahi qüdrətin əlini müşahidə edir. O bu şəkildə xalqın qəlbini cəlb edib isti havada oruc ağızla küçələrə çıxarır; inqilaba və onun amallarına öz vəfadarlıqlarını göstərirlər, fəryad ucaldırlar; qoca kişi gəlir, kiçik uşaq gəlir, qadınlar gəlirlər, kişilər gəlirlər.

Biz səhv edirik, bəzən bu ilahi mərhəməti anlamırıq, müxtəlif hadisələrdə başımız üzərinə qoyulan ilahi mərhəmət əlini görmürük.

Bəzən də bu cəhətdən səhv edirik: elə bilirik ki, bu işləri görənlər bizik, halbuki biz deyilik: "Əgər sən yer üzündə nə varsa, hamısını xərcləsəydin belə, yenə də onların ürəklərini birləşdirə bilməzdin. Lakin Allah onları birləşdirdi"; "Möminin qəlbi Allahın iki barmağı arasındadır". Kim bu möminləri çəkib bu meydanlara gətirir və bu şəkildə Allaha yönəldir? Bu, ilahi əldən və ilahi qüdrətdən başqa bir şey deyil. Bunlar bizi ümidvar edir.

Mən təkcə olanları izah etmək istəmirəm. Bəli, bu hadisəni hamımız görməkdəyik. Mən bu nəticəni almaq istəyirəm: "O səni Öz köməyilə və möminlərlə müdafiə edib möhkəmlətdi". Allah-Taala öz yardımını möminlərin köməyinin yanında qoyur. Güman ki, burada mənəvi köməklər nəzərdə tutulur. Misal üçün, "Mən sizin imdadınıza bir-birinin ardınca gələn min mələklə çataram!" və sair. Möminlər köməyə səbəb olurlar. Quruluşu ayaqda saxlayan möminlərdir. Müxtəlif meydanlarda yolu açıb İslam quruluşunun böyük işlər görməsinə səbəb olanlar möminlərdir. Biz bunları "Bu mənə yalnız məndə olan elm sayəsində verilmişdir" təsəvvür etməməliyik. Güman etməməliyik ki, işi görən bizik. Bunları Allah etməkdədir. Bu birinci məqam. Mənim fikrimcə, bizim xalqımız ilahi yardım və Rəbbin mərhəməti sayəsində yaxşı xalqdır. Yaxşılıqları da onların imanına, vəfadarlıqlarına və imanın qəlblərdə möhkəmliyinə görədir.

## *Qüds günü - müsəlman xalqların böyük imtahan günü*

Fələstin və Qüds günü məsələsinə gəlincə isə, (deməliyəm ki,) Qüds günü yaxınlaşır. Qüds günü müsəlman xalqların böyük imtahan günüdür. Qüds günü müsəlman xalqların dünyada rəsmi şəxslərin vasitəsi olmadan sözlərini dedikləri gündür. Bu il də Qüds gününün böyük əhəmiyyəti var. Həm Qəzzə hadisəsinə görə - həqiqətən Qəzzədən geri çəkilmək sionistlərə böyük bir məğlubiyyət idi – həm Qəzzə məğlubiyyətindən sonra və o məğlubiyyətin əvəzini çıxmaq üçün amerikalılar, sionistlər və onların bəzi müttəfiqləri tərəfindən aparılan təxribatlara - yəni bəzi İslam və region dövlətləri arasında sionizm rejimlə çirkin rabitəni adiləşdirməyə görə. Buna razı olmamalıdırlar.

## *Fələstinin xatirəsini qorumaqda Qüds gününün rolu*

İkinci xütbədə deməli olduğum ilk mətləb Qüds günü yürüşünə görə İran xalqına çox minnətdar olmaqdır. Həqiqətən demək lazımdır ki, eşq olsun İran xalqına! Siz öz milli əzəmətinizi, öz İslam mövqeyinizin əzəmətini və öz izzətinizi dünyaya göstərdiniz. Bu yürüşlərin rolu olduqca böyükdür. Müstəmləkəçilər Fələstini işğal etdiklərində məqsədləri Fələstinin adını və xatirəsini unutdurmaq idi; dünya əhalisi və sonrakı nəsillər ümumiyyətlə nə zamansa dünyada Fələstin adlı bir torpağın və bir ölkənin olduğunu unutsunlar. Məqsədləri bu idi. Bunu bacarmadıqda, Fələstin xalqının istər birinci intifazədə və istər Əqsa məscidi intifazəsindəki əzəmətli qiyamı bu şöləni dünyada yenidən alovlandırdıqda, xalqların qəlbini, insanları və dünyanın insaflı adamlarını özünə cəlb etdikdə çıxış yolunu fələstinli ərəb toplumu bu torpağın bir küncündə əslində həbs etməkdə və hasarlamaqda gördülər. Yəni Fələstinin sərvətli hissəsi və həssas bölgəsi sionistlərin tam ixtiyarında və sionizm kimliyi ilə saxlanılsın, ərəbləri isə Qəzzəyə və Qərb sahilinə sarı qovsunlar.

## *Qüds gününün dünyada ümumiləşməsi*

Builki Qüds günü barəsində bir mətləb budur ki, bu əzəmətli hərəkət İslam dünyasında günbəgün daha oturuşmuş və genişlənmişdir. Bu il İslam dünyası əksər müsəlman xalqların bəzi hissələrinin nümayişinə şahid oldu; İslam dünyasının şərqindən - yəni İndoneziyadan tutmuş İslam dünyasının qərbinə - yəni Afrika və Nigeriyaya qədər. Müsəlman ölkələrində harada xalqa Qüds günü öz niyyət və iradələrini göstərmək icazəsi verildisə, xalqın toplumları gəlib bu məsələyə qarşı öz hisslərini bildirdilər. Hətta Avropada yaşayan müsəlmanlar, Avropa ölkələrinin və müəssisələrinin təəssübkeş təzyiqləri altında olan azlıqlar da Qüds gününü uca tutdular. Bu onu göstərir ki, Fələstinin işğalçılarının və onların himayədarlarının iradəsinin əksinə olaraq, Fələstin məsələsi İslam dünyasında günbəgün daha da canlanır. Onların niyyətləri bu idi ki, Fələstin adını müsəlman xalqların yaddaşından silsinlər. Onların iradəsi bu idi. Onların məqsədi bu idi ki, Fələstinin xəritəsini, Fələstin adlı bir xalqı bütünlüklə İslam dünyasının coğrafiyasından silib məhv etsinlər. Bu böyük faciədən ötən altmış ilin hamısında da özlərinin bütün fəaliyyətlərini bu məqsəd ətrafında

mərkəzləşdirdilər. Lakin baş verən onların istədiklərinin və izlədiklərinin əksidir. Bu gün İslam dünyası Fələstin məsələsinə qarşı olduqca daha həssas və daha maraqlıdır. Səbəb budur ki, İslam dünyası oyanmışdır. Əgər bu oyanış 1948-ci ildə - Fələstinin rəsmən işğal olunub sionistlərə verildiyi zaman mövcud olsaydı, şübhəsiz, reallıqlar ayrı cür olardı və İslam dünyasının bu acı hadisəsi baş verməz, İslam ümmətinə bu dərin yara vurulmazdı. Bu gün müsəlmanlar oyaqdırlar, diqqətlidirlər və Allahın lütfü ilə günbəgün daha da oyanacaqlar. Mən deməyi lazım bilirəm ki, bu beynəlxalq dəstəyin və genişlənmənin ən mühüm amillərindən biri igid Fələstin xalqının dirənişi və müqavimətidir. Biz Fələstin xalqını salamlayırıq. Bu millət həqiqətən sübuta yetirmişdir ki, müsəlmanlıq adına və diri bir xalq adına layiqdir. Biz buradan siz müsəlman cəmiyyətin önündə Fələstin xalqına, Fələstinin qanuni hökumətinə və mücahid qardaşımız cənab Həniyyəyə deyirik: Bilin ki, İran xalqı sizi yalqız qoymamışdır və qoymayacaq!

## *Qüds günü - Fələstinin adının canlı qalmasının amili*

Gələn cümə Qüds günüdür. Bu bizim əziz imamımızın ən dəyərli yadigarlarındandır. Bu, inqilabın və bizim xalqımızın şərafətli Qüds hadisəsinə və Fələstin məsələsinə sevgi əlamətidir. Qüds günü sayəsində biz bu adı hər il dünyada yaşada bildik. Hökumətlərin və siyasətlərin çoxu Fələstin məsələsinin unudulmasını istəyirdilər, buna çalışdılar, pul xərclədilər. Əgər İslam Respublikasının səyi olmasaydı, əgər İslam Respublikasının bütün qüvvəsi ilə bu xəbis siyasətin qarşısında müqaviməti olmasaydı, Fələstin məsələsini tədricən haşiyəyə çəkə bilmələri və ümumiyyətlə unutdurmaları mümkün idi. İndi də hegemonçuluğun və xəbis sionistlərin özləri etiraf edir, düşünür və narahatdırlar ki, İslam Respublikası Fələstin bayrağını ucaldıb və istədikləri sazişlərlə Fələstin məsələsini sıradan çıxarmağa qoymur. Qüds günü bu xatirənin və bu adın yaşadılması günüdür. Bu il də ilahi yardımla, ilahi hidayətlə bizim əzəmətli xalqımız Tehranda və digər rayonlarda Qüds gününü uca tutacaq, yürüş keçirəcək. Digər ölkələrdə də bir çox müsəlmanlar Qüds günündə İran xalqı kimi edirlər. Qüds günü Qüds məsələsinə aid bir gündür və eyni zamanda İran xalqının birlik əlamətidir. Ehtiyatlı olun ki, kimlərsə Qüds günündə bu toplantılardan təfriqə yaratmaq

üçün istifadə etməsinlər. Təfriqədən qorxmaq lazımdır. Təfriqə ilə mübarizə aparmaq və vuruşmaq lazımdır. Təfriqə yaranmamalıdır. İran xalqı o zaman Qüds bayrağını fəxrlə ucalda bilər ki, bir olsun. Bütün bu illərdə bunu pozmağa çalışıblar, amma Allaha həmd olsun ki, bacarmayıblar. İnşallah bundan sonra da bacarmayacaqlar.

### *Qüds günü - haqqın batil qarşısında dirəniş simvolu*

İkinci xütbədə deməyi özümə borc bildiyim birinci mətləb Qüds günündə dünyanın gözü qarşısında nümayiş etdirdiyi əzəmətə görə böyük İran xalqına təşəkkür və minnətdarlıq bildirməkdir. Bu illər boyunca haqqın batil qarşısında dirəniş simvolu olan Qüds gününü zəiflətmək üçün nə qədər çalışmışlar! Qüds günü haqq və batilin qarşıdurması, ədalətin zülm qarşısında dirənişinin göstəricisidir. Qüds günü təkcə Fələstin günü deyil, İslam ümmətinin günüdür, işğalçıların, müdaxiləçilərin və imperialist qüvvələrin təcavüzkar əli vasitəsi ilə İslam ümmətinin canına düşmüş öldürücü sionizm xərçəngi əleyhinə müsəlmanların uca fəryad günüdür. Qüds günü kiçik gün deyil. Qüds günü beynəlxalq bir gündür, onun beynəlxalq mesajı da var. O göstərir ki, İslam ümməti əvvəla zülmə boyun əyəməyəcək; bu zülm dünyanın ən böyük və ən qüdrətli dövlətlərinin dəstəyini qazansa da. Qüds gününü zəiflətmək üçün çox səy göstərdilər və bu il həmişəkindən daha artıq çalışdılar, amma İslam İranında və əzəmətli Tehranda keçirilən Qüds günü inqilabın və İran xalqının əqrəbinin hansı istiqamətə yönəldiyini, İran xalqının iradəsinin nə olduğunu bütün dünyaya göstərdi. Göstərdi ki, onların hiylələri, hoqqabazlıqları, pul xərcləmələri və siyasi xəbislikləri İran xalqının ruhiyyəsinə təsir göstərmir.

### *Qüds günü - Fələstinin xəyanətkar hökumətlər vasitəsi ilə əriməsinə maneə*

Gələn həftə Qüds günüdür; bizim əzəmətli və mərhum imamımızın yeniliklərindən birini xatırladan gün. Bu günü uca tutun. İslam dünyası bu günü uca tutmalıdır. Müsəlman kütlələr bəzi satqın hökumətlərin vücuda gətirdiyi aram mühitdə və süni sükutda Fələstini az-az və an-an əridib unutdurmağa qoymamalıdırlar. İşğalçı rejimlə razılaşıb fələstinliləri qurban edən hökumətlərin

xəyanəti unudulmamalı və yaddan çıxmamamalıdır. Bu məsələ kiçik məsələ deyil.

Qırx ildən artıqdır ki, İslam xalqı Fələstinin adını çəkir. Müsəlmanlar, İslam mütəfəkkirləri, yazıçılar və siyasətçilər milyon dəfə demişlər və bu yolda minlərlə insan şəhid olmuşdur. Məgər İslam dünyasının ciyərparəsini bu şəkildə düşmənlərin ixiyarında qoymaq olarmı ki, onu ələ keçirib xalqı öz evindən qovsunlar?! Məgər belə bir şey mümkündür?! Məgər İslam icazə verir?! Məgər İslam xalqları icazə verirlər?!

Dünyada Fələstinə qarşı bu hazırlıq, fəallıq, gözlənti və tələbkarlıq halı günbəgün artmalıdır. Fələstinin daxilində də bu müqəddəs şölə günbəgün alovlanmalıdır. O gənclər, o qadın və kişilər, o yeniyetmələr, Fələstin daxilində işğalçı rejimlə mübarizə aparan o fədakarlar bilməlidirlər ki, əsas nöqtə onların barmaqlarını qoyduqları nöqtədir. Bu, düşmənin məğlub olacağı yerdir. Təşkilatların Fələstin sərhədlərindən xaricdə müzakirə stolu arxasında oturmaları, yaxud tribunalarda Fələstin adı ilə özlərini göstərmələri problemi həll etməyəcək. Xaricdən İslam dünyasının ümumi dəstəyi və daxildən Fələstin xalqının həqiqi və hissolunan mübarizəsi - bu iki amil birlikdə problemi həll edəcək və Fələstinin düşməninin başını daşa vuracaq.

## *Qüds günü - mübarizlərin və İsrailin tutduğu əsirlərin ümidi*

Qüds gününü uca tutun, onu böyük sayın. Əlbəttə, dünya mediası əks etdirmir; qoy etdirməsin. Fələstin türmələrində olan şəxslər bizə deyiblər ki, sizin şüarınızdan, sizin fəallığınızdan, sizin sadiq niyyətinizdən və iradənizdən xəbər verən düyünlənmiş yumruğunuzdan qüvvə və qüdrət alır, müqavimət göstərirlər. Fələstin zindanının divarları arxasında olan şəxs yalqız olduğunu hiss etməməli və dayanmalıdır. Beytülmüqəddəsin, Qəzzə zolağının və işğal olunmuş Fələstinin digər şəhərlərinin küçə və xiyabanlarında sionist quldurların hücumuna məruz qalan qadın və kişi sizin onların arxasında olduğunuzu hiss etməli və müqavimət göstərə bilməlidir. Sözsüz ki, hökumətlərin də üzərinə vəzifələr düşür. İslam Respublikası hökumətinin də üzərinə vəzifələr düşür,

bu vəzifələrə əməl edir və yenə də edəcək. Milli, ümumi və xalq məsələsinin xüsusi rolu var və öz yerində yerinə yetiriləcək.

### *Müqavimət və yürüş - ümid nuru saçan amillər*

Bu gün işğal olunmuş vətənlərinin şəhərlərində məzlumcasına öz qanları ilə küçə və xiyabanları rəngə boyayan gənclər, uşaqlar, qadınlar və kişilər, özlərinin həftəlik cümə toplantılarında ölüm kabusunu işğalçı və mühacir israillilərin başına vuran namaz qılanlar bütün Fələstinə elə ümid işığı saçmışlar ki, müqəddəs torpaq bütün qırxillik işğal dövründə və ondan öncə İngiltərənin təzyiq və şiddət dövründə heç zaman belə bir şey görməyib. Gələcək də bu iradəli və mübariz möminlərə məxsusdur.

Bu gün daha Fələstin xalqının zəiflik, təşəbbüssüzlük, və intizar dövrü bitmişdir. İslam o dəyərli xalqın dəyərli qüvvəsini ona qaytarmışdır. Bu gün vətəndaşların və çadırlarda yaşayanların dərdlərindən uzaq halda Fələstin sərvəti ilə siyasi və ticarət bazarlığına girən, Fələstini satan xəyanətkar və təslimçi fələstinli başçılar daha o ölkənin və xalqın taleyini həll edə bilməzlər. Fələstinin taleyi işğal olunmuş bütün torpaqların məscidlərində, cümə namazlarında, xiyabanlarında və meydanlarında həll olunur və bu, İslamın faydalarındandır.

### *Qüds günü - bizim ölkəmizin təhlükəsizlik dayağı*

Qarşıdan Qüds günü gəlir. Qüds günü sözün həqiqi mənasında ümumdünya İslam günüdür. Elə bir gündür ki, İran xalqı bu gün xoşbəxtlikdən sayları çoxalmış digər müştaq xalqların köməyi ilə haqq sözünü ucalda bilir. Bu sözü gizlətmək və söndürmək üçün hegemonluq altmış ildir maya qoyur. Əlbəttə, ən azı altmış ildir; yəni işğalçı dövlətin təşkil olunduğu zamandan. Onun hazırlıqları isə bəlkə də yüz ildən də artıqdır. Altmış ildir Fələstini dünya coğrafiyasından silməyə çalışırlar.

Əlbəttə, böyük həddə müvəffəqiyyət də qazanmışdılar. İslam inqilabı bunların ağzından vurdu. İslam Respublikası quruluşunun yaradılması, Qüds gününün elan olunması və Tehrandakı işğalçı rejimin səfirliyinin Fələstin səfirliyinə çevrilməsi xəbərdarlıq verən, saxlayan və hücum edən bir hərəkət idi. O, hegemonluğun bu

planının qarşısında dayandı. Bu gün xoşbəxtlikdən bu hərəkət günbəgün genişlənir.

Qüds günü bizim ölkəmizin də təhlükəsizlik dayağıdır. Bunu bizim əziz xalqımızın hamısı bilsin. Qüds günü küçəyə çıxan hər bir nəfər öz qədərincə ölkənin, xalqın təhlükəsizliyinə və inqilabının nailiyyətlərini qorumağa kömək edir. Qüds günü böyük bir gündür, mühüm bir gündür. İnşallah bu il də bizim ölkəmizdə və digər İslam ölkələrində bu gün həmişəkindən daha əzəmətli keçiriləcək.

# Beşinci fəsil: İslam hökumətlərinin məsuliyyəti

### *Müsəlman xalqların və hökumətlərin vəzifəsi*

Bu rejim davam edəsi deyil. Sionistlər güman edirlər ki, Fələstinə hakim ola bilmişlər və Fələstin əbədəlik onlara məxsusdur. Xeyr, belə deyil. Fələstinin taleyi bir gün mütləq Fələstin ölkəsi olmaqdır. Fələstin xalqı bu yolda qiyam etmişdir. Müsəlman xalqların və hökumətlərin vəzifəsi budur ki, bu məsafəni bacardıqca azaltsınlar və Fələstin xalqının o günə çatması üçün bir iş görsünlər.

Bu gün bizim hamımız Fələstin xalqını mənəvi və maddi baxımdan himayə etməyə borcluyuq.

Amerika təxribatının ən mühüm çarəsi işğal olunmuş torpaqlar daxilində və fələstinli mübarizlərin güclü əllərindədir. Lakin bütün müsəlmanlar bu cihadda iştirak etməyə və onlara sarı maliyyə, siyasi, informasiya, hərbi və texnika yardımlarını yönəltməyə borcludurlar. Fələstin xalqı tənhalıq hiss etməməlidir. Sionistlər və fələstinli mübarizlərin işgəncə və qətllərinin səbəbkarları dünyanın heç bir yerində təhlükəsizlik duymamalıdırlar. Dünyanın hər yerində hökumətlər və xalqlar tərəfindən mübariz fələstinlilərə yardım fondları və dəstək mərkəzləri təşkil olunmalıdır. İşğalçı dövlətə qarşı iqtisadi embarqo, onu rəsmən tanımamaq bütün müsəlman hökumətlərin vəzifəsidir və xalqlar bu məsələyə həssas yanaşmalıdırlar. Bu işlərlə və bütün mümkün işlərlə mövcud təxribata qarşı mübarizə aparılmalı və onun təsirinə maneçilik törədilməlidir. Hər halda Fələstin məsələsinin yalnız bircə həll yolu var. O da bütün Fələstin torpağında bir Fələstin hökuməti təşkil etməkdir.

### *Fələstinı dəstək ilahi və siyasi vəzifə kimi*

Fələstin xalqının əzabları bizim əzablarımız, dərdlərimiz və əziyyətlərimizdir. Bu gün Fələstin xalqının "ey müsəlmanlar" fəryadı ucalmışdır. Bu fəryada cavab vermək İslam hökumətlərinin hər bir məmuruna vacibdir. Allah-Taala onlardan sorğu-sual edəcək. Bizim hamımız buna borcluyuq. Bu, siyasi mülahizələrdən üstün bir şeydir; baxmayaraq ki, siyasi ağıl da bu gün bütün İslam dünyasının

arxa-arxaya və əl-ələ verib işğalçı və təcavüzkar sionizmin qarşısında durmalarını tələb edir. Bu təhlükə bütün İslam dünyası üçündür. Hətta işğalçı sionizm dövləti ilə əlaqələrinin onların xeyrinə olduğunu güman edən hökumətlər üçün də sionistlərin varlığı daha çox zərərlərinədir. Orada yerləşdirilmiş bu xərçəng vəzisi və xəbis ağac bu gün bütün İslam ölkələrinin və hökumətlərinin varlığı və kimliyi əleyhinə bir təhdiddir. Fələstinə kömək göstərilməlidir; bundan başqa yol yoxdur. Əgər biz bunu etməsək, şübhəsiz, bu işi görən kimlərsə tapılacaqlar: "Allah (onun yerinə) elə bir tayfa gətirər ki, (Allah) onları, onlar da (Allahı) sevərlər". Bu, Allahın qanunudur.

## *İslam hökumətlərinin vəzifəsi: İsraili məhv etmək üçün nefti bir aylıq kəsmək*

Bizim dediyimiz bu neftin bir aylıq kəsilməsi məsələsi əsaslı bir məsələdir. Buna dayaz yanaşmaq olmaz. Əlbəttə, bir nümayişkarlıq məsələsi də deyil ki, bir hökumət təkcə dayanıb desin ki, mən öz neftimi kəsirəm. Bəlli deyil ki, necə kəsəcək, yaxud kəsməyəcək. Bu ciddi və həqiqi bir məsələdir və hamı buna qərar verməlidir.

Gəlib dedilər ki, nefti kəsmək onu kəsən ölkələrin zərərinədir; halbuki belə deyil. Bu səhv qənaətdir. Nefti kəsmək xalqların zərərinə deyil, onların xeyrinədir. İndinin özündə siz görürsünüz ki, neft qiymətinin qalxıb-düşməsində bir neçə gün qiymət 24-25 dollara çatır. Amma bir neçə gündən sonra 15-16 dollara düşür. Qiymətlərin qalxıb-düşməsindən xalqlar bu qədər zərər görürlər; çünki ixtiyar digərlərinin əlindədir. Nefti bir aylıq kəsməklə bu qərar qüvvəsi İslam xalqlarına keçəcək. İslam xalqları və hökumətləri göstərəcəklər ki, beynəlxalq diktatorluğun və yalnız süngüyə arxalanan hegemonçuların istəyinin əleyhinə hərəkət edə bilirlər. Bu işi görməlidirlər. Bu zəruridir.

Əlbəttə, bəzi hökumətlər yaxşı mövqe seçdilər. Suriya və Livan hökumətləri şücaətlə dayandılar; mövqeləri yaxşıdır. Lakin bütün ərəb hökumətləri, bütün İslam hökumətləri və nefti ixrac və istehsal edən bütün hökumətlər özlərinin bu tarixi vəzifələrinə əhəmiyyətli yanaşmalıdırlar. Tarix gələcəkdə bu təyinedici addımlar üçün mühakimələr yürüdəcək. Bu gün də xalqlar mühakimə yürüdürlər.

Bu gün xalqlar bunun əsasında öz hökumətlərinə, onların doğruluğuna, qayğıkeşliyinə və paklığına qərar verirlər.

Mən düşünürəm ki, ərəb hökumətlərinin görə biləcəyi mühüm işlərdən biri neft ixrac edənlərin neftdən istifadə etməsidir. Qərblilərin dünyada neft silahından istifadə etməməyə dair ortaya atdıqları söz düzgün deyil. Neft xalqlarınkıdır və onların xeyrinə istifadə olunmalıdır. Amerikalılar buğdadan və qida məhsullarından silah kimi istifadə etdilər. Dünyanın çoxlu yerlərində edirlər. Nə üçün İslam və ərəb ölkələri bu haqqa malik olmasınlar?! Bir ay, təkcə bir ay simvolik formada İraillə yaxşı münasibətləri olan bütün ölkələrə neft ixracını dayandırsınlar. Bu gün dünya öz hərəkəti (zavodların hərəkətini), işığı və enerjini (elektrik enerjisini) və hərarəti - həyatın üç əsas elementini bizim neftimizdən əldə edir. Əgər bizim neftimiz onların ixtiyarında olmasa, zavodların hərəkəti dayanacaq, işıq və hərarət olmayacaq. Məgər bu azdır?! Ərəb hökumətləri özlərinə görə bu işi görsünlər. Daimi demirik, bir ay simvolik formada Fələstin xalqına dəstək üçün bu işi görsünlər. Dünya tərpənəcək. Bu onların görə biləcəyi işlərdəndir.

## *İsrailin məhvinin İslam dünyasının bütün imkanlarının işlədilməsində olması*

Bir gün bu regionda nərə çəkib özünün bütün istəklərini ərəb xalqlarına diktə edən İsrail indi İslam müqaviməti qarşısında aciz qalmış və diz çökmüşdür. Bu müsəlman və ərəb xalqların gücünün kiçik bir hissəsidir. Şübhəniz olmasın ki, əgər İslam dünyasının bütün imkanları və hətta onun bir hissəsi bu yolda işlədilsə, biz sionizm rejiminin məhvinin şahidi olacağıq. İsrail Livanın cənubunda bir neçə min nəfərlik bir müqavimətə məğlub oldu. Düzdür, hizbullahın güclü xalq dəstəyi vardı və zərurət olduqda minlərlə və hətta on minlərlə qüvvəni səfərbər edə bilmişdir, amma sionist işğalçılarla vuruş yerlərində ardıcıl şəkildə yalnız bir neçə min və bəlkə də bəzən bir neçə yüz qüvvədən istifadə etmişdir. Yəni İsrail, onun bütün hərbi imkanları və Amerika topxanasına birləşmiş mütərəqqi silah texnologiyası müharibədə çox ibtidai silahlardan istifadə edən bir neçə yüz imanlı və fəal gəncə məğlub oldu. Əlbəttə, onların güclü və məğlubedilməz silahı iman idi.

### *Hökumətlərin vəzifəsi - müsəlman xalqların istəyi ilə razılaşmaq*

Ümidvarıq ki, İslam hökumətləri, müsəlman xalqların ümumi istəkləri ilə razılaşsınlar, bu əzəmətli hərəkəti dəstəkləsinlər, işğalçı rejimlə hər bir rabitəni tam şəkildə kəssinlər, müxtəlif iqtisadi embarqolarla və digər vasitələrlə bu işğalçı rejimə qarşı mübarizə üçün istifadə etsinlər və xalq yardımlarını Fələstinin əsas məsələsinə - yaralıların müalicəsinə və xarabalıqların abadlaşdırılmasına sərf etsinlər. İran İslam Respublikası da bu hərəkətə və məzlum Fələstin xalqına öz dəstəklərini davam etdirəcək, Ümümdünya Qüds Günü tədbirlərini bütün müsəlmanlarla birgə hər il olduğundan daha əzəmətli keçirəcək və ümidvardır ki, hər gün haqq və ədalətin qələbəsinin, batil və işğalçılığın məğlubiyyətinin və rüsvayçılığının şahidi olaq.

Siz dünyanın dörddə birisiniz. Müsəlmanlar ən böyük güc imkanlarına malikdirlər. Bu gün dünya sizin neftinizə möhtacdır. Bu gün dünya sizin həssas həyat regionunuza möhtacdır. Nə üçün Amerika sizi nəyəsə məcbur edə bilir? Dözməyin, qəbul etməyin; bunlar şüar deyil, bunlar reallıqlardır. Əgər biz səy göstərsək və bu əzəmətli ilahi və insani vəzifədə sədaqətli rəftar etsək, həyata keçəsi və olasıdır.

Bu gün bir qrup fədakar müsəlman - Fələstin xalqının qocalardan, gənclərdən, kişi və qadınlardan ibarət seçilmiş şəxsləri müqəddəs Fələstin torpaqlarında mübarizə aparmaqdadırlar. Onlara kömək edin; yol budur. Fələstinə kömək, mübarizə aparan qüvvələrə kömək deməkdir. Fələstinə köməyin mənası bu deyil ki, ürəkləri Fələstin üçün yox, öz şəxsi maraqları üçün yanan sazişçi qüvvələrə kömək olunsun. Elə təşkilat məqbul və Fələstin xalqının həqiqi nümayəndəsidir ki, Fələstinin amalı yolunda mübarizə aparsın, gedib Fələstinin amalını düşmənə satan və onun üzərindən bazarlıq edən təşkilat yox.

Müsəlman xalqlar hərəkətə gəlməli və məsuliyyət hiss etməlidirlər. Mən bu gün deyilməsini və görülməsini lazım bildiklərimi bəyanatda demişəm, indi də deyirəm ki, müsəlman xalqlar bacardıqları yolla özlərinin müxtəlif yardımlarını Fələstin daxilində mübarizə aparan xalqa çatdırmalıdırlar. Bu bir şəriət vəzifəsi, ilahi və insani borcdur.

Əgər bu gün siz müsəlmanlar geri çəkilsəniz, bilin ki, düşmən bir səngər irəliyə gələcək. Düşmən qurtarmır, İsrail bir səngər irəliyə gələcək; İslam dünyasının düşməni olan Amerika bir səngər irəliyə gələcək. Əgər siz geri çəkilsəniz, onlar irəliləyəcəklər. Onlarla siz ümmətin arasındakı düşmənçilik bitməyəcək. Çünki imperializmin imperialist istəkləri bitmir.

Siz burada bir qətiyyətli hərəkət etməli və bir qətiyyətli qərar verməlisiniz. Tehrandakı bu toplantı faydalı bir toplantı ola bilər. İş sizin əlinizdədir, qərar verin. Parlamentlər oturub Fələstinin taleyi üçün qərar versinlər və onu hökumətlərdən istəsinlər. Ziyalılar və yazıçılar yazsınlar, ictimai rəy oyansın, tələbə və gənclər uca səslə xalqların istəyini elan etməyə hazır olsunlar.

İran xalqı hazırdır. Biz imkan və gücümüz həddində bu vəzifəni yerinə yetirməyə hazırıq. Hegemonçuluğun düşmənçiliyinə də dözərik. Bizi Fələstini, Fələstin intifazəsini və Fələstin xalqının qiyamını himayə etdiyimizə görə təhdid etməsinlər. Bu himayə bizim vəzifəmizdir. Biz bunu yerinə yetirəcəyik və heç bir təhdiddən də qorxmayacağıq. İnqilabdan dərhal sonra biz hegemonluğun təhdidlərinə məruz qalmışıq və Allahın lütfü ilə, Allahın güc və qüvvəsi ilə hegemonluq bir iş görə bilməyib. Biz yenə də öz vəzifəmizi yerinə yetirəcəyik.

Mən siz möhtərəm cənablardan və siz əziz qardaşlardan xahiş edirəm ki, bu toplantıya tam ciddi yanaşın və qərar verməyə çalışın. Yalnız toplaşmaq, yalnız oturmaq, danışmaq və durmaq kifayət etmir, qərar verməlisiniz. Qərarla qayıtmalı və o qərarı icraya çıxarmalısınız. O zaman görəcəksiniz ki, keçilməz görünən yollar açılacaq. Müsəlman xalqların iradəsi qarşısında heç bir bağlı yol yoxdur.

Bu gün müsəlman hökumətlər məsuliyyət hiss etməlidirlər. Müsəlman hökumətlərin gücü bir və yekdil olsa, Amerikanın gücündən artıqdır. Amerika bu regiona daha ehtiyaclıdır, nəinki bu region Amerikaya. Hökumətlər bilməlidirlər ki, müsəlman xalqların istəyi onların hamısının Amerika və İsrailin hegemonçu istəyinə yox cavabı vermələridir. Bu, hökumətlərin özünü və İslam ölkələrinin şərəf və izzətini qorumaq üçün ən güvənli addımdır. Amerikanın təhdidindən və tamahlandırmasından və sionist mətbuatının informasiya təzyiqindən qorxmasınlar. Özlərinin dini və milli vəzifələrinin səsinə səs versinlər.

## *Hökumətlərin vəzifəsi*

Bütün İslam ölkələrinə və müsəlman xalqlara da deyirik ki, bu gün o mömin topluma və məzlum xalqa kömək etmək, onları meydanda yalqız buraxmamaq bütün xalqların və hökumətlərin şəriət vəzifəsidir. Əlbəttə, yardımlar da olunur, ümidvarıq ki, bu yardımlar öz yerinə çatsın və inşallah Fələstin xalqının dərdlərini azaltmaqda faydalı və təsirli ola bilsin. Allah-Taaladan istəyirik ki, İslam və müsəlmanların problemlərini və Fələstin xalqının problemlərini aradan qaldırsın.

## *Müsəlman hökumətlərin əlaqələri kəsmək vəzifəsi*

Bu bütün hökumətlərin vəzifəsidir. Bu gün Fələstin xalqının İslam ümmətindən haqlı gözləntiləri var. İslam hökumətlərindən də gözləntiləri var. Bu gün böyük İslam ümməti də İslam hökumətlərindən, xüsusən də ərəb hökumətlərindən gözləyir ki, işğalçı, zalım və həyasız sionizmlə rabitələrini kəssinlər. Sionizm özünün həqiqi simasını bir daha aşkara çıxardı; bir daha göstərdi ki, ona güc dilindən, güc məntiqindən, güc və zorakılıq düşüncəsindən başqa bir şey hakim deyil.

## *Fələstini sistemli himayə üçün İslam ölkə başçılarının məsuliyyəti*

Mən burada deyim ki, bütün dünyada yaşayan müsəlman xalqlar bu gün işğal olunmuş məzlum Fələstin torpağında baş verən çox mühüm hadisəni könüldən sevirlər. İslam konfransının qətnaməsində nisbətən yaxşı sözlər deyilsə də - əlbəttə, onun mühüm bir hissəsi İran İslam Respublikasının bu məsələlərdə tamamilə açıq və qətiyyətli fikir bildirdiyinə və bəzi müsəlman ölkələrinin də İslam Respublikası şüarlarının ardınca hərəkət etdiyinə görədir - lakin bu sözlərin ardınca mütləq əməl olmalıdır. Müsəlman hökumətlər fələstinli mübarizlərə, Fələstin xalqına və Fələstin xiyabanlarında sionistlərin təzyiqinə məruz qalan şəxslərə qarşı məsuliyyət hissi keçirməli, onlara bacardıqları köməyi göstərməlidirlər. İran İslam Respublikası bu sahədə öz sözünü demişdir. Lakin o məzlum xalqa kömək etmək üçün müxtəlif İslam və ərəb ölkələri tərəfindən sistemli əməl lazımdır. Fələstinin bugünkü hadisələri hegemonluğun - yəni İran xalqının düşməninin zəifliyinin əlamətlərindən biridir.

## *Siyasi, maliyyə və informasiya yardımı*

Bu gün Fələstin xalqı qiyam etmişdir. Fələstin xalqı yuxuda olduğu zaman taleyi və müqəddəratı baş verənlər oldu. Lakin bu gün Fələstin xalqı oyandığından onun taleyi və müqəddəratı qələbədir. Bu cihadın uzun çəkməsi mümkündür, lakin qələbə şübhəsizdir. Əgər biz etməsək, Allah-Taala digər bəndələrini işə vadar edəcək. Bu bizim bugünkü vəzifəmizdir. Ümidvarıq ki, bu vəzifəyə əməl edək. Bu gün İslam hökumətləri onlara kömək etməyə - siyasi, maliyyə və informasiya yardımları etməyə borcludurlar. Builki Qüds günü Allahın lütfü ilə göstərdi ki, bütün İslam dünyasının xalqları bacardıqları qədər bu vəzifəyə sadiqdirlər.

## *İsrailin cinayətləri qarşısında müsəlman hökumətlərin vəzifəsi*

Müsəlman hökumətlərdən gözlənilir ki, o xalqa müdafiə üçün lazımi imkanları versinlər. Həmçinin müsəlman hökumətlərindən gözlənilir ki, dünyada sionistlərin maraqlarını dəstəkləyən şəxslərə qarşı siyasi təzyiq göstərsinlər. Bu işi ikitərəfli münasibətlərində, beynəlxalq təşkilatlarda, ümumi və xüsusi müzakirələrdə görə bilərlər. Bundan əlavə, qeyd olunduğu kimi, hücumçu və işğalçı öz cinayətindən əl çəkmək istəmirsə, ən azı Fələstin xalqı öz hüququnu müdafiə edə bilsin. O haqlıdır və öz hüququnu müdafiə edir.

## *Hökumətlərin məsuliyyət hissi*

Mən Qüds günündə izdihamlı və iqtidarlı iştiraklarına görə əziz xalqımıza səmimi-qəlbdən təşəkkür edirəm. Dünya xalqları bacardıqları və onlara icazə verilən həddə nifrət bildirirlər. Lakin bu, hökumətlərin qərarında əmələ çevrilməlidir. Müsəlman hökumətlər bu məsələnin qarşısında məsuliyyət daşıdıqlarını hiss etməlidirlər.

## *İslam hökumətlərinin sayıqlığının lazımlığı*

İslam dünyası miqyasında da belədir; hökumətlər bir-birinə yaxınlaşmalıdırlar və İslam qüdrəti hissi vücuda gəlməlidir. Əgər hegemonluq İslam hökumətlərinin və dövlətlərinin hər birini cüzi məsələlərlə və yalançı vədlərlə İslam dünyası toplumundan ayıra bilsə, vəziyyət gördüyünüz olacaq.

## *Müsəlmanların maddi və mənəvi sərvətlərindən istifadə etməməsi - düşmənlərin istismarçılığının səbəbkarı*

Əgər İslam ümməti öz neftindən, öz insani resurslarından, öz bazarlarından, öz elmindən, özünün müxtəlif maddi və mənəvi ehtiyatlarından yaxşı istifadə etsə, dünya güclüləri və istismarçılar bu şəkildə ona hegemonluq edə bilməzlər. Siz görün Fələstin xalqı barəsində hegemonluq dünyasının zorakılığı nə qədər rüsvayçı və aydındır!

Bir xalq öz torpağında işğalçılara məğlub olub; özü də onların vasitəsi ilə törədilən bu faciələrlə: insan hüquqları tapdanır, insanların canı məhv olur, insanlardan bu torpaqda yaşamaq imkanı alınır, evləri uçurulur, tarlaları məhv edilir, ticarətləri bağlanır, istedadları boğulur, onlara inkişaf və tərəqqi imkanı yaradılmır, bunların gənclərini, kişilərini və qadınlarını daim qətlə yetirirlər və hegemonluq dünyasının bəziləri açıq şəkildə bunları dəstəkləyir, bəziləri həvəsləndirir də. İslam dünyası da tamaşaçı olub; guya bitərəf tamaşaçı. Bu, İslam dünyası üçün böyük dərddir. Səbəb İslam dünyasının bu zəifliyi və təfriqəsidir. İnanmalıyıq ki, bizim qüdrətimiz müsəlmanların bu əzəmətli cəmiyyətinə və bu böyük İslam ümmətinin qəlbinə qədər uzanır. Buna inanmalıyıq. Bizi bir-birimizin canına salıb müxtəlif adlarla başımızı qarışdırırlar. Bizi bir-birimizə bədbin edirlər, məzhəb davası salırlar, milli qarşıdurma yaradırlar, ərazi iddiası yaradırlar. Bizi bir-birimizlə məşğul edirlər. Bizim parçalanmağımızdan sui-istifadə edirlər. Bu gün bizim ən böyük müsibətmiz və ən böyük bəlamız budur.

## *Müsəlman hökumətlərinin tarixi məsuliyyəti - Fələstin xalqını açıq müdafiə*

Müsəlman hökumətləri özlərinin milli maraqlarını qorumaq, öz xalqlarının hisslərini cəlb etmək və özlərinin tarixi məsuliyyətini yerinə yetirmək üçün İslam ümmətinin heysiyyətinin əsas nöqtələri üzərində dayanmalıdırlar; Fələstin xalqını açıq şəkildə müdafiə etməlidirlər; İraqın tam müstəqilliyini və işləri İraq xalqına tapşırmağı müdafiə etməlidirlər; Fələstin xalqını müdafiə etməlidirlər; Avropada, Asiyada və Afrikada yaşayan müsəlman xalqları müdafiə etməlidirlər; ölkələrindəki Quran heysiyyətini və Quran hökmlərini müdafiə etməlidirlər; bir-biri ilə əlaqələri

yaxınlaşdırmalı və səmimiləşdirməlidirlər; bir-birinə qarşı səmimi olmalıdırlar; bir-birinə yardım etməli və əl tutmalıdırlar. O zaman İslam ümməti özünü hegemonluğun boyunduruğundan xilas edib, bu gün hegemonçu dünyanın İslam dünyasına qarşı yönələn təhdidlərini dəf edə biləcək.

## *Müsəlman hökumətlərin sionizm rejimi ilə rabitəni adiləşdirməkdən çəkinməsinin lazımlığı*

Qəzzə məğlubiyyətindən sonra və o məğlubiyyəti düzəltmək üçün amerikalılar, sionistlər və onların bəzi müttəfiqləri tərəfindən bir təxribat planı hazırlanmışdır; yəni bəzi müsəlman və region hökumətləri arasında sionizm rejimi ilə çirkin rabitəni adiləşdirmək. Onlar bu boyunduruq altına getməməlidirlər. İslam hökumətləri müxtəlif bəhanələrlə və Amerikanın könlünü sevindirməkdən ötrü bütün region üçün, bütün xalqlar və hökumətlər üçün təhlükəli olan bu qəddar, zalım və işğalçı rejimlə rabitələrini adiləşdirməməli, Amerikaya görə bunlara xoş üz göstərməməlidirlər. Bu pis işdir. Bu işin pis olmasının dəlili də budur ki, bu adiləşdirmək işini görənlər ən azı işin əvvəllərində onu gizli saxlayırlar. Yəni pis işdir ki, gizlədirlər. Pis işi görməmək lazımdır, onu gizlətmək yox. Buna əsasən, Qüds günü inşallah həmişəkindən daha izdihamlı keçiriləcək.

## *Bu günün müsəlmanların təşəbbüsçülüyü ələ almaq günü olması*

Bu gün elə bir gündür ki, müsəlman xalqlar və hökumətlər təşəbbüsçülüyü ələ alıb böyük iş başlaya bilərlər. Məzlum Fələstin xalqına yardım, ayıq İraq xalqını himayə, Livan, Suriya və digər region ölkələrinin sabitliyini və müstəqilliyini qorumaq ümumi vəzifədir. Siyasi, dini, mədəni və milli şəxsiyyətlərin, gənclərin və universitet mənsublarının vəzifəsi isə digərlərindən daha artıqdır. İslam məzhəblərinin ardıcılları arasında vəhdət və həmrəylik, firqə və milliyyət ixtilaflarından çəkinmək bu şəxsiyyətlərin ən mühüm şüarlarından olmalıdır. Elmi fəallıq, siyasi fəallıq, mədəni fəaliyyət və bütün qüvvələri bu əsas işlərə səfərbər etmək onların dəvətinin sərlövhəsi olmalıdır.

## *Müsəlman hökumətlərin vəzifəsi: bütün siyasi və iqtisadi rabitələri kəsmək*

Görmələri mümkün olan başqa bir iş budur ki, özlərinin sionizm hökuməti ilə bütün rabitələrini, bütün siyasi və iqtisadi müqavilələrini kəssinlər və heç bir həmkarlıq göstərməsinlər. Ərəb xalqlar buna sevinəcəklər. Ərəb xalqlar bu qorxmaz addımı atan hökumətlərin arxasında duracaqlar. Vay olsun o hökumətə ki, xalqı gizlicə İsraillə informasiya, təhlükəsizlik və digər rabitələr qurduğunu anlasın! Müsəlman hökumətlər də buna borcludurlar. Onların da vəzifələri ərəb hökumətlərindən az deyil. Çünki bu məsələ ərəb məsələsi deyil, bu məsələ daha geniş bir məsələdir. Bu insani və islami məsələdir. Müsəlman hökumətlərin hansının neft və buna bənzər imkanları varsa, belə edə bilərlər. Müsəlman ölkələrin Xarici İşlər Nazirlərinin Malayziyada keçirdikləri konfrans yaxşı konfrans deyildi. Əlbəttə, mövqe və varlıq bildirdilər, amma zəif idi. Bundan daha güclü addım atmalıdırlar. Bu qədər müsəlman hökuməti və bu qədər İslam ölkəsi var, amma müsəlman qardaşları elə əzabdadırlar. Bunlar daha güclü addımlar atmalıdırlar.

## *Müsəlman hökumətlərin vəzifəsi - zəiflik halından çıxmaq*

Əziz qardaşlar və bacılar! Bu vəziyyət İslam izzətinə uyğun deyil və İslam ümmətinin dərdlərinə əlac yolundan çox uzaqdır. Həm bütün müsəlman ölkələr Fələstin xalqının haqqının bərpa edilməsində layiqli rol ifa etməlidirlər, həm də İslam dünyası zəif haldan təşəbbüsçülük halına keçməlidir. Bu iki vəzifəni həlalik yalnız Fələstin və Livanın mömin və qeyrətli gəncləri özlərinin bütün varlıqları ilə yerinə yetirirlər. Salam olsun onlara! Bizim Orta Şərq sülhü adlandırılan məsələyə qarşı çıxmağımız ədalətsiz olduğuna, hegemonçu və təhqiramiz olduğuna və nəhayət qeyri-məntiqli olduğuna görədir. Torpaq qarşısında sülhün məcburi prinsipinin mənası budur ki, sionistlər qonşu ölkələrin torpaqlarını geri qaytarsınlar və biz Fələstin ölkəsinin onlara məxsus olduğunu qəbul edək. Bundan ədalətsiz söz ola bilərmi?! Bu ziyanlı bazarlıqda qədim Fələstin xalqına nə cavab vermək olar?! Dövrün ibrətli zarafatlarından biri budur ki, işğalçı dövlət bunu da qeyri-uyğun bilmiş və rədd etmişdir. İslam dünyasının bu hegemonçu ruhiyyəyə

cavab vermək zamanı çatmamışdırmı?! Biz əgər öz münasibətlərimizi tənzim və qardaşcasına etsək, buna qadir olarıq. Amerika İslam ölkələrinin İndoneziyadan Şimali Afrikaya qədər vahid cəbhəsi qarşısında nə edə bilər?! Bu gün hegemonluq bu cəbhənin pərakəndəliyindən istifadə edir. Bu sıranı öz xeyrimizə möhkəmlətmək zamanı çatmayıbmı?! Sionist hökuməti kimi bir düşmənin İslam dünyasının qəlbində yerləşməsi bəlkə bizi bir-birimizə yaxınlaşdıra bilərdi, amma hegemonluğun sirli əlləri bu təhlükəni də öz qarşısından götürdü. Bizi elə vəziyyətə salıb ki, indi bir-birimizdən daha çox qorxuruq, nəinki düşməndən. Əziyyətverici şübhələr, yalanlar və təbliğat İslam ölkələrini yanlış və yersiz olaraq bir-birindən qorxutmuşdur.

## *Ərəb hökumət başçılarının İsrailin cinayətlərinə qarşı məsuliyyəti*

Çox yaxın gələcəkdə ərəb hökumət başçılarının iclası keçiriləcək. Mən bu gün ərəb ölkələrinin başçılarının üzərinə düşən böyük məsuliyyəti xatırlatmağı lazım bilirəm. Bu gün İslam ümmətinin ərəb hökumət başçılarından gözləntisi var. Amerikalılar çalışdılar ki, ərəb hökumət başçılarının iclasını təsir altına salmaq üçün Şərmüşşeyx iclasında bir iş görsünlər. Onlar təsir altına düşməməlidirlər. Bu gün ərəb ölkə başçılarının iclasında qəbul olunan hər bir qərar tarixin həmişəlik mühakiməsində olacaq. Ərəb ölkə başçıları bu iclasda düzgün qərar çıxarmaqla özlərinə əbədi fəxr qazana bilərlər. Sözsüz ki, Fələstin məsələsi bu iclaslarla həll olunmur, amma bu iclaslar Fələstin xalqının tələblərini dünyaya çatdıra bilər.

## *İslam dünyasının potensialından istifadə edərək sionistlərin xəbislikləri qarşısında dayanmaq*

İslam dünyası dayansın; bunu bacarar. Xəbisliklər və tamahkarlıqlar qarşısında dayanmaq üçün İslam dünyasının potensialı olduqca yüksəkdir. Bütün diqqətlər tez neftə yönəlir. Neft məsələsi deyil, bura dünyanın mərkəzidir. Qərb məhsullarının ən böyük bazarları bu regiondadır, heysiyyətləri buraya bağlıdır. Dünyanın ən mühüm yolları müsəlman ölkələrinin ixtiyarındadır. Bunlar dünyanın həyat damarlarıdır. Bunlar müsəlmanların

əlindədir. Müsəlmanlar bunlardan istifadə etməlidirlər və bunu bacararlar.

Bütün bunlardan əlavə, bugünkü dünyada siyasi məntiq və siyasi söz keçərlidir. İstəyə bilərlər; hətta bu vasitələrdən istifadə etmədən. Hökumətlərin və xalqların istəyinin özünün beynəlxalq hadisələrdə əzəmətli çəkisi var. Təəssüf ki, bundan istifadə olunmur, bunlara əhəmiyyətsiz yanaşılır.

## *Ərəb hökumətləri, İslam konfransı və Ərəb Liqası üçün çətin imtahan*

Ərəb hökumətləri çətin bir imtahan qarşısındadırlar. Ayıq ərəb xalqları onlardan qətiyyətli addım tələb edirlər. İslam konfransı və Ərəb Liqası Qəzzənin mühasirəsinin tamamilə götürülməsindən, qərb sahillərində fələstinlilərin evlərinə və torpaqlarına hücumun tam dayandırılmasından, Netanyahu və Ehud Barak kimi cinayətkarların mühakiməsindən azına qane olmamalıdırlar.

## Altıncı fəsil: Media qurumlarının məsuliyyəti

### *Təbliğat baxımından Fələstini müdafiədə media qurumlarının vəzifəsi*

İnqilab mesajının özü, onun möhkəmləndirilməsi, tanıtdırılması və yazılması baxımından bizim problemimiz yoxdur. Onu necə bölməyimizi, paylaşdırmağımızı və yaymağımızı bilmək üçün düzgün müdiriyyət lazımdır. Bunlar baş vedikdə ictimai rəy sizin ixtiyarınızda olacaq; yəni siz ictimai rəyi idarə edə biləcəksiniz. Bu iş baş verdikdə ictimai rəy artıq sizin ixtiyarınızda olacaq. Düşmən ictimai rəyi ələ almaq istəyir. Siz onun öz xalqınızın və səsinizin çatdığı qədərincə digər xalqların ictimai rəyini ələ almasına imkan verməməlisiniz. Siz bu gün Fələstin hadisəsi kimi bir hadisəyə baxın. Orada daha haqq və batil cəbhələri məlumdur. Bir xalqı öz ata-baba yurdundan - babalarının sümükləri bu torpaqda dəfn olunub və bütün tarix buranın onlarınkı olduğunu deyir - öz torpaqlarından, həyatlarından, evlərindən və öz ölkələrində seçim hüququndan məhrum etdilər. Avropadan, Şərqi Avropadan, Rusiyadan, Amerikadan və digər yerlərdən bir qrup əcnəbini toplayıb dedilər ki, siz buranı idarə edin. Əgər ortada başqa heç bir amil olmasaydı da, bunun özü haqq və batilin harada olduğunu göstərərdi, o ki qala işğalçı əcnəbi qrup müxtəlif növlü qəddar və yırtıcı üsullarla o torpağın sahibi olanları məhv edə; yəni vurur, əzir və öldürür. Daha bundan da aydın və ayırd olan haqq və batil varmı?! Siz görün bu regionda İsrailin tərəfdarları – Amerika, sionistlərin özü və digər hökumətlər bunun özünü dünyanın ümumi rəyində necə dəyişmişlər! Yəni ümumi rəyi elə dəyişmişlər ki, bu gün bu acı hadisələrin qarşısında dünyada mühüm hərəkət baş vermir. Əgər bu təbliğatlar olmasaydı, Fələstinlə heç bir rabitələri olmasa belə, dünya xalqları hər gün Fələstin xalqının xeyrinə yürüş keçirər, etiraz edər, hökumətlərə təzyiq göstərər və öz hökumətlərini mövqe bildirmək üçün sıxışdırardılar. Əgər bu təbliğatlar olmasaydı, ümumiyyətlə dünya siyasəti dəyişilərdi. Bunlar ictimai rəyi özləri istədikləri kimi ələ keçirib yönəltdilər. Media işinin sözügedən məntiqli ardıcıllığına riayət etmələrinə görə bu böyük yalanı xalqın beyninə yeritdilər.

Əgər biz düzgün bir media işi görə bilsək, bu batil səhnəni ən azı müəyyən həddə haqq səhnəsinə çevirə bilərik. Yəni dünyanın ümumi rəyində elə iş aparaq ki, məsələ həqiqətən çevrilsin. Biz bu sahədə zəifik. Biz deyəndə haqq cəbhəsini nəzərdə tuturam. Bu, bir beynəlxalq hadisəyə qarşı dünyanın ümumi rəyi barəsindədir. Ölkə daxilindəki ictimai rəy haqqında da həmin məsələ eyninə mövcuddur.

Xəbər məsələsi də çox mühümdür. Xəbər ehtiyacdır. Düzdür, xəbər hazırlamaq keçmişdəkindən çox yaxşı olmuşdur, lakin bacardıqca xəbəri etimadlı, zamanında, əhatəli və dediyimiz xüsusiyyətlərə malik edin. Bəzən bir zəif və az etimadlı xəbərin yayımlanması xalqda məyusluq yaradır. Bəzən vahid bir xəbəri iki cür vermək olar. Misal üçün, Amerikanın, yaxud İsrailin təchizat xəbərini elə vermək olar ki, xalq onunla mübarizəyə qalxmağa həvəslənsinlər; həmin xəbəri həm də elə vermək olar ki, xalq daha tərpənməyin və ümumiyyətlə hər hansı bir hərəkət etməyin mümkün olmadığını hiss etsin. Deməli, xəbərin verilmə tərzi ümidverici olmalıdır. Əlbəttə, xəbərin özü mühüm və faydalı məqamlara malikdir.

## *İnfromasiya vasitələrinin vəzifəsi*

Media qurumlarının və informasiyaın roluna çatırıq. Bu mübarizə səhnəsi ümumi bir səhnədir. Bütün İslam dünyasında hər kəsin üzərinə öz bacarığı qədər vəzifə düşür və rolunu oynamalıdır. Bu gün dünya media qurumlarının və təbliğatın dünyasıdır. Bu gün sizin qarşınızda İslam dünyasının düşmənlərinin xəbər imperatorluğu durur. Bunların çoxu sionistlərin nəzarətindədir. Bu gün kütləvi informasiya vasitələri tərəfindən dünyanın - o cümlədən ərəb və İslam ölkələrinin və müsəlmanların özlərinin ictimai rəyinə sarı birtərəfli bir xəbər və təhlil avtobanı mövcuddur. Sionistlər öz işlərinin əvvəlində informasiya və təbliğat vasitələrinə sarı getdilər. Onların siyasətlərindən biri dünyanın təbliğat vasitələrini ələ keçirmək idi. Bu gün belədir. Onlar əvvəldən çox mühüm və təyinedici olan və bu günə qədər də təsirini göstərən bir təbliğat metodu seçdilər. O təbliğat metodu özlərini məzlum göstərməkdən ibarətdir. Özlərini məzlum göstərmək üçün çoxlu dastanlar və əfsanələr quraşdırıldı, xəbərlər düzəldildi, dayanmadan səylər

göstərildi. Bu gün qəddarlığın zirvəsində ola-ola həmin təbliğat yenə də davam edir. Yəni yenə də təbliğat dünyasında sionistlərin ən mühüm işi özlərini məzlum göstərməkdir. Bunlar yəhudilərin psixoloji nigaranlıq məsələsini ortaya atıb dedilər ki, yəhudilər uzun əsrlər boyunca təzyiq altında olublar, psixoloji cəhətdən nigaranlığa düçar olublar və psixoloji sabitliyə ehtiyacları var. Sionistlər Qərb ölkələrinin başçıları ilə və sonralar İslam və ərəb ölkələri ilə müzakirələrində psixoloji sabitlik məsələsini irəli sürüb dedilər ki, bizim psixoloji sabitliyə ehtiyacımız var və bu təmin olunmalıdır. Bu psoxoloji sabitlik nə deməkdir? Onun heç bir müəyyən mənası və heç bir sonu yoxdur. Hər hansı bir addım atılmaq istədikdə əgər onların xeyrinə olmasa, psixoloji sabitlik bəhanəsi ilə onu zərərsizləşdirə bilirlər. Dünyada bir çoxlarını qane etdilər ki, psixoloji sabitliyə ehtiyacları var və onların bu sabitliyi təmin olunmalıdır.

İsrailin psixoloji sabitlik ehtiyacını təmin etmək torpaqlara göz yummaqdan daha çətindir. Siz torpağı əldən verdikdə nəyi əldən verdiyinizi bilirsiniz. Lakin İsrailin psixoloji sabitliyə dair ehtiyacını təmin etmək istəsəniz, haraya qədər təslim olmalı və nə qədər güzəştə getməli olduğunuzu bilmirsiniz. Bu güzəştə getmənin sonu yoxdur, ardıcıl olaraq imtiyaz vermək lazımdır. Bu sahədə Avropanın təcrübəsi ibrətamizdir. Almaniya yəhudilərə 150 milyard mark kompensasiya ödədi, amma onların Almaniyadan təzminat istəmələri hələ bitməmişdir. Yenə də təzminat tələb edirlər və onlara verilməlidir. Yəhudilərin Almaniyaya qarşı gördükləri iş az-çox digər Avropa ölkələrinə – misal üçün, Avstriya, İsveçrə, Fransa, hətta bir neçə il öncəyə qədər Vatikana qarşı da edildi. Hamı təzminat verməlidir. Bu təzminat bitəsi deyil.

Psixoloji cəhətdən israillilərin çox əhəmiyyətli fəaliyyətləri vardır. Qərbin bütün siyasətçiləri, jurnalistləri, ziyalıları, məmurları və görkəmli şəxsləri insan yandıran sobanın xatirə binası önündə təzim göstərməlidirlər. Yəni hamı doğruluğu bəlli olmayan əhvalat üzərində təkid göstərməli, özünü o hadisəyə borclu bilməlidir. Bunlar təbliğatda işlətdikləri üsullardır və hamısı özlərini məzlum göstərməyə yönəlmişdir.

Əlbəttə, dünyanın digər bir hissəsində Tövratda qeyd olunmuş dastanlara arxalanaraq - yəni bura İsrail övladlarına bağışlanmış torpaqlardır - bir çox məsihiləri də özləri ilə həmfikir və həmrəy

etmişlər. Mən bir statistikada gördüm ki, bunlar bəzi ölkələrdə, əsasən də Amerikada həmin təbliğatla ictimai rəyin dayağı kimi milyonlarla qeyri-yəhudi sionist yetişdirə bilmişlər. Bunlar illərdir bu təbliğatı aparırlar. Bu gün də həmin təbliğat dünyada bacardıqları qədər güclü şəkildə davam edir.

Onlar baş verən hadisələrdən, məsələn 11 sentyabrda Nyu-York və Vaşinqtonda baş verən hadisədən maksimum istifadə edib Fələstin məsələsini İslam dünyasının məsələləri sırasından kənarlaşdıra bildilər. Amerika bu cəhətdən də sionistlərə hərtərəfli kömək göstərdi. Lakin qarşı tərəfdən, azadlıq iddiası edən ölkələrdə fələstinli qadınların və uşaqların həyatına od vurmağa etiraz etməyə və bu gün Fələstin xalqı əleyhinə edilən qəddarlıqları söyləməyə heç kəsin haqqı yoxdur.

İnsanın düşmənin bu təbliğat üsulu və psixoloji dərkilə tanışlığına görə, İslam ölkələrinin informasiya vasitələrinin məsul şəxsləri və əməkdaşları öz məsuliyyətlərini bilməli və yollarını tənzim etməlidirlər. Bu, həyati əhəmiyyətə malik olan bir işdir. Bu gün təkcə Fələstin xalqı üçün yox, hətta İslam dünyası üçün bu bir həyati iş və ağır vəzifədir.

Bir misal və örnək kimi mən dostların xəbərdar olduğu Livanın cənubunun təcrübəsini demək istəyirəm. Livanın mübariz gəncləri və möminləri sionistlərin əleyhinə apardıqları əzəmətli mübarizədə təbliğat amilindən gözəl və layiqli şəkildə istifadə edə bildilər. Onlar müqavimət və fədakarlıq ünsürünü İslam dünyasına düzgün çatdırmağı bacardılar. Düşmən bundan təngə gəlir. Bütün İslam dünyası Livanın cənubunda müqavimətin nə etdiyini, nə iş görmək istədiyini və məqsədinin nə olduğunu anladı. Orada təbiğat yaxşı və düzgün tərzdə işlədildi; doğmalar ruhlandı, düşmənin ruhiyyəsi zəiflədi və təngə gəldi. Bu bizim həmişə görməli olduğumuz işdir. İslam dünyası həmişə mübarizə halında və hücum altındadır. Bu gün sionistlərin caynağında olan və gecə-gündüz hücuma məruz qalan yer İslam dünyasının bədəninin bir parçasıdır. Odur ki, bu məsələnin xeyrinə informasiya vasitələrindən maksimum istifadə olunmalıdır.

İşğalçı sionistlər əleyhinə təbliğatın strategiyası üçün əsaslı bir proqram lazımdır. Bizim taktika formasında hər bir mövqedə məzlumluqların bir hissəsini bəyan etməyimiz yetmir. Bütün İslam dünyasında müştərək formada ümumi bir təbliğat strategiyası təyin edilməli və ona əməl olunmalıdır.

Dünyanın böyük media qurumları bizim ixtiyarımızda deyil. Amma ixtiyarımızda olanlar da az deyil. Biz bütün İslam dünyasına məxsus olan sərvətlərimizdən və varlığımızdan maksimum istifadə etməliyik.

Biz Fələstin xalqını təslim və ümidsiz etməyə kömək etməməliyik. Biz həqiqəti bəyan etməliyik. Həqiqət ümid, yeni üfüq, sionistlərin diz çökməsi və onları himayə edən qüvvələrin imanına arxalanıb hərəkət edən bir xalqın ümumi hərəkəti qarşısında möhtac və aciz olmasıdır. Birlikdə hərəkət edən və öz imanına arxalanan xalq məğlub olmaz. Biz meydanda və səhnədə olan şəxslərin qəlbində daha artıq ümid yaratmaq üçün bu həqiqətləri işıqlandırmalı və müqavimətin psixoloji şəratini təmin etməliyik. İnformasiya vasitələrinin vəzifəsi müqavimətin psixoloji şəraitinin yaranmasına çalışmaqdır.

İslam və ərəb informasiya sistemləri elə rəftar etməlidirlər ki, mənası qarşıdurmadan uzaq qalmaq olmasın. Siz meydanın içindəsiniz; istər istəyəsiniz, istər istəməyəsiniz. Bu gün elə bir gündür ki, bizim hər bir addımımız gələcək tarixə təsir qoyur və qeyd olunur. Biz ümidvarıq ki, bütün İslam dünyası bu məsələni bütün cəhətləri ilə yaxşı dərk edib vəzifəsinə uyğun əməl etsin.

## *İsraillə mübarizə üçün təbliğat yollarından istifadənin lazımlığı*

İsrailin adı ilə şüar verənlərin nəzərindən çox zaman iki məqam yayınır. Biz bu iki məqamı qısa şəkildə deyəcəyik... İkinci məqam budur ki, ilk gündə işğalçı dövləti yaratmaq üçün şərait yaradan və bu gün də onun davam etməsini təmin edən amillərdən biri sionistlərin və dünyanın hər yerində olan dostlarının beynəlxalq informasiya qurumlarının apardığı təbliğatdır. Dünyanın ümumi rəyi üçün belə göstərmişlər ki, ev sahibi orada hökumət edən şəxslərdir və bir qrup mədəniyyətdən uzaq insan da onlara maneçilik törədir. Təəssüf ki, bunu dünyada oturuşdurmuşlar. Bu məsələ üzərində dünyanın ümumi rəyində və ümumi mədəniyyətində təbliğat işi aparmışlar. Lakin biz müsəlmanlar xəbərsiz qalmışıq. Biz müsəlmanlar düşmənin təbliğat üsullarına vaqif olmamışıq, Fələstin xalqının doğruluğunu çatdırmaq üçün ən yaxşı üsullardan bəhrələnməmişik.

Bu girişlə söyləmək istədiyim budur ki, dünyanın hər bir tərəfində bütün ziyalılar, yazıçılar, sənət adamları və informasiya işində azca da çalışan bütün şəxslər bu məsələyə qarşı tam məsuliyyətlə vəzifələrini yerinə yetirməlidirlər.

İkinci Dünya Müharibəsindən sonra yəhudilər bütün dünyada özlərini məzlum göstərmək üçün yüzlərlə və bəlkə də minlərlə film hazırlamışlar. Bu filmlər onların simasını məzlum, onlarla həqiqi, yaxud qeyri-həqiqi formada mübarizə aparan şəxslərin simasını zalım göstərir. Bizim bildiyimiz qədərincə bu gün Fələstin xalqına edilən zülm heç zaman bir xalqa edilməmişdir. Ancaq təəssüf ki, dünyanın ümumi rəyi bu zülmdən xəbərdar deyil. Bu düzgün bəyan olunmalıdır, filmlər hazırlanmalıdır, sənət işləri görülməlidir ki, dünyanın bütün ümumi rəyi nə baş verdini bilsin.

Təəssüflə etiraf etməliyik ki, bizim ziyalılarımız və bacaran şəxslər səhlənkarlıq etmişlər. Biz Fələstin məsələsini dünya miqyasında olduğu kimi tanıtdırmalıyıq. Bu iş üçün maya qoyulmalıdır, insanlar çalışıb işləməlidirlər. Bu bizim diqqətsiz qaldığımız məqam olmuşdur.

Təsadüfən iki-üç il öncə də italiyalılar bir kitab yazdılar; fars dilinə də tərcümə olundu. Orada da CİA təşkilatının İncəsənət bölməsinə və onun müxtəlif fəaliyyətlərinə toxunulmuşdur. Siyasət bu şəkildə incəsənətdən istifadə edir. Siz burada nə iş görmək istəyirsiniz? Əgər dünyanın bütün siyasətçiləri, hegemonçuları, quldurları və ixtiyar sahibləri gəlib öz müqəddəs kitabları önündə incəsənətdən istifadə etməmələrinə dair Allaha and içsəydilər, insan nisbətən rahat olub deyərdi ki, çox yaxşı, Allaha şükür ki, incəsənət xilas oldu. Lakin onlar incəsənətdən istifadə edirlər. Siz nə iş görmək istəyirsiniz? Siz onların incəsənət vasitəsi ilə nail olduqları tamahkar məqsədləri ilə mübarizədə bu vasitədən imtina etmək istəyirsiniz? Bu ağıldandır?! Xeyr, bu ağıldan deyil.

Bu, İslam Respublikasının günahıdır. Müxtəlif məsələlərdə - Fələstin məsələsində və digər məsələlərdə də belədir. Bir xalq dünya güclərinin hegemonçu istəkləri qarşısında təslim olmaması günahına görə bütün vasitələrlə, o cümlədən incəsənət vasitəsi ilə şiddətli mübarizəyə məhkum olur. Qeyd etdiyim kimi, CİA təşkilatının İncəsənət şöbəsi var. İnqilabdan sonra onların bizim əleyhimizə, şiəliyin və İslamın əleyhinə hazırladıqları filmlər olduqca çoxdur. Bir iranlı prodüsser, kinematoqraf, kino və teatr aktyoru, musiqiçi və

bəstəkar olan sizlər bu reallığı və məzlumluğu dərk edirsinizsə, vəzifəniz nədir? Heç bir xalq vəzifəsi yoxdurmu?!

...Onlar bu qədər silah istehsal edib bütün dünyaya verirlər. Buna əsasən, həqiqət budur ki, onların özləri ən çox kobudluğu törədirlər. Terrorizimdən danışırlar, amma məqsədləri budur ki, İslam Respublikası nə üçün öz vətənlərini müdafiə edən mübariz fələstinliləri himayə edir. Beynəlxalq informasiya vasitələrinə görə, terrorizmi müdafiə fələstinli mübarizləri müdafiədir. İsrail tankları vasitəsi ilə fələstinlilərin evini başına uçurmaq və bir neçə aylıq körpələri qətlə yetirmək terrorçuluq deyil. Amma qəddar cinayətkar bir hərbçi bir hadisədə öldürüldükdə, öz mətbuatında ağlayan həyat yoldaşının şəklini ayrıca, uşağının şəklini ayrıca, dəfn mərasiminin şəklini də ayrıca vururlar. Bu ondan ötrüdür ki, qarşı tərəfi zorakı kimi təqdim etsinlər. Bu, sözügedən təbliğat işlərindəndir. Qərəz budur ki, incəsənətə və siyasətə bir qədər dərindən baxmalıyıq, burada səthi düşünmək olmaz.

# Yeddinci fəsil: Görkəmli şəxsiyyətlərin məsuliyyəti

### *Müsəlman alimlərin, ziyalıların, siyasətçilərin, şairlərin, yazıçıların, sənət adamlarının və universitet mənsublarının məsuliyyəti*

Hamı bu sahədə məsuliyyət daşıyır; ziyalılar, siyasətçilər, şairlər, yazıçılar, sənət adamları və universitet mənsubları məsuliyyət daşıyırlar. Bunlar təsirli təbəqələrdir. Bunlar media qurumlarını düzgün qidalandıra bilən şəxslərdirlər. Sizin burada toplanmanızın özü böyük bir hadisədir. Bu toplantıda siz bunu bütün İslam dünyasında sistemli bir media hərəkəti üçün bir təməl edə bilərsiniz. Bu mümkün işdir. Nə üçün biz öz imkanlarımızdan istifadə etmirik?

İslam dünyasının bir çox yazıçı və ziyalıları bəzi İslam ölkələrinin və sionistlər qarşısında münasib rəftarı olmayan hökumətlərin başçılarına etiraz edib deyirlər ki, nə üçün özünüzün neftinizdən, sərvətinizdən və siyasi imkanlarınızdan sionistlərin əleyhinə istifadə etmirsiniz. Əlbəttə, bu etiraz düzgündür və bizim fikrimizcə yerli iraddır. Lakin eynilə həmin sualı ziyalılıq və yazıçılıq dünyasından və universitet mənsublarının dünyasından da soruşmaq olar: Nə üçün əzəmətli elm və ziyalılıq sərvətindən lazımınca və layiqincə istifadə olunmur? Bəzən bir şeir və bir qəsidə çoxlu pul və sərvətlərin qoya bilmədiyi təsiri qoyur. Bir gün bir fələstinli şair bir qəsidə deyib ərəb dünyasının qəlbini təlatümə gətirdi. Bu, 88-89-cu illərə aiddir. Bəzən yaxşı bir media fəndinin, yaxud sistemli təbliğat fəaliyyətinin təsiri neft kranlarını bağlamaqdan da artıq olur.

Siz İslam alimlərinin, müsəlman ölkələrin yazıçılarının, ziyalılarının və tələbələrinin daha təcili vəzifələri var. Siz xalqları Amerika və İsrailin İslam dünyası üçün hazırladığı müsibətin əzəməti ilə tanış edib möhtəşəm milli qüvvəni onunla mübarizəyə səfərbər edə bilərsiniz. Özlərini bu xəyanətlə yoldaşlığa hazırlayan hökumətlər öz xalqlarının qəzəb təhlükəsini bilməlidirlər.

Bütün İslam dünyasında İslam alimlərinin, həmçinin İslam dünyasının ziyalılarının xüsusi məsuliyyətləri var. Amerikalıların bir hərəkətdən sırf narazı olmaları filan alimi və filan müftini bir ərəb və

müsəlman ölkəsində İslam əleyhinə mövqe seçməyə vadar etməməlidir. Təəssüf ki, son hadisədə İslam dünyasında bir-iki belə nümunə müşahidə olundu. İslam alimləri, İslam ölkələrinin alimləri və İslam dünyasının ziyalıları, bütün İslam dünyasında olan şairlər, natiqlər, yazıçılar, sənət adamları və tələbə təbəqəsi hamılıqla bu gün Fələstin xalqını himayədə rol oynamalıdırlar. Bu onların vəzifəsidir və bu rollar təsirli olub bu məzlum xalqa yardım göstərə bilər. Dil və söz kifayət etmir. Xalqın qətiyyətli mövqeyi bir çox köməklərdən daha üstün və daha təsirlidir. Bu vəzifədir. Ümidvarıq Allah-Taala bu vəzifəni yerinə yetirə bilmək üçün hamıya uğur bəxş etsin.

Bu gün müsəlman, xüsusən də ərəb hökumətləri və xalqlarının öhdəsinə ağır vəzifə düşür. Sözsüz ki, hökumətlərin vəzifəsi olduqca ağır və mühümdür. Lakin xalqların, xüsusən də din alimlərinin, siyasi şəxsiyyətlərin, universitet şəxsiyyətlərinin, ziyalıların və digər təsirli qüvvələrin vəzifəsi hökumətlərin vəzifəsindən yüngül deyil. Bu vəzifə kömək etməkdən, ruhlandırmaqdan və bu müqəddəs cihadı davam etdirməkdən ibarətdir.

Allah-Taaladan istəyirəm ki, bu vəzifəyə əməl etmək üçün bizim hamımıza uğur bəxş etsin.

## *Düşmənin təbliğat müharibəsi ilə mübarizədə ziyalıların vəzifəsi*

Məyis etmək, kimliyin təhqiri, özünün qüdrətini və maddi imkanlarını gözə soxmaq... Müsəlmanları parlaq gələcəyə ümidsiz etmək, yaxud onları özlərinin çirkin niyyətlərinə uyğun gələcəyə həvəsləndirmək üçün bu gün və gələcəkdə minlərlə təbliğat vasitəsi işə salınıb və salınacaq.

Bu mədəni və psixoloji müharibə müstəmləkəçilik dövrünün başlanmasından indiyədək Qərbin İslam ölkələrini istismar etməkdə ən işlək vasitəsi olmuşdur. Bu zəhərli oxun hədəfi əvvəlcə görkəmli şəxsiyyətlər və ziyalılar, sonra isə adi kütlələr olmuşdur. Bu hiyləyə qarşı mübarizə yalnız Qərbin amiranə və məcburi mədəniyyətindən üz çevirməklə mümkündür. Qərb mədəniyyəti görkəmli şəxsiyyətlər və ziyalılar vasitəsi ilə ələkdən keçirilməlidir; onun faydalı tərəfləri cəlb olunmalı, ziyanlı, dağıdıcı və fəsadlı hissələri İslam cəmiyyətlərinin zehnindən və əməlindən çıxarılmalıdır. Bu böyük

seçimdə meyar İslam mədəniyyətinin, Quran və sünnənin səmərəli, yol açan və hidayət edən düşüncələrinin hakimliyidir. Bu, bütün İslam dünyasında din alimlərinin, ziyalıların və siyasi şəxsiyyətlərin öhdəsinə düşən hərtərəfli və xoş sonuclu mübarizənin əsas bir fəslidir. Ümidvaram ki, bu il həcc, bu faydalı və fəxrli yolu getməkdə hamının iradəsini möhkəm və güclü etsin.

## *Siyasətçilərin, mütəfəkkirlərin və ziyalıların birliyi qorumağa dair vəzifəsi*

İslam ümməti oyanıb bunların qarşısında dayanmalıdır. Birinci dərəcəli vəzifə də siyasətçilərin öhdəsinə düşür. İslam ölkələrinin rəhbərləri və məsul şəxsləri sayıq olmalıdırlar. Bu fəryadın bəzi doğma siyasətçilərin ağzından çıxması mümkündür. Lakin biz səhv etmirik. Biz əsas amili tanımaqda səhvə yol vermirik. Bunların ağzındandır, amma bunlarınkı deyil. Fəryad digərlərinin fəryadıdır, dünyanın hegemonçu qüvvələrinə aiddir. İslam ümmətinin birliyinə qarşı olanlar onlardırlar. Əgər İslam ümməti daxilində bəzi şəxslərin ağzından çıxsa da, bunlar aldanmışlar. Bu səs bunların səsi deyil. Bu, onların səsidir. Bu səsi tanıyırıq. Birinci dərəcədə siyasətçilər və məsul şəxslər və yenə də mühüm və yüksək dərəcədə mütəfəkkirlər - xalqın beyni və qəlbi ilə işləyən şəxslər, İslam dünyasının din alimləri, ziyalılar, yazıçılar, jurnalistlər, şairlər və ədəbiyyatçılar bu birliyi pozmaq və bu möhkəm ilahi ipi müsəlmanların əlindən almaq istəyən əlləri xalqa tanıtdırmaqdan ibarət olan böyük vəzifəyə məsuliyyət daşıyırlar.

Quran bizə açıq şəkildə deyir: "Hamılıqla Allahın ipinə möhkəm sarılın". Allahın ipinə sarılmaq işini tək-tək də görmək olar. Amma Quran deyir ki, hamılıqla Allahın ipinə möhkəm sarılın, birgə olun "və ayrılmayın". Hətta Allah ipinə sarılmaqda da təfriqəyə düşməyin, nəinki bəziləri Allah ipinə, bəziləri isə şeytan ipinə sarılmaq istəsinlər. Hətta hamı Allah ipinə sarılmaq istədikdə də bu, birlikdə olmalıdır, bu işi yekdil şəkildə görülməlidir. Bu, İslam dünyasının böyük problemidir.

Ümidvarıq Allah-Taala bütün İslam ümmətinə, bütün İslam xalqlarına və bütün İslam hökumətlərinə bu mühüm məsələni öz çəkisi və əhəmiyyəti ilə qəbul və icra etmək səadətini nəsib etsin. Və Allahın razılığı və rəhməti olsun bizim dövrümüzdə vəhdət nidasını

ucaldıb müsəlmanları bu birliyə dəvət edən Böyük İmamımızın ruhuna! Ümidvarıq ki, Allah-Taala bizim qəlblərimizi öz dəvəti ilə daha artıq tanış etsin və İslam ümmətinin gələcəyi keçmişdəkindən dəfələrlə yaxşı olsun.

## *Fələstinə ürək yandıranların ağır vəzifəsi*

İndi bir dini vəzifə olaraq intifazəni müdafiə üçün toplaşmış siz əzizlərin üzərinə çox ağır vəzifələr düşür. Hər şeydən öncə İslam dünyasının İslam oyanışı sayəsində möhtəşəm İslam tarixinin gözəl ənənələrinə qayıtmaqda israrlı olduğunu göstərməlisiniz. Həmin ənənələr və ilk növbədə müsəlmanların birliyi keçmişdə onların xac işğalçıları əleyhinə taleyüklü döyüşlərdə qələbəsinə bais oldu. O əzəmətli tarixi hadisədə bütün İslam dünyasından olan mücahidlər küfr və imanın taleyüklü və uzun döyüş cəbhəsinə qoşulmaq üçün yollandılar.

## *1991-ci ildə keçirilən Tehran konfransı - saziş əleyhdarları üçün ümid mərkəzi*

Bundan öncə Tehranda təşkil olunan Fələstin konfransı əsaslı və müsbət bir rol ifa etdi. Belə ki, sülh prosesinin müxalifləri üçün bir ümid mərkəzi yaratdı və eyni zamanda Fələstin xalqına ruh yüksəkliyi və ümid bəxş etdi. İslam İranının mövqeyi və onun İslam hökumətləri arasında özünəməxsus müqaviməti bu qəhrəman xalqa ümid verə bildi.

## *2001-ci ildə keçirilən Tehran konfransının gözəl nəticəsi - müqavimətə mənəvi dəstək*

İndi də Fələstin xalqının hər şeydən çox mənəvi dəstəyə və mövqe möhkəmliyinə ehtiyacı var. Düzdür, maddi ehtiyacları da var və onun üçün də ciddi addımlar atmaq lazımdır. Lakin onların özləri müxtəlif müsahibələrində deyirlər ki, bizim hər şeydən çox güclü ərəb-İslam mövqeyinə ehtiyacımız var.

Sizin konfransınız bu işin həyata keçməsinə şərait yaratmalı və Fələstin xalqını İslam ümmətinin əsirgənməyən və geniş dəstəklərinə ümidvar etməlidir. Müxtəlif İslam ölkələrinin nümayəndələri olan sizlər bu yolda çalışmaqla öz xalqlarınızın imkanlarını Fələstinin azadlığı üçün səfərbər edin, Fələstin xalqını

müqaviməti davam etdirməyə ümidləndirin. Fələstin xalqı yaxşı bilir ki, İsrailin Livandakı dağıdıcı hərəkətlərini cilovlayan amil İsrailə cavab verən İslam müqavimətinin gücü və ona ağır zərbələr endirməkdir, onun-bunun sülh və vasitəlik fəaliyyətlərinə güvənmək yox.

## *Fələstin xalqının ən konkret və ən təcili tələbləri*

Fələstin xalqının ən konkret və ən təcili tələbi budur ki, bu üç həftədə Fələstin qırğınlarını törədənlər bir İslam, yaxud ərəb məhkəməsində mühakimə olunub cəzalansınlar. Əqsa məscidinə getməsi ilə müsəlman xalqın hisslərini yaralayan o çirkin məxluq cəzalandırılmalıdır. Şərafətli Qüds və Beytülmüqəddəs şəhəri sionistlərdən bütünlüklə təmizlənməlidir. Fələstin xalqının azad şəkildə öz gələcəyi və taleyi barədə qərar çıxarmasına imkan yaradılmalıdır. Bunlar ərəb ölkə başçılarının irəli sürə biləcəyi konkret tələblərdir.

## *Konfranslarda əməli istəklərin lazım olması*

Hamının üzərinə vəzifə düşür. Birinci növbədə İslam hökumətləri və hamıdan öncə ərəb hökumətləri məsuliyyət daşıyırlar. Deyəsən bir neçə gündən sonra Ərəb Liqası konfransının keçirilməsi nəzərdə tutulub. Biz bu konfransların keçirilməsini dəstəkləyirik. Həm İslam Konfransı Təşkilatı, həm Ərəb Liqası oturub bu məsələlər üçün fikirləşməlidirlər. Mübarizə yolu budur ki, Fələstin xalqını müdafiə üçün İslam dünyasının qüvvəsindən, sərvətindən, əzəmətli cəmiyyətindən və imkanlarından, eləcə də beynəlxalq toplantılarda onun səs qüvvəsindən istifadə etməlidirlər. Yalnız bir qətnamə və iki kəlmə sözlə kifayətlənməməlidirlər, müxtəlif münasibətləri kəsməklə və qətiyyətli mövqe seçməklə Amerikanı təhdid etməlidirlər, Avropa rejimlərindən işə qoşulmalarını istəməlidirlər.

# Səkkizinci fəsil: Digər şəxs və təbəqələrin məsuliyyəti

### *Hacıların siyasi agahlığı yüksəltmək vəzifəsi*

Dünyanın dörd tərəfindən Kəbənin təvafı və əzəmətli Peyğəmbərin (s) məqbərəsinin ziyarətinin şövqü ilə buraya toplaşmış müsəlmanlar öz aralarında İslam ümmətinin bir çox böyük dərdlərinin dərmanı olan qardaşlıq bağlarını möhkəmlətmək üçün bu fürsətdən istifadə etməlidirlər. Bu gün aşkar şəkildə görürük ki, İslam dünyasının bədxahlarının əli əvvəllər olduğundan daha çox müsəlmanlar arasında təfriqə yaratmaqla məşğuldur. Halbuki İslam ümməti bu gün birlik və həmrəyliyə keçmişdəkindən daha ehtiyaclıdır. Bu gün düşmənlərin qanlı pəncəsi İslam torpaqlarının hər bir yerində aşkar şəkildə faciə törətməkdədir; Fələstin sionistlərin mənfur hökmranlığı altında günbəgün daha artıq əzab və əziyyətdədir, Əqsa məscidi ciddi təhlükəyə məruz qalır, məzlum Qəzzə əhalisi o bənzərsiz soyqırımdan sonra hələ də ən ağır şəraitdədir.

İşğalçılar bir tərəfdən Fələstin, Livan və digər yerlərdə olan xalq müqavimət hərəkatlarını terrorçu adlandırır və digər tərəfdən bu regionun xalqları arasında vəhşicəsinə dini və milli terrorçuluğu idarə edir və yönəldirlər.

### *Hacıların Fələstin məsələsinə qarşı vəzifəsi*

Allah evinin hacıları və bu il bütün dünyadan Allahın evinə toplaşan qardaş və bacılar çalışıb müsəlmanların problemini irəli sürməklə, onların arasında birlik və həmrəylik yaratmağa çalışmaqla, - bu, müsəlmanların qızıl və güc imperatorluğunun caynağından və beynəlxalq istismarçılıqdan xilası üçün əsas şərtdir - İslamın əsaslı təlimlərini yaymaqla və müasir dövrdə müsəlmanların böyük vəzifələrinə dair fikir mübadiləsi aparmaqla həcci İbrahim və Məhəmməd (s) həccinə çevirsinlər.

Əzəmətli imam və İslamın böyük rəhbəri olan İmam Xomeyni tərəfindən irəli sürülən İsrailin xərçəng vəzisinin məhvi şüarı siyasətbaz sülh tərəfdarlarının istəyinə rəğmən, güclü və möhkəm

şəkildə ortaya qoyulmalı və həcdə müsəlmanların ümumi səsinə çevrilməlidir.

Həcdə İslam dünyasının problemləri araşdırılmalıdır. İslamı və müsəlmanların ümumi heysiyyətini qorumağa hazırlıqdan sonra müsəlmanların ən böyük ümumi məsələsi məzlum və mübariz xalqların məsələsidir. Azğınlığın, küfrün və hegemonluğun əli onları məzlum və ən çətin həyat şəraitinə məcbur etmişdir. Məzlum Fələstin xalqı belə xalqlara bariz bir nümunədir. Bu xalq qırx ildir öz yurd-yuvasından qovulmuşdur, yaxud öz vətənində qərib şəkildə yaşayır. Bu, İslam ümmətinin bədəninə vurulan qanlı və ağrılı yaradır; bu yara müstəmləkəçi və İslam əleyhdarı olan hökumətlərin təxribatı və sionistlərin cinayətkar əli ilə qırx il öncə vurulmuş və üzərinə hər gün duz səpilmişdir.

Bu da beynəlxalq təşkilatların və bəzi Avropa ölkələrinin, İngiltərənin və digərlərinin rəftarı! Yaxşı, orada bir qrup müsəlman məzlum olmuşdur və nə vaxt qətliam ediləcəyini gözləyir. Müsəlmanlar bu barədə nə etsinlər? Həcdən başqa bir yol varmı?! Hegemonçu qüvvələri qorxudan amil xalqdır. Dünyanın filan küncündə keçirilən filan konfransda bir neçə ölkənin oturub bir qətnamə qəbul etməsinə əhəmiyyət vermirlər. Yüz qətnamə də qəbul etsələr, nəticəsizdir. Məgər işğalçı sionistlər əleyhinə indiyədək bir neçə qətnamə qəbul olunmayıb?! Yəni heç nə; yəni hava! Qətnamənin faydası yoxdur. Hegemonçu qüvvələri həqiqi mənada qorxudan və durduran amil xalqların fəallığıdır. Bu iş üçün həcdən yaxşı yer varmı?! Bütün İslam ölkələrindən oraya iki milyon müsəlman toplaşır. Onların hər hansı birindən "Sizin Qorajde barəsində fikriniz nədir?" - deyə soruşsan, cavab verəcək ki, Qorajdeyə gedib oranın məzlum müsəlmanlarını müdafiə etmək istəyirəm. Heyf deyil ki, biz bu camaatı əldən verək?! Heyf deyil ki, bu qədər faydalı olan və bu qədər müsəlmanın canını xilas edə bilən belə yaxşı bir toplantı əldən çıxsın?! Bu, həcci siyasiləşdirməkdir?!

## *Qeyri-müsəlman ölkələrdən gözlənti*

Qeyri-müsəlman və əsasən Avropa ölkələrindən gözlənti budur ki, bir xalqın - kişilərin, qocaların, qadınların, yeniyetmələrin, bir neçə aylıq südəmər körpələrin əleyhinə törədilən cinayətlər qarşısında sükut etməsinlər. Nə üçün sükut edirlər? Bu qədər

cinayətlə yanaşı o işğalçı dövləti necə himayə edirlər? Məgər insan haqlarının tərəfdarı olduqlarını iddia etmirlər?! Əgər bu söz yalan, hiylə, siyasi oyun və xalqları talamaq üçün bir vasitə deyilsə, bura onun sınaq meydanıdır. Burada insan hüquqları tapdanır; mövqe bildirsinlər, danışsınlar, İsrailin işlərini pisləsinlər və ona təzyiq göstərsinlər. Necə ki, dünyanın filan yerində casusluq cinayətinə görə mühakimə olunan bir neçə yəhudi cinayətkardan ötrü səfərbər olurlar və müdaxilə edib danışmağı öz vəzifələri bilirlər. Halbuki orada cinayətkar cəzalandırılır və qanuni bir iş baş verir, burada isə bir xalq məzlum olur. Müdaxilə etsinlər. Nə üçün müdaxilə etmirlər? Sionistlərin, onlara bağlı kompaniyaların və sionist milyarderlərin təsiri altında olmaq Avropa dövlətləri və digərləri üçün rüsvayçılıqdır. Biz Amerikaya bir söz demirik və ondan bir şey gözləmirik. O nə bir iş görəcək, nə də görə bilər. Çünki Amerikanın hakim heyəti sionistlərin əlindədir.

## *Fələstin - Avropa dövlətlərinin imtahan yeri*

Bu gün avropalılar və qərblilər üçün də böyük bir imtahan günüdür. Onlar bu qədər iddia etdikləri insan hüquqlarını və azadlığı müdafiə barəsində imtahanlarını verməlidirlər. Məzlumiyyətin bu həddində olan bir xalqı necə müdafiə etmək olmaz?! Düzdür, bəzi Avropa dövlətləri bir neçə söz demişlər, amma bunlar kifayət etmir. İslam Konfransı Təşkilatının və İslam ölkələrinin üzərinə vəzifə düşür.

İkinci yol himayələrdir. Bütün dünya bunları himayə etməlidir. Əlbəttə, xalqlar himayə etdilər, Avropada da xalqlar himayə etdilər, yürüşə çıxdılar və müxtəlif yol və üsullarla öz ürəklərinin istəyini göstərdilər. Bu dəstəklər hətta Amerika Birləşmiş Ştatları daxilində də göründü. Bundan sonra da bu işlər davam etdiriləcək. Lakin hökumətlər öz vəzifələrinə əməl etməlidirlər. Hamıdan vacib İslam hökumətləri və xüsusən də ərəb hökumətləridir.

## *İslam Konfransı Təşkilatının Fələstini müdafiə vəzifəsi*

Bu gün vəzifəsinin və varlığının əsas fəlsəfəsinin ümumiyyətlə Fələstini müdafiə və Fələstin məsələsindən ibarət olduğu İslam Konfransı Təşkilatı həqiqətən müqavimət göstərməyə, İslam dünyasını sionistlərin və onların himayədarlarının - Qərbin əksər

hegemonçu dövlətləri bəzi ixtilaflarına rəğmən, bu himayədə müştərəkdirlər - bu əziyyətverici hərəkəti qarşısında səfərbər etməyə borcludur.

## *İdmançıların vəzifəsi*

Əzizimiz olan bu cənab Araşın işi çox dəyərli olan həmin işlərdən idi; olduqca dəyərli iş idi. O əgər yarışını keçirsəydi və qələbə də çalsaydı, işinin dəyəri bu qədər olmazdı. Düzdür, dünyada bu işin başından vurmağa çalışdılar, amma bacarmadılar. Hamısı əlbir oldular ki, olimpiyanı korladınız, siyasiləşdirdiniz. Onların özləri hər şeydən öz müstəmləkəçi siyasətlərinin xeyrinə bəhrələnir və istifadə edirlər. Amma müsəlman və mömin bir gənc bir dəyəri müdafiə edəndə, məzlum bir xalqı müdafiə edəndə, nərə çəkən güclü bir beynəlxalq quldurla bu dillə və bu yolla vuruşanda onun əleyhinə belə ajiotaj yaradırlar. Əlbəttə ki, qələt edirlər. Onlar görülmüş bir iş qarşısında qaldılar və texniki zərbə aldılar. Bu işlə vuruldular. İndi bundan sonra nə qədər ajiotaj yaratmaq istəyirlər yaratsınlar. O, öz işini gördü.

# Dördüncü bölmə: Cinayətlər

## *Qəddarlıq - fələstinlilərin artan qəzəbinin səbəbkarı*

Sionistlərin rəftarı o qədər vəhşicəsinə, insani mürüvvət və mərhəmət meyarlarından uzaqdır ki, Fələstində iş başına gəlmiş bu gənc nəsli təbii şəkildə təngə gətirmişdir; daha taqətləri bitmişdir və dözə bilmirlər. Sionistlər elə bilirlər ki, əgər qəddarlıq etsələr, tank gətirsələr, top atsalar və kimyəvi silahlardan istifadə etsələr, xalqı sakitləşdirəcəklər. Bəli, təzyiqi artırıb bir dövrdə xalqı sakitləşdirmələri mümkündür, lakin boğazlarda düyünlənmiş nifrətləri məhv edə bilməzlər. Onlar məhv ediləsi deyil. Onlar elə gurultu qoparacaqlar ki, bütün sarayları uçacaq. Və bu hərəkətin kökünü kəsə bilməyəcəklər.

## *Cinayətlərin məqsədi: Sülh müzakirəçilərinə qanunsuz istəklərin qəbul etdirilməsi*

Bu xoşagəlməz və çirkin faciə sionist hakimlərin qanunsuz istəklərinin sülh müzakirəçilərinə qəbul etdirilməsi məqsədi ilə həyata keçsə də, qorxmaz Fələstin xalqı bu müzakirələri məhkum edəcək, onları daha da sıxışdıracaq, onun zillətli taleyini dəyişdirəcək. Bu mücahidliklər ilahi yardım vədləri ilə bir gün səmərəyə çatacaq, tutulmuş torpaqlar azad ediləcək və tarac olunmuş sərvətlər əsl sahiblərinə qayıdacaq.

## *İsrailin misli az olan cinayətləri*

Fələstin məsələsində üç qabarıq cəhət var. Bu üç qabarıq cəhət tarixin yadında qalacaq:

Birinci cəhət bu gün siosnitlərin Fələstin xalqına qarşı etdiyi misli az olan zülm və cinayətdir. Bu, tarixdə qalasıdır. Bir gənc bu qədər əzab çəkdikdən və müsibət gördükdən sonra öz canını fəda edir ki, evini işğal edənə bir zərbə vursun; özü də şəhid olur. Onlar gəlib bu gəncin evini, onun ata və anasının evini dağıdırlar, ailəsinə işgəncə və əziyyət verirlər. Tankla düşərgələrə və şəhərlərə girirlər, evlərə hücum edirlər, evləri və tarlaları dağıdırlar, insan öldürürlər. Silahsız fələstinli gənci, uşağı, qocanı və qarını öldürmək indi gündəlik bir iş

olub. Bu qəribə haldır. Bu doğrudan da tarixi bir hadisədir. Bu, tarixdə qalacaq.

## *Beynəlxalq təşkilatların və dövlətlərin sükutu*

Üçüncü cəhət beynəlxalq təşkilatların və dövlətlərin sükutudur. Bu hadisələr insan hüquqlarına bu qədər aşiq olan, ürəkləri insan hüquqları üçün bu qədər yanan bu avropalı cənabların gözləri qarşısında baş verir, lakin çox yerdə sükut edirlər, çox yerdə zalım tərəfə kömək edirlər. Doğrudan da təəccüblüdür. Amerika heç, Amerikanın özü cinayətin şərikidir. Amerika hökumətlərinin qolu dirsəyə qədər fələstinlilərin qanına batmışdır. Əgər bir məhkəmə fələstinlilər barəsində hökm çıxarmalı olsa, bu məhkəmənin müttəhimi təkcə Şaron və sionistlər olmayacaq, həm də Amerika, Buş, Buşun dəstəsi və Amerika hökumətləri olacaq. Bunlar da ittihamın birinci sırasındadırlar. Amma onlar heç, söhbət beynəlxalq təşkilatlardan gedir, Birləşmiş Millətlər Təşkilatından gedir, insan hüquqlarından bu qədər dəm vuran, lakin insan hüquqlarını həqiqətən tanımayan və onlara əsla hörmət etməyən Avropa dövlətlərindən gedir. Əlbəttə, bu məsələ digər dövlətlərin də məsələsidir; müsəlman dövlətlərin. Bunların sükutu doğrudan da təəccübləndiricidir.

## *Fələstin məsələsi - iyirminci əsrin böyük ləkəsi*

Əvvəldə deməliyik ki, Fələstin məsələsi bitməkdə olan bu əsrin böyük ləkələrindən biridir. Əlbəttə, bu əsrin rüsvayçılıq ləkələri bunlardan artıqdır: bu əsrdə iki böyük müharibə baş vermişdir. Bu əsrdə dünyada dünənki müstəmləkəçilərin əli ilə nə qədər hökumətlər vücuda gəldi; o cümlədən bizim ölkəmiz. Kobud, qəddar, qeyri-insani, fəsadlı və asılı Pəhləvi hökuməti bu əsrdə vücuda gəldi. Lakin bu əsrdə bizim üçün qarşıya çıxan pisliklər arasında - əlbəttə, bunların yanında bu əsrdə yaxşı işlər də baş vermişdir; indi mövzu bunlar deyil - onların ən çirkinlərindən biri, bəlkə də demək olar ki, ən çirkini Fələstin məsələsi idi. Nə üçün? Çünki bu məsələdə bir xalqı öz ölkəsindən qovdular. Mən xahiş edirəm ki, Fələstin məsələsi ilə çox tanış olmayan gənclər bu sözlər üzərində diqqətlə düşünsünlər. Bir xalqı öz evindən və ölkəsindən qovub onların yerinə dünyanın müxtəlif yerlərindən bir qrup insan

gətirdilər. Nə üçün? Çünki dünyanın müxtəlif yerlərindən toplanılan həmin insanlar bir irqdəndirlər: İsrail irqindən, yəhudi irqindən; yəni çirkin irqçi bir hərəkət! Dünyanın harasında və kimin vasitəsi ilə çox kiçik miqyasda belə bir hal baş versəydi, eyib və rüsvayçılıq səbəbi olardı, amma bunu bir ölkə səviyyəsində vücuda gətirdilər. Kim vücuda gətirdi? Əslində İngiltərə və sonra da Amerika.

## *Qəzzə cinayətləri*

Digər tərəfdən tarixi Qəzzə hadisəsində sionist cinayətkarların törətdiyi cinayətlər - mülki əhalinin kütləvi qırğını, müdafiəsiz evləri dağıtmaq, südəmər körpələrin sinəsini deşmək, ibtidai məktəbi və məscidi bombalamaq, fosfor bombaları və digər qadağan olunmuş silahları işlətmək, yeməyin, dərmanın, yanacağın və xalqın digər zəruri ehtiyaclarının yolunu iki ilə yaxın bir müddətdə bağlamaq və digər çoxlu cinayətlər sübut etdi ki, qondarma sionizm dövlətinin başçılarında olan vəhşilik və cinayət hissi Fələstin faciəsinin ilk onillikləri ilə əsla fərqlənməmişdir. Deyr-Yasin, Səbra və Şətila faciələrini yaradan həmin yırtıcılıq və rəhmsizlik xisləti və həmin siyasət bu gün də eynilə dövrün bu tağutlarının zülmət zehninə və qəlbinə hakimdir və əlbəttə, bu gün texnologiyanın inkişafı sayəsində cinayət dairəsi çox genişlənmiş və daha faciəli olmuşdur.

## *İlahi hidayət - Qəzzə xalqının müqavimət amili*

Əgər Fələstin xalqının bu əzəmətli müqaviməti olmasaydı, son illərdə Fələstinin mövqeyinin güclənməsi və müqavimətin inkişafı mümkün olmazdı. Doğrudan da Fələstin xalqı, Qəzzə xalqı tarixdə öz adlarını ən müqavimətli xalq kimi əbədiləşdirdilər.

İntifazələrin başlandığı və həqiqi müqavimətin formalaşdığı son bir neçə il ərzində Fələstin xalqının gördüyü iş möhtəşəm olmuşdur. Bu, ilahi hidayətdən və Allahın yardımından başqa bir şey deyil. İnsan Qəzzədə bu qədər müsibəti, bu qədər acılığı, bu qədət təzyiqi - istər müharibənin olduğu iyirmi iki gün ərzində, istərsə də ondan sonra bu günə qədər xalqın bir-birinin ardınca gələn fəlakətlərlə üzləşdiyini görür, amma bu xalq dağ kimi dayanmışdır. Bu çox əzəmətli bir həqiqətdir. Bunu görməzdən gəlmək olmaz.

## *Qəzzənin yenidən qurulması - Fələstinin ən təcili məsələlərindən biri*

İndi Qəzzənin yenidən qurulması məsələsi Fələstinin ən təcili işlərindən biridir. Fələstinlilərin böyük əksəriyyəti tərəfindən seçilən və sionizm rejimini nakam qoymaqda müqavimət qəhrəmanlığı Fələstinin son yüzillik tarixində ən parlaq nöqtə olan Həmas hökuməti yenidənqurmaya dair bütün fəaliyyətlərin mərkəzi olmalıdır. Yaxşı olar ki, misirli qardaşlar yardım yolunu açıb müsəlman ölkələrin və xalqların bu mühüm məsələ qarşısındakı vəzifələrinə əməl etmələrinə imkan yaratsınlar.

## *Hizbullaha məğlub olmanın intiqamı: Fələstinə hücum və təfriqə yaratmaq*

(İsrailin otuz üç günlük müharibədə Hizbullahın qələbəsindən sonra) gördüyü işlərdən biri Fələstin məsələləridir. Fələstində baş verənlər bir qədər də İsrailin Livan hadisəsində rüsvayçılığını düzəltməkdən ötrüdür. Bu təzyiqlərin mühüm bir hissəsi - Fələstində xalqın bu gündəlik qırğını, istər şərq sahillərdə, istər Qəzzədə müxtəlif bölgələrə bu hücum o rüsvayçılığı düzəltməyə görədir. Onlar Həmas hökumətini devirmək istəyirlər. Mənim burada fələstinli qardaşların diqqətini yönəltmək istədiyim və ərəbcə çıxışda da qeyd olunan məqam budur ki, biz, Fələstin xalqı və bütün müsəlman xalqlar diqqətli olmalıyıq ki, "işğalçı əleyhinə xalq" reallığını "xalq əleyhinə xalq"a çevirməsinlər. Düşmən buna çalışır: fələstinlilər qarşısında fələstinlilər, İraqda da iraqlılar qarşısında iraqlılar. Hamı bundan ehtiyatlı olmalıdır. Bu gün birlik Fələstin xalqının ən mühüm ehtiyacıdır; dünyanın digər bölgələri kimi.

## *İsrailin cinayəti və diktatorluğu*

Xarici sahədə bizim ən mühüm məsələmiz Fələstindir. Fələstin məsələsi təkcə bir xalqın məsələsi deyil, beynəlxalq diktatura hakimiyyəti və güc hakimiyyəti məsələsidir. Siz görün bu gün Fələstin ərazilərində nə baş verir. Bu gün biz Fələstində ən qanlı hadisələrin şahidi oluruq. İşğalçı və qondarma İsrail dövləti özünün hərbi qüvvəsi ilə, tank, təyyarə, özünün rəhmsizlik alovu və zülmü ilə Fələstin şəhərlərini mühasirəyə almışdır. Bir-bir bu şəhərlərə

daxil olur, xalqı qətliam edir, evləri uçurur; bir gün Ramallah, bir gün Nablos, bir gün Cənin, bu gün də əl-Xəlil və digər şəhərlər. Bu şəhərlərdə vücuda gələn faciələr vəsfəgəlməzdir; hərbi qüvvə bir şəhərə daxil olub qadını, kişini və uşağı tutur, öldürür, yaxud yaralayır. Bu gün bu şəhərlərdə on min yaralı və minlərlə şəhid vardır. Minlərlə gənci evlərindən oğurlayıb naməlum yerlərə aparmışlar və saysız-hesabsız evləri uçurmuşlar. Eşitdim ki, Cənin şəhərində evlərin yetmiş faizi dağıdılmışdır. Tanklar gəlib bir şəhərin yetmiş faiz evlərini dağıdırlar. Bu cinayətlər bəşəriyyətin gözü qarşısında baş verir.

Bu işlərin mənası nədir? Bu işlərin mənası odur ki, heç bir bəşəri, insani, dini və ilahi qanunu saymayan zalım bir dövlət tamahlara və özünün bir neç onillik zülmünü davam etdirməyə görə bu faciələri törədir. Amerika kimi bir dövlət də tam və yüzfaizli şəkildə onu himayə edir, bütün insan hüquqları şüarlarını, xalqları, demokratiyanı, azadlığı və hər bir şeyi müdafiə şüarlarını unudur. Dünyanın vicdanı hərəkətə gəldi, amma Amerikanın və Ağ evin başçılarının vicdanı azca da tərpənmədi.

## *Cinayətlərdə İsrailin məqsədi*

Bunlar dünya üçün iki şey müəyyən etmək istəyirlər: biri budur ki, bu xərçəng vəzisi nəyin bahasına olursa olsun, qalmalıdır; ikincisi isə, dünyaya demək və başa salmaq istəyirlər ki, siz bu gün hegemonluqla üz-üzəsiniz. Biz hegemonluq etmək istəyirik, kim nə demək istəyirsə, desin. Yəni dünya xalqını qane etmək istəyirlər ki, Amerikanın süngü və hərbi gücü qarşısında heç bir söz və heç bir hərəkət heç bir işə qadir deyil.

Əlbəttə, indiyədək məğlub olmuşlar və bütün bu qüdrətli çıxışlara rəğmən, öz məqsədlərinə çatmamışlar. Nə üçün? Çünki Fələstin təslim olmamışdır. Onlar təzyiqlə, qırğınla, rəhmsizliklə və bütün insani əlamətləri tapdamaqla Fələstin xalqını təslimə vadar etmək, bu xalqın qolubağlı şəkildə onların boyunduruğu altına girməsini və özünün haqlı istəklərindən əl çəkməsini istəyirlər. Amma indiyədək bacarmayıblar. Amerika və İsrailin təsəvvürünün əksinə olaraq, təsirli olan bu güc və zorakılıq deyil, insanların bütün məsələlərdə son sözü deyən iradə və imanlarının qüvvəsidir. Bu məsələdə də belə olacaq.

## *Fələstin cinayəti - bənzəri az olan insani faciə*

Bu gün Fələstin ölkəsinin fələstinlilər yaşayan torpaqlarında baş verən hadisə misli az olan bir insani faciədir. Fələstin tarixi boyunca da biz bunun belə şiddətli, belə qəddar və belə daşürəkli bənzərini görməmişik. Fələstində baş verən cinayətlər həqiqətən dəhşətlidir. Qondarma sionizm dövləti hərbi imkanlarla, tankla, əsgərlə - eşitmişəm ki, təxminən otuz min qüvvə və yüzlərlə tank yeritmişlər - şəhərlərə və xiyabanlara girir və faciə törədirlər. Ramallah, Nablos, Qəzzə, Xan Yunis, Beytülləhm, Rəfəh şəhərləri və fələstinlilər yaşayan digər bölgələr bu müsibətə düçar olmuşlar. Elə bir iş görürlər ki, biz özümüzə yaxın dövrlərdə bu işin belə şiddətli və qəddarlı bənzərini heç bir yerdə görməmişik; istər bu şəhərlərdə, istər düşərgələrdə evləri dağıdırlar, tank və buldozerlə fələstinlilərin kiçik evlərinin canına düşürlər, ailələri didərgin salırlar. Qarşılarına çıxan kişi və qadını öldürür və heç nədən çəkinmirlər. Eşitmişəm ki, on üç yaşdan əlli yaşa qədər gəncləri və kişiləri tuturlar. Bu ailələrin kişilərinin çoxunu, xüsusən də gənc və yeniyetmələri tutub yeri bəlli olmayan bölgələrə aparmışlar. Bu dustaqxanaların daxilindən bayıra sızan və dünya mətbuatında dərc olunan xəbərlər göstərir ki, bunlara işgəncə də verirlər, hətta bu zindanların içində də qollarını bağlayırlar. Beytülləhmdə məscid və kilsələrə hücum edir, yaralılara təcili tibbi yardım, ərzaq və dərman çatdırmağa mane olurlar. Söylənilənlərə əsasən, hətta təcili yardım maşınlarını da atəşə tuturlar və bu hadisələrin yaralılarının çoxu qanaxma və dərmansızlıq səbəbindən həlak olub şəhadətə qovuşmuşlar. Hətta xəstəxanalara və apteklərə də hücum edirlər. Qida məhsullarının olduğu mərkəzləri və mağazaları qarət edirlər. Ramallahda və bəzi şəhərlərdə əhali öz evlərindən bayıra çıxmağa cürət etmir. Qadınlar, uşaqlar, didərgin düşmüş bu ailələr və evləri söküldüyündən qohumlarının və digərlərinin evinə getməyə məcbur olanlar Allah bilir ki, hansı müsibət və çətinlikdə yaşayırlar. Bu şəhərlərin bəzilərində suyu və elektrik enerjisini kəsiblər. Həyasızlığı elə bir həddə çatdırıblar ki, Ramallah şəhərində muxtar hökumətinin rəisinin iqamətgahına hücum edib, oranı da tutmuşlar; yəni özlərinin rəsmən tanıdıqları, müqavilə bağladıqları və imza etdikləri hökuməti. Qısası, qəribə vəziyyət yaratmış və dünyanın səsini çıxartmışlar.

## *Bütün azadfikirli insanların İsrailin 2002-ci ildəki cinayətlərinə etirazı*

Sionistlərdən utandıqlarına görə sionizm dövləti əleyhinə bir söz demək istəməyən siyasətçilər bu gün açıq şəkildə etiraz edirlər. Müsəlman xalqlar hər yerdə qəzəblənib coşmuşlar. Əgər hökumətləri müsəlman xalqların və ərəb xalqlarının önünü almasaydı, o zaman bu bir milyard müsəlmanın nə edəcəyinə və nə edə biləcəyinə baxaydılar! Məsələ burasındadır ki, qaniçənliyin, vəhşiliyin, yırtıcılığın və bütün bəşəri meyarlara, insan haqlarına və bəşəri dəyərlərə etinasızlığın simvolu - yəni sionist hərbçilər bir tərəfdə, qəhrəmancasına və məzlumcasına müqavimətin somvolu olan məzlum Fələstin xalqı da digər tərəfdə qarşı-qarşıya dayanmışlar. Mən dünyanın vicdanını hakimliyə dəvət edirəm. Siyasi təhlil, çıxış yolu və tövsiyə kimi deyilən bütün sözlər bu həqiqətin qarşısında əfsanə və xəyaldır. Həqiqət budur ki, bir xalq öz evində təhqir olunur, tutulur, öldürülür, övladı alınır, canının, malının və evinin təhlükəsizliyi həmin torpaqları işğal edənlərin vasitəsi ilə təhdid olunur. İndi dünya vicdanı hökm etsin; burada haqlı kimdir və insanların vəzifəsi nədir? Bizim başqa heç bir şeyə ehtiyacımız yoxdur. Bu reallığı öz önlərinə qoyub hansı hadisənin baş verməkdə olduğunu görsünlər. İşin əvvəlində - əlli dörd il öncə bu sionistlər iş başına gələndə dünyanın bunların törətdiyi faciələri anlamasına imkan vermədilər. Amma bu gün dünya görür. Düzdür, televiziya və kameralar həqiqəti göstərməyə qadir deyillər. Həqiqətin yalnız bir hissəsini - həqiqətdən bir təsvir və kölgəni göstərirlər. Həqiqət bunlardan daha artıq və olduqca acıdır. Reallığı dünyada bəzi yerlərdə yayımlanan bu televiziya filmlərindən mühakimə yürütsünlər. Əlbəttə, kütləvi informasiya vasitələrinin və media qurumlarının çoxu sionistlərin əlində, yaxud onların təsiri altında və onlara məxsusdur. Onlar həqiqətləri işıqlandırmağa qoymurlar, lakin insanlar axtarırlar, dünya xalqları axtarırlar. Bu, hadisənin həqiqətidir. Bu, bu günlərdə baş verən məsələdir, keçmişə aid deyil, mənim və sizin burada söhbət etdiyimiz zamana aiddir.

## *Kilsəyə hücum cinayəti*

Kilsələrə hücum etmişlər. Yaxşı, dünya məsihiləri ən azı ötən günlərdə özünün ibadət mərasimini icra edərkən öldürülən məsihi

keşişini müdafiə etsinlər! O, Beytülləhmdə kilsənin mühasirəsində və sionistlərin kilsəyə hücumu zamanı o kilsəyə sığınmış insanların gözü qarşısında can verdi. Burada məsələ İslam məsələsi deyil, bəşər məsələsidir, insan məsələsidir. Burada mühakimə meyarı insan olmaqdır, insani dəyərləri anlamaqdır. Yaxşı, bu da həqiqət. Əlbəttə, Avropada və qeyri-Avropada bəzi dövlətlər mövqe bildirmişlər. Bu mövqe zəif olsa da, hər halda İsrailə qarşı yüngül qaşqabaqdır.

## *Qərbin İsrailin cinayətlərini tam dəstəkləməsi*

Əlbəttə, Amerika və çoxlu Qərb ölkələri İsraili tam və aşkar şəkildə dəstəkləyirlər, beynəlxalq protokolları ayaq altına atırlar və növbəti dəfə bütün dünyaya sübut olunur ki, böyük güclərin beynəlxalq müqavilə və təşkilatlara baxışı bir alət baxışıdır. Onlar bu müqavilələrdən və bu beynəlxalq təşkilatlardan yalnız öz maraqları və məqsədləri istiqamətində istifadə edirlər, sözügedən müqavilə və təşkilatlara hörmət etmirlər. Şübhəsiz, İsrail böyük güclərin iqtisadi, siyasi, təbliğat və media dəstəyi olmadan bu gün ayaqda qala bilməzdi və heç zaman qala bilməz. Bu məsələdə cinayətkar təkcə İsrail deyil, birinci növbədə Amerika da İsrailin bütün faciələrinə şərikdir.

Qərb və Qərb qüvvələri sionizmin xərçəng vəzisinin bu regionda yarandığı zamandan onunla qarşılıqlı münasibətdə olmuşlar. İsrailin vəzifəsi İslam regionunda təcavüzkar Qərb qüvvələrinin maraqlarını qorumaq olmuşdur; yəni İslam və region ölkələri qarşısında daim aktual bir təhdid yaratsınlar. İslam ölkələrini daimi bir nigarançılıqda saxlasınlar ki, bir-biri ilə birləşib həmrəy və eyni istiqamətli bir toplum vücuda gətirə, öz imkanlarından, sərvətlərindən və insani resurslarından maraqları üçün istifadə edə bilməsinlər. Qarşılıqlı olaraq onların da vəzifəsi bu xərçəng vəzisini bütün vücudu ilə bu regionda saxlamaq olmuşdur. Əlbəttə, bu gün bu rol hamıdan daha çox Amerikanın öhdəsinə düşür.

## *Əqsa məscidinə təhqir*

Müsəlmanların qibləsi olan Əqsa məscidini təhdid etdilər. İllər öncə bir gün onu odladılar, sonra da orada guya qazıntılara başlamışlar; qanunsuz işlər görürlər və müsəlmanların qibləsi olan Əqsa məscidini ümumiyyətlə İslam formasından çıxarmaq istəyirlər.

## *Əl-Xəlildə oruc və namaz qılan insanların qırğını və beynəlxalq təşkilatların sükutu*

Sionist düşmənin şərafətli İbrahim hərəminə hücumu faciəsi o qədər böyük və dərdlidir ki, onun barəsində bir neçə cümlə ilə layiqincə danışmaq olmaz. Bizim fikrimizcə işğalçı dövlət bu faciəyə görə birbaşa məsuliyyət daşıyır. İşğalçı dövlətin himayədarları da bu hadisə üçün məsuliyyət daşıyırlar. İşğalçı dövlətin himayədarlarının başında duran Amerika uzun illər boyunca həmişə və hər yerdə sionistləri müdafiə etmişdir; harada sionsitlər üçün problem yaranmışsa, Amerika cəld sinəsini sipər etmişdir. Amerikalı yəhudilər və böyük biznesmenlər dünyada Amerika qüdrətinin, pulunun və siyasi nüfuzunun vasitəsi ilə İslam xalqlarının ürəyində vücuda gəlmiş bu xərçəng vəzisi üçün istədikləri hər bir işi gördülər. Son hadisədə məgər bunlar müqəssir və məsuliyyətli deyillər?! Şübhəsiz, müqəssirdilər. Necə ki, İsrailin digər müttəfiqləri və yardımçıları da məsuliyyət daşıyırlar. Bu hadisəni layiqincə işıqlandırmayan dünya mediası da məsuliyyət daşıyır. İnsan hüquqları təşkilatları, xüsusən də Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Komitəsi məsuliyyət daşıyır.

Dünyada müxtəlif adlarla mövcud olan kiçik və böyük təşkilatlar pusqu qurublar ki, dünyanın bir küncündə, Amerika ilə yaxşı münasibətdə olmayan bir ölkədə bir problem tapılsa, tez "insan hüquqları pozuldu" - deyə şeypurlarını üfürsünlər. Onlar indi nə üçün səslərini batırıblar?! Xəbis işğalçı dövlət və insan düşməni olan sionistlər yüzlərlə fələstinlini səcdə halında və oruc ağızla qana boyayır; onlarla insanı öldürür, yüzlərlə insanı yaralayır, sonra da ürəyi yanmış dağlı və qəzəbli xalq küçədə yumruqlarını düyünləyəndə israilli əsgərlər bir-bir xalqın övladlarını hədəf seçir və məhv edirlər. Lakin insan hüquqlarının keçikçisi olan təşkilatlar səslərini batırıb heç bir söz demirlər. Maksimum deyilir ki, filan təşkilat məhkum etmişdir. "Məhkum etmişdir" nə deməkdir? Məhkumluq barəsində bir kəlmə sözün deyilməsi fələstinlilərin hansı işinə yarayır?! İnsan hüquqlarının iddiaçısı olan təşkilatlar əgər doğru deyirdilərsə, hamılıqla qiyam etməli idilər, dünyada fəryad ucaltmalı, İsrail dövlətini mühasirə etməli idilər, İsrailin himayədarlarına ultumatım verib təhdid etməli idilər ki, bu qaniçən, fasiq və cinayətkar dövlətə kömək etməyə haqqınız yoxdur. Amma

bu işlərin heç biri görülmədi. Ərəb hökumətləri də təəssüf ki, güzəştə getdilər. Müzakirələri tam şəkildə və doğrudan da kəsmədilər heç, hətta ümumi matəm də elan etmədilər. Həqiqətən çox səhlənkarlıq və təqsirkarlıq etdilər.

Sionistlərin işğal olunmuş əl-Xəlil şəhərində namaz qılanlara qarşı onlarla ölü və yüzlərlə insanın yaralanmasına səbəb olan qəddar hücumu spesifik olaraq sionistlərin zülm və təəssübkeşlik əlinin həmişə vücuda gətirdiyi və Fələstinin işğalçılarının qəddarlığı və xəbisliyi ilə münasib olan nümunə cinayətlərdən biridir. Bu dərdli faciə sionistlərin işğal dövrü boyunca digər kütləvi qırğınlarını xatırladır; bu fərqlə ki, bu gün bu böyük cinayət bütün dünya xalqının gözü qarşısında baş verir. Fələstinlilərin evlərində onların başına gələnlərə etinasız yanaşan vicdanlar bu hadisədən oyanacaqlarmı? İşğalçı düşmənlə yalançı sülh iddiaçıları öz səhvlərini dərk edəcəklərmi? İllərdir Fələstində bir xalqın ən böyük hüquq pozuntusunu görməzliyə vurub insan hüquqlarını iddia edən təşkilatlar və dövlətlər bu dəfə özlərinin xəcalətli sükutuna son verəcək və özlərinin keçmişdəki günahlarını etiraf edəcəklərmi? Amerika dövləti Fələstin günahsızlarının qanına şərik olduğunu qəbul edəcəkmi? Çünki o həmişə sionizm dövlətini qeyd-şərtsiz müdafiə etmişdir. Yoxsa bu dəfədəmi hamı bu dəhşətli hadisənin yanından ona diqqət yetirmədən və ibrətamiz mənasını anlamadan ötəcəklər?

### *Əl-Xəlil məscidində cinayət və beynəlxalq orqanların səhlənkarlığı*

İkinci hadisə İbrahim hərəminin qanlı faciəsidir. Bu macərada İsrail kəskin şəkildə məhkum edilməli idi. O mühakimə edilməli və cəzasını çəkməyə məcbur edilməli idi. Bu işləri Birləşmiş Millətlər Təşkilatı görməli idi, amma görmədi. Təhlükəsizlik Şurası da bu hadisədə öz vəzifəsinə əsla əməl etməmişdir.

Səbəbi nədə görürük? Böyük qüdrətlərin və ilk növbədə Amerikanın Təhlükəsizlik Şurasına və baş katibin özünə təsirində. Bu, İslam Respublikası quruluşunun və İran xalqının fikridir. Bizim heç kimlə xüsusi düşmənliyimiz yoxdur. Biz beynəlxalq rəsmilərə məqam və mövqelərinə görə hörmət edirik. Birləşmiş Millətlər Təşkilatının qabaqkı baş katibi dəfələrlə İrana gəldi. O zaman

prezident, parlamentin sədri və Xarici İşlər Nazirliyinin məsul şəxsləri ona hörmət etdilər. Əgər baş katib öz vəzifələrinə əməl etsə, biz ona hörmət edərik. Amma bizim və İran xalqının fikrinə görə Birləşmiş Millətlər Təşkilatının indiki baş katibi öz vəzifəsinə əməl etməmişdir. Birləşmiş Millət Təşkilatının dırnaqarası İnsan Hüquqları Komitəsinin etdiyi bu son çirkin hərəkət və rüsvayçılıqla İslam Respublikasını ittiham etməsi bu qəbildəndir. Gözlərinin önündə israillilər yüzlərlə namaz qılan müsəlmanı qana boyayır, yetmiş nəfərdən artıq insan öldürür, amma onları məhkum etmirlər.

## *Müsəlman hökumətlərin və xalqların əl-Xəlil cinayətlərinə dair vəzifəsi*

Müsəlman hökumətlərin və xalqların üzərinə də böyük məsuliyyət düşür. Müsəlman hökumətlərin bacardığı ən az iş budur ki, qatilləri və onların sionist ordusundakı həmkarlarını şəriət qisasının icrası üçün müsəlman fələstinlilərə təhvil verilməsini və o ordunun komandanlarının işdən çıxarılmasını tələb etsinlər. Əlbəttə, yeganə son çarə işğalçı sionistlərdən əl çəkib Fələstini hər hansı bir məzhəbdən və hər hansı bir xalqdan olan fələstinlilərə təhvil verməkdir? Mən məzlum Fələstin xalqına, xüsusən də bu hadisənin şəhidlərinin yaxınlarına başsağlığı verir və Allah-Taaladan ölənlərə bağış, oruc yaralılara şəfa, müsəlmanların halının islahını, Fələstin məsələsinin ədalətli həllini diləyirəm və hamıdan istəyirəm ki, bu məsələni özlərinin bütün gücləri ilə izləsinlər.

## *Fələstin xalqına qarşı zülm və cinayət*

Ümümdünya Qüds Günü məzlum Fələstin xalqını dəstəkləməkdən və müdafiə etməkdən ibarət olan ciddi vəzifəni növbəti dəfə və həmişəkindən artıq təkidlə dünyanın qeyrətli müsəlmanlarına xatırladır. İndi Avropada xalqlar İkinci Dünya Müharibəsindən irəli gələn əsarətli razılaşmaları pozduğu və özlərinin bugünkü milli iradəsini və hakimiyyət haqqını dünənki qalib qüvvələrin istəyindən öndə saydığı halda, Fələstin xalqı günbəgün işğalçılar və həm də onların rəsmi və qeyri-rəsmi himayədarları tərəfindən daha artıq təzyiqə, zülmə və təcavüzə məruz qalır. Mübarək ramazan ayının bu günlərində Fələstinin oruc əhalisi öz evində işğalçı düşmən tərəfindən müxtəlif çətinliklər

çəkirlər. İşğal olunmuş ərazidə xiyabanlar fələstinli gənclərin qanına boyanıb, zindanlar onlarla dolmuşdur və Qərb dövlətləri - demokratiya və insan hüquqlarının bu yalançı iddiaçıları nəinki ən az etiraz belə etmirlər, hətta bəzən təcavüzkar işğalçını himayə edir və həvəsləndirirlər də.

Çox əhəmiyyətli və dəhşətli olan son hadisə - yəni Sovet yəhudilərinin Fələstinə kütləvi və ardıcıl köçürülməsi Fələstin məsələsinə yeni cəhətlər verir, Amerika və SSRİ-nin gizli razılaşmalarında bu məsələnin əhəmiyyətini göstərir.

## *Əqsa məscidində namaz qılanlara hücum cinayəti*

Fələstini işğal edən cinayətkar rejim növbəti dəfə öz rəhmsizliyinə və heyvanlığına müqəddəslərə təcavüzlə, Əqsa məscidinin pak mühitini bulaşdırmaqla və müsəlmanları öldürməklə başladı; namaz qılanları qana boyadı, azyaşlı övladı atanın qucağında, qolları üzərində atəşə tutdu və şəhid etdi; əlliillik vəhşilik və quldurluq səhnələrini yenidən təkrarladı. Onun xam xəyalı azadlıq cihadı şöləsini, haqlı və yorulmaz mübarizələr şöləsini söndürmək, rüsvayçı sülh prosesini intensivləşdirmək, sazişçiləri özünün məqsəd və tamahlarına daha artıq məcbur etməkdir. Lakin keçmişdə olduğu kimi, bu dəfə də bu dəhşətli cinayətdən faydalanmayacaq, onun mənfur planları və şeytani xəyalları puça çıxacaq.

Bu antibəşəri və ədavətli quldurluğun ardınca təlatümlü etiraz dalğaları Fələstin xalqını, müsəlmanları və mübarizləri əhatə etmiş, İslam ölkələrinin hər bir yerində xalq və tələbələr nümayişlər keçirmiş, intifazə yenidən canlanmış və İslam cihadının yolu daha qələbəlik olmuşdur. Bu gün ayıq-sayıq müsəlmanlar geniş və izdihamlı nümayişlərdə haqlı şüarlar verib İslam ölkələrinin məsul şəxslərindən istəyirlər ki, cihad yolunu açsınlar, müsəlmanların yeganə çıxış yolu kimi bu mühüm vəzifəyə əməl etməsinə, işğalçıları işğal olunmuş torpaqlardan qovmasına icazə versinlər və fələstinlilər öz torpaqlarına və evlərinə qayıtsınlar.

Bu gün işğalçı hakimlərin məhkum edilməsi dalğası daha da genişlənmiş, sülh prosesi rövnəqdən düşmüşdür; onun nəticəsiz olması hər gün hamıya daha da aydınlaşır.

## *Fələstinlilərin öz evlərində təhqir olunması*

Bu gün İslam dünyasında böyük problemlər mövcuddur. Bütün dünya müsəlmanları məsuliyyət daşıyırlar. Bütün İslam dünyasında hökumətlər, alimlər, ziyalılar, universitet mənsubları, sənət adamları və bütün nüfuzlu şəxslər daha artıq məsuliyyət daşıyırlar. Bu gün bəzi böyük dövlətlər beynəlxalq quldur kimi öz hədlərini aşır, öz siyasətlərini icra etmək üçün heç bir zorakılıqdan çəkinmirlər. Azad yaşamaq və istismarçıların əlini öz milli maraqlarının geniş süfrəsindən kəsmək istəyən xalqların əleyhinə hərbi, siyasi və informasiya təzyiqi göstərirlər. Bu gün Fələstin faciəsi çirkinliyin və dəhşətin zirvəsindədir. Bu gün məzlum Fələstin xalqı heç bir cinayət törətmədən, yalnız öz evində və vətənində azad yaşamaq və təhqir olunmamaq istədiyinə görə terrorçu adlandırılır. Bu, böyük tarixi zülmlərdən biridir. Fələstin xalqı öz evində işğalçıları müşahidə edir; onun həyatı talanmışdır, evi ondan alınmışdır, sərvət qaynaqları düşmənlərinin ixtiyarındadır. Bunlardan əlavə, öz evində, şəhərində və yurdunda onu təhqir edirlər. Əgər Fələstində müsəlman gənc cümə namazına getmək istəsə, onu başdan-ayağa yoxlayırlar, təhqir edirlər, ona hörmətsizlik göstərirlər və cümə namazına getməyə qoymurlar. Əgər xiyabanda müsəlman bir gəncdən, kişidən və qadından azca şübhələnsələr, onu evində təhqir edirlər. Əgər bir söz desələr, yaxud bir tərəfdən onların qəzəb şöləsi ucalsa, heç bir maneəsiz döyüş sursatlarını küçə və xiyabanlara gətirir və tankla evlərini dağıdırlar.

## *İsrailin Fələstin əleyhinə cinayətləri*

Fələstin xalqı çətinlikdə yaşayır; xalqın evlərini dağıdırlar, xalqın tarla və bağlarını məhv edirlər, gənclərdən iş imkanını alırlar. Onların işgüzar kişilərini həbs, cəmiyyətlərini qətliam edirlər, hətta uşaqlarını da öz zülm xəncərlərindən keçirirlər. Bu gün Fələstin xalqına qarşı öz torpağında tarixdə misli az olan işlər görülür.

Məzlum, adamsız və blokadada qalmış Fələstin xalqı bütün qüvvəsi ilə İslamın adı və ucalmış bayrağı sayəsində özünü müdafiə edir, zalım və işğalçıların qarşısında dayanır və dayanmışdır. Biz Tehranın bu möhtəşəm Fitr bayramı namazından və bütün İran xalqı tərəfindən Fələstin xalqını, gənclərini, yeniyetmələrini, qadınlarını, analarını, o şücaətli və mömin qəlbləri salamlayırıq. Onlar bu

bölgədə - İslam dünyasının ön sırasında düşmənlər və təcavüzkarlar qarşısında canları, əzizləri və bütün vücudları ilə dayanmışlar.

## *Qəzzə cinayətlərində sionistlərin rəhmsizliyi və daşürəkliliyi*

Böyük İslam ümməti! Əziz İran xalqı!

Bu günlərdə baş verən qanlı Qəzzə hadisələri elə faciəli və dərdlidir ki, ondan irəli gələn ağır qəmi dil və qələmlə bəyan etmək mümkün deyil. Günahsız uşaqlar, məzlum qadın və kişilər aylarla tam blokadadan sonra indi öz elvərində və yuvalarında rəhmsiz və daşürəkli sionistlər tərəfindən qana boyanırlar. Növrəs qönçələr ata və ananın gözü qarşısında, ata və analar məsum uşaqların qarşısında işğalçı cəlladların ədavət alovunda yanırlar. Mədəniyyət və humanizm iddiaçıları çox həyasız şəkildə soyuqqanlılıqla və laqeydliklə bu əzəmətli insan faciəsinə tamaşa edirlər. Hətta bəziləri utanmadan buna razılıq bildirirlər. İslam dünyasının bənzəri az olan bu təcavüz qarşısında sükutu əsla qəbuledilməzdir.

Mən Qəzzə əhalisini, məzlum və müqavimətli kişi və qadınları, məsum körpələri və ləçək-ləçək olmuş qönçələri salamlayıram. Onlara Allahdan dözüm, qurtuluş və qələbə istəyirəm.

## *"Biz Allahınıq və Ona tərəf qayıdacağıq!"*

Sionizm rejiminin Qəzzədə dəhşətli cinayəti və yüzlərlə məzlum kişinin, qadının və uşağın qətliam edilməsi sionist canavarların qaniçən simasını son illərin hiylə pərdəsi arxasından yenidən çıxartdı və bu hərbi kafirin İslam ümmətinin torpaqlarının qəlbindəki təhlükəsini qafil və biganə insanların yadına saldı.

Bu dəhşətli hadisənin faciəsi hər bir müsəlman və hətta dünyanın hər hansı bir nöqtəsində olan hər bir vicdanlı və şərəfli insan üçün çox ağır və üzücüdür. Lakin daha böyük faciə bəzi ərəb və müsəlmanlıq iddiasında olan hökumətlərin həvəsləndirici sükutudur. İşğalçı, kafir və müharibə edən rejim qarşısında məzlum Qəzzə xalqını müdafiə etməli olan müsəlman hökumətlərin, cinayətkar sionist rəsmilərinin onları həyasızcasına bu böyük faciələrə razı və müvafiq adlandırmalarına səbəb olan rəftar göstərmələrindən daha böyük müsibət ola bilərmi?!

Bu ölkələrin başçılarının Allah rəsulu (s) qarşısında cavabları nə olacaq? Mütləq bu faciəyə əza saxlayan öz xalqlarına cavabları nə olacaq? Şübhəsiz, bu gün Misir, İordaniya və digər İslam ölkələrinin xalqlarının qəlbi bu uzunmüddətli ərzaq və dərman blokadasından sonra bu qırğına görə qanla dolmuşdur.

Cinayətkar Buş hökuməti özünün mənfur hökmranlığının son günlərində bu böyük cinayətdə əlbir olmaqla Amerika rejimini əvvəlkindən daha üzüqara etdi və müharibə cinayətkarı kimi özünün cinayətlər qovluğunu daha da qalınlaşdırdı. Avropa hökumətləri laqeydliklə və bəlkə də bu böyük faciəyə öz razılıqları ilə bir daha insan hüquqlarını müdafiə iddialarının yalan olduğunu sübut etdilər və özlərinin İslam və müsəlmanlarla düşmən cəbhədə iştirakını göstərdilər. İndi mənim ərəb dünyasının alim və ruhanilərinə və Misirin əl-Əzhər başçılarına sualım budur ki, İslam və müsəlmanlar üçün təhlükə hiss etmənizin vaxtı çatmayıbmı?! Hələ zamanı çatmayıbmı, pis işlərdən çəkindirməkdən ibarət olan vacib əmələ və zalım rəhbər yanında haqq sözü demək vəzifəsinə əməl edəsiniz?!

Hərbi kafirlərin müsəlmanları əzmək üçün ümmətin münafiqləri ilə əlbir olmasına dair Qəzzə və Fələstində baş verənlərdən daha çılpaq bir nümunə lazımdır ki, siz məsuliyyət hiss edəsiniz?!

Mənim İslam dünyasının, xüsusən də ərəb dünyasının media qurumlarına, ziyalılarına sualım budur ki, nə vaxta qədər özünüzün media və ziyalılıq məsuliyyətinizə laqeyd qalacaqsınız? Qərbin rüsvay olmuş insan hüquqları təşkilatları və Birləşmiş Millətlər Təşkilatının dırnaqarası Təhlükəsizlik Şurasının bundan da artıq rüsvay olmaları mümkündürmü?!

Bütün Fələstin mücahidləri və İslam dünyasının bütün möminləri hər bir mümkün yolla müdafiəsiz Qəzzə qadınlarını, uşaqlarını və əhalisini müdafiə etməyə borcludurlar. Bu qanuni və müqəddəs müdafiədə kim öldürülsə, şəhiddir və ümidvarıq ki, qiyamətə Allah rəsulunun yanında, Bədr və Ühüd şəhidləri sırasında gəlsin.

İslam Konfransı Təşkilatı bu həssas şəraitdə özünün tarixi vəzifəsinə əməl etməli, sionizm rejimi qarşısında çəkinmələrdən və təsirlənmələrdən uzaq olan vahid cəbhə təşkil etməlidir. Sionizm rejimi müsəlman hökumətlərin vasitəsi ilə cəzalandırılmalıdır. O işğalçı rejimin başçıları bu cinayətə və həmçinin uzunmüddətli blokadaya görə şəxsən mühakimə edilməli və cəzalandırılmalıdırlar.

Müsəlman xalqlar özlərinin güclü iradələri ilə bu tələbləri həyata keçirə bilərlər. Bu dönəmdə siyasətçilərin, alimlərin və ziyalıların vəzifəsi digərlərindən olduqca ağırdır.

Mən Qəzzə faciəsi münasibəti ilə bazar ertəsi gününü ümumi matəm elan edirəm və ölkə məmurlarını bu qəmli hadisə qarşısında öz vəzifələrini yerinə yetirməyə çağırıram.

"Zülm edənlər isə hansı dönüşə dönəcəklərini mütləq biləcəklər!"

## *Fələstin cinayətlərinin pərdəarxası*

Bu gün Fələstin məsələsi də elədir. Sizin müşahidə etdiyiniz Qəzzə hadisəsi məsələnin zahiri tərəfinin bir hissəsidir, kökü isə bundan ibarətdir ki, heç bir insani prinsipə inanmayan imperialist qurum bu Orta Şərq regionunu - müxtəlif coğrafi və iqtisadi sərvətlə dolu olan bu həssas regionu əlinə almaq istəyir; vasitəsi də işğalçı İsraildir - işğal olunmuş Fələstinə hakim olan sionistlər. Məsələ bundan ibarətdir. Bu bir neçə ildə bu regionda baş verən bütün bu hərəkətlər - Livan hadisələrindən tutmuş İraq və Fələstin hadisələrinə qədər hamısı bu baxışla izah və dərk olunasıdır. Məsələ bundan ibarətdir ki, bu region Amerika da daxil olmaqla imperializmin əlində olsun; sözsüz ki, onun əsas təzahürü böyük şeytan olan Amerika dövlətidir. İmperializm bu regionu əlinə keçirmək istəyir. Bu region ona lazımdır və bu işdə amili də İsraildir. Bu bir neçə ildəki bütün bu dastanlar və hadisələr bu baxışla təhlil olunur. Gördünüz ki, otuz üç günlük müharibədə Amerikanın Xarici İşlər Naziri dedi: "Bu, yeni Orta Şərq regionunun doğuş ağrısıdır". Yəni bu hadisədən Amerikanın istədiyi Orta Şərqdən ibarət olan yeni bir məxluq doğulacaq. Əlbəttə, bu pərişan yuxunun təbiri başlarına gələn idi. Livanda mömin gənclərin cəsurluğu, ayıqlığı, fədakarlığı və cihadı yalnız İsrailə yox, hətta Amerikaya, onların himayədarlarına və ardıcıllarına da zərbə vurdu. Qəzzə hadisəsi də bu qəbildəndir.

## *İsrailin cinayəti və Qəzzədə Fələstin xalqının fədakar müqaviməti*

Ötən il dünyanın və regionun mühüm məsələlərindən biri də sionizm rejiminin Qəzzəyə qarşı bütün dünyanın diqqətini cəlb edən hücumu idi. Bəziləri məsələyə İslam müqavimətinə və Fələstin

məsələsinə qarşı köhnədən qalmış ədavətli və kinli baxışla yanaşdılar. Əsasən bir çox Qərb ölkələrinin siyasətçiləri bu qəbildən idilər. Bəziləri də məzlum Fələstin xalqına və Qəzzə əhalisinə tərəfdarlıq baxışı ilə məsələyə baxdılar. Lakin bu namərdcəsinə və zalım hücumun ardınca gələn nəticələr bütün dünya üçün heyrətləndirici idi. Müdafiəsiz Qəzzə əhalisi iyirmi iki gün müqavimət göstərdi və sionizm rejimi iyirmi iki gün bütün qüvvəsi ilə bu xalqa hücum etdi. Amma bu hadisənin sonu sionizm rejiminin uğursuzluğu ilə nəticələndi. Bu, dünya xalqı üçün zalım və hegemonçuların hegemonçuluğu və zülmü qarşısında xalqların müqavimət imkanına dair çox əhəmiyyətli bir təcrübədir.

### *Qəzzənin mühasirə olunmasında Hüsni Mübarəkin günahı*

Misir xalqı ölkələrinin başında duran şəxsin İsrailin nümayəndəsi kimi ən çirkin işləri və cinayətləri törətdiyini müşahidə edirdiər. Qəzzənin blokadaya alınmasında Hüsni Mübarək İsraillə həmkarlıq etməsəydi, İsrail Qəzzəni bu şəkildə təzyiq altında saxlayıb o cinayətləri törədə bilməzdi. Hüsni Mübarək meydana atıldı, kömək etdi, Qəzzənin Misirə giriş və çıxış yolunu bağladı. Sonra xəbər aldılar ki, Qəzzə əhalisi yerin altından kanal çəkib yeraltı hərəkət edirlər. Məzlum Qəzzə əhalisinin daha bu işi görə bilməməsi üçün otuz metr hündürlüyündə polad divarlar düzəldib yerə vurdular ki, bu kanalların yolunu bağlasınlar. Bu işləri Hüsni Mübarək gördü. Bəli, Misir xalqı bunu görür. Odur ki, xalqın qüruru yaralandı. Bunun oxşarı digər ölkələrdə də mövcuddur.

Qəzzə hadisəsində Hüsni Mübarək israillilərə kömək etməsəydi, Qəzzəni blokadaya sala bilməzdilər. Fələstinlilər Qəzzədə blokadada idilər. İndi dörd ildir blokadadadırlar. İyirmi iki günlük müharibədə bu xalqın kişisi, qadını və uşağı İsrailin atəşi ilə yandı, məhv oldu, evləri dağıdıldı, amma yardım karvanlarının bu xalqa kömək etməsinə qoymadılar. Misirin özündən yox, digər ölkələr də Misirdən keçmək istəyirdilər, bizim xalqımız gedib bunlara kömək etmək istəyirdi, amma Hüsni Mübarək qoymadı. Misirə belə bir vəziyyət hakim idi. Bəli, bu, xalqı təngə gətirdi. Misir xalqı Misirin indiki rejiminin İsraili müdafiə etdiyinə görə, Amerikaya mütləq

itaətinə görə rəzillik hiss edirlər, təhqir hiss edirlər. Hərəkətin əsas amili budur. Bunlar müsəlman insanlardırlar.

Misirin vassal quruluşunun vəziyyəti elə bir həddə çatdı ki, Misir xalqı tarixdə ilk dəfə Qəzzədəki qardaşlarına qarşı müharibədə hökumətlərinin İsrail cəbhəsində dayandığını gördülər. Gördülər ki, o nəinki kömək etmir, hətta düşmən cəbhəsində çox fəaldır. Tarix heç zaman unutmayacaq ki, Hüsni Mübarək Qəzzə xalqının qorxunc blokadasında, Qəzzənin qadın, kişi və uşaqlarının iyirmi iki günlük qırğınında İsrail və Amerikanın həmkarı, şəriki və güvəndiyi şəxs oldu. Misir xalqı o günlərdə nə çəkdi! Televiziya Misir xalqının güclü hisslərindən səhnələr göstərdi. Onlar öz vəziyyətlərindən və öz fələstinli qardaşlarına kömək etməyə icazələrinin olmamasından danışırdılar. Müsəlman Misir xalqı daha nə qədər dözə bilərdi?! Bu gün Qahirədə və Misirin digər şəhərlərində müşahidə olunan vəziyyət uzun illər qeyri-müsəlman, xain və asılı rejimin öz rəftarı ilə Misirin azad kişilərinin və qadınlarının qəlbində qalaqladığı nifrətlərin fəvvarəsi və müqəddəs qəzəbin partlayışıdır.

### *İslam dünyasının ikinci dərəcəli məsələlərlə məşğul olmasının sayəsində Fələstində törədilən faciələr*

İslam dünyasının başını qatmağa çalışırlar. Bu gün bu Fələstin hadisələri İslam dünyasının ikinci dərəcəli məsələlərlə məşğul olmasının sayəsində baş verir. Bu gün Fələstində həqiqətən faciələr vaş verir, Qəzzədə faciələr baş verir, qərb sahillərində faciələr baş verir. İbrahim hərəmi hadisələrinə əhəmiyyətsiz yanaşmaq olmaz. Bunlar çox mühümdür. Namaz qılmağa görə müsəlmanları mərkəzlərindən və evlərindən qovub, buraxmırlar. İslam abidələrindən İslamı silmək çox təhlükəli işlərdən biridir. Bu, dünya müsəlmanlarının gözü qarşısında baş verir. Hamı ikinci dərəcəli və xırda işlərlə məşğul olduğundan İslam dünyasında nə baş verdiyini anlamırlar. İslam dünyası əleyhinə təxribat budur.

### *Azadlıq karvanına hücum cinayəti və Qərbin müdafiəsi*

Sionizm rejiminin yardım və humanist dəniz karvanına cinayətkar və rəhmsiz hücumu o quldur və xəbis hökumətin öz mənfur həyatının yeddinci onilliyini bürüyən böyük cinayətlər silsiləsinin başqa bir halqasıdır. Bu, müsəlmanların onillərdir bu

regionda, xüsusən də məzlum Fələstin torpaqlarında əlbəyaxa olduqları həyasız və rəhmsiz rəftarından bir nümunədir. Bu dəfə bu karvan İslam, yaxud ərəb karvanı deyildi, bütün dünyanın ümumi rəyinin və bəşəri vicdanların nümayəndəsi idi. Bu cinayətkar hücum hamı üçün sübut etməlidir ki, sionizm faşizmin yeni və daha qəddar formasıdır və bu dəfə azadlıq və insan hüquqlarını iddia edən dövlətlər, hamısından da çox Amerika Birləşmiş Ştatları tərəfindən müdafiə olunur və yardım alır.

Bu instinktiv caniləri siyasi, media, hərbi və iqtisadi cəhətdən himayə edib həmişə onların törətdikləri faciələrin arxasında dayanan Amerika, İngiltərə, Fransa və digər Avropa ölkələri ciddi şəkildə cavab verməlidirlər. Bütün dünyada olan vicdanlı şəxslər ciddi şəkildə düşünməlidirlər ki, bu gün bəşəriyyət həssas Orta Şərq regionunda təhlükəli bir fenomenlə üz-üzə qalmışdır. Necə qaniçən, həyasız və dəli bir rejim bu gün işğal olunmuş Fələstin ölkəsinə və onun məzlum və müsibət görmüş xalqına hökm edir! Qəzzədə bir milyon yarım qadının, kişinin və uşağın ərzaq, dərman və həyat blokadası nə deməkdir? Qəzzədə və qərb sahillərində gənclərin gündəlik qətli, həbsi və işgəncəsi necə başadüşüləndir?

# Beşinci bölmə: Çıxış yolları

## *Birinci fəsil: Səhv çıxış yolu*

Fələstin son əlli ildə dünyanın və Orta Şərqin mühüm məsələsi olmuşdur. Bu mühüm məsələnin və bu dolaşıq problemin həlli üçün iki yol təklif olunur: bir səhv yol və bir düzgün yol.

Səhv çıxış yolu budur ki, nə insani dəyərlərə boyun əyən, nə beynəlxalq qanunlara və beynəlxalq təşkilatların qətnamələrinə tabe olan işğalçı ilə müzakirə aparıb razılığa gəlsinlər. Bu həll yolu səhv həll yoludur. Bu hər hansı bir formada görünsə, səhvdir. İsrail özünün heç bir imzasına sadiq olmadığını göstərmişdir; əgər razılaşsalar da, imzalasalar da, əməl etməyəcək. Buna ən böyük və ən güclü dəlil də Ramallahın bugünkü vəziyyətidir. Bəli, özləri oturub Osloda imzaladılar. Muxtar hökuməti rəsmən tanıdılar. İndi buyurun, bu, muxtar hökumətlə və müzakirə tərəfi ilə - yəni Yasir Ərəfatla etdikləri rəftardır. Bunlar öz imzalarına sadiq qalmırlar. Qarşı tərəfin bunlara verdiyi hər bir imzanın üstünə ayaqlarını qoyur və bir addım irəliləyirlər. Xislətləri belədir. Bu həll yolu düzgün həll yolu deyil. Əlbəttə, bu sözdə mənim müraciətim nəyin bahasına olursa olsun bu xərçəng vəzisini qorumaq istəyən şəxslərə deyil. Onlar bu sözü qəbul etmirlər, biz bunu bilirik. Mənim sözüm ərəb hökumətlərinə, İslam hökumətlərinə, müsəlman xalqlara və dünyanın hər bir yerində olan ayıq vicdanlaradır. Mən onlarla danışıram. Təcavüzkarın ağzına yem atıb onu daha da kökəldən və sonrakı addıma qadir edən bu həll yolu - həll yolu deyil. Bu, Fələstinin əlliillik təcrübəsidir. Birləşmiş Millətlər Təşkilatında qətnamə qəbul edildi. Sionistlərin müdafiəçisi olan Amerika da formal olaraq o qətnamələri imzalasa da, bu işğalçı bu qətnamələrə əməl etməyib. Heç kim də deməyib ki, gözünün üstə qaşın var. İnsan belə bir hökumətlə və belə bir tərəflə necə müzakirə aparsın? Bu həll yolu səhv həll yoludur. Bu, düzgün deyil.

### *Bu rejimin varlığını etiraf edən hər bir müzakirənin qanunsuz və davamsız olması*

Qardaşlar və bacılar! Bu gün Fələstin xalqının müzakirəsi öz mehvəri üzərində durmuşdur. Qələbə ümidi də odur. Yəni xalq

səhnəyə gəlmişdir. İsrail qondarma, qanunsuz və işğalçı bir rejimdir. Zorla, zülmlə və hiylə ilə gəlib bir ölkəni xalqının əlindən almışdır. Buna əsasən, bu rejimin varlığını etiraf əsasında olan hər növ müzakirə qanunsuz və davamsızdır. Əlbəttə, bu gün Fələstin xalqı vəziyyəti yaxşı dərk edib anlamışdır. Bilir ki, güc dili Beytülmüqəddəsi və Fələstin ölkəsini işğal edənlərin inandığı yeganə dildir. Xalq bilir ki, hər növ müzakirə və müqavilə onlara ziyan gətirəcək. Odur ki, meydana atılmışdır.

## *Müqavimətin və sülhün nəticələrinin əyan olması*

Müqavimət və mübarizə örnəyi bizim qarşımızdadır. Yəni müqavimət və mübarizə ilə və sözsüz ki, ziyanlara dözməklə qələbəyə çatmaq olar. Eyni zamanda məğlubiyyət örnəyi də bizim qarşımızdadır və o, sülh yollarına könül verməkdən, sülhün dilənçi kasasını əldə tutmaqdan ibarətdir. Onun nəticəsi də təhqir olunmaq, xar olmaq və sonda İsrailin istəklərinin birtərəfli yeridilməsidir. Bunu da eynilə müşahidə etdik.

## *Mübariz xalqın düşmənin təhdidinə və xainlərin sülh müqavilələrinə əhəmiyyət verməməsi*

Bu gün bunlar Fələstin məsələsinin bitdiyini xəyal edərək bayram keçirirlər. Mən deyirəm: Fələstin məsələsi bitmiş deyil. Səhv etməsinlər. Əlbəttə, imperialist dünya "Allah onların işığını keçirər və özlərini zülmət içərisində qoyar, (heç nə) görməzlər" səbəbindən bütün elmi təhlilləri ilə bu insani həqiqətləri gizli saxlaya bilməzlər.

Məsələ bitməmişdir. Məsələ dəyişməmişdir. Fələstin məsələsi öz vəziyyətində qalmışdır. Fələstinli tərəf, yəni zahiri fələstinli olan, əslində isə nə olduğunu Allahın bildiyi əskik, bədnam və üzüqara imza sahibi gedib nəyisə satası deyil. Məgər Fələstin xalqı Ərəfatdır?! Ərəfat nə karədir ki, gedib Fələstini onun işğalçıları ilə, qeyd olunmayanlardan əlavə tarixdə yüzlərlə faciəli hadisəsinin qeyd olunduğu sionistlərlə bazarlıq etsin. Məgər Deyr-Yasin hadisəsi, dinamitlə xalqın başına uçurulan kəndlər unudulmuşdur? Məgər unutmaq olar?! Bunları kim etmişdir? İndi onlar gəlib heç kim olan bir şəxsdən imza alsınlar ki, biz dörd-beş ildir buranı işğal etmişik, indi sən gəl buranın bizim özümüzünkü olduğunu imzala. Məgər bunu edə bilər?! Məgər kimsə qəbul edər?! Amerika və

sionizmin başçıları, eləcə də bu müzakirə və imza stolu arxasında oturan o zəbun və əskik adamlar bilsinlər ki, fələstinli yumruqlar eləcə işğalçıların başına endiriləcək. Beynəlxalq təbliğatda səs-küylə hamıya göstərirlər ki, bir qrup fələstinli sevinir. Bəli, hər yerdə muzdur adamlar, zəif adamlar və sabahlarının nə olacağını bilməyən məlumatsız insanlar sözsüz ki, var. Belə olması da mümkündür. Nə üçün bu məsələdə İslam dünyasının fikri soruşulmur? Bu məsələ bir İslam məsələsidir. Ərəb dünyasında təəssüf ki, bəzi ərəb başçıları rüsvayçı şəkildə bu xəyanətə təslim olub razılaşdılar. Həmin ölkələrdə, əgər dünya təbliğatının azad olduğunu doğrudan deyirsinizsə, gedin insanlardan müsahibə alın. Buraya çatdıqda daha təbliğat azadlığının və soz azadlığının mənası yoxdur; bu daha Qərb demokratiyasının prinsiplərindən sayılmır.

Gedib xalqdan müsahibə alsınlar, görsünlər xalq nə deyir. Məgər İslam ümməti bu 40-50 ildə verdiyi bütün bu qurbanlara göz yummağa razıdır?! Məgər İslam ümməti amerikalıların işarə etdiyi hər bir şeyi ikiəlli təqdim edən bu dörd xəyanətkar şah və prezidentdir?! İslam ümməti İslam ümmətidir. Ərəb ümməti də öz dairəsində bunlardan daha şücaətli və daha başucadır. Bu mübarizə xalqların daxilinə çəkiləcək; necə ki, çəkilmişdir.

Düşmən bilsin ki, heç bir təhdid və heç bir hiylə, o cümlədən Fələstin amalına arxa çevirmiş fələstinlilərin Amerika konfransında iştirak etməsi Fələstinin xilası uğrunda cihad etməyi özünün İslam vəzifəsi bilən mömin canları bu haqlı mübarizədən daşındıra bilməyəcək. Amerikanın, onun müttəfiqlərinin və əlaltılarının istəyinə rəğmən, Fələstin xalqının cihadı da davam edəcək və bu müqəddəs şölə asılı olan fələstinli və ərəb siyasətçilərin xəyanəti ilə sönməyəcək.

Şərmüşşeyxdə və digər yerlərdə məsuliyyətsiz tərəflər arasında bağlanan bu müqavilələrin heç bir təsiri yoxdur. Bu, müqavilələri imzalayanların rüsvayçılığına səbəb olacaq, heç bir faydası və heç bir təsiri də olmayacaq.

### *Müzakirənin qadağan və faydasız olması*

Fələstin xalqı öz azadlığını və hüquqlarını ərəb başçılarının konfranslarında və toplantılarında axtarmamalıdır və axtara bilməz. Bu toplantılar məzlum fələstinlilər üçün uğursuz və pis sonuclu

olmasa da, ən azı faydasız və təsirsizdir. Bu günlərdə Fələstin tərəfdən toplaşan başçılar Fələstinin xilası fikrində səmimi olsaydılar, Amerika prezidentinin hiyləgər təklifi qarşısında güclü və qətiyyətli mövqe seçib işğal olunmuş Fələstin daxilindəki mübarizlərə maliyyə, silah və siyasi yardım üçün təcili və həqiqi qərarlar verərdilər, puç şüarlarla kifayətlənməzdilər. Əgər belə olmamışsa, ərəb dünyasının və onun hakimlərinin indiki vəziyyətinə görə olmayacaqsa da, daxildəki mübarizlər Allaha, xalqın və İslamın qüvvəsinə arxlanmalı və bilməlidirlər ki: "Nə qədər olub ki, az bir dəstə Allahın izni ilə çox bir dəstəyə qalib gəlib! Allah dözümlü olanlarladır!"

## *Müzakirələr - sülhün deyil, zülmün real nümunəsi*

İndi dırnaqarası sülh müzakirələrinə başlayıblar ki, Fələstin müsəlmanlarının qiyamını yatırtsınlar. Məgər bacardılar?! Məgər bacararlar?! Adını da qoyublar sülh. Bu sülhdür, yoxsa zülm?! Məzlum Fələstin xalqının başı üzərindən aparılan bu müzakirələrə qarşı çıxmağımız sülhə qarşı çıxmağımıza görə deyil. Biz sülhün tərəfdarıyıq. Biz sülhün carçısıyıq. Biz sülhdən üstününün carçısıyıq. Biz deyirik ki, dünya müsəlmanları ilə digər insanlar arasında qardaşlıq olsun. Biz qardaşlığın tərəfdarıyıq. Biz zülhlə müxalif deyilik. Amma bu gün Amerikada baş verən bu müzakirələr sülh müzakirəsi deyil. Bu, zülm müzakirəsidir. Onlar bir zülmü möhkəmlətmək istəyirlər. İstəyirlər ki, bir zülmü qanuni və rəsmi etsinlər. Biz əlbəttə ki, müxalifik. Dünyanın bütün alicənab insanları müxalif olmalıdırlar. Bütün müsəlmanlar müxalif olmalı və ona qarşı çıxmalıdırlar. Fələstin xalqının evini onlardan alıb, orada bir qrup işğalçını yerləşdiriblər, himayə ediblər və o işğalçıların əli ilə ev sahiblərini ən faciəli formada əziblər. İndi də ev sahiblərinin ağzını yummaq və onları öz sərvətlərinə dair iddialarını bütövlüklə geri götürməyə vadar etmək üçün oturub ərəb dövlətləri və İsraillə müzakirə aparmaq istəyirlər.

Məgər kiminsə Fələstin xalqı tərəfindən bir şey imzalamağa haqqı çatır?! Məgər kiminsə ayrısının əvəzinə o xalqın evini işğalçıya satmağa haqqı çatır?! Biz ümidvarıq ki, bu müzakirələr imza olunmuş müqaviləyə çevrilməsin. Amma əgər müqavilə də bağlansa, oraya gedən ərəb hökumətləri onu imzalasalar da, o

imzalar Fələstin xalqının, dünya müsəlmanlarının və bizim fikrimizə görə etibarsızdır.

Amerika səhv edir. Amerika ərəb hökumətlərini belə bir rüsvayçı müzakirə üçün bir stol arxasına toplamaqla oraya toplanmış hökumətləri xalqlarının yanında daha da mənfur edir. Məgər ərəb ölkələrinin xalqları başçılarının gedib Fələstin xalqının evini digərlərinə satmalarına razıdırlar?! Əgər Allah eləməmiş belə bir imza baş versə, bu başçılarla xalqlar arasındakı məsafə daha da artacaq. Bu iş xalqlarını daha da qəzəbləndirəcək. Misir xalqını daha da qəzəbləndirəcək. O misirli yazıq qalxıb dilənçi kimi Amerikaya gedir ki, İrandan şikayət etsin. Elə bir yazığa şikayət edir ki, onun özü ondan artıq İrandan şikayətçidir.

Nə üçün İrandan şikayət edirsən? İslamdan şikayət et, öz müsəlman xalqından şikayət et. O kişi kimdənsə şikayət etməlidirsə, gərək Misir xalqından şikayət etsin. Misir xalqı müsəlman xalqdır. Misir xalqının İslamda keçmişi olub. Misir xalqı yeni İslam düşüncələri və İslam mübarizələri yolunda böyük nailiyyətlərə malikdir. Bu xalq qeyrətli xalqdır. Şübhə yoxdur ki, bu xalq öz başçılarının xəyanətinə dözməyə razı deyil və onlarla vuruşacaq.

### *Ədalətli həll yolu və qeyri-ədalətli mübarizə?!*

Fələstinə ürək yandıranlar insani haqlarından məhrum olmuş yüz minlərlə və milyonlarla insana ürək yandırırlar. Fələstin vətənindəki işğalçı sionizm dövlətinə qarşı çıxan şəxslər bəşəriyyətə, müsibət görmüş analara və mömin gənclərə ürək yandırırlar; "Evimizi bizim özümüzə verin! Bizim vətənimizi bizdən almayın! Evimizin daxilində bizə bu qədər zülm etməyin!" – deyən insanlara ürək yandırırlar. Bu söz səhvdir?! Bu söz hegemonluq və kobudluqdur?! Əgər kimsə bu dünyada özünün milliyyət haqqının bərpası üçün mübarizə aparsa, qeyri-ədalətli mübarizə aparmışdır?! Biz bu gün "fələstin məsələsində ədalətli həll yolu tapmaq isətyirik" deyən şəxslərdən soruşuruq ki, bu həll yolu nədir? Fələstin kimə məxsusdur? Məgər fələstinliyə məxsus deyil?!

Siz ad dəyişməklə bir xalqı ən ilkin hüququndan - yəni öz torpağına malik olmaq hüququndan məhrum edə bilərsiniz?! Təbliğatla İsrail adlı yalançı bir milliyyət vücuda gətirə bilərsiniz?! Belə bir şey məqbuldur?! Belə bir iş insafa uyğundur?! Belə bir iş

ədalətlidir?! Məsələ bu deyil. Məsələ odur ki, hegemonçu dünya İslamı əzmək, İslam xalqlarını təzyiq altda saxlamaq və İslamın hərəkətinə mane olmaq üçün İslam dünyasının coğrafi ürəyi olan Fələstin torpağına ehtiyaclıdır.

İsrail dövləti bu nöqtədə imperializmin maraqlarını təmin etmək üçün onun canişinidir. Əsas məsələ budur. Sağlam və qərəzsiz insanlar imperializmin Fələstinə qarşı yalançı və xəbis təbliğatına aldanmağa hazırdırlar. Bu gün hegemonçu düşərgə Fələstin xalqının və İslam xalqlarının böyük haqqını tapdamaq üçün ayağa qalxmışdır. İslam xalqlarının oturub müsəlman bir xalqın haqqının və öz hüquqlarının tapdanmasına tamaşa etmələrinə haqları var?!

Fələstin məsələsinin həll yolu aydın həll yoludur. Gedib düşmənlə - yəni işğalın səbəbkarı ilə müzakirə aparmağa aldanan şəxslər özlərini aldadırlar. Onlar xalqları aldatmaq istəyirlər, amma xalqlar aldanmırlar. Fələstin məsələsinin həlli yolu bu deyil ki, gedib Fələstini işğal edən İsraillə otursunlar və danışsınlar.

## *Qeyrətli Fələstin gəncləri ölmüşlər?!*

Qeyrətli Fələstin gəncləri ölmüşlərmi?! Fələstinə qonşu olan İslam ölkələrinin və digər İslam ölkələrinin gəncləri ölmüşlərmi düşmənlər İslam dünyasının ən böyük məsələsini bu şəkildə rahatlıqla öz xeyirlərinə və İslam ümmətinin ziyanına həll etmək istəsinlər?! Bu gün İslam dünyasında mövcud olan bu sükut nədir? Bir neçə il öncəyə qədər məgər İslam dünyasında kimsə işğalçı İsrail dövləti ilə söhbət sözünü dilinə gətirə bilərdi?! Bir xain - o misirli tağut cürət etdi, addım atdı və qısa müddətdən sonra öz əməlinin cəzasını da gördü.

Bu gün məsələni sadə bir məsələ formasında irəli sürürlər. Məsələnin o tərəfi Amerikadır. Deyir ki, gəlin sionistlərlə - bu oğrularla, bu qatillərlə, qırx ildir Fələstin xalqına işgəncə verən, bütün İslam dünyasını zəhərləyən, xəyanət edən, arxadan xəncər vuran, İslam dünyasının bütün, yaxud əksər problemlərinin səbəbkarı olan şəxslərlə oturub müzakirə aparın, Beytülmüqəddəsin, Fələstin və Cəvəlan torpaqlarının sionsitlərə məxsus olduğunu imzalayın.

## *Döyüş meydanında məğlubiyyətdən sonra fələstinli tərəfi müzakirəyə çəkmək hiyləsi*

Çox güman ki, sionizm rejiminin və onun cinayətinin şəriki olan Amerikanın son bir neçə aydakı əməliyyatda uğursuzluğu onları bu bataqlıqdan xilas olmaq üçün yeni hiylə irəli sürməyə vadar edəcək. Fələstinli tərəfi müzakirə stolu arxasına çəkmək hiyləsinin Fələstinə yeganə təsiri fələstinli mübarizlərin sıralarında ixtilaf yaratmaq və intifazə şöləsini söndürmək olacaq. Bu hiylənin qarşısında təlsim olmaq lazım deyil. İşğalçı rejim sübut etmişdir ki, heç bir qərara boyun əymir, heç bir haqlı məntiq onu qane etmir, hegemonluqdan və ekspansiyadan başqa heç bir məntiqə inanmır. Şübhəsiz, mömin və doğruçu mübarizlər və Fələstin məsələsinə inamı olan hökumətlər bu hiyləyə aldanmayacaqlar.

## *Muxtar təşkilatın xəyanəti: Fələstinin dörd faizinə hakim olmaq bahasına Fələstini unutdurmaq*

Bu günün özündə siz baxın, görün Fələstin xalqı adlı bir şeyin ümumiyyətlə unutdurulmasına necə çalışırlar. Sanki Fələstin adlı heç bir torpaq və bu torpağın sahibi olan heç bir xalq mövcud olmamışdır. İşə belə hazırlıq gördülər və insan çox təəccüblə, təəssüflə və heyrətlə görür ki, bəziləri də təslim olurlar. Bu gün dünyada təslim olan o toplum üçün belə zalım, qəribə və axmaqcasına məsələyə təslim olan bir şəxs var. Bu gün bu baş verir: bir dırnaqarası fələstinli toplumu böyük Fələstin topağının bir hissəsinə gətirirlər, orada - Fələstin ölkəsinin dörd faizində onlara yarımçıq, yalançı, səthi və qeyri-həqiqi bir hakimiyyət verirlər. Qarşılığında onlardan istədikləri budur ki, Fələstin hadisəsi, torpaq və millət məsələsi ümumiyyətlə unudulub kənara qoyulsun, bu ziyanlı bazarlığı edənlər Fələstin xalqının, Fələstin ölkəsinin və tarixinin adını çəkən hər bir kəsi əzməyə məmur olsun.

Bu çox məntiqsiz və axmaq bir bazarlıqdır. Belə bir bazarlığı kim qəbul edər?! Əgər bu iş görülməzdən öncə məsələnin təfərrüatını dünya xalqlarının, xüsusən də müsəlman xalqların önünə qoysaydılar və "biz Fələstin torpağının bir küncündə - bu bir qarış yerdə bir neçə fələstinliyə xəyali və yalançı bir hakimiyyət verib qarşısında bütün Fələstin məsələsini, Fələstin xalqını, Fələstin ölkəsini, Fələstinin keçmişini və Fələstinin indiki qaçqınlarını

unutdurmaq istəyirik" - desəydilər, İslam dünyasında bəlkə də belə bir işin baş verməsinin mümkünlüyünə inanan çox az olardı. Amma bu gün bu hadisə baş vermişdir. Yəni həqiqətən nəinki Fələstin xalqının nümayəndəsi, hətta fələstinli adlandırmağa layiq olmayan əskik və dəyərsiz bir qrup bu işi görür. Qarşı tərəflər - işğalçı dövlət və onun arxasında duran Amerika da sadəlövhlükə Fələstin məsələsinin bitdiyini güman edirlər. Bilmirlər ki, Fələstin xalqı öz yerindədir. Bir xalqı tarixdən silmək olmaz. Xoşbəxtlikdən insan bu gün bu xalqın arasında rəşadətli insanların, şücaətli, ağıllı, qeyrətli və İslama söykənən insanların mövcud olduğunu və belə bir bazarlığın baş tutmayacağını hiss edir.

## *İsraillə müzakirənin nəticəsi: Qəzzəyə zalımcasına hücum*

Siz görün indi Fələstində nə baş verməkdədir. Hər gün fələstinlilər qətliam olunurlar. Əlli il ərzində əldə olunmuş hərbi əzəmətini Livanın otuz üç günlük müharibəsində itirən sionistlər (onlar İsraili məğlubedilməz göstərmək üçün əlli il çalışdılar. Lakin bu əlliillik əzəmət otuz üç gündə buxar olub havaya uçdu. Mütərəqqi aviasiya texnikası və digər silahlardan məhrum olan mücahid və mömin bir qrup o məğrur və hegemonçu ordunu xar edə bildi, ona zərbələr endirdi, onu dünya səviyyəsində gülünc vəziyyətə saldı) sanki o məğlubiyyətin və rüsvayçılığın intiqamını yazıq fələstinlilərdən almaq istəyirlər. İndi bir neçə gün və bəlkə də bir neçə həftədir ki, Qəzzə sionsitlərin daimi hücumuna məruz qalır. Qəzzəyə bu amansız və zülmkar hücumun özü - zahiri bir müqavilə əsasında oranı fələstinlilərə qaytardılar və indi onlarla bu şəkildə rəftar edirlər - işğalçı İsraillə və sionistlərlə müzakirənin aqibətini göstərməlidir. Bəziləri deyirlər ki, müzakirə ilə sionistlərlə olan problemlərimizi həll edək. Buyurun, bu da müzakirə! Bu gün bu böyük zülm baş verir. İnsan hüquqları tərəfdarları, insan hüquqları iddiaçıları, dünyanın hər hansı bir nöqtəsində onlara itaətkar olmayan dövlətləri xırda bir şey üstündə insan hüquqlarını pozmaqda ittiham edən cənablar Avropada və Qərbdə əllərini əllərinin üstünə qoyub oturublar, asudə şəkildə və laqeydliklə bu gündəlik qırğına baxırlar. Əgər bir nəfər Avropanın bir paytaxtının küçələrində bir qoyunun başını kəssə, bu qədər asudəlik yaranmaz.

Onlarla və yüzlərlə insanın öldürülməsi, müdafiəsiz uşaqların, qadınların, kişilərin və heç bir silahlı işdə iştirak etməyən şəxslərin məhv olması və eləcə gözübağlı qətlə yetirilməsi üçün bir qoyunun qanını tökmək qədər dəyər tanımırlar. Bu gün dünyada ədalət belə vəziyyətdədir. Bəzi adamlar bu vəziyyətə baxanda deyirlər ki, siz ictimai ədalətin adını çəkirsiniz, məgər bu mümkündür?!

## *Dırnaqarası sülh müzakirələrinin məqsədi: Fələstin məsələsini unutdurmaq*

Fələstin məsələsini unutdurmaq və İslam ümmətinin ictimai rəyində onun irəli sürülməsinin qarşısını almaq üçün bu gün görülən işlərdən biri bu dırnaqarası sülh müzakirələridir. Bu, fələstinlilərin bir qrupu - yəni Ərəfat və onun təşkilatı ilə israillilər arasında baş verir. Yəni təslimçilik məsələsi, dırnaqarası muxtar Fələstin hökuməti və digər məsələlər. Bu da israillilərin ən çirkin hiylə və hoqqlarından biridir. Təəssüf ki, müsəlmanların və fələstinlilərin özlərinin bəziləri onun tələsinə düşmüşlər.

## *Vay-River-2 kimi memorandumların fələstinlilərə az mənfəəti*

Bu gün ortaya atılan sözlərdən biri bu qrupla İsrail başçıları arasında sülh müzakirələri məsələsidir. Bu, ən çirkin hiylələrdən biridir. Nə üçün? Ona görə ki, bunların apardığı son müzakirələrdə - öz sözləri ilə desək, Vay-River-2 müzakirələrində əgər israillilərin götürdüyü bu öhdəliklərin hamısı həyata keçsə, ən yaxşı halda bu yazıq fələstinli qrupa nəsib olan Fələstin torpağının dörd faizindən bir qədər artığıdır. Yəni fələstinlilərə məxsus olan, Fələstin xalqının hamısının sahibi və öz haqqı olan Fələstin ölkəsindən dörd faizini bunlara verirlər; özü də necə dörd faiz? Bu dörd faiz bir yerdə deyil, parça-parça və pərakəndə halda on yerdədir. "Gəlin burada hökumət qurun" dedikləri şəxslərə - bu bədbəxtlərin təşkilatına da əsla bir hökumət kimi rəftar etmək icazəsi verməyiblər. Bunlardan istəyiblər ki, oraya getsinlər və bu bölgənin fələstinlilərinin İsrail dövləti əleyhinə iş görməsinə nəzarət etsinlər. Yəni idarəsi mümkün olmayan məhdud, kiçik və pərakəndə bir zonanı bir ölkə kimi və yarımçıq formada bunların ixtiyarında qoyublar. Qarşılığında bunların görməli olduğu iş odur ki, İsrailin təhlükəsizlik idarələrinin

özündən əlavə, bunlar da işğal olunmuş torpaqlar daxilindəki mübariz fələstinlilər əleyhinə işlər görsünlər. Bundan böyük xəyanət ola bilərmi?!

### *İsraili rəsmən tanımaq xəyanətinin və ərəblərin xarlığının çıxış yolu*

Lakin kamil olmasa da, çıxış yolu qalır və ərəb hökumətləri baş verən bu çirkin işi müəyyən həddə düzəldə bilərlər: bütün ərəb hökumətləri elan etsinlər ki, biz İsraili rəsmi olaraq tanımırıq və İsrailin elə rəftar etdiyinə görə orada deyilən sözlər də qüvvədən düşür. Bu qərarla xalqları sevindirsinlər. Bu işi görə bilərlər, lakin ümid xalqlara və gənclərədir.

### *İslam ölkələrinin başçılarının İsrailin məhvinə iradəsizliyi*

Təəssüf ki, əksər İslam ölkələrinin başçılarının rəftarı və sözü bu böyük təhlükənin irqçi sionizm rejiminin məhvindən başqa bir şey olmayan əlacı üçün onların iradəsinə dair heç bir işarəni göstərmir, hətta əksinə, bəzi ərəb hökumətlərində Kemp Deyvidin genişlənməsindən və Sadat xəyanətinin təkmilləşdirilməsindən əlamətlər də nəzərə çarpır. Mən bilmirəm ki, bu hökumətlər bu rəzil rəftarla, müsəlmanların və ərəblərin inadkar düşməni qarşısında rüsvayçı təslimçiliklə öz xalqlarına, eləcə də Allah yanında nə cavab hazırlamışlar?

# İkinci fəsil: Düzgün həll yolu

## *Fələstin məsələsinin həll yolu*

Fələstin məsələsinin həll yolu məcburi və yalançı yollar deyil. Fələstin məsələsinin yeganə həll yolu budur ki, işğalçı mühacirlər yox, Fələstinin həqiqi əhalisi - istər Fələstinin daxilində qalanlar, istərsə də Fələstindən bayırda olanlar özləri ölkələrinə hakim quruluşu təyin etsinlər. Əgər dünyada demokratiya iddiasında olanların nəzərincə bir xalqın səsinə güvənmək doğru sözdürsə, Fələstin xalqı da bir xalqdır və qərar verməlidir. Bu gün Fələstində iş başında olan işğalçı rejimin bu torpağa dair heç bir haqqı yoxdur; zalım qüvvələrin əli ilə düzəldilmiş qondarma və yalançı bir rejimdir. Buna əsasən, Fələstin xalqından bu rejimi rəsmən tanımağı istəməməlidirlər. Əgər İslam dünyasında kimsə bu səhvi etsə və bu zalım rejimi rəsmən tanısa, özünə üzüqaralıq və rüsvayçılıq yaratmasından əlavə, həm də faydasız bir iş görmüş olar; çünki bu rejim davam edəsi deyil. Sionistlər elə bilirlər ki, Fələstinə hakim ola bilmişlər və Fələstin həmişəlik onlara məxsusdur. Xeyr, belə deyil. Fələstinin taleyi budur ki, şübhəsiz, bir gün Fələstin ölkəsi olacaq. Fələstin xalqı bunun üçün qiyam etmişdir. Müsəlman xalqların və hökumətlərin də vəzifəsi budur ki, bu məsafəni bacardıqca azaltsınlar və Fələstin xalqının o günü görməsi üçün bir iş görsünlər.

Bu regionda sülh istəyənlər fələstinlilərin evini özlərinə qaytarsalar, sülh yaranacaq. Siz nə üçün müxtəlif milliyyətli - rus, ingilis, amerikan, afrikalı, asiyalı şəxsləri Hindistandan və dünyanın digər bölgələrindən buraya toplamısınız ki, bir xalqı öz evindən çıxarasınız? Əgər siz sülh istəyirsinizsə, sülh digər ölkələrə məxsus olan insanların öz evlərinə qayıtması və Fələstinin fələstinlilərə verilməsi ilə mümkün olacaq.

Fələstin fələstinlilərə məxsusdur! Əgər Fələstin torpağının əhalisi Fələstinin daxilində - yəni bölünməyən bütöv Fələstində bir hökumət qursalar, sülh yaranacaq. Əgər siz doğru deyirsinizsə və Fələstin xalqının, İslam xalqlarının və İslamın əleyhinə təxribat nəzərdə tutmamısınızsa, həll yolu budur. Lakin əgər bu həll yoluna əməl etmək istməsəniz, hegemonçu düşərgə bilsin ki, təşkil etdikləri

bu yığıncaqlarla və bu qərarla Fələstin məsələsi həll olunmayacaq; Fələstin mübarizləri sakit oturmayacaq və oturmamalıdır.

Başqa bir mühüm məqam budur ki, Fələstin məsələsi bu geriçəkilmələrlə həll olunmaycaq; bunu bilsinlər. Həm Amerika bilsin, həm sionsitlər bilsinlər, həm də dəllallıq vəziyyətində olanlar, dəllal işi görənlər bilsinlər ki, Fələstin məsələsi belə həll olunmayacaq. Bir hissədən geri çəkilməklə məsələ bitməyəcək. Birisi gəlib sizin evinizi zorla işğal etsin, bir müddətdən sonra kiçik bir otağı, evin bir küncünü sizə verib digər yerlərini də öz adına qeyd etdirsin; məgər belə bir şey mümkündür?! Fələstini tutublar. İndi Fələstinin bir küncündən geri çəkilməyə məcbur olublar. Kimsə deyə bilərmi çox yaxşı, indi ki, buranı verdiniz Fələstinin digər yerləri sizinki olsun?! Məgər belə bir şey mümkündür?! Fələstin məsələsi belə həll olunmayacaq. Fələstin məsələsinin yalnız bir yolu var. Bu, bizim bir neçə il öncə elan etdiyimiz yoldur: əsil-nəsəbli fələstinlilər - istər Fələstinin daxilində olanlar, istər düşərgələrdə olanlar, istər digər ölkələrdə olanlar; istər müsəlman, istər yəhudi, istər məsihi olan bu insanlar arasında sorğu keçirilsin; onlar hansı hökuməti istəsələr, o da iş başına gəlsin. O hökumət müsəlman olsa da, məsihi olsa da, yəhudi olsa da, bunların qarışığı olsa da, fələstinlilərin öz səsindən irəli gələrsə, məqbuldur və Fələstin məsələsini həll edəcək. Bu olmasa, Fələstin məsələsi həll olunmayacaq.

## *Bizim təklifimiz: Referendum*

Möhtərəm məclis iştirakçıları! Bu toplantıda iştirak edən sizlər Fələstin məsələsində fikir sahibi və düşüncə adamısınız. Bizim bugünkü tarixi vəzifəmiz keçmişin zəif nəzəriyyələrini və sözlərini təkrarlamaq deyil, Fələstini sionizm rejiminin zülmü altından azad edəcək yol göstərməkdir. Bizim təklifimiz demokratiyaya tam uyğun olan bir çıxış yoludur. Bu, dünyanın bütün düşüncələrinin müştərək məntiqi ola bilər. O təklif budur ki, Fələstin torpağında bütün haqq sahibləri - istər müsəlmanlar, istər məsihilər, istərsə də yəhudilər bir referendum keçirib öz quruşlarının strukturunu seçsinlər və illərdir qaçqınlıq məşəqqətinə dözən bütün fələstinlilər də bu referendumda iştirak etsinlər.

Qərb dünyası bilsin ki, bu həll yolunu qəbul etməmək daim dəm vurduqları demokratiyaya sadiq olmamalarının əlamətidir və bu sınaq onların əleyhinə başqa bir ifşaçı olacaq.

Onların Fələstində qabaqkı sınağı da bu idi ki, qərb sahillərində və Qəzzədə keçirilən seçkilərin nəticəsi olaraq Həmas hökumətinin iş başına gəlməsini qəbul etmək istəmədilər. Demokratiyanı nəticələrinin ürəklərincə olduğu təqdirdə qəbul edən şəxslər müharibə istəyən və macəraçıdırlar. Əgər sülhdən dəm vururlarsa, yalan və hiylədən başqa bir şey deyil.

Lakin bu məsələ üçün məntiqli həll yolu mövcuddur. Məntiqli həll yolu dünyanın bütün vicdanlı şəxslərinin və dünyanın bugünkü məfhumlarına inanan bütün şəxslərin qəbul etməyə məcbur olduğu həll yoludur. Biz il yarım öncə də bu həll yolunu dedik və İslam Respublikası hökuməti dəfələrlə beynəlxalq toplantılarda və müzakirələrdə onu təkrarlamışdır. İndi də biz həmin sözü deyirik və onun üzərində dayanırıq: həll yolu Fələstin xalqı arasında sorğu keçirməkdir; Fələstindən qaçqın düşmüş bütün şəxslərdən; əlbəttə, Fələstin torpağına və öz evlərinə qayıtmaq istəyənlərdən. Bu məntiqli bir işdir. Livanda, İordaniyada, Küveytdə, Misirdə və digər ərəb ölkələrində sərgərdan olan bu şəxslər öz Fələstin ölkələrinə və evlərinə qayıtsınlar; yəni istəyən şəxslər; demirik ki, kimisə zorla gətirsinlər. 1948-ci ildən - yəni qondarma İsrail dövlətinin təşkil olunduğu ildən öncə Fələstində olmuş istər müsəlmanlardan, istər məsihilərdən, istər yəhudilərdən fikir soruşulsun. Bunlar ümumi bir sorğuda Fələstin torpağına hakim rejimi təyin etsinlər. Bu demokratiyadır. Necə olur ki, bütün dünya üçün demokratiya yaxşıdır, Fələstin xalqı üçün isə yaxşı deyil?! Necə olur ki, dünyanın bütün xalqları öz talelərini həll edirlər, lakin Fələstin xalqının buna haqqı yoxdur. Heç kəsin şübhəsi yoxdur ki, bu gün Fələstində iş başında olan rejim zorla, hiylə ilə, kələklə və təzyiqlə iş başına gəlmiş bir rejimdir; bunda heç kimin şübhəsi yoxdur. Sionistlər sülhlə gəlməyiblər, bir qədər hiylə və kələklə, bir qədər də silah və təzyiq gücünə iş başına gəliblər. Odur ki, məcburi bir rejimləri var. Çox gözəl. Fələstin xalqı toplaşıb səs versin və bu ölkədə hakim olacaq rejimin növünü seçsin. Bu rejim və bu hökumət qurulsun və 1948-ci ildən sonra Fələstin torpağına gələn şəxslər barəsində istədiyi qərarı çıxarsın. Əgər qalmalarına qərar versə, qalsınlar. Əgər getmələrinə qərar versə, getsinlər. Bu həm xalqın səsverməsidir,

həm demokratiyadır, həm insan hüquqlarıdır, həm də dünyanın indiki məntiqinə uyğundur. Bu çıxış yolu! Yaxşı, bu çıxış yolu icra olunmalıdır, lakin işğalçı xoş dillə bu yolu qəbul etməz. Burada hadisənin bütün tərəfləri özlərini məsuliyyətli bilməlidirlər; həm ərəb hökumətləri, həm İslam hökumətləri, həm bütün dünyada olan müsəlman xalqlar, həm xüsusən Fələstin xalqının özü, həm də beynəlxalq təşkilatlar. Hər biri bu məntiqli həll yolunun həyata keçməsi üçün məsuliyyət daşıyır və bu həyata keçə bilər. Bəziləri deyirlər ki, belə bir şey yuxu və xəyaldır, mümkün deyil. Xeyr, mümkündür. Baltikyanı ölkələr SSRİ-nin tərkibində olduqları qırx ildən artıq bir müddətdən sonra qayıdıb müstəqil oldular. Qafqaz regionu ölkələrinin bəziləri sovetlərin təşkil olunmasından təxminən yüz il öncədən çar Rusiyasının ixtiyarında idilər, sonra dönüb müstəqil oldular. İndi Qazaxıstan, Azərbaycan, Gürcüstan və digərləri müstəqildirlər, özləridirlər. Deməli, bu mümkündür. Belə deyil ki, bu imkansız bir iş olsun. Xeyr, mümkündür. Lakin iradə və əzmkarlıq lazımdır, cürət və cəsarət lazımdır. Kim cəsarət göstərməlidir? Xalqlar, yoxsa hökumətlər? Xalqlar cəsarətlidir, xalqlar qorxmurlar, xalqlar hazır olduqlarını göstərmişlər. Deməli, hökumətlərin burada üzərinə vəzifə düşür; hamısının başında və hamısından öncə ərəb hökumətlərinin. Ərəb ölkə başçılarının Beyrutdakı son iclası yaxşı iclas deyildi. Bunlar bu iclasdan çox böyük istifadə edə bilərdilər. Bu, təkcə Fələstinin xeyrinə olmazdı, həm də ərəb hökumətlərinin özlərinin xeyrinə olardı. Bu gün ərəb hökumətləri önə düşüb Fələstin məsələsində öz xalqlarının sevgisini və dəstəyini qazana bilərlər. Əgər bir dövlət və hökumət öz xalqının dəstəyinə malik olsa, daha Amerika ona bir iş görə bilməz, daha Amerikadan qorxmaz, daha Amerikanı nəzərə almağı lazım bilməz. Bu məsələdə ərəb hökumətləri çoxlu yaxşı işlər görə bilərdilər və bilərlər.

İran İslam Respublikası isə bu çirkin hadisə qarşısında ilk gündən mövqeyini aydınlaşdırmışdır. İmamın buyurduğu, məmurların dəfələrlə dediyi və bizim də dəfələrlə təkid etdiyimiz İran İslam Respublikasının mövqeyi budur ki, İsrailin bu xərçəng vəzisi bu regiondan kökündən qoparılmalıdır. Bunun tamamilə humanist və məqbul bir formulu da var. O da budur ki, bütün Fələstin əhalisi - dünyanın digər yerlərindən Fələstinə mühacirət edənlər yox - düşərgələrdən və dünyanın hər bir yerindən Fələstinə qayıdıb onların

təşkil etməli olduğu hökumətlərinin taleyini təyin etsinlər. Əlbəttə, bəllidir ki, istər müsəlman olan - onların böyük əksəriyyəti müsəlmandır - istərsə də məsihi və yəhudi olan - orada kiçik azlıq da məsihi və yəhudilərdir - heç bir fələstinli London avaralarının, yaxud Moskvanın başıqapazlı ailələrinin, yaxud Amerika tüfeylilərinin bir qrupunun gəlib onların ölkəsində bir hökumət qurmalarına və onlara hakimiyyət etmələrinə razı olmayacaq və icazə verməyəcək. Bir zaman quldurluq və qəddarlıq edən və məharətləri yalnız yaxşı vurmaqdan, yaxşı öldürməkdən, sionist və yəhudi biznesmenlərinin istəklərinə uyğun yaxşı işləməkdən ibarət olan şəxslər gəlib Fələstində hakim olsalar, bəllidir ki, Fələstin xalqı və İslam dünyası belə bir şeyə icazə verməyəcək. Bu formul dünyanın qəbul etdiyi formuldur. Xalqın səsinə və demokratiyaya inandıqlarını deyən insanlar, çox gözəl, buyurun, bu da demokratiya! Hər halda dünyanın burada yerləşən bir parçasının xalqı olmuşdur. Bu xalq bu gün də var və yaşayır. Bir neçə milyon nəfər orada yaşayır, bir neçə milyon nəfər də oradan xaricdə - Livanda, İordaniyada və digər yerlərdə yaşayırlar. Bunlar gəlib orada toplansınlar və öz hökumətlərini özləri seçsinlər; bu çox düzgün bir üsuldur. Qəti olan budur ki, bu gün hakim olan sionizm hökumətinin və başqa bir sionizm hökumətinin Fələstin torpağında qalmağa və hakim olmağa haqqı yoxdur.

Orta Şərq məsələsi üçün də yalnız bir yol mövcuddur: o da sionizm dövlətinin buraxılması və bitməsidir. Fələstinli qaçqınlar ölkələrinə qayıtmalıdırlar. Bu səkkiz milyon insan Fələstinin əsas sahibidir. Əlbəttə, Fələstin xalqının böyük əksəriyyəti müsəlmandır və onların arasında bir qədər yəhudi və məsihi fələstinlilər də var. Fələstinin sahibləri və Fələstin xalqı dövlət qursunlar; o hökumət qərar versin ki, digər ölkələrdən Fələstinin daxilinə gəlmiş və hal-hazırda orada olan mühacirləri saxlasın, hansı şərtlərlə saxlasın, yaxud qaytarsın. Məsələnin əksi budur ki, bütün Fələstin torpağında bir Fələstin hökuməti təşkil olunsun. Muxtar hökumət və digər bu tip oyunlar bu gün çox sadəlövh insanlardan başqa heç kəsi aldada bilməz. Bunlar iş deyil. Görülməsi lazım olan əsas və həqiqi iş budur. Bu gün gənc fələstinli nəsillər oyanmışlar, mübarizələrinin təsirli olduğunu dərk edirlər, Fələstin daxilində, Fələstinin xaricində, Livanda, İordaniyada, Suriyada və digər bölgələrdə mübarizə aparırlar, mübarizələrinin təsirli olduğunu və xalqların könlünün

onlarla olduğunu bilirlər. Xüsusən də İran xalqının, hökumətinin və İslam Respublikası quruluşunun şərafətli və möhtəşəm mövqeyi bunları həvəsləndirir. Bunlar mübarizəni davam etdirəcəklər və Allahın lütfü ilə özlərinin istədikləri əsas nəticələrə də çatacaqlar.

Fələstin barəsində mənim ilk sözüm budur ki, Fələstinin azadlığı və onun sahiblərinə qayıtması məqsədini dünyada müsəlman xalqların, xüsusən də Fələstin xalqının qəlbində söndürə biləcək heç bir qüvvə yoxdur. Çarə yolu da yalnız birdir. Mən Orta Şərq məsələsini dünyanın böhranlı məsələsi bilən və "Orta Şərq böhranının cilovlanmasına çalışmalıyıq" - deyən şəxslərə deyirəm ki, Orta Şərq böhranını tənzim və məhv etməyin yeganə yolu böhranın kökünün qurumasıdır. Böhranın kökü nədir? Regionda zorla yaradılmış sionizm rejimi. Böhranın kökü qaldıqca böhran da qalacaq. Həll yolu budur ki, fələstinli qaçqınlar Livandan və digər hər bir yerdən Fələstinə qayıtsınlar, Fələstindən xaricdə yaşayan bu bir neçə milyon fələstinli Fələstinə qayıtsın. Fələstinin əsl əhalisi – istər müsəlmanlar, istər məsihilər, istər yəhudilər referendum keçirib ölkələrinə hansı rejimin hakim olmasına qərar versinlər. Böyük əksəriyyət müsəlmandır. Bir qədər də yəhudi və məsihi var. Bunlar Fələstin torpağının əsl sakinləridirlər, ataları burada yaşamışdır. Bu toplumun istədiyi quruluş iş başına gəlsin, sonra o quruluş bu qırx il, qırx beş il və əlli il ərzində Fələstinə gələn şəxslərlə nə etmək haqda qərar versin; saxlasınlar, qaytarsınlar, xüsusi bölgədə yerləşdirsinlər. Bu daha Fələstinə hakim olan o quruluşun işidir. Bu, böhranın həlli yoludur. Nə qədər ki, bu həll yolu icra olunmayıb, başqa heç bir həll yolunun təsiri olmayacaq. Amerikalılar da bütün qüdrətlərini göstərmələrinə rəğmən, heç bir iş görə bilməyəcəklər. Onlar bacardıqları hər bir işi görüblər, nəticə isə müşahidə etdiyinizdir.

## *Bizim həll yolumuz*

Fələstin məsələsinə dair bizim sözümüz məntiqli və məqbul bir sözdür. Onillər öncə ərəbin sevimli şəxsiyyəti sayılan Camal Əbdünnasir öz şüarlarında deyirdi ki, biz Fələstini işğal edən yəhudiləri dənizə tökəcəyik. Ondan illər sonra ərəbin ən mənfur şəxsiyyəti sayılan və sayılmaqda olan Səddam Hüseyn elan edirdi ki, biz Fələstin torpağının yarısını odlayacağıq. Biz bu iki sözün heç birini qəbul etmirik. Bizim İslam prinsipimizlə nə yəhudiləri dənizə

tökmək, nə də Fələstin torpağını odlamaq məntiqlidir. Bizim sözümüz budur ki, Fələstin xalqı öz haqqını əldə etməlidir. Bu ölkə Fələstin xalqına məxsusdur. Fələstin fələstinlilərə məxsusdur və Fələstinin taleyini də fələstinlilər müəyyən etməlidirlər. Bu, demokratiya və insan hüquqlarının iddiaçılarının iddiasının doğruluğu üçün bir sınaq meydanıdır. Xalqların və ölkələrin demokratiyasının tərəfdarı olduqlarını iddia edən şəxslər üçün Fələstin sınaq meydanıdır. Fələstin xalqı - Fələstinin məxsus olduğu müsəlmanlar, məsihilər və yəhudilər, tarixin və coğrafiyanın şəhadətinə əsasən, Fələstinin tarixi torpaqları olduğu şəxslər səs verməlidirlər. Onlar dünya əhalisinin gözü qarşısında keçirilən bir sorğuda, bir referendumda Fələstin dövlətinin taleyini müəyyən etməlidirlər. O dövlət qanuni dövlət olacaq. Fələstində cinayət törədən cinayətkarlar o dövlətdə cəzalandırılmalıdırlar; misal üçün, bu Şaron və digər fələstinli cinayətkarlar. Dünyanın müxtəlif yerlərindən bu torpağa mühacirət edən insanlar barəsində də o dövlət qərar verməlidir ki, nə etsinlər. Bu, məntiqli sözdür. Bu gün milyonlarla fələstinli digər ölkələrdə qaçqındırlar, milyonlarla fələstinli də düşərgələrdə ən pis vəziyyətdə yaşayırlar. Lakin onların torpağı digər insanların əlindədir. Bu, məntqli deyil. Üstündən əlli, yaxud əlli beş ilin ötməsi cinayəti ortadan götürmür, cinayəti yüngülləşdirmir.

İslam Respublikası bir neçə il öncədən həll yolunu elan etmişdir. Fələstin məsələsinin həll yolu bu Amerikanın və digərlərinin həll yolu deyil. Bunlar nəticəsiz qalacaq. Həll yolu budur ki, Fələstin xalqı arasında bir referendum keçirilsin. Referendumda onlar hansı rejimə səs versələr, o rejim bütün Fələstinə hakim olsun. Sonra onların özləri qərar verəcəklər ki, xaricdən Fələstinə daxil olan bu sionistlərlə nə etsinlər. Bu, Fələstin xalqının iradəsindən yaranan o rejimin qərarına bağlıdır.

## *Xalqların imanının atomdan güclü olması*

Onlar bilmirlər ki, onların silahlarından daha güclü bir qüvvə var və o, xalqların qüvvəsidir, insanların qüvvəsidir. Hər hansı bir xalqın bir başlanğıca, bir məntiqə və bir düşüncə əsasına etiqadı olsa və möhkəm iradə ilə o məntiqin arxasında dayansa, heç bir qüvvə - nə atom, nə atomdan yüksək və ya aşağı bir qüvvə onu məğlub edə

bilməz. Bunlar xalqın qüvvəsini, xalqların iradəsinin, əzmkarlığının və hərəkətinin arxasında dayanan Qadir və Uca Allahın qüvvəsini əhəmiyyətsiz saymışlar: "Onların və bunların hər birinə Rəbbinin nemətindən verərik". Hər hansı bir qrup iman bəslədiyi məqsədlər üçün çalışsa, Allah-Taala ona yardım edəcək. Əgər bir qrup Allaha imanlı olsa, o zaman onunla vuruşmaq və onu məğlub etmək on qat çətin olacaq. Məgər asandır?! Kim bu qüvvə ilə - xalqların və insanların qüvvəsi ilə dartışsa, əziləcək. Amerika da əziləcək. Bunlar Fələstin xalqının müqavimət qüvvəsini məhv etmək istəyirlər, amma bacarmırlar. Yaxşı, bəs indi nə olacaq? Bu gün baş verən bu hadisənin zahiri və batini tərəfləri var. Zahiri tərəfi dediyimizdir: bir qrup zorla, süngü ilə, tüfənglə, tankla və Amerikanın siyasi dəstəyi ilə qadının, kişinin, qoca qarının, uşağın və digərlərinin canına düşmüşdür; onları öldürür, evlərini dağıdır, qollarını bağlayır, onları təhqir edir, təhqirlə ev və həyatlarından uzaqlaşdırır, ailələri didərgin salır. Bu, məsələnin zahiri tərəfidir. Amma məsələnin məğzi budur ki, zahirən iqtidarlı olan həmin qüvvə öz daxilində əriyir, su olur. Fələstin xalqı qərar vermişdir. Fələstinin mübariz təşkilatları - istər Fəth təşkilatı, istər Həmas təşkilatı, Xalq cəbhəsi, Cihad, Hizbullah və digərləri əl-ələ verib qərar vermişlər. Hamısı bir nəticəyə çatmış və fədakarlıq yolunu seçmişlər; anlamışlar ki, Fələstinin qurtuluşu yolu fədakarlığa hazır olmaqdır. Şəhadəti təcrübə edib anlamışlar ki, düşmən şəhadət istəyinin və ölümdən qorxmamağın qarşısında gücsüzdür. Yasir Ərəfat da bəyanat verib ki, mən şəhadətə hazıram. Bu yaxşı qərardır. Ümidvarıq ki, o bu qərardan daşınmasın və bu sözünün arxasında dayansın. Allah yolunda şəhid olan şəxs qalır; onun fikri və şəxsiyyəti qalır. Öz ixtiyarı ilə amalı üçün fədakarlığa sarı getməyən şəxsin isə cisminin bir neçə gün qalması mümkündür, lakin şəxsiyyəti və kimliyi məhv olacaq. Şəhadət! Bunu Fələstin xalqı tapmışdır. Ümidvarıq ki, muxtar hökumətin məsul şəxsləri də dedikləri kimi bu sözün arxasında dayansınlar və bu yolda öz xalqları ilə bir olsunlar, təslim olmasınlar. Düşmən də günbəgün zəifləməkdədir.

### *Fələstinlilərin bugünkü mübarizəsinin iki xüsusiyyəti*

Bugünkü mübarizənin iki xüsusiyyəti var. Heç zaman bu iki xüsusiyyət fələstinlilərin mübarizələrində və Fələstin üçün

mübarizələrdə bir yerdə mövcud olmamışdır: biri bu mübarizənin İslam mübarizəsi olması, ikinci xüsusiyyət isə xalq mübarizəsi və ümumi olmasıdır. Bu iki xüsusiyyətin bir yerdə cəm olması sionizm rejimini lərzəyə gətirmişdir. Bütün sionizm varlığında təhlükə hissi mövcuddur. Anlayır və düzgün təyin edirlər ki, ümdə və əsas təhlükə bu gün vücuda gəlmişdir. Bu gün sionizm varlığı qarşısında dayanan bir qrup deyil, siyasi şəxsiyyətlər deyillər ki, onları müzakirə stolu arxasında qane etmək mümkün olsun. Siz bilirsiniz ki, müzakirə stolu arxasında müxtəlif üsullarla insanları qane etmək olar; təhdidlə, tamahlandırmaqla və yalançı vədlərlə, lakin mübarizə xalqın içinə keçdikdə, xalqın arasında özünüdərk yarandıqda, onlar vəziyyət qarşısında dayanmaq vəzifələrini bütün vücudları ilə hiss etdikdə, əks təqdirdə bütövlüklə məhv olacaqlarını bildikdə, digər tərəfdən də mübarizə tədbiri İslam inancından qaynaqlanıb qəlblərə və canlara söykəndikdə, bu zaman bu mübarizə düşmən üçün çox təhlükəli olur. Bu gün belə bir vəziyyət yaranmışdır.

...Amerikanın dəstəklədiyi sionizm rejimi - mənəviyyatdan, həqiqətdən, ədalətdən və insaniyyətdən tam uzaq olan bu iki ünsür Fələstin xalqını diz çökdürmək, onu öz haqq sözünü dilinə gətirməməyə və geri götürməyə vadar etmək fikrindədir. Sözsüz ki, bacarmayacaqlar. Bugünkü mübarizənin və Fələstin intifazəsinin xüsusiyyəti budur ki, Fələstin xalqı sözün həqiqi mənasında ayağa qalxmışdır.

## *Siyasi qaydaların və maddi hesabların Allahın vədinə və mömin gənclərin fədakarlığına məğlub olması*

Livan İslam Müqavimətinin və başıuca Hizbullah təşkilatının qələbəsi və öz xalqı üçün yaratdığı uğurlu nailiyyət hamıya öyrədir ki, azadlığa və müstəqilliyə sarı düzgün yol şücaətli və ədalətli rəftardan və haqqı tələb edən gənclərin iman və agahlığına arxalanmaqdan başqa bir şey deyil.

İndi bütün siyasi qaydalar və maddi hesablar mömin və ixlaslı gənclərin fədakarlığına məğlub olmuşdur. Onlar işğalçı sionist ordusunun aldadıcı görkəmi və onun məğlubedilməzliyi barəsində tələsik mühakimələri əhəmiyyətsiz sayıb İslamın və Quranın aydın ayələrinin onların zehnində və qəlbində yaratdığı fədakarlıq

qüvvəsini düzgün dəyərləndirdilər. Allahın vədinə əmin oldular və özlərinin pak canlarını meydana apardılar.

İndi işğalçı sionistlərin hegemonluğunun və rəhmsizliyinin əlacını yalnız müqavimət, cihad və fədakarlıq məntiqində görən aydın baxışlı insanların mühakiməsinin düzgünlüyü aşkara çıxdı.

Şübhəsiz, bu böyük təcrübə fədakar fələstinli gəncləri və ərəbin digər pak gənclərini işğalçı və qaniçən düşmən əleyhinə amansız mübarizə yolunda öncəkindən daha möhkəm edəcək.

## *Uğurun sirri: nasionalizmin yox, İslamın işığında mübarizə*

Deməli, aydın oldu ki, nasionalizm və millətçilik böyük problemləri həll edə bilməz. Bu məsələləri İslam həll etməlidir və Allahın lütfü ilə həll edəcək. Müsəlman xalq İslam ölkələrinin hər bir yerində vardır, İslam qeyrəti və İslam qayğıkeşliyi vardır. Məgər bunlar bu asanlıqla əl çəkəcəklər?! Bir nəfər gedib imzalamışdır; qələt eləyib imzalamışdır. Onun imzalamağa nə haqqı var?!

Fələstin xalqı da əl çəkməyəcək. Əlbəttə, bu dönəm mühüm bir dönəmdir. Bu böyük bir təxribatdır. İslam dünyasının hər bir yerində qayğıkeş adamlar öncəkindən daha ehtiyatlı olmaılıdırlar. Burada da belədir. Düşmən bir səngəri fəth etmiş və irəliləmişdir, lakin bu, yekun fəthi deyil; bu, həqiqi zəfər deyil. Cavabını alacaq. İslam dünyası əks-hücuma keçməlidir. İslam dünyasının hər bir yerində gənclər, ziyalılar, alimlər, xüsusən də din alimləri məsuliyyət hiss etməlidirlər.

Mən inqilabın əvvəlində buraya gəlmiş fələstinli liderlərin birinə dedim ki, siz nə üçün İslam şüarını irəli sürmürsünüz. Əbəs üzrlər gətirdi. Bunu etmək istəmirdilər, qəlbləri İslama inanmırdı. Bu gün 12-13 ildən artıqdır ki, müsəlman Fələstin xalqı İslam adı ilə və İslam şüarı ilə meydana qoşulmuşdur. Düşmən məsələnin nə olduğunu cəld anladı. Öncəki onillikdə Fələstində intifazə başlayanda düşmənlər - yəni sionistlər və onların amerikalı dostları hamıdan öncə təhlükə hiss etdilər. Gördülər ki, bunu məhv etməlidirlər; çünki İslamın adı ilədir. Çıxış yolu axtardılar, lakin buna qadir deyillər. Çünki xaraktercə hegemonçudurlar.

## *Fələstinin İslam qiyamı - ilahi nemət*

Bu gün torpaqlar daxilində böyük bir hadisə baş verməkdədir və o bu günlərdə öz ömrünün dördüncü ilinə daxil olan İslam qiyamıdır. Bu, Fələstini xilas etməli olan amildir. Bu, İsrailin himayədarlarının və istehsalçılarının qorxduğu məsələdir. Bu, ümid ediləndir və bu ümid bu gün həyata keçmişdir. Bu, böyük bir ilahi nemətdir.

## *Fələstin xalqının İslam oyanışı*

Xoşbəxtlikdən, Fələstin xalqının İslam oyanışı böyük həddə gələcək üfüqləri aydınlaşdırmışdır. Bu gün Fələstin xalqının yeni nəsli Allahın adı ilə və İslam inancına arxalanmaqla mübarizə aparır. Bu mübarizə çox ümidvericidir. Göründüyü kimi düşmən - istər sionsit hakimlər, istər Amerika və İsrailin digər himayədarları, istərsə də regiondakı xəyanətkarlar bu yeni hərəkətdən çox təşvişə düşmüş və mübarizənin əsas istiqamətini ləkələmək və örtmək üçün hər bir yola əl atırlar. Bu yolların sonuncusu İraqın vassal hakimlərinin söylədiyi İsrailə qarşı içiboş və yalançı hücum şüarıdır. Hamı bilir ki, İraqın Bəs rejimi böyük güclərdən aldığı silahları heç zaman böyük güclərin sayəsi altında yaşayan İsrail əleyhinə işlətməyəcək və ondan hegemonluğun məqsədlərinin xidmətində durmaqdan, yaxud region varlılarından bac almaqdan başqa bir iş üçün istifadə etməyəcək.

İşğalçı hökumətlə düzgün mübarizə yolu bu gün fələstinlilərin özlərinin tapdığı və möhkəm şəkildə başladıqları yoldur. Bütün müsəlmanlar onlara bu müqəddəs mübarizədə kömək etməyə borcludurlar.

Bu gün İslam ümməti üçün bayram günüdür. Lakin bizim builki Məbəs bayramımız təəssüf ki, Fələstin məzlumlarının qanı ilə boyanmışdır. Fələstin hadisəsi böyük hadisədir. Yarım əsrdən çoxdur ki, İslam dünyası bu əzəmətli hadisənin qarşısında qalıb. Bu onillər ərzində İslam dünyasının məsul şəxsləri və qərar verə bilən insanlar əgər yaxşı qərar versəydilər, bəlkə də bu problem ya aradan qalxardı, ya da ən azı aradan qaldırması daha asan olardı. Bu mütəmadi illər boyunca çoxlu səhlənkarlıqlar edilmişdir. Bu gün sözügedən təyinedici dönəmlərdən biridir. Bu gün elə dövrlərdəndir ki, Fələstin xalqının taleyi İslam dünyasının istədiyinə sarı çəkilə

bilər. Nə üçün? Çünki Fələstində bir nəsil oyanmışdır. Bir partiyanı, bir toplumu meydandan çıxarmaq olar. Bir qrup insanı cihadlarına, yaxud qorxmazlıqlarına peşman etmək olar. Amma cücərməkdə olan bir nəsli heç bir şeyin bahasına tanıdığı və üz tutduğu yoldan daşındırmaq olmaz. Bu gün vəziyyət belədir. Bu gün Fələstin məsələsinin yükünü çiyninə almış bu nəsil oyanmış və həqiqəti dərk etmişdir. Həqiqət nədir? Həqiqət budur ki, dünyanın güclüləri, siyasətçiləri və sərvətliləri bir zaman kəsiyində bir xalqı yer üzündən məhv etməyə və bir ölkəni coğrafi xəritədən xaric etməyə qərar verdilər və öz gümanlarına əsasən bunu bacardılar; bəzilərini öldürdülər, bəzilərini qovdular, bəzilərini əzdilər, elə bildilər məsələ bitdi. Halbuki bir xalqı - özü də Fələstin xalqı kimi parlaq keçmişli, zəngin və dərin İslam mədəniyyətinə malik olan, arasında parlaq istedadların mövcud olduğu bir xalqı (fələstinlilər dəyərli xalqdırlar, onların arasında istedadlı insanlar və böyük şəxsiyyətlər az deyil) dünya güclərinin - İngiltərənin, Amerikanın, sionistlərin, filan kompaniya sahibinin və filan qüdrətli beynəlxalq təşkilatın məhv etmək istəməsi mümkün deyil; necə ki, olmadı.

Bu gün işin idarəsi böyük güclərin əlindən xaric olmuşdur. İslamın, İslam dalğasının və İslam oyanışının əleyhinə mərkəzləşdirilmiş bütün fəaliyyətlərə rəğmən, istər Asiyada, istərsə də Afrikada bu İslam dalğası və İslam oyanışı günbəgün denişlənməkdədir və onlar daha bir iş görə bilmirlər. Bu sizin inqilabınıza, mərdanə, möminсəsinə və qorxmaz qiyamınıza görədir. Onun bir nümunəsi Fələstin intifazəsidir. Bu işin idarəsi böyük qüvvələrin əlindən xaric olmuşdur. Fələstin xalqı öz küçələrində və şəhərlərində mühasirəyə alınmış və ən vəhşi düşmənlə qarşı-qarşıya dayanmışdır. Orada hər bir əsgər o fələstinlinin düşmənidir. Belə deyil ki, əsgər onların özündən olsun; mehribanlıqla, məhəbbətlə, gül verməklə və gül almaqla problemi həllə edə bilsinlər. O əsgərin özü intifazə edən həmin fələstinli gəncin şəxsi dümənidir. Belə bir xalq bağlı bir mühitdə, bu qədər iqtisadi problemlər, bu qədər xəsarət və şəhadətlər içində dayanmışdır və geri çəkilmir. Bu nəyi göstərir? Bu onu göstəriri ki, işin idarəsi hegemonçu və yekəxana güclərin əlindən çıxmışdır.

## *Fələstin konfranslarında əməli nəticələrə çatmağın lazımlığı*

Ümidvaram ki, Allah-Taala İslamı müdafiə etməkdə bizim hamımıza uğur versin, sizin bu toplantınız inşallah mübarək toplantı olsun. Fələstin məsələsi barəsində müzakirə üçün oturduğunuz saatlarda və günlərdə əməli yollar axtarın və onlarla məşğul olun. Hər kəs öz vəzifəsini həqiqətən tanısın və ona uyğun əməl etsin. Əməlin müqəddiməsi olmayan təkcə söz bizim üçün yaxşı təcrübə deyil. Yalnız vədlərə və sözlərə əməl etməyin sayəsində inşallah nəticələrə çata biləcəyik.

## *Fələstinin azadlığı üçün iclas keçirməyin səmərəsi*

Belə bir iclas keçirmək qərarı mübarək bir işdir və inşallah müsəlman Fələstin xalqının qiyamını müdafiə etmək üçün İslam cəmiyyətlərinin səfərbərliyində müsbət və qurucu təsirlərə malik olacaq. Bu növ toplantılar praktiki olaraq sübut edir ki, Fələstin bütün İslam dünyasına məxsus olan bir İslam mövzusudur. Onun işğalı beynəlxalq istismarçıların - keçmişdə İngiltərənin və indi də Amerikanın İslam dünyasını zəiflətmək və onda təfriqə yaratmaq üçün şeytani təxribatlarının əsas sahələrindən biri olmuşdur.

İslamın düşmənləri müsəlmanları istismar etmək üçün həmişə milli bölgülərlə söz birliyinə mane olmağa çalışmışlar.

## *Fələstin məsələsinin həll yolu: müqavimət və mübarizə*

Mənim sözüm budur ki, bu müqaviməti, bu ruhiyyəni xalqda bacardığınız qədər möhkəmlətməlisiniz. Siz haqlı olaraq dediniz ki, Fələstin məsələsinin yeganə həll yolu müqavimət və mübarizədir. Bu düzgündür, lakin bu müqavimət və mübarizə bu xalqın əhval-ruhiyyəsini qorumağa, bu xalqın ümidini qorumağa, xalqı səhnədə saxlamağa bağlıdır. Mənim fikrimcə bu, fələstinli qurpların, Fələstin təşkilatlarının və Fələstin mübarizlərinin görməli olduğu ən böyük işdir. Bu gün hər iki tərəfdən - istər sionist düşmən tərəfindən, istər o biri tərəfdən Qəzzəyə edilən bu hücumlar xalqı müqavimətdən daşındırmaq məqsədi güdür. Qərb sahillərində xalqa göstərilən təzyiqlər - istər qəsəbə salmaqda, istər Qüds məsələsində... istər o qəribə şiddətlərdə, istər sədd çəkməkdə və bu kimi işlərdə edilən təzyiqlər xalqı müqavimətdən uzaqlaşdırmaq və təslimçilik seçiminə

sarı sövq etmək üçündür. Buna imkan verməməliyik. Bunun baş verməsinə imkan verməməlisiniz. Fələstin xalqını, Qəzzə xalqını, bu müqavimətli və polad xalqı ümidvar saxlamalısınız. Bilməlidirlər ki, onların bu əzəmətli hərəkəti nəticəyə çatacaq. Bu bir məqamdır və mənim fikrimcə çox mühümdür.

İsrail sübut etmişdir ki, güc dilindən başqa bir şey anlamır. Onunla bir xalqın və bütün dünyadakı İslam ümətinin qüdrəti dilindən başqa bir yolla danışmaq olmaz. Siz İslam xaqlarının nümayəndələrisiniz. Siz Fələstin xalqının nümayəndələri, parlamentlərin nümayəndələri, xalqların nümayəndələri buraya toplaşmısınız ki, Fələstinə dair qərar qəbul edəsiniz. Qərar Fələstinin xilası olmalıdır, başqa bir şey yox. Bunun da yalnız bir yolu var; o da Fələstinin müqəddəs intifazə qüvvələrinin tanıdığı və izlədiyi yoldur; Fələstin torpaqları daxilində mübarizə yolu. Çarə yalnız budur.

## *Müsəlmanlarda sülh yerinə mübarizə təfəkkürünün qoyulması*

Bu gün dünyanın bütün müsəlmanları Fələstin xalqının bu taleyüklü mübarizələrinə göz dikmiş və ona birinci intifazədən daha artıq könül vermişlər. Çünki o zaman - yəni on il öncə regionda sülh şəraiti tədricən yayılmışdı; bəziləri Amerikaya könül vermişdilər, bəziləri beynəlxalq ajiotaj və siyasi təzyiq qarşısında durmağın mümkün olmadığına inanıb Amerika və İsrailin şərtləri ilə sülhü qəbul etməkdən başqa bir yolun olmadığını düşünürdülər. O zaman regionda baş verən dəyişikliklərdən sonra bu nəzəriyyənin möhkəmlənməsinə daha artıq şərait yarandı. Lakin bu il bu konfrans elə bir şəraitdə keçirilir ki, regionda sülh həlli yolu çıxılmaz vəziyyətdə qalmışdır. Hətta Amerikaya könül verənlər və verməkdə olanlar da bu çıxılmaz vəziyyəti etiraf edirlər.

1991-ci ildə ərəblər və müsəlmanlar Fars körfəzi müharibəsi hadisəsində ardıcıl məğlubiyyətlər silsiləsinin ardınca məyus oldular. Onların daxili birliyi də ciddi sarsıntıya məruz qaldı və onlara təfriqə hakim oldu. Lakin indiki şəraitdə, xüsusən də Livanın cənubunda İslam müqavimətinin tarixi və əzəmətli qələbəsinin şüasında müsəlmanların qəlbində yeni və həyatverici ümidlər peyda olmuşdur.

O zaman İsraillə rəftar tərzinə dair həmişə iki yol irəli sürülürdü: Ərəb ordularının İsraillə hərbi qarşıdurması - deylirdi ki, onda bütün təcrübələr məğlubiyyətə uğramışdır - və sülh yolu. Sülh yolu dinc şəkildə İsrailin istəklərinin həyata keçməsinə səbəb olurdu və bəzi işğal olunmuş ərazilərdən geri çəkilməyin qarşısında ərəb ölkələrinin hərbi gücünün inkişaf etməməsini təzmin edirdi. Biz bunun bənzərinə Kemp Deyviddə şahid olduq. O günlərdə müqavimət örnəyi irəli sürülmürdü və deyilirdi ki, ümumi şəkildə qəbul olunmur. Lakin indi bizim qarşımızda olan uğurlu bir örnəkdir. O, ilk dəfə olaraq işğal olunmuş torpaqları İsrailə heç bir imtiyaz vermədən azad edə və sionizm rejiminin bu ərəb ölkəsinin – yəni Livanın paytaxtında öz bayrağını ucaltmaq istəyinin həyata keçməsinə mane ola bildi. Kemp Deyviddə İsrailin geri çəkilməsinin şərti Misir ordusunun Sinayın şimalına ezam olunmaması idi, lakin Livanın cənubunda həmin İsrail İslam müqavimətinin qüvvəsindən nigaran halda yalvararaq Livan ordusunun Fələstin və Livan sərhədinə ezam olunmasını istəyir. Yəni müqavimət hakimiyyəti kamil şəkildə Livanın cənubuna və digər işğal olunmuş bölgələrə qaytarmağı bacardı.

## *İşğalçı rejimlə mübarizənin ümumi xətti*

İşğalçı rejimlə mübarizənin ümumi xətti bu olmalıdır:

a) İşğalçı rejimi işğal olunmuş torpaqların sərhədləri daxilində həbs etmək, onun iqtisadi və siyasi tənəffüs şəraitini daraltmaq və onun ətraf mühitlə əlaqələrini qırmaq;

b) Fələstin xalqının ölkə daxilində müqavimət və mübarizəsini davam etdirmək və son qələbəyə qədər onlara lazım olan hər növ köməyi göstərmək.

## *Problemlərin həllinin açarının güclülərin yox, xalqların əlində olması*

Son qırx ildə işğalçı rejim tərəfindən Fələstin ölkəsinə və xalqına qarşı edilənlər təcrübə üçün kifayətdir. Bu, dünyanın hakim qüvvələrinə və onların regiondakı əlatılarına üz tutmaq yolunun Fələstinin xilasına heç bir ümid verməyəcəyini sübut etmək üçün kifayətdir.

Bizim böyük İslam inqilabımız göstərdi ki, böyük problemlərin həllinin açarı xalqların öz əlində və insanların iradəsindədir. Onlar Allaha güvənmək və ilahi vədə inanmaqla hakim qüvvələrin planlarına və istəklərinə qalib olacaqlar. Bu gün dünyanın müxtəlif yerlərində baş verən hadisələr göstərir ki, xalqların rolu öncəkindən artıq sübuta yetmişdir. Fələstini işğal edən sionizm rejiminin yırtıcılığı qarşısında dayana bilən və özünün mərd müqaviməti ilə düşməni geri çəkilməyə və məğlubiyyəti qəbul etməyə vadar edə bilən yeganə qüvvə Fələstin xalqının iradəsidir.

## *Fələstin səfərbərliyi*

Bu gün bu hərbi-mədəni ekskursiya elə bir halda təşkil olunmuşdur ki, İslam ümmətinin çoxlu gəncləri Fələstinin və şərafətli Qüdsün özündə cihad bayrağını ucaltmış, öz canları, bədənləri və həyat sərvətləri ilə öz izzətlərini, heysiyyətlərini və varlıqlarını müdafiə edirlər, cihad edirlər və əziz Fələstin ölkəsindən xaricdə - digər İslam ölkələrində onların adı və xatirəsi ilə və onlarla həmrəylik olaraq şüar verirlər, öz mövqelərini elan edirlər. Sizin böyük ekskursiyanız burada belə bir şəraitdə təşkil olunmuşdur.

Mənim əzizlərim! Fələstində də Bəsic var. Fələstin Bəsici bu gün dünyanın diqqətini özünə yönəltmişdir. Fələstin məsələsinin taleyi bir neçə siyasətçinin əlində olanda, onda xalqın rolu olmayanda, gənclərin sözü keçməyəndə tale gördüyünüz olur: rəzillik ardınca rəzillik, geri çəkilməyin ardınca geri çəkilmək, düşmənə meydan vermək, biri o birindən sonra səngərləri hegemonçu, təcavüzkar, üzlü və həyasız düşmənin xeyrinə boşaltmaq. Bu o zamandır ki, xalq səhnədə deyil; xalqı kənara qoydular, xalqı cəlb edən həqiqi maraqları - yəni iman maraqlarını unutdular və Fələstin məsələsini on illərlə geriyə saldılar.

## *Fələstin xalqının müqaviməti: İsrailin yolunun səddi*

Fələstin xalqı güclü və qüvvətlidir; bunu göstərmişdir. Fələstin xalqı göstərdi ki, müqavimət qüvvəsi var, onda maraqlar dərindir və şübhəsiz, qaniçən və qəddar hücumçuların dişlərini qıracaq. Bu günə qədər də öz müqaviməti və möhkəmliyi ilə qondarma və işğalçı sionizm dövləti üçün son əlli il ərzində görünməyən əzəmətli və həlledilməz problem vücuda gətirmişdir. Sionistlərin və onların

himayədarlarının Fələstin xalqına - bu məzlum və təngə gəlmiş xalqa göstərdiyi təzyiq ona görədir ki, bunların hərəkəti və qiyamı hegemonluğun və müstəmləkəçiliyin maşınına bütün hesabları pozan çay daşı atmışdır.

Əlbəttə, İslam dünyası bu məsələyə ciddi gözlə baxmalı, onu nəzərdən qaçırmamalı, qarşısında öz vəzifəsini tanımalı və ona əməl etməlidir. O zaman iş düzgün üsulla gedəcək və inşallah üfüq aydınlaşacaq.

## *Müqavimət sionistlərin geri çəkilməsinin amili kimi*

Sonrakı məsələ Fələstin məsələsidir. Sionistlərin otuz səkkiz illik işğaldan sonra Qəzzədən geri çəkilmələri çox mühüm hadisədir. Bilməniz maraqlıdır ki, bu geriçəkilmə sionizm rejiminin etidiyi bir seçim deyildi. Bu bir məğlubiyyət və məcburiyyət idi, çarəsizlikdən baş verdi. İndi bu məğlubiyyətin psixoloji təzyiqi sionist xalqın və dövlətin bütün sütunları üzərinə təsir qoymuşdur və onları tərpətməkdədir. Onların bəzisi küsür, bəzisi etiraz edir. Bir neçə gün öncə Tel-Əvivdə iki yüz min nəfərlik bir mitinq keçirildi. Onlar təlatümdədirlər. Lakin çarələri yoxdur. Bəziləri bu geriçəkilmənin müzakirə səbəbindən baş verdiyini inandırmaq istəyirlər. Bu çox uşaqcasına sözdür. Fələstinin işğalının yetmişillik işğalı boyunca sionistlər müzakirə ilə işğal olunmuş bir metr torpaqdan da geri çəkilməyiblər. Nə müzakirəsi?! Bu geriçəkilmə fələstinlilərin müqavimətinə görə idi. Birinci hadisə Livanın cənubundan gerikəkilmə və qaçma idi. Bu da müqavimətin təsirindən yaranan ikinci hadisədir. Fələstin xalqı bilsin, Fələstinin cihad qrupları bilsinlər və bu tələyə düşməsinlər ki, guya müzakirə Qəzzəni azad etdi. Xeyr, müzakirə Qəzzəni azad etmədi. Heç bir başqa yeri də azad etmədi. Heç zaman da heç bir yeri azad etməyəcək. Qəzzəni azad edən Fələstin xalqının müqavimət təzyiqi olmuşdur. Onlar çarəsiz qaldılar.

## *Müqavimət - qələbə amili*

Müsəlmanlar həmkarlıqla, Quran və sünnənin söylədiyi müştərək əsaslar üzərində dayanmaqla bu neçəbaşlı şeytan qarşısında dayanıb onu öz iradə və imanlarına məğlub etməyə qadir olacaqlar. İslam İranı Böyük İmam Xomeyninin dərslərini örnək götürməklə bu

uğurlu müqavimətin bariz nümunəsi olmuşdur. Onlar İslam İranında məğlub olmuşlar. Otuz il hiylə, təxribat, düşmənçilik, çevriliş və digər bütün işlər düşmənin məğlubiyyətinin, zəifləməsinin və sərgərdanlığının səhnələrinə çevrildi və "həqiqətən şeytanın hiyləsi zəifdir" ayəsi iranlıların gözü qarşısında növbəti dəfə canlandı. Başqa hər hansı bir yerdə də iradə və imandan qaynaqlanan müqavimət xalqı iddialı hegemonçularla qarşılaşmaya çəkdisə, qələbə möminlərin, məğlubiyyət və rüsvayçılıq isə zalımların qəti taleyi oldu. Livanda otuz üç günlük aşkar zəfər və Qəzzənin son üç ildə fəxrli və qalib cihadı bu həqiqətin canlı şahididir.

## *Fələstinin xilası üçün çəkilən zəhmətlərin uğursuz olmasının səbəbi: İslama arxalanmamaq*

Bu müddətdə bu xalqın qurtuluşu üçün çoxlu insanlar və qruplar mübarizə aparmış, yaxud bunu iddia etmişlər, amma heç zaman bir düyün açılmamışdır; düyünlər hətta daha bərkimişdir.

Əsas səbəb bu olub ki, Fələstin xalqı özünü müdafiə edə bilməyib, yaxud İslam dünyası Amerikanın və Qərbin işğalçı dövləti müdafiə etmək təxribatını zərərsizləşdirməyə aciz olmuşdur. Uğursuzluqların əsas səbəbi əvvəla Fələstin xalqının İslam kimliyini unutması və ötən onillər boyunca İslama və İslam cihadına arxalanmaması, ikincisi isə bəzi ərəb ölkələrinin başçılarının və hətta fələstinlilərdən olan başçıların və şəxsiyyətlərin xəyanəti olmuşdur. Bu gün Allaha həmd olsun ki, Fələstin xalqının işğal olunmuş vətən daxilindəki mübarizələrində İslam inancı və cihadı ünsürü dirçəlmişdir və bu üzdən də Fələstində qüdrət çəkisi keçmişə nisbətən fələstinlilərin xeyrinə dəyişmişdir.

## *Fələstinin dərdinin dərmanı: İslam və söz birliyi*

Əfqan mücahidlər İslamın və söz birliyinin sayəsində əcnəbi ordunu qova bildilər. Əgər yenə də bu iki amilə arxalansalar, o ölkədə özlərinin istədikləri ləyaqətli hökuməti təşkil edib indiki asılı rejimi devirə bilərlər. Bu iki amil eynilə Fələstin və Livanın da bütün dərdlərinin və problemlərinin əlacıdır.

## *İmanın sayəsində günbəgün artan iqtidar*

Növbəti məqam budur ki, bizim Fələstin məsələsində müşahidə etdiyimiz bu inkarolunmaz nailiyyətlər hegemonçu və küfr cəbhəsi qarşısında müqavimət cəbhəsinin günbəgün artan iqtidarını göstərir. Bu, aydın bir məsələdir. Bu sahədə görünənlər Allaha imandan, Allaha təvəkküldən və mübarizəyə mənəviyyat ünsürünü daxil etməkdən irəli gəlir. Əgər bir mübarizə iman ünsürü ilə yanaşı olmasa, təhlükəyə uğrayar. Mübarizə o zaman müvəffəqiyyət qazanacaq ki, onda Allaha iman, Allaha təvəkkül mövcud olsun. Siz xalqda din ruhiyyəsini, ilahi vədlərə həqiqi imanı və Allah-Taalaya təvəkkülü gücləndirməlisiniz. Allah-Taalaya və ilahi vədə qarşı nikbinliyi xalqda gücləndirin. Bizim özümüz də Allah-Taalaya nikbin olmalıyıq. Allah-Taala ən doğru danışandır. O bizə deyir: "Allah Ona yardım edənlərə, şübhəsiz ki, yardım edər". O bizə buyurur ki, kim Allah üçün olsa, Allah da onun üçün olar. O deyir ki, düşməndən qorxmayın, şeytanın hiyləsi həqiqətən zəifdir. O bizə bunu təlqin edir, bəyan edir. Allah-Taala doğruçudur. Biz əgər bu yolda öz vəzifəmizə əməl etsək, Allah üçün hərəkət etsək, Allah üçün mübarizə aparsaq, məqsədi Allahın razılığı seçsək, şübhəsiz, qələbə bizə nəsib olacaq.

## *Fələstinin azadlığının müqavimətlə şərtlənməsi*

Mən sizə deyirəm: Fələstin xalqının öz hüquqları uğrunda qələbəsi İran xalqının İranda İslam Respublikası qurmaq qələbəsindən çətin deyil. Tağutun bu ölkədə hakim olduğu zaman əgər kimsə dünyanın və regionun vəziyyətinə baxsaydı, burada tağut rejiminin dəyişilməsinin və özü də bir İslam quruluşuna çevrilməsinin qətiyyən imkansız olduğunu deyərdi. Bu, qeyri-mümkün görünürdü, təbii meyarlara görə, adi meyarlara görə belə bir şey mümkün deyildi. Amerikanın bu regionda sözsüz qüdrəti vardı, qeyd-şərtsiz olaraq şah rejimini müdafiə edirdi. Burada mübarizlər üçün də heç bir imkan yox idi - yəni mübarizə zamanı bizim imkanlarımız bu gün sizin Qəzzə, yaxud qərb sahillərində olan imkanlarınızdan çox az idi. Amma eyni zamanda bu baş verdi. Bu qeyri-mümkün iş mümkün oldu və həyata keçdi; mübarizənin davamı sayəsində, Allaha təvəkkül sayəsində, Böyük İmamımızın iradəli və qətiyyətli rəhbərliyi sayəsində. Mən deyirəm ki, Fələstində

də bunun baş verməsi mümkündür. Bəzi adamlar vəziyyətə baxırlar, Amerikanın gücünə baxırlar, Qərbin sionistlərə dəstəyinə baxırlar, sionistlərin Amerikada və dünyanın digər yerlərində maliyyə şəbəkələrinin gücünü, təbliğatlarının gücünü görürlər. Düşünürlər ki, Fələstini fələstinlilərə qaytarmaq imkansız bir işdir. Mən deyirəm ki, xeyr, bu imkansız iş müqavimət və dirəniş şərti ilə mümkün olacaq. Allah-Taala buyurur ki, buna dəvət et və əmr edildiyi kimi möhkəm dayan. Müqavimət lazımdır, dirəniş lazımdır, yolu davam etdirmək lazımdır. Yolu davam etdirməyə lazım olan işlərdən biri sizin bu toplantılarınızdır, sizin həmrəyliyinizdir, sizin beynəlxalq təbliğatınızdır. Bunlar dünyanın ümumi rəyini zəhərləyiblər.

## *Allahın dünyada mübarizlərə yardımı*

Bir çox ərəb hökumətləri Qəzzə hadisəsində və ondan öncəki digər hadisələrdə çox pis imtahan verdilər. Nə zaman Fələstin məsləsindən söz düşdüsə, daim dedilər ki, Fələstin məsələsi ərəb məsələsidir. Əməl zamanı çatdıqda isə Fələstin məsələsi ümumiyyətlə kənara qoyuldu. Fələstinə kömək etmək əvəzinə, fələstinliyə kömək etmək və özlərinin ərəb qardaşlarına - əgər İslama etiqadları yoxdursa, ən azı özlərinin ərəb olmalarına sadiq olsunlar - kömək etmək əvəzinə hamısı meydandan geri çəkildilər; çox pis imtahan verdilər. Bunlar da tarixdə qalacaq. Bu cəzalar yalnız axirətə məxsus deyil, dünyada da belədir. Necə ki, Allahın mübarizə aparan sizlərə yardımı oraya məxsus deyil. Burada oxunan və cənab Xalid Məşəlin də təkrarladığı bu ayədə mələklər deyirlər: "Biz dünyada da, axirətdə də sizin dostlarınızıq". Buna əsasən, yalnız axirət üçün deyil, dünyada da Allahın mələkləri və Allahın mənəvi qüvvələri "Rəbbimiz Allahdır" - deyib sonra möhkəm dayanan şəxslərə kömək edirlər. İndi biz onların yardımını dünyada gözlə görməkdəyik; öz gözlərimizlə müşahidə etməkdə və görməkdəyik. Allahın mələkləri səkkizillik müdafiədə bizə də kömək etdi. Biz bu köməyi öz gözlərimizlə gördük. İndi maddiyyata qərq olmuş bir insan inanmırsa, inanmasın. Biz bu yardımı gördük. Bu gün Allahın mələkləri bizə kömək etməkdədirlər. Bu gün də biz Allahım yardımı ilə dayanmışıq. Bizim hərbi gücümüz Amerika ilə müqayisə olunası deyil. İqtisadi gücümüz, maliyyə imkanlarımız, təbliğat imkanlarımız, siyasi fəaliyyət dairəmiz Amerika ilə

müqayisə olunası deyil. Amma eyni zamanda biz Amerikadan güclüyük. O daha pullu olsa da, daha silahlı olsa da, onun təbliğat imkanları daha çox olsa da, onun maliyyə və siyasi imkanları daha çox olsa da, eyni zamanda o daha zəifdir və biz daha güclüyük. Bizim güclü olmağımızın dəlili budur ki, Amerika ilə qarşılaşdığımız bütün bu sahələrdə o addım-addım geri çəkilir, biz isə geri çəkilmirik, biz irəliləyirik. Bu əlamətdir. Bu, İslamın sayəsindədir. Bu, ilahi yardımın və Allahın mələklərinin köməyinin sayəsindədir. Bizim bunlara etiqadımız var, bunlara inanırıq, bunları öz gözümüzlə görməkdəyik.

## *Həll yolu: birlik*

Bu gün İslam ümmətinə hər şeydən çox birlik lazımdır; birlik əldə edək, sözümüzü bir edək, qəlbimizi bir edək. Bu, böyük müsəlman ümmətində təsir imkanı olan bütün şəxslərin hər birinin vəzifəsidir. İstər hökumətlər, istər ziyalılar, istər alimlər, istər müxtəlif siyasi və ictimai fəalların hər biri İslam ölkələrinin hər hansı birində olsalar, İslam ümmətini oyatmağa, bu həqiqətləri onlara deməyə, İslam düşmənlərinin yaratdığı bu acı vəziyyəti onlara aydınlaşdırmağa və izah etməyə, onları vəzifəni yerinə yetirməyə dəvət etməyə borcludurlar. Bu bizim hamımızın vəzifəmizdir.

## *İmam Hüseynin (ə) hərəkəti: Fələstin məsələsinin həllinə örnək*

İmam Hüseyn (ə) bu hərəkəti etməli idi ki, belə bir şəraitdə müsəlman üçün iş formulunun nə olduğunu göstərsin. Nümunəni sonrakı əsrlərin bütün müsəlmanlarına göstərdi, bir proqram yazdı. Lakin Hüseyn ibn Əlinin (ə) proqramı boşboğazlıq və uzunçuluq proqramı, "əmr et və özün otur" proqramı deyildi, əməli proqram idi. Onun özü hərəkət etdi və göstərdi ki, yol budur. O, Peyğəmbərin (s) dilindən söyləyir ki, siz İslamın kənara qoyulduğunu, zalımların xalqa hakim olduğunu, Allahın dinini dəyişdiklərini, fasiqliklə və günahla xalqla rəftar etdiklərini gördüyünüzdə, bu vəziyyətin qarşısında dayanıb qiyam etməyən sakit və laqeyd şəxslə Allah-Taala onun haramlarını halal edən şəxs kimi rəftar edəcək. Bu proqramdır. İmam Hüseynin (ə) qiyamı budur. Bu qiyam yolunda

dünyanın ən üstün canı olan İmam Hüseynin (ə) pak, mübarək və dəyərli canı qurban olsa da, İmam Hüseynə (ə) görə çox baha deyil; İmam Hüseynin (ə) sahəbələri olan ən yaxşı insanların canı da qurban olunsa, İmam Hüseynə (ə) görə ağır qiymət sayılmır. Allah ailəsi, Peyğəmbər (s) hərəmi və Zeynəb kimi bir şəxsiyyət əcnəbilərin əlində əsir olsa da - Hüseyn ibn Əli (ə) bilirdi ki, bu biyabanda öldürüldükdə onlar bu qadın və uşaqları əsir edəcəklər - bu əsirlik və ağır qiyməti ödəmək İmam Hüseynə (ə) görə bu məqsəd üçün ağır deyildi. Bizim ödədiyimiz qiymət bu ödənişlə İslam üçün, müsəlmanlar üçün, İslam ümməti və cəmiyyət üçün əldə olunanla ölçülməlidir. Bəzən insan yüz tümən xərcləyir, amma israf etmiş olur. Bəzən isə yüz milyard xərcləsə də, israf etmiş olmur. Baxmaq lazımdır ki, qarşılığında nə alırıq.

İslam inqilabı bu proqrama əməl etmək idi. Bizim Böyük İmamımız bu proqrama əməl etdi. Bir qrup yaxıngörən və dayaz düşüncəli insan - sözsüz ki, onlar yaxşı insanlar idilər, pis adamlar deyildilər, biz bunları tanıyırdıq - o zaman deyirdilər ki, o bu gəncləri meydana gətirdi, bizim ən yaxşı gənclərimiz ölümə verilirlər, qanları tökülür. Elə bilirdilər ki, imam bu gənclərin canının təhlükəyə düşdüyünü bilmir. Ona ürəkləri yanırdı. Bu, hesabın düzgün olmamasından irəli gəlirdi. Bəli, məcburi müharibədə biz bu qədər şəhid verdik, bu qədər əlil verdik, bu qədər ailələr dağlandılar. Bu böyük qiymətdir; amma qarşılığında nə oldu? Qarşılığında ölkənin müstəqilliyini, İslam bayrağını, İslam İranının kimliyini o əzəmətli tufan qarşısında qoruduq. Yaratdıqları o tufan Səddamın tufanı deyildi. Səddam düşmən cəbhəsinin önündəki əsgər idi. Səddamın arxasında bütün küfr və imperializm dünyası dayanmışdı. Əgər əvvəldən bu təxribata qoşulmadıqlarını fərz etsək də, davamda aşkar və aydın idi. Hamılıqla Səddamın arxasında durdular. Amerika gəldi, ozamankı sovetlər gəldi, NATO gəldi, mürtəce və imperializmə bağlı ölkələr gəldilər; pul verdilər, informasiya verdilər, plan verdilər, təbliğat apardılar. Bu əzəmətli cəbhə böyük İranı, rəşadətli, şücaətli və mömin İranı bütünlüklə məhv etməyə gəlmişdi. Hegemonluq üçün əlaltı bir məntəqəni birinci növbədə Səddam kimi əskik və kiçik bir ünsürə məğlub etsin və sonrakı mərhələdə də Amerikanın əlində və caynağında saxlasın. İki yüz il boyunca bizim ölkəmizin başına gətirdikləri və bu xalq üçün bütün bu problemləri düzəldən müsibəti daha yüz il, iki yüz il

davam etdirsinlər. Bizim xalqımız dayandı, Böyük İmam dayandı. Əlbəttə, əziz canlar verdik, böyük şəhidlər verdik, sevimli gəncləri fəda etdik. Amma bu, o nailiyyətin qarşısında baha qiymət deyildi.

Bu gün Fələstin məsələsi də elədir. Sizin müşahidə etdiyiniz Qəzzə hadisəsi məsələnin zahiri tərəfinin bir hissəsidir, kökü isə bundan ibarətdir ki, heç bir insani prinsipə inanmayan imperialist qurum bu Orta Şərq regionunu - müxtəlif coğrafi və iqtisadi sərvətlə dolu olan bu həssas regionu əlinə almaq istəyir; vasitəsi də işğalçı İsraildir - işğal olunmuş Fələstinə hakim olan sionistlər. Məsələ bundan ibarətdir. Bu bir neçə ildə bu regionda baş verən bütün bu hərəkətlər - Livan hadisələrindən tutmuş İraq və Fələstin hadisələrinə qədər hamısı bu baxışla izah və dərk olunasıdır. Məsələ bundan ibarətdir ki, bu region Amerika da daxil olmaqla imperializmin əlində olsun; sözsüz ki, onun əsas təzahürü böyük şeytan olan Amerika dövlətidir. İmperializm bu regionu əlinə keçirmək istəyir. Bu region ona lazımdır və bu işdə amili də İsraildir. Bu bir neçə ildəki bütün bu dastanlar və hadisələr bu baxışla təhlil olunur. Gördünüz ki, otuz üç günlük müharibədə Amerikanın Xarici İşlər Naziri dedi: "Bu, yeni Orta Şərq regionunun doğuş ağrısıdır". Yəni bu hadisədən Amerikanın istədiyi Orta Şərqdən ibarət olan yeni bir məxluq doğulacaq. Əlbəttə, bu pərişan yuxunun təbiri başlarına gələn idi. Livanda mömin gənclərin cəsurluğu, ayıqlığı, fədakarlığı və cihadı yalnız İsrailə yox, hətta Amerikaya, onların himayədarlarına və ardıcıllarına da zərbə vurdu. Qəzzə hadisəsi də bu qəbildəndir.

## *Yeganə yol: Mübarizə*

Bu sionistlər güc dilindən başqa bir şey anlamırlar. Qırx ildir Birləşmiş Millətlər Təşkilatı Fələstin məsələsinə dair sionistlərin əleyhinə nə qədər qətnamə qəbul etmişsə, bunlar rədd etmişlər. Bunlar ərköyün olmuşlar, böyük güclərin, xalqların və hökumətlərin sükutunu və güzəştini görüb cürətlənmişlər. Onlar qətnamədən qorxmurlar. Məgər İsraili qətnamə ilə geri çəkmək olar?! İsrail zorla, silahla və yumruqla geri oturacaq.

# Altıncı bölmə: Qəhrəmanlar

## *Şəhid Şeyx Əhməd Yasin*

### Şeyx Əhməd Yasinin şəhidliyi münasibəti ilə başsağlığı

Bismillahir-Rəhmanir-Rəhim.

Xəbər aldıq ki, işğalçı sionizm rejiminin günahkar əli böyük bir cinayət törətmiş və Həmas hərəkatının banisi və rəhbəri olan mücahid alim mərhum Şeyx Əhməd Yasini şəhid etmişdir. Şəhidlik şübhəsiz, bu mücahid və zahid şeyxin həmişəlik arzusu idi və Allah yolunda öldürülmək onun ixlaslı bəndələrinə şirindir. Lakin bu, işğalçı sionist cinayətkarların günahının böyüklüyünü azalda və bu böyük cinayətin cəzasını yüngülləşdirə bilməz.

Şeyx Əhməd Yasinin qanı İslam müqavimətinin böyük ağacını suvarıb, fədakar Fələstin xalqının qəzəb alovunu daha da şölələndirəcək və onun məzlumluğu Fələstinin məzlumluq bayrağını dalğalandıracaq.

Bu cinayətlə Şeyx Əhməd Yasindən və Fələstin xalqından aldıqları arıq və əlil bir bədən idi. Onun düşüncəsini, onun təsvir etdiyi xətti və açdığı yolu Fələstin xalqından ala bilməyəcəklər. Şeyxin ruhu yaşayır və indi onun məzlum qanı ilə daha da əbədiləşmiş və daha dəyərli olmuş dərsi Fələstin gənclərinin, yeniyetmələrinən və gələcək nəslinin zümzüməsi olacaq. Fələstini işğal edən cinayətkarlar bilsinlər ki, onların axmaqcasına güc nümayişləri onların zəifliyinə və məğlubiyyətinə ən böyük dəlildir. İşğalçı rejim və qondarma sionizm dövləti məhvə məhkumdur. Fələstin Fələstin xalqına məxsusdur və bu danılmaz haqqın qarşısında hər bir inadkarlığın uğursuzluqdan və məğlubiyyətdən başqa taleyi olmayacaq.

"(Allah bununla) günahkarların xoşuna gəlməsə də, haqqı bərqərar etmək və batili yox etmək istəyirdi".

Mən Allah yolunun mücahidi olan bu şeyxin şəhidliyi münasibətilə onun uca ruhunu təbrik edir və Fələstin xalqına, xüsusən də Fələstinin fədakar, başıuca və mübariz gənclərinə, eləcə də onun hörmətli ailəsinə başsağlığı verirəm. Allah-Taaladan İslam ümmətinin başucalığını, fələstinli və livanlı mücahidlərin qələbəsini diləyirəm.

## *Şeyx Əhməd Yasinin terroru: İsrailin vəziyyətinin ağrılaşmasının əlaməti*

Onlar altmış ildir Fələstinə hakimdirlər. İllərlə fələstinlilərin hərəkatı və coşqusu yox idi. Amma indi sionistlərin həyatı çətinləşib, vəziyyətləri elə bir həddə çatıb ki, əlil arabası ilə gəzdirilən qoca və əlil bir ruhanin varlığına dözə bilmir; Şeyx Əhməd Yasin kimi bir şəxsə dözə bilmirlər.

İrana gələn bu qorxmaz fələstinli şeyx başdan-ayağa iflicdir; əli iflicdir, ayağı iflicdir və onurğası sınıb. O illərdir şücaətlə mübarizə aparır. Onurğası sınsa da, onu həbs edib işgəncə verdilər. Fikirləşdilər ki, bədəninə zərbə vursalar, bəlkə hiss etməz. Odur ki, üzünü qamçıladılar və ona yuxusuzluq verdilər. Bunlar terrorçu deyillər?!

## *Şəhid Doktor Fəthi Şəqaqi*

### Fələstin İslam cihadının rəhbəri Doktor Fəthi Şəqaqinin şəhadəti münasibəti ilə müraciət

Bismillahir-Rəhmanir-Rəhim.

"Biz Allahınıq və Ona tərəf qayıdacağıq!"

Fələstin İslam mübarizələrinin qanlı səhnəsi yenidən o torpağın rəşadətli və məzlum övladlarının birinin haqsız tökülən qanı ilə əlvan oldu. İman və ixlas dolu qəlblə öz evini və vətənini müdafiə üçün cihad edən bir şəxs qaniçən və qatil işğalçıların əli ilə şəhadətə qovuşdu. Şərəf və əxlaqdan uzaq olan sionistlər növbəti dəfə sübut etdilər ki, özlərinin qanunsuz məqsədləri üçün qətli və cinayəti halal və icazəli sayırlar. Mömin, şücaətli, mütəfəkkir və ixlaslı mücahid olan Şəhid Doktor Fəthi Şəqaqi son onillikdə Fələstin xalqının İslam mübarizələrinin şəfəqini yaradan, özünün bütün qüvvəsini, imkanını və indi əziz canını bu müqəddəs cihad yolunda qoyan parlaq şəxsiyyətlərdən biri idi. İslam günəşinin Fələstin mübarizələri üfüqündən məzlum Fələstin xalqına yeni can bəxş edən doğuşu elə bir zamanda başladı ki, Fələstin məsələsinin yalançı iddiaçıları sırf İslam səhnəsi olan orada İslam adını çəkməkdən ciddi şəkildə çəkinirdilər və Fələstin məsələsini İslamdan ayırmaqla bilərəkdən, yaxud bilmədən Fələstin amalını məhvə sürükləyirdilər. Bu zaman dəliqanlı, ixlaslı, mömin və mütəfəkkir gənclərin bir qrupu və

onların başında bizim əziz şəhidimiz Doktor Fəthi Şəqaqi İran İslam İnqilabından ilham alıb mərhum və əzəmətli imama eşq və hörmət dolu qəlblə İslam mübarizələrinin bayrağını ucaltdı, zəif və asılı bədxahlara rəğmən, işğalçı rejimə, Amerikaya və onun ərəb regionundakı nökərlərinə rəğmən, Fələstin cihadının solğun damarlarına qan köçürdü və sadəlövhlüklə və xoş xəyalla haqlı cihadın sona çatdığını düşünən düşməni öz zərbələrinə məruz qoydu.

İndi o mömin və ixlaslı mücahid bütün ixlaslı və doğruçu mübarizlərin arzusu olan şəhadətə nail olmuşdur. Lakin mən qətiyyətlə elan edirəm ki, bu qırmızı və fəxrli ölüm Fələstində əzəmətli İslam hərəkatının güclənməsinə səbəb olacaq və onun məzlumluğu Allah yolunda cihadda fələstinli məzlumları daha da bərkidəcək.

Mübariz Fələstin xalqı əgər Fələstin amalına xəyanət edənləri - istər tam rüsvayçılıqla özünü fələstinli adlandıranları, istərsə də qeyri-fələstinli ərəbləri bu cinayətdə və buna bənzər keçmiş cinayətlərdə sionizm rejimi başçılarının cinayətinin şəriki saymağa haqlıdır. Şübhəsiz, bu, işğalçı terrorçuların son cinayəti olmayacaq. Lakin şübhəsiz, sonda qəti qələbəyə çatan müsəlman, mübariz və məzlum Fələstin xalqının haqq cəbhəsi olacaq. Mən bu dəyərli Fələstin mücahidinin şəhidliyi münasibəti ilə bütün Fələstin xalqını, xüsusən də Fələstinin mübarək İslam Cihadı Təşkilatını, xüsusən də onun həyat yoldaşını, övladlarını, valideynlərini, digər yaxınlarını və dostlarını təbrik edir və onlara başsağlığı verirəm.

### *Fəthi Şəqaqi - bir insani dəyər yolunun şəhidi*

Mənim sionist mediasının təbliğat təsiri altında olan xalqlarla işim yoxdur, onların səhv etməsi mümkündür, kütləvi informasiya vasitələri ictimai rəyi dəyişdirirlər. Lakin dünyanın siyasi başçıları arasında Fəthi Şəqaqinin bir insani dəyər yolunun şəhidi olduğunu bilməyən yoxdur. Bu gün öz evini işğalçıların əlindən çıxarmaq üçün vuruşan bir əsgəri kim tərif və təqdir etməyə bilər?! Nə üçün azadlıq müharibələrinin sərkərdələrinə, fədakar və əlil əsgərlərə bütün dünyada hörmət göstərilir? Nə üçün naməlum əsgər qəbrinə dünyanın hər yerində simvolik bir hərəkət kimi hörmət göstərilir? Bu əsgər məgər nə etmişdir? Siz baxsanız, görərsiniz ki, Afrikada, Avropada və dünyanın hər hansı bir yerində vuruşan bu əsgər, yaxud

o sərkərdə, yaxud o müharibə əlili bu gün məzlum fələstinlilərin gördüyü işi görmüşdür, onların fədakar sərkərdələrinin və qərib şəhidlərinin gördüyü işi görmüşdür. Kim insani dəyərlərə boyun əysə, bunları səmimi-qəlbdən sevər. Lakin Şəhid Fəthi Şəqaqinin şəhadətində hegemonçu gözlərin heç biri ağlamadı, heyvani istəklərinə dikilmiş gözlərindən bir damla yaş tökülmədi. Onun qatili üçün, çoxlu cinayət törətmiş bir terrorçu üçün isə göz yaşı tökürlər.

## *Şəhid Rantisi*

Siz öz parlaq cihadınızla, dözümünüzlə və müqavimətinizlə İslam dünyasını başıuca etdiniz və nümunə xalq oldunuz. Bu böyük müsibətin ağırlığı sizin qamətinizi əymədi, şəhidlərinizin pak qanı iradənizi və müqavimətinizi daha da möhkəmlətdi. Sizin düşməniniz özünün qaniçənliyi və rəhmsizliyi ilə, öz qətli, təxribatı, insan oğurlaması və vəhşiliyi ilə sizi geri qova bilmədi. Bu gün siz həmişəkindən daha güclüsünüz. Şeyx Əhməd Yasin, Fəthi Şəqaqi, Rantisi, şəhadət istəyində olan gənclər və sizin digər məzlum şəhidləriniz kimi böyük şəhidlərin qanı indiyədək düşmənin xəncərinə qalib olmuşdur, bundan sonra da Allahın güc və qüvvəsi ilə daha artıq qalib olacaq. İran İslam Respublikasında bizlər və şübhəsiz, bütün dünyada müsəlmanların və azadlıqsevərlərin izdihamı sizin qəm və müsibətinizə şərik oluruq. Sizin şəhidləriniz bizim şəhidlərimizdir! Sizin qəminiz və qüssəniz bizim qəmimiz və qüssəmizdir! Sizin qələbəniz bizim qələbəmizdir!

# Yeddinci bölmə: Aydınlıq

## *Birinci fəsil: Şübhələr*

### Fələstinin ərəb məsələsi olmaq şübhəsi

Bir çox ərəb hökumətləri Qəzzə hadisəsində və ondan öncəki digər hadisələrdə çox pis imtahan verdilər; çox pis imtahan verdilər. Nə zaman Fələstin məsləsindən söz düşdüsə, daim dedilər ki, Fələstin məsələsi ərəb məsələsidir. Əməl zamanı çatdıqda isə Fələstin məsələsi ümumiyyətlə kənara qoyuldu. Fələstinə kömək etmək əvəzinə, fələstinliyə kömək etmək və özlərinin ərəb qardaşlarına - əgər İslama etiqadları yoxdursa, ən azı özlərinin ərəb olmalarına sadiq olsunlar - kömək etmək əvəzinə hamısı meydandan geri çəkildilər; çox pis imtahan verdilər. Bunlar da tarixdə qalacaq. Bu cəzalar yalnız axirətə məxsus deyil, dünyada da belədir. Necə ki, Allahın mübarizə aparan sizlərə yardımı oraya məxsus deyil. Burada oxunan və cənab Xalid Məşəlin də təkrarladığı bu ayədə mələklər deyirlər: "Biz dünyada da, axirətdə də sizin dostlarınızıq". Buna əsasən, yalnız axirət üçün deyil, dünyada da Allahın mələkləri və Allahın mənəvi qüvvələri "Rəbbimiz Allahdır" - deyib sonra möhkəm dayanan şəxslərə kömək edirlər.

Bəzən eşidilir ki, bəzi adamlar "Fələstin bir ərəb məsələsidir" – deyirlər. Bu sözün mənası nədir? Əgər məqsəd ərəblərin daha yaxın qohumluluq hisslərinin olduğu və daha çox xidmət və iş təqdim etmək istədikləridirsə, bu xoşagələn bir şeydir və biz buna görə təbrik edirik. Lakin əgər bu sözün mənası bəzi ərəb ölkələri başçılarının Fələstin xalqının "ey müsəlmanlar" nidasına ən az diqqət belə yönəltməmələri, Qəzzə faciəsi kimi mühüm bir məsələdə işğalçı və zalım düşmənlə həmkarlıq etmələri və vəzifə çağırışının rahat buraxmadığı digər adamların başına qışqırıb "siz nə üçün Qəzzəyə kömək edirsiniz?" demələridirsə, bu zaman heç bir qeyrətli və vicdanlı müsəlman və ərəb bu sözü qəbul etməz, onu deyəni məzəmmət və qınaqdan uzaq saymaz. Bu, Əxzəm məntiqidir; öz atasını döyürdü və kimsə müdaxilə etsəydi, onun başına qışqırırdı. Sonra da onun oğlu o babanı yumruqlayır və döyürdü. Bu, ərəblər arasında bir məsəl oldu.

## *Altmış illik bir reallığı qəbul etmək şübhəsi*

Fələstin məsələsində bəzi məsul şəxslərin etdiyi böyük sofistlik budur ki, İsrail adlı bir ölkə altmış illik bir reallıqdır və onunla razılaşmaq lazımdır. Mən bilmirəm bunlar nə üçün onların gözü qarşısında olan digər reallıqlardan dərs almırlar. Məgər Balkan ölkələri, Qafqaz və Cənub-Qərbi Asiya ölkələri səksən il kimliksizlikdən və keçmiş sovetlərin bir hissəsinə çevrildikdən sonra yenidən özünün əsas kimliyinə qayıtmadı?!

Nə üçün İslam dünyasının bir parçası olan Fələstin yenidən özünün İslam və ərəb kimliyinə qayıda bilməsin?! Nə üçün ən sayıq və ən müqavimətli ərəb gəncləri sırasında olan fələstinli gənclər öz iradələrini bu zalım reallığa qalib edə bilməsinlər?!

Bu gün bəziləri deyirlər ki, nə üçün Fələstin məsələsini müzakirə edirsiniz, bu məsələ bitmişdir. Mən deyirəm ki, Fələstin məsələsi əsla bitmiş deyil. Siz fələstinlilərin - torpaq sahiblərinin özlərinin və övladlarının həmişəlik öz torpaqlarından bayırda yaşamalarını, yaxud daxildə olsalar da, məğlub bir azlıq kimi yaşamalarını və o işğalçı əcnəbilərin orada qalmalarını güman edə bilməzsiniz. Xeyr, belə bir şey yoxdur. Yüz il bir qüvvənin işğalında olan ölkələr – indi gördüyünüz bu Qazaxıstan, indi gördüyünüz bu Gürcüstan, Orta Asiyanın yeni müstəqil olmuş bu ölkələrinin bəzisi SSRİ-nin ixtiyarında, bəzisi də SSRİ-dən öncə hələ sovetlər vücuda gəlməmiş Rusiyanın ixtiyarında idilər. İndi bunlar yenidən müstəqil olub qayıtdılar və öz xaqlarına məxsus oldular. Odur ki, bu əlçatmaz deyil və bu iş mütləq baş verməlidir. İnşallah baş verəcək və Fələstin Fələstin xalqına qayıdacaq. Deməli, məsələ bitmiş deyil. Bu səhv fikirdir.

## *Fələstin xalqının yeganə xilas yolunun İsraillə, Qərblə, yaxud beynəlxalq təşkilatlarla müzakirədən ibarət olmasına dair şübhə*

Başqa bir böyük sofistlik budur ki, Fələstin xalqının yeganə xilas yolunun müzakirədən olduğu deyilsin. Kiminlə müzakirə?! Gücdən başqa heç bir qaydaya inamı olmayan işğalçı, hegemonçu və azğın bir rejimlə?! Bu oyun və hiylə ilə özlərini ümidvar edən şəxslər nə əldə etdilər?! Onlar sionsitlərdən muxtar hökumət adlı bir şey aldılar. Təhqiramiz və həqarət dolu mahiyyətindən əlavə, o:

Əvvəla, işğalçı rejimin təxminən bütün Fələstinə malik olmasını qəbul etməkdən ibarət olan ağır qarşılıqla bitdi.

İkincisi, həmin yarımçıq və yalançı hökuməti də bir çox yerlərdə puç bəhanələrlə ayaq altında tapdadılar. Yasir Ərəfatın Ramallahda idarə binasının mühasirəsi, onun müxtəlif yollarla təhqir edilməsi və aşağılanması unudulası hadisə deyil.

Üçüncüsü, istər Ərəfatın dövründə, xüsusən də ondan sonra muxtar hökumətin məsul şəxsləri ilə öz polis rəisləri kimi rəftar etdilər. Onların vəzifəsi fələstinli mücahidləri təqib etmək, tutmaq, onların informasiya və polis mühasirəsi idi. Beləliklə Fələstinli qruplar arasında kin toxumu səpib onları bir-birinin canına saldılar.

Dördüncüsü, o qədər zəif nailiyyət də yalnız təslim olmayan kişi və qadınların qeyrətli müqaviməti və mücahidlərin cihadı sayəsində əldə edildi. Əgər intifazələr baş veməsəydi, sionistlər Fələstinin ənənəvi başçılarının onların qarşısında davamlı əskilməsi ilə bu qədərini də heç zaman onlara verməzdilər.

Yoxsa Amerika və İngiltərə ilə müzakirə? Bu xərçəng vəzisini yaratmaqda və dəstəkləməkdə ən böyük günaha onlar batıblar və özləri vasitəçi olmazdan öncə, münaqişə tərəfidirlər. Amerika dövləti heç zaman özünün sionizm rejiminə və hətta onun aşkar cinayətlərinə, o cümlədən son Qəzzə macərasına qeyd-şərtsiz dəstəyini dayandırmamışdır.

Hətta Buş hökumətinin siyasətlərində dəyişiklik şüarı ilə iş başına gəlmiş yeni Amerika prezidenti də İsrailin təhlükəsizliyinə dair qeyd-şərtsiz öhdəlikdən dəm vurur; yəni dövlət terrorizmini müdafiə, zülm və zorakılığı müdafiə, iyirmi iki gün ərzində yüzlərlə fələstinli kişi, qadın və uşağın qətliamını müdaifə. Bu elə Buş dövrünün yanlışlığıdır, ondan geri qalmır.

Birləşmiş Millətlər Təşkilatına bağlı qurumlarla müzakirə də başqa bir qısır cəhətdir. Birləşmiş Millətlər Təşkilatı bəlkə Fələstin məsələsi kimi az məsələdə belə ifşaedici və rüsvayedici sınağa məruz qalmışdır.

Təhlükəsizlik Şurası bir gün təhlükəli terror qruplarının vasitəsi ilə Fələstinin işğalını sürətlə rəsmən tanıdı, bu tarixi zülmün yaranmasında və davam etməsində əsaslı rolu oynadı. Ondan sonra bir neçə onillikdə həmişə soyqırımlar, didərgin salmalar, müharibə və o rejimin digər müxtəlif cinayətləri qarşısında razılıq sükutu etdi və hətta Baş Məclisin sionizmin irqçi olmasına dair rəy

bildirməsində də nəinki onunla razılaşmadı, hətta əməldə 180 dərəcə ondan uzaqlaşdı. Təhlükəsizlik Şurasında daimi uzvlüyü olan hegemonçu ölkələr bu beynəlxalq təşkilatdan alət kimi istifadə edirlər.

Nəticə budur ki, bu şura dünyada təhlükəsizlik işinə nəinki kömək etmir, hətta harada insan hüquqları, demokratiya, yaxud bu kimi digər məfhumlar onun daha artıq istismarçılığına vasitə olursa, köməyə gedir və onların qanunsuz işlərinə hiylə və yalandan pərdə salır.

Fələstinin xilası Birləşmiş MİllətIər Təşkilatına, yaxud istismarçı qüvvələrə və təbii ki, işğalçı rejimə dilənçiliklə hasil olmayacaq. Xilas yolu yalnız direniş və müqavimətdir; fələstinlilərin söz birliyi ilə və cihad hərəkətinin tükənməz ehtiyatı olan tövhid sözü ilə.

## *Qəzzə məsələsinin lokal olması şübhəsi*

Bu gün İslam dünyasında Qəzzə məsələsini regional, şəxsi və lokal bir məsələ hesab edən hər kəs indiyə qədər xalqların evini yıxan dovşan yuxusuna düçar olmuşdur. Xeyr, Qəzzə məsələsi təkcə Qəzzəyə aid deyil, regionun məsələsidir. Hələlik orada zəif nöqtə olduğunda hücumu oradan başlayıblar. Əgər uğur qazansalar, regiondan əl çəkməyəcəklər. Həmin regionun ətrafında olan, etməli olduqları və edə bildikləri köməyi etməyən müsəlman ölkələrinin hökumətləri səhv etməkdədirlər; səhv edirlər. İsrailin mismarı bu regionda nə qədər dərinə batsa, hegemonluğun hökmranlığı nə qədər çox olsa, bu hökumətlərin bədbəxtliyi, zəifliyi və xarlığı da bir o qədər artıq olacaq. Nə üçün diqqət yetirmirlər və hökumətlər xalqları da öz arxalarınca xarlığa sürükləyirlər? Xar, itaətkar və asılı bir hökumət bir xalqı itaətkar, xar və asılı edir. Buna görə xalqlar özlərinə gəlməlidirlər.

## *Evə yollanan çıraq şübhəsi*

Tarixi sənədlərə görə orada sionizm hökuməti təşkil etmək yəhudi xalqının arzusundan çox İngiltərə dövlətinin müstəmləkəçi istəyi idi. Bəzi sübutlar var ki, o zaman bir çox yəhudilər bu dövlətə ehtiyaclı olmadıqlarını və bu dövlətin onların xeyrinə olmadığını düşünürdülər, odur ki, bundan uzaqlaşmışdılar. Odur ki, bu bir yəhudi arzusu və ideyası deyildi, daha çox müstəmləkə ideyası və

bir ingilis ideyası idi. Əlbəttə, sonralar dünya siyasətinin və imperializmin (idarəsi) amerikalıların vasitəsi ilə İngiltərədən alındıqda, bu da müstəmləkə mirasının tərkib hissəsi idi və Amerikaya çatdı. Amerikalılar da maksimum istifadə etdilər və indi də edirlər. Buna görə Fələstinin xilası və işğalçı sionizm dövlətinin məhvi bu regionun xalqlarının, o cümlədən bizim əziz İran ölkəmizin maraqları ilə əlaqədardır. İnqilabın ilk günündən proqramlarının birini sionistlərin nüfuzu və iqtidarı ilə mübarizə edənlər bu hesabla bu işi gördülər. Bu proqram ölkənin maraqlarına, İslam Respublikasının və İran xalqının ümumi maraqlarına uyğun seçilmişdir. Digər ölkələrdə də belədir. İslam ölkələrinin bütün aydın insanları, bütün azad düşüncəli siyasətçiləri, əlləri Amerika hegemonluğunun hənası ilə rənglənməyən bütün şəxslər İsraillə mübarizə aparmalı olduqlarını düşünürlər; yəni bunu ölkələrinin maraqlarından sayırlar.

Bu gün Fələstin məsələsi İslam dünyasının məsələsidir; istər İslam ölkələrinin biz müsəlmanları bilək, istər bilməyək; istər anlayaq, istər anlamayaq. Fələstinin taleyi bizim hamımızın taleyidir. Əgər Fələstin bu gün özü üçün vücuda gətirdiyi bu şücaətli mübarizə səhnəsində uğur qazansa, bütün İslam dünyası uğur qazanacaq. Amma o xalqın əzabları nə qədər davam etsə, İslam dünyasının artan rəzilliyinə səbəb olacaq. İslam dünyası sözün həqiqi mənasında bu məsələni öz məsələsi bilməlidir. Düzdür, bizim hamımızın şəriət vəzifəmiz var və İslam Fələstin xalqına kömək etməyi bizə vacib etmişdir, lakin mənim sözüm bu gün şəriət vəzifəsindən daha genişdir. Deyirəm ki, bu gün Fələstində hansı hadisə baş versə və bu məsələ haraya sonuclansa, birbaşa istər yaxın, istər uzaq İslam ölkələrinin taleyinə aid olacaq və onlara da təsir göstərəcək. Bu gün bütün müsəlman xalqlar Fələstin üçün nə etsələr, özləri üçün və öz xeyirlərinə etmişlər. Britaniya müstəmləkəsinin planı və hegemonçu dünyanın köməyi ilə bu qanlı hissə İslam dünyasının bədənindən ayrılanda fikirləri təkcə həmin hissəni tutmaq deyildi. O zaman da müstəmləkəçilərin məqsədi bütün regiona - İslam dünyasının qəlbinə hakim olmaq idi. Buna əsasən, bu gün bizim hamımızın üzərinə vəzifə düşür.

...Bizim Böyük İmamımız məsələnin həqiqətini yaxşı tanımış və görmüşdü. 1962-ci ildə bu hərəkat başlayan zamandan, Fələstin məsələsinin İranda hələ elita arasında da yayılmadığı bir vaxtda

imamın sözü bu idi ki, İsrailin hökmranlığı qarşısında hamı təhlükə hiss etsin, hamı dayansın və mübarizə aparsın. Sonra da həmin yolu davam etdirdi və bu, o ilahi və səmavi kişinin böyük şüarlarından biri idi.

## *"Biz fələstinlilərdən daha fələstinli deyilik!"*

Mənim özümün prezidentlik dövrümdən ərəb ölkələrinin bəziləri ilə bu problemim olub. Bir söz deyirdim, amma bu ölkələrin hökumətləri deyirdilər ki, biz fələstinlilərdən daha fələstinli deyilik; onların özləri nə istəsələr, o da olmalıdır. Əlbəttə, o zaman sülh müzakirələri bu formada deyildi, lakin əlamətləri görünürdü.

Əvvəla Fələstin məsələsi İslam dünyasına aid olan bir məsələdir, siyasi, təhlükəsizlik və iqtisadi cəhətlərdən əlavə, ilahi və islami vəzifə məsələsidir. Hamısından üstünü budur ki, bir ilahi məsələdir. Amma əgər kiminsə Allaha etiqadı da olmasa və yalnız Fələstin xalqı üçün iş görmək istəsə, Fələstin xalqının nə dediyinə baxmalıdır. Bu gün Fələstin xalqı - həbs olunanları işğalçı dövlətin zindanlarında olan və on dəfələrlə çoxu xiyabanlarda, Əqsa məscidində, bazarlarda və bütün işğal olunmuş torpaqlarda şüar verib əməliyyat keçirənlərdir. Tamahlanaraq gedib sülh bağlayan kiçik bir azlıq Fələstin xalqı deyil ki, biz fələstinlilərdən daha fələstinli olmadığımızı deyək. Mənim yadımdadır, 13-14 il öncə ərəb hökumətlərindən biri - mən indi adını çəkmək istəmirəm - o zaman fəsada doğru gedən bir hökumət olduğunu göstərmirdi; çünki inqilabçı keçmişi vardı. O bu sözü dedi. Mən o zaman bunların xətdən yayındığını duydum. Sonra da yayınmaları daha da aşkarlandı. İndi daha bəzi xüsusiyyətlərini qeyd etmək istəmirik.

## *İslamın sülh dini olması şübhəsi*

Fələstin məsələsində hadisənin həqiqəti uzun illərdir İslam Respublikasının aşkar şəkildə və dəlil əsasında bəyan etdiyi mətləbdir. Beynəlxalq qüvvələrə bağlı və onların muzduru olan bir banda və qrup həmin bağlılıqlarına güvənərək gəlib Fələstin torpağını işğal etdilər. Bunu kimsə inkar edə bilərmi?! Bu gün Fələstində bizim işğal olunmuş torpaqlarımızda yaşayan bu bir neçə milyon sionistin neçə nəfəri fələstinlidir? Ataları Fələstində olub, yaxud özləri Fələstində doğulublar?! Mənfur məqsədlərlə müxtəlif

yerlərdən buraya gəlmiş və regionda imperialist qüvvələrin nüfuzunun asanlıqla genişlənməsi üçün buranı baza edən əcnəbilərdirlər. Bu, işğal deyil?! Bu zülm deyil?! Bu qınanmalı deyil?! Əgər bir qrup gedib başqasının evini, başqasının şəhərini tutsa, bu, hər hansı bir din və məzhəbin ardıcılı olan azadlıqsevərlərə, adi və insaflı insanlara görə rədd edilməsi deyil?! Əgər biz "sionistlər işğalçıdırlar, zalımdırlar" dediksə, səhv söz demişik. Torpaqları işğal olunan və məzlum edilən bir xalq uzun illər boyunca mübarizə aparıb. Öz torpaqlarını müdafiə etmək üçün mübarizə aparan şəxs terrorçudur, yoxsa qəhrəman?! İmperialist dünyanın hər tərəfindən rəsmi qurumlar sionistlərin özlərinə məxsus olan və yaxud sionizmə bağlı kapitalistlərin əlində olan təbliğatla uzun illər dayanmadan təkrarlayıblar ki, bunlar terrorçudurlar, nə üçün vuruşurlar. Nəhayət bir-iki il öncədən indiyə qədərki bu işləri hazırlayıb adını sülh qoyublar. Bu sülhdür?! O kişi də orada bizim üçün islamşünas olub deyir ki, Quran "sülh edin" demişdir. Bu sülhdür?! Bu sülhü İslam və Quran demişdir?! Biri digərinə zülm etsin və sonra məzlumu vadar etsinlər ki, onun zülmünü qəbul et. Halbuki zalım tərəfdən azca hərəkət də görünməsin, öz zülmünü azaltmasın. Bu sülhdür, yoxsa rəzillik?! Bu zülmə təslim olmaqdır. Bu müqəddəs İslam şəriətində haram və bəyənilməz buyurulan zülmü qəbul etməkdir.

### *Fələstinlilərin torpaqlarının sionistlərin vasitəsi ilə pulla alınması şübhəsi*

O vəziyyətin əksi burada baş verdi. Burada dünya güclüləri bu böyük işğala və bənzərsiz zülmə kömək etdilər. Onlar müasir dünyada və hətta keçmişdə də misli görünməyən bu hərəkətə yardımçı oldular. Daha acınacaqlısı budur ki, Fələstin xalqını öz torpaqlarından qovmaq adi şəkildə də baş vermədi. Bir zaman gəlib torpaqlarını satın alırlar, pulunu verirlər və deyirlər ki, gərək gedəsiniz. Əlbəttə, bu da zülmdür, bu da işğaldır, lakin belə də etmədilər. Gecə vaxtı gedib bir kəndi əhalisi ilə birgə yandırdılar. Kim bacardısa, özünü xilas etdi, kim qaldısa, yandı. Deyr-Yasin hadisəsi doğrudur, Kəfər Qasim hadisəsi doğrudur. Sionistlərin kəndlər yandırmaları gerçəkdir. Bu işi gördülər. Sionistlərin bu yaxınlarda cəhənnəmə vasil olan və ölümünə görə amerikalıların

təəssüfləndiyi keçmiş Baş naziri Fələstin xalqının kəndlərinin və evlərinin məhv edilməsində və yandırılmasında əli olan şəxslərdən biri idi. Dünya təbliğatı lal oldu və bu acı hadisəni demədi ki, dünya xalqı dünyanın bu küncündə nə baş verdiyini anlamasın. Köməksiz və məzlum bir xalq zorakılıqla, quldurluqla, yalanla və hiylə ilə üz-üzə qaldı. Bu yalan, hiylə, zorakılıq və quldurluq bu günə qədər də davam edir.

### *İsrailin məhvinin mümkün olmaması şübhəsi*

Biz öz müasir tariximizdə elə ölkələr tanıyırıq ki, əlli, yaxud altmış il xalqlarından qeyrilərinin yaratdığı dövlətlərin ixtiyarında olublar. Sonra dünyanın vəziyyəti dəyişib və işğalçılar kənara çəkiliblər. SSRİ-nin parçalanması ilə siz gördünüz ki, nə qədər ölkə öz sahiblərinə və xalqlarına qayıtdı. Bu, dünyada mümkündür və yeni bir şey deyil. Bizim öz dövrümüzdə və bizim gözümüzün önündə baş vermişdir. Bu mümkündür, baş verməlidir, gec, yaxud tez baş verəcək.

### *Fələstin xalqının nasibi olması şübhəsi*

Baxın, Fələstini müdafiə məsələsində - bu bir misaldır - heç bir ölkə və heç bir hökumət İslam Respublikasının tozuna çatmadı. Bunu bütün dünya təsdiqlədi. Elə oldu ki, bəzi ərəb ölkələrinin narahatlıqdan fəryadları ucaldı; dedilər ki, İran burada öz məqsədləri üçün çalışır. Əlbəttə, fələstinlilər buna etina etmədilər. O cümlədən Qəzzə məsələsində - bir neçə ay öncəki iyirmi iki günlük müharibədə İslam Respublikası bütün səviyyələrdə - rəhbərdən, prezidentdən və müxtəlif məmurlardan tutmuş adi xalq yürüşlərinə, pula, yardıma, korpusa və hər şeyə qədər məzlum və müsəlman fələstinli qardaşların xidmətində durdular. Bu işlərin qızğın çağında birdən gördük ki, bir virus törəyib çoxalmaqdadır; daim bəzi böyüklərin, bəzi alimlərin və bəzi möhtərəm insanların yanına gedib deyirlər ki, cənab, siz kimə kömək edirsiniz, qəzzəlilər nasibidirlər. Nasibi Əhli-beytin (ə) düşmənidir. Bəziləri də inandılar. Gördük xəbərlər və mesajlar gəlir ki, ağa, deyirlər bunlar nasibidirlər. Dedik ki, Allaha pənah, Allahın lənəti olsun qovulmuş xəbis şeytana! Qəzzədə İmam Əmirəl-möminin Əli ibn Əbu Talib (ə) məscidi var, İmam Hüseyn (ə) məscidi var. Bunlar necə nasibidirlər?! Bəli,

sünnidirlər, amma nasibi deyillər. Belə danışdılar, belə hərəkət etdilər, belə işlədilər.

## *Müsəlmanların, məsihilərin və yəhudilərin Qüdsdə birgə yaşaması*

Biz müsəlmanları birliyə dəvət edirik. Bu birlik nə məsihilərin əleyhinədir, nə də digər dinlərin və xalqların. Bu, təcavüzkarlarla, işğalçılarla və müharibə törədənlərlə mübarizə üçündür; əxlaqın, mənəviyyatın icrası üçün, məntiqin və İslam ədalətinin dirçəldilməsi üçün, İslam izzətinin yenidən əldə olunması, elmi və iqtisadi inkişaf üçündür. Bütün dünyaya xatırladırıq ki, Raşidi xəlifələr dövründə Qüds müsəlmanların əlində olanda məsihi və yəhudilər tam dinc və təhlükəsiz şəraitdə yaşayırdılar. Amma indi Qüds və digər mərkəzlər sionistlərin, yaxud sionist səlibçilərin hökmranlığı altındadır. Görün müsəlmanların qanını necə hala sayırlar!

## *Bitərəflik haqda yanlış təsəvvür*

İslam Respublikasının mövqeyinə gəlincə isə, İslam Respublikasının məsul şəxslərinin elan etdiyi bu mövqe yüz faiz İslami və inqilabi mövqedir. Çünki xalqın əleyhinə baş verən təcavüzlərin inkarı və xalqın əleyhinə baş verən hadisələrin pislənilməsidir. Bəziləri bitərəflik sözünü səhv izah etməyə çalışırlar. Biz inqilabın əvvəlindən Şərq və Qərb arasındakı müharibədə bitərəf olmamışıq. Biz inqilabın əvvəlindən indiyədək Şərqin və Qərbin əleyhinə vuruşmuşuq. Məgər belə deyil?! Şərq və Qərb də bizim əleyhimizə birləşmiş və vuruşmuşdur. Şərq və Qərbin hələ bir-biri ilə barışmadığı və dünyada Şərq və Qərbin mövcud olduğu zaman bizim inqilabımızın şüarı "nə şərqli və nə qərbli" idi; yəni hər ikisinin inkarı və hər ikisi ilə müxaliflik. Bunun mənası bitərəflik deyil, biz heç zaman solun xeyrinə sağla və ya sağın xeyrinə solla düşmənçilik etmirdik.

## *Bizim həm işğalçı dövlətlə, həm də onun xalqı ilə düşmənliyimiz*

Bir nəfər peyda olub İsraildə yaşayan xalq barəsində fikir bildirir. Əlbəttə, bu fikir yanlış fikirdir. Bizim İsrailin xalqı ilə dünyanın digər xalqları kimi dost olmağımızın deyilməsi düzgün deyil və

məntiqsiz sözdür. Məgər İsrail xalqı kimdir? Evin işğalını, torpağın işğalını, tarlanın işğalını və ticarətin işğalını törədən şəxslərdirlər. Sionizm qoşununun qələbəliyini bunlar yaradırlar. Müsəlman xalqın İslam dünyasının əsas düşmənlərinin bu şəkildə aləti olan şəxslərə laqeyd qalması düzgün deyil. Xeyr, bizim yəhudilərlə heç bir problemimiz yoxdur; məsihilərlə də heç bir problemimiz yoxdur. Dünyada din sahibləri ilə heç bir problemimiz yoxdur. Lakin Fələstin torpağını işğal edənlərlə problemimiz var. İşğalçı da yalnız sionizm rejimi deyil. Bu, quruluşun mövqeyidir. Bu, inqilabın mövqeyidir, xalqın mövqeyidir. İndi kimsə səhv söz danışırsa, bunun qarşısında reaksiyalar da verilir. Bəli, məsələni bitirmək lazımdır. Bir gün bir nəfərin bu tərəfdən deməsi, bir nəfərin o tərəfdən deməsi, birinin belə əsaslandırması, birinin o tərəfdən danışması düzgün deyil. Bu, gərginlik yaradır. Bir söz idi, deyildi, səhv idi və bitdi. İslam Respublikası hökumətinin mövqeyi də bu deyil. Bu başqa ölkələrlə fərqlənir. Onların xalqları işğal olunmuş torpaq üzərində oturmayıblar. Yəhudi yaşayan qəsəbələr bu gün İsrail xalqı deyilənlərin vasitəsi ilə dolmuşdur. Qondarma sionizm dövləti bunları fələstinli müsəlman xalqın əleyhinə silahlandırıb ki, fələstinlilər bu qəsəbələrə yaxınlaşmağa cürət etməsinlər.

## İkinci fəsil: Məqamlar

### *Fələstini müdafiənin fiqhi əsası*

Bu məsələnin İslam hökmü aydındır. Müsəlmanların heç birinin Fələstin məsələsinə dair hökm barəsində şühbəsi yoxdur. Bu, cihad mövzusunun araşdırıldığı bütün fiqh kitablarında göstərilməsinədir. Əgər kafirlər gəlib müsəlmanların şəhərini tutsalar, yaxud mühasirəyə salsalar, müsəlmanların qədim və yeni fəqihlərinin heç biri bu yerdə eyni cihadın vacib olmasına şübhə etməmişdir. Bütün İslam məzhəbləri bunda həmrəydirlər. İbtidai cihad yetərli vacibdir, lakin bu yerdən başqa. Müdafiənin ən aşkar nümunəsi olan müdafiə cihadı eyni vacibdir.

Belə aydın və əhəmiyyətli bir məsələyə bu gün İslam dünyasında ikinci dərəcəli bir məsələ kimi diqqət yetirilir. Əlbəttə, birinci günah müsəlmanların başçılarının boynuna düşür. Əgər müsəlmanların rəhbərləri və İslam ölkələrinin başçıları bir yerdə və ciddi şəkildə Fələstinin xilasına qərar versələr, bacararlar.

### *İranın İsraillə əlaqəsinin olması ittihamı*

Ötən on bir il ərzində beynəlxalq qurumlar nə zaman İslam Respublikasının sözünün xalqlar arasında nüfuzundan çox qorxmuşlarsa, İslam Respublikasına bir neçə ittiham irəli sürmüşlər. Biz onların işinin qaydasını bilirik. Nə zaman dünyada bu bir neçə ittihamın çox yayıldığını görürksə, hegemonçu qüvvələrin İslam Respublikasının sözünün nüfuzundan çox qorxduqlarını anlayırıq. Haradasa bizim xəbərimiz olmayan bəzi hadisələrin olması mümkündür. Lakin onlar xəbərdardırlar və qorxaraq bu bir neçə ittihamı sıralayırlar:

Bir ittiham İsraillə əlaqədir. Müsəlman xalqların işğalçı İsrail üzərində həssas olduqlarını və həmçinin sözün həqiqi mənasında və səmimi şəkildə müsəlman xalqlarla həmrəy olan dövlətin birinci növbədə İslam Respublikasının olduğunu bilirlər. Bilirlər ki, bizim böyük və mərhum imamımız hərəkatın başlanğıcında İsraillə mübarizəni hərəkatın əsas qaydası etmişdir. Buna görə də xalqlar arasında İslam Respublikasının nüfuzunun azalması üçün bir xəbər, şayiə, zümzümə və bazarlıq düzəldib deyirlər ki, bir yerdə biri o

birindən bir şey alıb və satmışdır; biri İslam Respublikası tərəfindən, biri də İsrail tərəfindən.

Bu onların həmişə atdıqları böhtanlardan biridir. Maraqlı və qəribəsi budur ki, bu böhtanlar ətrafında ajiotaj yaradan şəxslərin özlərinin aşkar şəkildə, yaxud gizlicə İsraillə əlaqələri var. Regionun İsraillə gizli və məxfi əlaqələri olan bəzi mürtəce dövlətləri radiolarında bu məsələni müəyyən formada qalmaqal kimi ortaya qoyurlar. Biz elan edirik ki, hətta bir gün və bir saat da işğalçı, qanunsuz və xəbis İsrail dövləti ilə dostluq etməmişik, onlara məhəbbət göstərməmişik, ən kiçik və zəif rabitəmiz olmayıb və olmayacaq.

## *Son Peyğəmbərin (s) müqəddəs varlığına təhqir: Həmasa məğlub olmanın intiqamı*

Bir neçə il öncə Avropa rəhbərlərindən biri mənimlə görüşdə məsihi və müsəlman müharibəsindən danışdı. Mən həssaslıq göstərdim. O şəxs çox ağır çəkili adam olmasa da, Amerikaya bağlı və o ölkənin ardıcılı olduğundan bu söz məni həssas etdi. Bu gün görürəm ki, sionizmin əlləri məsihi dünyasında və Avropada bu işə şərait hazırlayırlar. Ay yarım, yaxud iki ay öncə bir qəzetdə və bir ölkədə dərc olunmuş bir təhqir bir müddət ötdükdən sonra nə üçün yenidən Mərkəzi və Qərbi Avropa ölkələrində ardıcıl çap olunmalı idi? Bu işdə məqsəd nədir? Hansı əl bunu edir? Müsəlman xalqlar yerində və zamanında reaksiya göstərdilər və göstərməlidirlər də. Son Peyğəmbərin (s) müqəddəs varlığı İslam dünyasının bütün eşq və məhəbbətlərinin yönəldiyi mərkəz, bütün İslam məzhəblərinin vəhdətinin mehvəri və mərkəzidir. Müsəlmanların təəssübkeşlik, qeyrət və reaksiya göstərmələri lazımdır. Lakin hamı bilsin ki, bu mitinqlər və müsəlmanların bu lazımi və müqəddəs qəzəbi dünya məsihiləri əleyhinə deyil, sionistlərin gizli və xəbis əllərinin əleyhinədir. Onlar hegemonçu dünyanın siyasətçilərini oyuncaq etmişlər. Çoxlu media və informasiya vasitələri də onların ixtiyarındadır. Onlar bu gün indiki Amerika hökumətinə tam hakimdirlər və Avropada da fəaliyyət göstərirlər. Onlar Fələstində vurulduqda, Həmasın qələbəsi onları ən ağır şoka saldıqda o məğlubiyyəti müsəlmanların əleyhinə belə düzəltmək və Fələstindəki rüsvayçılıqlarının əvəzini başqa şəkildə çıxmaq istəyirlər.

# Səkkizinci bölmə: İşıqlı gələcək

## *Doğru vədə: Qüdsün azadlığı*

İnşallah Qüds barəsində bu həqiqi nigaranlıqlara rəğmən, şərafətli Qüdsün müsəlmanların əlinə düşəcəyi günü bəlkə də sizin çoxunuz görəcəksiniz. Biz olaq, yaxud olmayaq, hər halda bunu bir gün Fələstin xalqı və dünya xalqı müşahidə edəcək.

## *Fələstinin işıqlı gələcəyi*

Ümidvarıq ki, Allah-Taala özünün lütf və bərəkətlərini Fələstin xalqına və İslam dünyasına nazil etsin, öz mərhəmətini və köməyini onlara şamil etsin. Biz üfüqləri işıqlı görürük. Biz müqavimətlə İslam dünyası və Fələstin üçün yaxşı gələcək proqnoz edirik. Biz düşünürük ki, İslam dünyasının ölümü və onun yekun təhqiri və xarlığı hegemonluğun və sionizmin artıq istəkləri qarşısında geri çəkilib təslim olacağı gündür. Ümidvarıq Allah belə bir günü və belə bir vəziyyəti heç zaman İslam dünyasına göstərməsin.

Biz əminik ki, müsəlman Fələstin xalqının mübarizələrinin davam etdirilməsi və İslam dünyasının dəstəyi ilə Fələstin Allahın lütfü ilə azad olunacaq, Beytülmüqəddəs, Əqsa məscidi və o İslam torpağının digər bölgələri İslam dünyasının ağuşuna qayıdacaq inşallah: "Və Allah öz işində qalibdir".

Bu gün bütün İslam hökumətlərinin və bütün İslam xalqlarının vəzifəsi budur ki, bacardıqları qədər bunlara kömək etsinlər. Mən iddia etmirəm ki, Fələstin məsələsi qısa müddət ərzində bitəcək. Lakin iddia edirəm ki, şübhəsiz, Fələstin fələstinlilərə qayıdacaq. Zamanın qısa, yaxud uzun olması mümkündür. Ödənilən qiymətin ağır, yaxud daha ağır olması mümkündür. Amma bu hadisə baş verəcək.

Təsirli olan İslam ölkələrinin biz məmurlarının və biz müsəlman xalqların rəftarıdır. Əgər yaxşı rəftar etsək, bu zaman qısalacaq bu qiymət azalacaq. Əgər biz pis rəftar etsək, bu zaman uzanacaq, qiymət ağırlaşacaq və onun bədəli təkcə Fələstin xalqının üzərinə düşməyəcək, bütün İslam dünyasının üzərinə düşəcək. Səhlənkarlıq edən şəxslər, zalıma kömək edən şəxslər özləri bu işin bədəlini verəcəklər; özləri bunun ziyanını çəkəcəklər və acılığını dadacaqlar.

## İsrailin şübhəsiz məğlubiyyəti

Əlbəttə, düşmən yalnız Amerika deyil, İsrail də əsas düşməndir. Onun da xüsusi dəlilləri var. Mənim dəfələrlə dediyim kimi, İsrail qondarma bir varlıq, qondarma və yalançı bir xalqdır. Rusiyadan, Şərqi Avropadan, Amerikadan, müsəlman ölkələrindən və bizim öz İranımızdan bir neçə milyon yəhudini aparıb bir yerdə yerləşdiriblər və adını bir xalq qoyublar. Onlar bir xalq deyillər, hər biri bir xalqdandırlar. Əgər Allahın köməyi ilə sionizm dövləti dağılsa, - o gün şübhəsiz, qarşıdadır; zamanını isə deyə bilmərəm, lakin əminəm ki, belə bir gün baş verəcək - o zaman siz gənclər inşallah bu gün İsraildə olan bu əhalinin əksəriyyətinin oradan öz bölgələrinə gedəcəklərini mütləq görəcəksiniz. Bizim isə görməyimiz də mümkündür, görməməyimiz də.

İsrail barəsində də məsələ daha aydındır. Baxın, mənim əzizlərim! Fələstinlilərin oyanış hərəkatı və işğalçı dövlətlə mübarizə bu gün elə bir hərəkət olub ki, onu bu asanlıqla məğlub etmək olmaz. Ərəfat kimi bir şəxsə bağlı məsələ deyil ki, gedib onu ya yorsunlar, ya alsınlar. Xeyr, Fələstin hərəkatı xalqın və mömin gənclərin əlinə keçmişdir; Livanın cənubunda məğlubiyyət, sonra Kemp Deyvid-2-də sülh müzakirələrinin məğlubiyyəti və fələstinli və livanlı gənclərin güclü və imanlı fəaliyyətinin təsirindən İsrail üçün məğlubiyyətlər gələcəkdə də davam edəcək.

Antisionist hərəkatın bu qarmağı Orta Şərqin bu köpək balığının ağzına düşdü, ilişdi və indi bir iş görə bilmirlər. Bu qarmaq balığın ağzının içərisinə düşdükdə, balıq necə hərəkət etsə, qarmaq ona daha artıq ilişəcək. Nə iş görsələr, vurulacaqlar: mülayimlik göstərsələr, bir cür vurulacaqlar; sərtlik və şiddət göstərsələr, bir cür vurulacaqlar; sülh müzakirələrini izləsələr, bir cür vurulacaqlar; saxlayıb dondursalar, başqa cür. Bu qarmaq ilişmişdir. Buna görə onlar təhlükə altında, İslam Respublikası isə möhkəmdir.

## İsrailə sabitliyin əbədilik qayıtmaması

Bədbəxt sionistlərə sabitlik yaratmaq istəyirlər. Əlbəttə ki, bacarmayacaqlar. Əmin olsunlar ki, bacarmayacaqlar. Sionistlər əvvəlcə İngiltərənin, sonra isə Amerikanın və bir çox dünya ölkələrinin köməyi ilə və növbənöv xəyanətkar, terrorçu işlərlə, qorxu və vəhşət yaratmaqla bu sionizm hökumətini işğal olunmuş

ərazilər daxilində vücuda gətirə bildilər. 40-50 il də idarə etsələr, yenə də əsas bir məsələ həll olunmamışdır. O da budur ki, işğalçı sionist bu işğal olunmuş evdə rahat yata bilmir, təhlükəsizliyi yoxdur. Bəli, bu həqiqətdir. Pulu var, modern və postmodern texnologiyası var, hegemonçu qüvvələrin siyasi dəstəyi var, silah var, işgəncə alətləri var, fələstinliləri hər yerdə, hətta yeniyetmələri məktəblərinin daxilində təqib edirlər. Bunların hamısı öz yerində, amma Allah-Taala o asayiş və rahatlıq istəyən qorxaq toplumdan asayişi və rahatlığı almışdır. Çünki Fələstin yaşayır, Fələstin xalqı yaşayır, Fələstinin gəncləri yaşayırlar. Onlar Fələstinin xəritəsini dünya xəritəsindən məhv etmək istədilər. Onlar Fələstinin adını unutdurmaq istədilər. Onlar Fələstin xalqını digər xalqların daxilində həll və həzm etdirmək və itirmək istədilər ki, Fələstin adlı bir şey qalmasın. Baş verən isə bunların tam əksidir.

Fələstin xalqı 1948-ci ildən indiyədək dəfələrlə daha güclü, daha iradəli və daha agah olmuşdur. Artan əhalisi var. Onların arasında dəyərli şəxsiyyətlər var. O zaman öz evləri daxilində o qədər zəif idilər ki, düşmən gəlib əllərini tuta və təhqirlə onları evdən bayıra çıxara bildi. Lakin bu gün Fələstin xalqı elədir ki, sionistlərin bir neçə milyonluq imkanlı cəmiyyətini öz saraylarının daxilində, özlərinin yəhudilər yaşayan qəsəbələri daxilində və öz tarlaları daxilində asayiş və təhlükəsizlikdən məhrum etmişdir. Hər şeyləri var, lakin yaşamaq imkanları yoxdur, aramlıqları və təhlükəsizlikləri yoxdur.

## *Fələstinin son qələbəsinin qətiliyi*

Dünyanın müxtəlif yerlərindən cəm olub fələstinlilərin evinə sahib çıxanlar müsəlman xalqların iradəsi ilə bir gün bu evi sahiblərinə qaytarmağa məcbur olacaqlar. O günün tez, yaxud gec olması mümkündür, lakin qəti və qaçılmazdır.

Şübhə etmək lazım deyil ki, bu “yerdən qopardılmış, kökü olmayan pis bir ağac” olan xəbis ağacın heç bir təməli, bünövrəsi və davamı olmayacaq. Şübhəsiz, məhv olacaq. Şəkk etmək olmaz ki, xalq qələbə çalacaq və Fələstin İslama qayıdacaq. Amma onun gec, yaxud tez olması müsəlmanların iradəsindən və qeyrətindən asılıdır. Müsəlmanlar iradə göstərməlidirlər. Gənclər məsələləri buraxmamalıdırlar. Başıuca və qorxmaz İran xalqı kimi sözlərini

desinlər, istəklərini tələb etsinlər. Şübhəsiz, Allah-Taala da onlara mərhəmət göstərəcək.

Rejimləri məhv edən xalqların müqavimət qüvvəsi, əzmkarlığı və mübarizəsidir. Bu əzmkarlıq və mübarizə Fələstində mövcuddur və Allahın lütfü ilə mütləq sionizm rejiminin devrilməsi ilə nəticələnəcək.

İndi azğın hegemonçular bilsinlər ki, qəddarlıq və yırtıcılıqla günbəgün artan İslam oyanışı işığını söndürə bilməyəcəklər. Fələstin xalqının qəhrəman müqaviməti və qaniçən sionistlər qarşısında onların kişi, qadın, qoca və gəncinin heyrətamiz şücaəti bu iddiaya canlı şahiddir. Bu qarşıdurmanın sonu haqqın batil üzərində qələbəsi olacaq. Necə ki, buyurub: "Biz günahkarlardan intiqam aldıq. Möminlərə kömək etmək Bizə vacibdir!"

## *İsrail və Amerikanın qəti məhvi*

Fələstin məsələsinə dair bizim görüşümüz aydındır. Biz Fələstinin həllini İsrail rejiminin məhvində bilirik. Deməsinlər ki, olmaz; dünyada "olmaz" yoxdur, hər şey olar. İnsanların hərəkəti yolunda maneə olan bütün əzəmətli dağları götürmək olar. Qırx il ötmüşdür. Əgər daha qırx il də ötsə, İsrail dövlətinin aqibəti məhv olasıdır və məhv olmalıdır. Bir neçə gün öncəyə qədər heç kəs böyük Şərq qüdrətinin bu şəkildə dağılacağını güman etmirdi. Əgər iki il öncə kimsə böyük Şərq qüdrətinin dağılacağını desəydi, bəziləri filosofcasına saqqal tərpədərdilər ki, bəli, siz sadəlövhsünüz. İmam Qorbaçova yazdığı məktubda bundan sonra marksizmi muzeylərdə tapmağın lazım olacağını deyəndə bəziləri istehzalı təbəssüm etdilər. Lakin iki, yaxud üç il ötməmiş o proqnoz həyata keçdi, İmamın vəfatından bir il ötməmiş hər şey dəyişdi. Necə yəni olmaz?!

Amerika hegemonçu qüvvəsi də məhv olacaq, o da dağılacaq. Bu cəhənnəm qüdrət qalası deyil; İsrail də qalası deyil. Bu, İran hökumətinin, xalqının və İslam Respublikası quruluşunun sözüdür. Belə də olacaq. Bu, siz xalqın və müsəlman xalqların sayıqlığı sayəsində həyata keçəcək. Biz çalışmalıyıq. Bizim vəzifəmiz çalışmaqdır.

## *Yeni nəsillərin vasitəsi ilə Fələstini müdafiə qəhrəmanlığı*

Bu qəhrəmanlıq Fələstin xalqının haqlı mübarizələrinin davamında, inqilab və cihad yolunun yeni və təlim görmüş nəsilləri vasitəsi ilə və onun dəyərli təcrübələrinə güvənməklə həyata keçmişdir. Bu onu göstərir ki, bugünkü nəsil düzgün qələbə üçün düzgün yolu tapmışdır, iradə və qərarla onu qət edəcək.

Mən bütün məzlum Fələstin xalqını, xüsusən də mücahidləri və intifazə yolunun davamçılarını salamlayıram və müjdə verirəm ki, sizin hərəkatınız hər gün müsəlmanların və inqilabçıların daha artıq rəğbəti ilə qarşılaşacaq və işğalçıları öz yerlərində oturdacaq inşallah.

İran İslam Respublikası da belə fəxrlə bu müqəddəs hərəkətə öz himayəsini və dəstəyini davam etdirəcək və özünün doğruçu övladlarının xeyir-duası ilə sizi yola salacaq.

"Əgər Allaha yardım etsəniz, Allah da sizə yardım edər və qədəmlərinizi möhkəmlədər".

## *Həm təzyiqlər, həm də fədakarlıq və mübarizələr baxımından Fələstinin müstəsna mövqeyi*

Şübhə etməməliyik ki, bu günlər Fələstin üçün taleyüklü günlərdir. Əlbəttə, Fələstin bizim tariximiz boyunca İslamın və düşmənlərinin vuruş səhnəsi olmuşdur. Son yüz ildə - xüsusən də son əlli ildə bu yer İslam düşmənləri ilə mübarizənin ön xətti olmuşdur. Fələstini həqiqətən mütəmadi əsrlərdə İslam tarixinin mühüm hadisələrinin tablosu bilmək olar. Lakin bu gün Fələstində baş verənlər hadisənin cəhətlərinə görə təxminən müstəsnadır. Əvvəla bu gün Fələstin xalqına edilən təzyiqlər bənzərsizdir. İkincisi isə bu gün Fələstin xalqının etdiyi fədakarlıqlar və mübarizələr bənzərsizdir. Biz heç zaman Fələstin xalqını belə ciddi şəkildə cismi, canı, malı, övladı və əzizləri ilə səhnədə müşahidə etməmişik. Bu xüsusiyyət bu mübarək intifazəyə məxsusdur.

## *Fələstin xalqının əfsanəvi dözümü və müqaviməti*

Fələstin məsələsində üç dəyərli məqam var. Bu üç dəyərli məqam tarixin yadında qalacaq:

...Tarixdə qalacaq ikinci məqam Fələstin xalqının əfsanəvi dözümü və müqavimətidir. Bir xalq mühasirə olunub, yalqızdır, bütün ətrafını düşmən sarıyıb. Lakin bu şəkildə dayanıb, aclığa dözür, övladlarının qəminə və gənclərinin müsibətinə dözür, evlərinin uçulmasına və tarlalarının dağılmasına dözür, işsizliyə dözür. İndi bir neçə milyon fələstinli - bunların hamısı partiya və qrupların üzvləri deyillər - bir xalq olan qadın, kişi, kiçik, böyük və qoca var qüvvələri ilə dayanmışlar. Afərin! Afərin! Çox müqavimətli xalqdır! Bu da tarixdə qalacaq. Bu məsələdə olan bu nöqtə parlayır və tarixdə gözləri özünə cəlb edəcək.

## *Mübarizələrin Quran əsasında nəticəyə çatması*

Mənim əzizlərim! İran xalqı Qurana yaxınlaşdığı qədər izzətə də yaxınlaşmışdır, xilasa da yaxınlaşmışdır, qurtuluşa da yaxınlaşmışdır, qələbəyə də yaxınlaşmışdır. Dünyanın bütün xalqlarının xilas yolu İslama və Qurana yaxınlaşmaqdır. Fələstinin xilas yolu da budur. Siz baxın, əlli ildir Fələstin ölkəsində işğalçı bir hökumət təşkil olunmuşdur. Bu müddət ərzində mübarizələr baş verdi, lakin sona çatmadı. Nə üçün? Çünki bu mübarizələrdə Allahın dini, İslam inancı və Quran hökmü meyar deyildi. Bu gün Fələstin xalqı İslam adı ilə düşmən əleyhinə mübarizə aparır və bu mübarizə düşmənin sütunlarını sarsıdacaq.

## *Fələstinin adını məhv etməkdə İsrailin məğlubiyyəti*

Başqa bir nümunə işğal olunmuş Fələstin məsələləridir. Amerika rejimi son əlli ildə - xüsusən də son onilliklərdə işğalçı sionizm rejiminin Fələstin torpaqlarında qalması və təhlükəsiz yaşaması üçün nə qədər xərc çəkdi; həm pul xərci, həm siyasi xərc və həm hörmət xərci. Bu gün siz baxın, bu böyük xərclər çox əsas bir maneə ilə üzləşmişdir. O maneə nədir? O maneə Fələstin xalqıdır; bunların inkar etmək istədikləri xalq; daha Fələstin xalq adlı bir şeyin mövcud olmadığını demək istədikləri xalq. Əlli ildir sionistlər var qüvvələri ilə Fələstin xalqının daha mövcud olmamasına çalışdılar. Bir qrup ərəb ölkələrində qaçqın kimi, bir qrup ərəb də dırnaqarası İsraildə - qondarma və yalançı bir məmləkətdə ikinci dərəcəli vətəndaş kimi yaşayır. Bütün lazımi işləri görmüşlər; təbliğat işi aparmışlar, siyasi iş aparmışlar, çox güclü və qeyri-insani təzyiq

göstərmişlər. Lakin görürsünüz ki, uzun müddət ötdükdən sonra həqiqət özünü göstərir. Yəni Fələstin xalqı qiyam edir.

### *Allahın sadiq mücahidlərə qəti vədəsi*

Fələstinin bugünkü vəziyyəti Allahın sadiq və möhkəm mücahidlərə vəd etdiyi qəti gələcəyin müjdəçisidir. Bu vəd qaçılmazdır. Zalım və daşürəkli sionizm rejimi, onun arxasında Amerikanın, beynəlxalq sionizmin və mürtəce səliblilərin siyasəti özlərinin cinayətli və faciəli rəftarı ilə Fələstin xalqına qalib olacaqlarını güman edirlər. Elə bilirlər onu təslimçiliyə vadar edə biləcəklər. Bu kobud səhvdir. Bu səhvi edənlər gələcəkdə ağır qulaqburması görəcəklər. Tel-Əviv cəlladları öz rəftarları ilə yalnız günahsızları qətlə yetirməyi, şəhərləri dağıtmağı bacarmışlar, fələstinli mücahidlərin güclü iradələrini sarsıtmağı isə bacarmamışlar. Əqsa məscidi intifazəsi Allahın nişanələrindən biridir və bədbəxt cinayətkarları sərt cəzalandıracaq.

### *Vahid İslam kimliyinin formalaşmasına müjdələr*

"Sionizm işğalından azadlıq" prinsipinə sadiq olan bir hökumətin iş başına gəldiyi bugünkü Fələstinə baxmaq, onu Fələstin xalqının keçmişdəki qürbəti, təcridi və gücsüzlüyü ilə müqayisə etmək... və nəhayət İslam ölkələrində gənc cəmiyyətə, İslam dəyərlərinə təmayüllə, Amerika və Qərbə çoxlu nifrətlə yetişməkdə, çiçəklənməkdə və artmaqda olan nəslə baxmaq...

Bütün bunlara baxış Qərb hegemonçularının və hamısından öncə Amerikanın devrilmiş bəxtini və məğlub olmuş siyasətlərini düzgün təsvir edə və vahid İslam kimliyinin formalaşmasını müjdələyə bilər.

### *İşğalçıların qəlbində məyusluq və Fələstin xalqının üzündə ümid*

İslam dünyası üçün qəmli bir məsələ olan Fələstin məsələsində, bu gün sionistlərin fələstinlilərə qarşı vəhşiliyi bir neçə dəfə artsa da, eyni zamanda siz Fələstin xalqının üzündə ümidi müşahidə edirsiniz.

Bu gün Fələstinin işğalçılarının özləri öz yollarını davam etdirməyə məyus olduqlarını duyur və bildirirlər. Özləri etiraf edirlər ki, çıxılmaz vəziyyətdə qalmışlar. Keçmiş SSRİ-nin dövrünün bitməsindən və dağılmasından sonra siz dünyanın kəndxudası və

rəqibsiz ağası olan Amerika Birləşmiş Ştatları rejiminin müxtəlif regionlarda çıxılmaz vəziyyətdə qaldığını, əsaslı problemlərə və açılmaz düyünlərə düçar olduğunu müşahidə edirsiniz. Terrorçuluqla mübarizə bəhanəsi ilə bu həssas regiona daxil oldu; Əfqanıstana, İraqa, Livana və Fələstinə. Sizin gördüyünüz bütün bu bölgələrdə Amerikanın planları biri o birindən sonra puç olmuş və bu planların irəliləyəcəyinə heç bir ümid qalmamışdır. Özlərinin də ümidləri yoxdur; bunu söyləyir və deyirlər də.

## *Sionist düşmənin zəifləməsi*

Qarşı tərəfdə sionist düşmən həm ruhiyyə baxımından, həm özünün strukturu və real varlığı baxımından günbəgün zəifləmişdir. Bu gün sionist böyükləri etiraf edirlər ki, zəifliyə və məğlubiyyətə doğru gedirlər. Şübhəsiz, İslam dünyası o günü görəcək. Ümidvarıq ki, Fələstin xalqının indiki nəsli Fələstinin Fələstin xalqının ixtiyarında, Fələstin millətinin və ev sahiblərinin əlində olmasını görsün və onlar orada öz iradələri ilə və bunları layiqli şəkildə yaşaya bilsinlər.

## *Fələstinli mücahidlərə qələbə müjdəsi*

Mücahid Fələstin xalqı, Qəzzə əhalisi və Qəzzənin xalq tərəfindən seçilən hökuməti bilsin ki, onların xəbis düşməni indi həmişəkindən daha zəif və daha təhlükədədir. Bazar ertəsi gününün dəniz cinayəti güc nişanəsi yox, işğalçı rejimin acizliyinin və gərginliyinin əlamətidir. Allahın qanunu budur ki, zalımlar özlərinin rüsvayçı dövrlərinin sonlarında öz əlləri ilə özlərinin qəti məhv talelərini yaxınlaşdırırlar. Öncəki illərdə Livana və ondan sonra Qəzzəyə hücum sözügedən dəlicəsinə hərəkətlərdən idi və taxtlarda oturmuş sionist terrorçularını son süqut dərəsinə yaxınlaşdırdı. Aralıq dənizinin sularında beynəlxalq yardım karvanına hücum da bu qəbildən olan digər bir axmaq hərəkətdir.

Fələstinli qardaşlar və bacılar! Hikmətli və qüdrətli Allaha etimad edin. Öz gücünüzə inanın və onu artırın. Son qələbəyə əmin olun və bilin ki: "Allah Ona yardım edənlərə, şübhəsiz ki, yardım edər. Həqiqətən Allah yenilməz qüvvət, qüdrət sahibidir!"

## *İslam və ona kömək üçün müqavimətə qərarlı olan mübarizlərin qələbəsi*

Biz inanırıq ki, müsəlman xalqlar dünyanın harasında olsalar, əgər İslam və ona kömək üçün müqavimətə qərarlı olsalar, qalib olacaqlar. Əsas məsələ budur ki, müsəlmanlar dünyanın hansı nöqtəsində olsalar, ədaləti müdafiə etməyə, ədalətdən deməyə, zülmün qarşısında dayanmağa, İslamı - məzlum və zəiflərin tərəfdarı olan İslamı müdafiə etməyə qərar versinlər. Hər yerə hakim olan dünya güclüləri özləri güclərini əfsanəvi göstərmişlər. Onların real gücləri göstərdikləri ilə çox fərqlidir. Əgər Amerika iddia və təlqin etdiyi qüdrətə malik olsaydı, bu gün Fələstin mübarizələrindən əsər-əlamət görünməzdir. Lakin görürsünüz ki, Fələstin xalqının mübarizələri günbəgün irəliləyir. Qışın bu soyuğunda özlərinin ev və yuvalarından qovulmuş fələstinlilər işğalçı sionizm rejimi üçün ən böyük problemi yaratmışlar. Bunlar güclüdürlər və qalib olacaqlar; bu şərtlə ki, dözsünlər. İşğalçı və xəbis israillilər bu əməllə böyük səhvə düçar olmuş və özlərini çoxçəhətli problemə salmışlar. Bu gün hansı tərəfdən hərəkət etsələr, məğlub olacaq və vurulacaqlar. Bu gün nə iş görsələr, məğlubiyyətlə üzləşəcək. Əgər fələstinliləri qaytarsalar, məğlub olmuşlar, saxlasalar, məğlub olmuşlar, edam etsələr, məğlub olmuşlar, həbsə salsalar, məğlub olmuşlar. Əlbəttə, şərti budur ki, fələstinli mübarizlər yorulmasınlar, müqavimət göstərsinlər, dayansınlar və öz sözlərindən dönməsinlər. Düşmən zəifdir. Xalqlarla mübarizə aparan bütün düşmənlər zəifdirlər.

## *Fələstinin İslam oyanışı - onun xilas amili*

Allaha həmd olsun ki, İslam dünyasında İslam oyanışı vücuda gəlmişdir. İşğalçı sionistlər təxminən qırx il rahatlıqda yaşadılar. Bəzən hökumətlər tərəfindən bir neçə gün qısa hücum olurdu və sonra da dəyən ziyanlar Amerika tərəfindən artıqlaması ilə ödənilirdi. Bu gün isə Fələstin torpaqları daxilində İslam tərəfindən təhdid olunurlar. Onları təhdid edən İslamdır. Fələstinli təşkilatlar - dindən uzaq və ona yad olanlar öz gücsüzlüklərini göstərdilər. Bu gün vəziyyət elə bir həddə çatmışdır ki, dırnaqarası Fələstin təşkilatlarının başçıları işğal olunmuş torpaqlar daxilindəki və bəzi digər regionlardakı fələstinlilərə müraciət edirlər ki, işi çətinləşdirməyin, problem yaratmayın. Onlar həqiqi mübarizəni

özlərinə problem sayırlar. Dindən ayrı olan hərəkətin taleyi bundan yaxşı olmaz. Lakin din Fələstini xilas edəcək. İslam Fələstini təcavüzkarların əlindən geri alacaq.

### *Mübarizə ilə Fələstin bayrağının ucaldılması*

Mən aydın şəkildə görürəm ki, yaxın gələcəkdə Amerikanın, sionistlərin və regionda olan bəzi ölkələrin təslimçilərinin istəyinə rəğmən, Fələstin ölkəsi və bayrağı bir gün özünün həqiqi yerində bütün dünyanın diqqətini cəlb edəcək. Bu mühüm tarixi gələcəyin şərti budur ki, Fələstinin öz xalqı oyaq olsun, rəzil həyatdan ötrü mübarizədən əl çəkməsin. Bir neçə gün düşmənin qanlı xəncəri altında rəzilliklə yaşamaqdan ötrü həqiqəti deməkdən çəkinməsin. Bu şərt də, Allaha həmd olsun ki, hasil olmuşdur.

Fələstini düşmənə təhvil verən nəsil bitdi və ötdü. Təslimçiliklə, yeyib ölməmək üçün özlərinə bir şey düzəltmək istəyən nəsil də qurtarmaqdadır. Bu gün iş başına gələn nəsil İslam şüarı və İslam məqsədi ilə, İslama güvənməklə və Quranla tanışlığın sayəsində müsəlman bir xalqdan gözlənilən işi görmək fikrindədir. Bu onların gördüyü böyük işin əlamətləridir.

Fələstinin işğalçıları daim onun-bunun söhbətini ortaya atıb, İran İslam Respublikasının təhrik etdiyini demək fikrində olmasınlar. Heç kəsin təhriki lazım deyil. Bu gün İslam oyanışı sayəsində müsəlman xalqlar ayıqdırlar. Kiminsə onlara deməsi, həvəsləndirməsi və irəliyə itələməsi lazım deyil, özləri bilirlər. Bu gün Fələstin gəncləri meydandadırlar, yeni nəsillər izzət, səadət və müsəlmanlıq yolunun nə olduğunu anlayırlar. İslam dünyasının hər bir yerində ixlaslı insanların qəlbi onların xatirəsi ilə döyünür. Bu həmrəylik təkcə İrana məxsus deyil; Misirə də getsəniz, belədir, Afrikaya da getsəniz, belədir, Asiyaya da getsəniz, belədir, Orta Şərqə də getsəniz, belədir. Siz hansı İslam ölkəsinə getsəniz, hansı müsəlman məzhəbindən olsalar da, əgər məlumatlı və ixlaslı insanları görsəniz, ürəklərinin Fələstinin və Fələstin xalqının xatirəsi ilə döyündüyünü görəcəksiniz.

Mündəricat


Giriş....3
İkinci Qüds günündən bir xatirə....3
Qüds günü - İslam, insaniyyət, inqilab və imam günü....3
Qüds gününün Allahın digər günlərindən üstünlüyü....3
Qüds günü - amerikalı hegemonçuların və sionist muzdurlarının belini qırmaq günü....3
Fələstinin gələcəyi....4
İlahi vədə - Bəni-İsrailin ikinci məğlubiyyəti....4
Fələstin məsələsi sırf ərəb, yaxud İslam məsələsi yox, bir insaniyyət məsələdir!....5
Sionistlərin misilsiz cinayətləri....5
İsrail adlı çirkin xərçəng vəzisi - müsəlman dövlətlərin parçalanmasının amili.5
Müsəlmanların İsraili məğlub etməsi - onların dünyada xoşbəxtlik amili....6
Sionizmin və yəhudiliyin bir-birindən ayrı olması....7
Fələstin xalqına köməkdən ibarət olan vacib əməl....7
Fələstin məsələsində müsəlman dövlətlərin səhlənkarlığı....7
Fələstin məsələsi - inqilabın ən əsaslı, ən mühüm və ən prinsipial məsələsi....8
Xalqların iradə və əzmkarlığı ilə İsraili məhv etməyin mümkün olması....8
İran İslam İnqilabı - bütün İslam inqilablarının örnəyi....9
Amerika imperializmi və məzlum ərəb xalqları qarşısında vəzifəmiz....9
Qum və su vedrəsi məsəli....10
Birinci bölmə: Ümumi hissə....11
Birinci fəsil: Fələstin məsələsinin əhəmiyyəti....11
Fələstin məsələsi - İslam dünyasının ən mühüm məsələsi....11
Peyğəmbərin (s) müqəddəs ruhunun uca aləmlərdə Fələstin məsələsinə görə qəmgin olması....11
Fələstin - İslam dünyasının ən təcili problemi....12
Fələstin məsələsi - bəşəriyyət dünyasının böyük müsibəti....12
Fələstin məsələsinin kənarında Beytülmüqəddəsin əhəmiyyəti....13
İki dəlilə əsasən Fələstin məsələsinin İslam dünyasının birinci məsələsi olması....13
Fələstin - İslam dünyasının ən mühüm məsələsi....15
Beytülmüqəddəs - əsas mərkəz....15
Fələstin məsələsi - İslam oyanışının əsas mərkəzi....15
Fələstin məsələsi - bugünkü bəşəriyyətin ən mühüm məsələsi....16
Fələstin və onun azadlığı barəsində müzakirənin məqsədi....16
Fələstin – İslamın bir parçası....17
Fələstin məsələsinin həll olmaması....17
Bu dövrün mühüm məsələsi: Fələstin....17
Fələstinin qeyri-fələstinlilərin taleyi ilə əlaqəsi....18
Fələstinlə müharibə - əslində İslamın varlığı ilə müharibə....19
Fələstinin müsəlmanların yadından çıxmaması....19
İkinci fəsil: İslam Repsublikası və Fələstin məsələsi....20

İslam Respublikasında Fələstin məsələsinin bir siyasi strategiya yox, etiqadi məsələ olması ........ 20
Məzlum xalqları, xüsusən də Fələstin xalqını müdafiə etmək - quruluşun ümumi siyasətlərindən biri ........ 21
İsrail məhv olmadan İranın qələbəsinin yarımçıq olması ........ 21
“İmamın xəttinin” səciyyəsi - Qüdsü işğal edən rejimlə mübarizəyə xüsusi diqqət ........ 21
İmamın hərəkatının qlobal olması ........ 22
İnqilabın fələstinlilərdə ümid yaratması ........ 23
Bizim mövqeyimiz ........ 24
Beytülmüqəddəs məsələsi İslam Respublikası xalqının və quruluşunun məsələlərindən biri kimi ........ 24
İran xalqı və İslam Respublikası quruluşu müsəlmanların ümidi kimi ........ 25
Məzlum xalqlarda ruh yüksəkliyi yaratmaq üçün İslam Respublikasının izzətini qorumağın əhəmiyyəti ........ 25
İranın fələstinlilərə örnək olması ........ 26
İran - xalqların müqavimət örnəyi ........ 26
Fələstini müdafiədə İslam Respublikası hökumətinin qabaqcıl olması ........ 27
İmam Xomeyninin hərəkatı vasitəsi ilə Fələstinə yeni ruhun üfürülməsi ........ 27
İran xalqı - Fələstin xalqının dayağı ........ 28
Mərhum imamın vasitəsi ilə İslam bayrağının ucaldılması - Fələstin xalqının oyanış amili ........ 28
Sionizm və Amerika - İslam Respublikasının əsas düşmənləri ........ 29
İslam Respublikasının müqaviməti ilə Fələstində hərəkatın yenidən başlanması ........ 30
İslam inqilabının Fələstin məsələsinə təsiri ........ 31
İran xalqının mübarizəyə hazırlığı ........ 31
İranlı gənclərin Fələstində canfəşanlığa hazırlığı ........ 31
Fələstinin güzəştə getməli olmaması ........ 32
İranın müqəddəs müdafiəsi - Fələstinin örnəyi ........ 32
İslam inqilabının və Livan hizbullahının qələbəsi - intifazənin formalaşmasının amillərindən biri ........ 33
İsraillə düşmən olduğuna görə İran əleyhinə təbliğat ........ 33
İslam Respublikasının günahı: haqqa təfədarlıq ........ 34
Amerikaya görə İslam Respublikasının ən böyük eybi: sionist işğalçıların işğalını qəbul etməmək ........ 35
Amerikanın İranla əsas problemi - rüsvayçı saziş layihələrinə qarşı çıxmaq ... 35
Fələstini müdafiəyə görə təcrid olunmaqdan qorxmamaq ........ 37
Üçüncü fəsil: Sionizm və İsrail ........ 39
Sionizm - İsraildən daha geniş bir məfhum ........ 39
Sionistlər – Mədəni NATO çərçivəsində beynəlxalq miqyasda mənfi hadisələrin proyektoru ........ 39
Bugünkü sionizm rejiminin bir neçə il öncəki sionizm rejimindən olduqda zəif olması ........ 41

Sionizm - İslamın və İslam Respublikası quruluşunun qan düşmənlərinin qəlbi .......... 41
Sionizmin əksər xəbər agentliklərinə hakim olması .......... 42
Sionizmin əksər beynəlxalq güc mərkəzlərinə, maliyyə və iqtisadi mərkəzlərə hakim olması .......... 42
Ərəb ölkələrinin sükutuna və sazişinə görə sionistlər tərəfindən "Böyük İsrail" məqsədinin elan olunması .......... 43
İsrailin mahiyyəti .......... 44
İşğalçı sionizm rejimi - terrorçu dövlətin ən aydın nümunəsi .......... 44
Dünya miqyasında iki bəla: terrorizm bəlası və insanlara başçılıq edən iddiaçıların haqsızlıq bəlası .......... 45
İsrailin hiyləgərliyi: ərəblərin vasitəsi ilə rəsmi tanınmağa çalışmaq .......... 46
İsrailə güzəştə getməklə onun qəddarlığının daha artması .......... 46
İmperialist qüvvənin xüsusiyyəti - digərlərinin hüququna diqqətsizlik .......... 47
Ərəb ölkələri tərəfindən rəsmən tanınmaqda İsrailin məqsədləri .......... 48
İsrailin qüdrətlənməsinin səbəbi: İslam hökumətlərinin xalqlarından ayrı olması .......... 48
Düşmənin müsəlmanların qafiliyyindən sui-istifadə etməsi .......... 49
İslam dövlətlərinin geri çəkilməsi - hegemonluğun cəsarətlənməsinin səbəbi .......... 49
Düşmənin zəif nöqtəsi: onun şiddət göstərdiyi nötqə .......... 50
Düşmənin fəndi: zehinləri Fələstindən ayırıb ikinci dərəcəli və yalançı məsələlərə yönəltmək .......... 50
Dəlilsizliklə və terror törətməklə qüdrətin tənəzzülü .......... 50
Sionistlərin riyakar sülh çağırışları .......... 51
Sülh istəməkdə İsrailin yalançılığı .......... 51
Aldadıcı sülh hiyləsi və İsrailin yalançılığı .......... 52
İmperializmin üsyankar ruhunu cilovlamaq amili - yalnız xalqların oyanışı və iradəsi .......... 53
Sionizmin öz məqsədində uğursuzluğu .......... 54
Sionistlərin əvvəldən təbliğat üsulu: özünü məzlum göstərmək .......... 55
İslam dövlətləri ilə münasibətdə sionizmin və Qərbin strategiyası .......... 56
İsrailin hərbi heybətini qırmaq .......... 57
İsrailin məqsədi - bütün İslam dünyasına hakim olmaq .......... 57
İsrail rejiminin daxildən çürüməsi .......... 57
Fələstin məsələsinin İsrail üçün qlobal əhəmiyyəti .......... 58
İsrailin bütün region üçün təhlükəsi .......... 58
İsrailin bütün region üçün iqtisadi təhlükəsi .......... 58
Düşmənlərin hiyləsi: müsəlmanların birlik amilini ixtilaf amilinə çevirmək .......... 59
Sionistlərlə yəhudilərin fərqi .......... 59
İslam dünyasının indisi və gələcəyi üçün ən böyük təhlükə - işğalçı sionizm dövləti .......... 60
İsrailin dünya hadisələrindən sui-istifadə etməsi .......... 60
İsrailin sülhə ehtiyacı .......... 61
Sionistlərin ekspansionist xisləti .......... 62
İslam hərəkətlərini müşahidə etdikdən sonra düşmənlərin ciddiləşməsi .......... 64

İsrailin məqsədinin indiki zəfərlərdən üstün olması ........................................ 64
İsrailin yalnız bütün müsəlmanların köməyi ilə sıradan çıxarılması ............... 65
İsrailin heç bir insani prinsipə və beynəlxalq qanuna boyun əyməməsi ........... 65
İsrail rejimi - etimadsız bir rejim .................................................................... 65
Müzakirənin İsrailin cinayətlərinə çəkindirici olmaması ................................ 66
İslam ümmətinin oyanışını söndürmək üçün düşmənin psixoloji silahdan istifadəsi ........................................................................................................ 66
İsrailin cinayəti ................................................................................................ 66
Sionizm dövləti - palcığa batmış və işdə aciz .................................................. 67
Amerika dövlətinin və sionistlərin Fələstində tam çıxılmaz vəziyyətə düşmələri ........................................................................................................ 67
İsrailin Misirdə İslam oyanışından qorxuya düşməsi ...................................... 68
İslamın əmrindən irəli gələrək İsrail və Amerika ilə müxaliflik ...................... 68
İsrailin zülmünü görmələrinə rəğmən, insan hüquqları və İslam mərkəzlərinin sükutu ........................................................................................................ 69
Dördüncü fəsil: Qərb, Amerika və sionizm ......................................................... 70
İsraili yaratmaqda imperializmin məqsədi ....................................................... 70
Qərb dövlətlərində sionistlərin nüfuzu ............................................................ 70
Sionistlərin Avropa ölkələrinə nüfuzu ............................................................. 71
Hegemonluğun məqsədi - hər bir müqavimət qüvvəsini sıradan çıxarmaq ...... 71
Amerikanın himayəsi və ərəb hökumətlərinin səhlənkarlığı - İsrailin daxili zəifliyini əvəzləyən amil ................................................................................ 72
Amerikanın və onun əlaltılarının İsrailin məğlubiyyətlərinə şərik olmaları ..... 72
Amerikanın Böyük Orta Şərq layihəsi - Nildən Fərata qədər əfsanəsi sikkəsinin o biri üzü ...................................................................................................... 73
İsraili himayə etməkdə Amerikanın məqsədi .................................................. 74
Amerikanın sionistlərin cinayətlərini müdafiəsi .............................................. 74
İmperializmin böyük səhvi: sionizm rejimini müdafiə .................................... 75
İsrailin cinayətləri və Amerikanın himayəsi .................................................... 76
Qərbin İsrail cinayətlərinə həyasızcasına dəstəyi ............................................ 76
İsrailin cinayətləri qarşısında Qərbin və Amerikanın sükutu və dəstəyi ......... 77
Sionistlərin günahı Amerika rejiminin boynunda ............................................ 78
Hegemonluğun İsrailə dəstəyi - onun yaşamasının zəmanətçisi ...................... 79
Sionistlərin və Amerikanın məqsədi: Fələstinin adını silmək ......................... 80
Qərbin paradoksu: heyvanları xilasına çalışmaq, insanların qətli qarşısında sükut ........................................................................................................... 81
Fələstinlilərin qətli qarşısında bəzi hökumət və siyasətçilərin biganəliyi ......... 81
İslamla düşmənlikdə Amerika və sionizmin mənfur birliyi ............................. 82
Qərb mətbuatının İsrailin cinayətləri barəsində ixtilafı .................................... 83
İsrailin cinayətlərinə qarşı hökumətlərin sükutu .............................................. 83
Acı məqam: İşğalçıya dair məzlum siması və məzluma dair zalım siması yaratmaq ..................................................................................................... 83
Terrorizmlə rəftarda hegemonluğun ikili standartı .......................................... 86
Amerikanın nəzərində fələstinlilərin terrorçuya, İsrailin isə müdafiəçiyə çevrilməsi ................................................................................................... 89

Amerika məmurlarının terrorizm məfhumunu yanlış anlamaları ..................... 91
Amerikanın İsrailin dövlət terrorizminə dəstəyi.............................................. 91
Terrorizmlə mübarizədə Amerikanın ikili standartı ........................................ 92
Ən böyük zülm - məzlum Fələstin xalqını terrorçu tanıtdırmaq....................... 92
Qərb mediası vasitəsi ilə intifazənin gələcəyinə ümidsizliyin yayılması ......... 93
İsrail - Amerika dövlətinin zəncirli iti ............................................................ 93
Amerika və İsrailin istəyi: fələstinlilərin yalnız təlsim olması ......................... 93
İsrailin maraqları - Qərbdə azadlığın qırmızı xətti .......................................... 94
Amerikanın müdaxiləsi və Fələstin düyününün daha da bərkiməsi ................ 95
Sionist şeytanların Amerika hökumət başçılarını təhrik etməsi ....................... 95
Hegemonluğun həmişəki arzusu - Fələstin amalını sionistlərin ayağı altında qurban kəsmək................................................................................................ 95
Region məsələlərinə müdaxilə etməyə Amerikanın haqqının çatmaması ........ 96
Amerika sionizm rejiminin cinayətlərinin şəriki kimi..................................... 96
Fələstin məsələsində liberalizmin rüsvayçılığı................................................ 96
Amerikanın cihad qrupları ilə düşmənliyi ....................................................... 97
"Ar olsun sizə! Azadlığı müdaifə budur?!" ..................................................... 98
Fələstin xalqı adlı həqiqəti inkar etməkdə hegemonluğun həyasızlığı ............ 98
İnsan hüquqları məsələsində Qərbin ikili standartı.......................................... 98
Beşinci fəsil: İsrail, ərəb və müsəlman hökumətləri........................................... 100
İsraillə düşmənliyin onun himayədarları ilə dostluqla bir yerə sığmaması..... 100
İslam hökumətlərinin səhlənkarlığı - düşmənin geri çəkilmədən məqsədlərinə çatmasının amili ............................................................................................. 100
Ərəb dövlət başçılarının xəyanətli sükutu və Fələstinə rəhbərlik iddiasında olanların rüsvayçı mövqeyi .......................................................................... 101
Müsəlman xalqların İsrailin cinayətlərinə etiraz etmək azadlığının olmaması ............................................................................................................... 101
Muxtar təşkilatın xəyanəti ............................................................................. 102
Ərəb hökumətləri arasında İsraillə rabitənin qəbahətinin aradan qaldırılması 103
Fars körfəzi ölkələrinin İsraili rəsmən tanımaq xəyanəti............................... 103
Ərəb hökumətlərinin geri çəkilməsi və işğalçı ilə rabitənin bərqərar edilməsi ............................................................................................................... 104
İslam hökumətlərinin İsraillə həmrəy olmalarına dair nigaranlıq.................. 104
Ya Fələstinlə, ya düşmənlərlə! ...................................................................... 105
İkinci bölmə: Məğlubiyyətlər və qələbələr........................................................ 106
Birinci fəsil: İşğalın tarixcəsi və ibrətlər ....................................................... 106
İşğalın müxtəsər tarixcəsi ........................................................................ 106
İsrail - xərçəng vəzisi .................................................................................... 106
İsrailin formalaşdığı zaman edilən diqqətsizlik............................................. 107
Mübarizələr tarixi; işğalın əvvəli.................................................................. 107
Fələstinin fəthi - Qərbin köhnə arzusu .......................................................... 108
Sionizm dövlətini qurmaqda müstəmləkəçiliyin məqsədi ............................. 108
Fələstinin işğalının məqsədləri ..................................................................... 109
Sionist işğalçılığının üç təməli ..................................................................... 109
Fələstin macərasının məğzi .......................................................................... 110

İşğalın mərhələləri ........ 111
İşğal ........ 112
Fələstinin işğalı dövründə sionistlərin hiyləgərliyi ........ 113
Fələstinlilərin zəifliyi, hakimiyyət istəyi, rahatçılığı və sayıq olmaması; işğalın səbəbləri ........ 114
Rüsvayçı Kemp Deyvid müqaviləsinin dağıdıcı təsiri ........ 115
Sayks-Peyko müqaviləsi ........ 116
Birinci intifazənin məğlubiyyətinin səbəbləri ........ 116
Oslo müzakirələri - birinci intifazənin məğlubiyyət amili ........ 117
Sionistlərin murdar və mənfur ünsürü - ikinci intifazənin başlanmasının səbəbkarı ........ 117
İsrail legitimlik böhranında ........ 118
İkinci intifazədə İsrailin məğlubiyyəti ........ 120
İkinci intifazənin təsiri - fələstinlilərin birliyi ........ 120
Payız konfransının təsirsiz olması ........ 120
Mübarizənin dərs və ibrətlərinin onun dərd və müsibətlərindən böyük olması ........ 121
Dırnaqarası sülh müzakirələrinin məqsədi - Fələstin məsələsini unutdurmaq 122
Muxtar təşkilatın rüsvayçı razılaşması ........ 122
İsraillə müzakirə sözünü təkrarlamaq – onun qəbahətinin sınmasının səbəbkarı ........ 124
Fələstinə dair xəyanətkar konfransın səmərəsi ........ 125
İsraillə müzakirə aparanlara müsəlman xalqların nifrət bəsləməsi ........ 125
İki xəyal: İsrailin məğlubedilməzliyi və birgə yaşamağa ümid ........ 125
Fələstinlilər üçün rifah dövrü imtahanının çətinlik dövrü imtahanından ağır olması ........ 126
İsraili məhv etməkdə İslam ölkələrinin bacarıqsızlığının səbəbi - ilahi rəhbərliyin olmaması ........ 126
Məyusluq - meydana atılmaqdan çəkinməyin səbəbi ........ 127
Müsəlman xalqların çətinlik və bəlalarının etiqad və söz tövhidi xəttinin itirilməsindən qaynaqlanması ........ 128
İkinci fəsil: Qələbələr və dərslər ........ 129
Sionizm rejiminin uzunmüddətli bir qarşılaşma üçün gücsüzlüyü ........ 129
Qələbənin dəyərinə görə fəlakətlərə dözmək ........ 129
Fələstinlilərin qiyamı ilə İsrailin bütün proqnozlarının puç olması ........ 129
İsraillə müzakirənin onu öz cinayətlərindən döndərməməsi ........ 130
Məzlumluqla yanaşı Fələstin xalqının qüdrəti, qəddar və zalım sionistlərin acizliyi ........ 130
Hər bir fədakar fələstinli gəncin bir qoşun qədər təhlükəsi ........ 131
İsrailin qüvvəsinin müsəlmanların bir olmamasından irəli gəlməsi ........ 132
İyirmi iki günlük müharibədən sonra müraciət ........ 132
Qəzzədə Fələstin müqavimətinin qələbəsindən sonra sionizm rejiminin və onun himayədarlarının rüsvayçılığı ........ 134
İsrailin otuz üç və iyirmi iki günlük müharibələrdə məğlubiyyəti - süqutun iti enişi ........ 134

Düşmənin şiddəti - zəiflik əlaməti ... 135
Üçüncü bölmə: Məsuliyyətlər ... 136
Birinci fəsil: Fələstin xalqının məsuliyyəti ... 136
Fələstinlilərin vəzifəsi ... 136
Fələstinlilərin birliyi qorumaq vəzifəsi ... 136
Sayıqlığı və birliyi qorumağın lazımlığı ... 137
Fələstin xalqının müqavimət vəzifəsi ... 137
Fələstinlilərin vəzifəsi - müqavimət və vəhdəti qorumaq ... 138
Düşmənlərin məqsədi: Fələstində təfriqə yaratmaq ... 139
Müqavimət - qələbənin yeganə yolu ... 139
Fələstinlilərin yumruq və daşdan odlu silahlara keçməsinin lazımlığı ... 140
İkinci fəsil: İslam ümmətinin məsuliyyəti ... 141
Fələstinə qarşı biganə qalan müsəlman hökumətlərin üzrünün qəbul olunmaması ... 141
Cihad hərəkətlərinə maddi, mənəvi və siyasi dəstəklərin artması ... 141
Müqavimətin sütunları ... 141
Bütün müsəlmanların və agah vicdanların vəzifəsi ... 142
Fələstin xalqına yardım və onları tam dəstəkləmək - bütün müsəlmanlara yetərli vacib ... 143
Mənəvi yardımın maddi yardımdan üstün olması ... 143
Müsəlmanların və bütün insanların maliyyə dəstəyi vəzifəsi ... 144
Hamının vəzifəsi: fələstinlilərin yardım çağırışını eşitmək ... 145
Müsəlmanların vəzifəsi ... 145
Müsəlmanların əli ilə əlac ... 146
Müsəlmanların mübarizlərə dəstək və yardım vəzifəsi ... 146
Siyasi, maddi və beynəlxalq yardımlar ... 147
Müsəlmanların Fələstinə köməyi - Qurana əməl etmək ... 147
İsrailin cinayətləri qarşısında müsəlmanların vəzifəsi ... 148
İslam dünyasında hər bir təfriqəçi hərəkətin tarixi günah olması ... 148
İsrailin cinayətləri qarşısında İslam ümmətinin fəryadının lazım olması ... 148
İslam ümmətinin təhdidlər qarşısında Allahın müqəddəs vücudundan kömək istəməyə ehtiyacı ... 149
Qəzzəyə dəniz karvanı yollamaqdan ibarət olan simvolik işin təkrarlanmasının lazımlığı ... 149
Fələstinin vəziyyəti; İslam dünyasının zəifliyi ... 150
Yeni İslam Orta Şərqi qurmaqda xalqların məsuliyyəti ... 150
Fələstinlilərin kömək çağırışına cavab - müsəlmanlığın şərti ... 151
Müsəlmanların vəzifəsi: Fələstinə yardım üçün hökumətlərə təzyiq göstərmək ... 151
Ürəkdən və dini imana arxalanan canlı, yorulmaz və kollektiv bir beynəlxalq kimlik – qüvvələrə əngəl törətməyin amili ... 152
Fələstinlilərin qiyamı nemətinin şükrü ... 152
Üçüncü fəsil: İran İslam Respublikasının və İran xalqının məsuliyyəti ... 153
Bizim şəriət vəzifəmiz: məzlum xalqları müdafiə ... 153
İran xalqının maddi dəstək vəzifəsi ... 153

Bizim xalqımızın və hökumətimizin ən böyük vəzifəsi ........ 154
Dördüncü fəsil: Qüds günü ........ 155
İsrailin cinayətlərinə qarşı xalq etirazlarının faydası ........ 155
Qüds gününü uca tutmaq ........ 155
Ümümdünya Qüds Gününü uca tutmağın təsiri ........ 156
Qüds günündə xalqların vəzifəsi ........ 156
Qüds günü - işğalçı düşmənin məğlubiyyət amili ........ 156
Mübarizlərə dəstək nümayişinin təsiri ........ 157
İsrailin himayədarlarının Qüds günü ilə mübarizəsi ........ 158
Qüds günü - İslam tarixinin bugünkü qədr gecəsi oyanışı ........ 158
Qüds gününü uca tutduğuna görə İran xalqına təşəkkür ........ 159
Soyuqda və istidə Qüds günü yürüşündə iştirak etmək - xalqın İslam Respublikası quruluşuna etimadının dəlili ........ 160
Qüds günü - xalqların təzyiq amili ........ 161
Şanlı Qüds günü - Böyük İmamın unudulmaz yadigarı ........ 161
İlahi qüdrətin əli - Qüds günü yürüşündə iştirak etmək üçün ürəkləri cəlb edən amil ........ 161
Qüds günü - müsəlman xalqların böyük imtahan günü ........ 162
Fələstinin xatirəsini qorumaqda Qüds gününün rolu ........ 163
Qüds gününün dünyada ümumiləşməsi ........ 163
Qüds günü - Fələstinin adının canlı qalmasının amili ........ 164
Qüds günü - haqqın batil qarşısında dirəniş simvolu ........ 165
Qüds günü - Fələstinin xəyanətkar hökumətlər vasitəsi ilə ərimәsinə manea 165
Qüds günü - mübarizlərin və İsrailin tutduğu əsirlərin ümidi ........ 166
Müqavimət və yürüş - ümid nuru saçan amillər ........ 167
Qüds günü - bizim ölkəmizin təhlükəsizlik dayağı ........ 167
Beşinci fəsil: İslam hökumətlərinin məsuliyyəti ........ 169
Müsəlman xalqların və hökumətlərin vəzifəsi ........ 169
Fələstinı dəstək ilahi və siyasi vəzifə kimi ........ 169
İslam hökumətlərinin vəzifəsi: İsraili məhv etmək üçün nefti bir aylıq kəsmək ........ 170
İsrailin məhvinin İslam dünyasının bütün imkanlarının işlədilməsində olması ........ 171
Hökumətlərin vəzifəsi - müsəlman xalqların istəyi ilə razılaşmaq ........ 172
Hökumətlərin vəzifəsi ........ 174
Müsəlman hökumətlərin əlaqələri kəsmək vəzifəsi ........ 174
Fələstini sistemli himayə üçün İslam ölkə başçılarının məsuliyyəti ........ 174
Siyasi, maliyyə və informasiya yardımı ........ 175
İsrailin cinayətləri qarşısında müsəlman hökumətlərin vəzifəsi ........ 175
Hökumətlərin məsuliyyət hissi ........ 175
İslam hökumətlərinin sayıqlığının lazımlığı ........ 175
Müsəlmanların maddi və mənəvi sərvətlərindən istifadə etməməsi - düşmənlərin istismarçılığının səbəbkarı ........ 176
Müsəlman hökumətlərinin tarixi məsuliyyəti - Fələstin xalqını açıq müdafiə 176

Müsəlman hökumətlərin sionizm rejimi ilə rabitəni adiləşdirməkdən çəkinməsinin lazımlığı...... 177
Bu günün müsəlmanların təşəbbüsçülüyü ələ almaq günü olması ...... 177
Müsəlman hökumətlərin vəzifəsi: bütün siyasi və iqtisadi rabitələri kəsmək. 178
Müsəlman hökumətlərin vəzifəsi - zəiflik halından çıxmaq...... 178
Ərəb hökumət başçılarının İsrailin cinayətlərinə qarşı məsuliyyəti...... 179
İslam dünyasının potensialından istifadə edərək sionistlərin xəbislikləri qarşısında dayanmaq ...... 179
Ərəb hökumətləri, İslam konfransı və Ərəb Liqası üçün çətin imtahan ...... 180
Altıncı fəsil: Media qurumlarının məsuliyyəti ...... 181
Təbliğat baxımından Fələstini müdafiədə media qurumlarının vəzifəsi...... 181
İnfromasiya vasitələrinin vəzifəsi...... 182
İsraillə mübarizə üçün təbliğat yollarından istifadənin lazımlığı ...... 185
Yeddinci fəsil: Görkəmli şəxsiyyətlərin məsuliyyəti ...... 188
Müsəlman alimlərin, ziyalıların, siyasətçilərin, şairlərin, yazıçıların, sənət adamlarının və universitet mənsublarının məsuliyyəti ...... 188
Düşmənin təbliğat müharibəsi ilə mübarizədə ziyalıların vəzifəsi ...... 189
Siyasətçilərin, mütəfəkkirlərin və ziyalıların birliyi qorumağa dair vəzifəsi.. 190
Fələstinə ürək yandıranların ağır vəzifəsi...... 191
1991-ci ildə keçirilən Tehran konfransı - saziş əleyhdarları üçün ümid mərkəzi ...... 191
2001-ci ildə keçirilən Tehran konfransının gözəl nəticəsi - müqavimətə mənəvi dəstək...... 191
Fələstin xalqının ən konkret və ən təcili tələbləri ...... 192
Konfranslarda əməli istəklərin lazım olması ...... 192
Səkkizinci fəsil: Digər şəxs və təbəqələrin məsuliyyəti ...... 193
Hacıların siyasi agahlığı yüksəltmək vəzifəsi...... 193
Hacıların Fələstin məsələsinə qarşı vəzifəsi ...... 193
Qeyri-müsəlman ölkələrdən gözlənti...... 194
Fələstin - Avropa dövlətlərinin imtahan yeri...... 195
İslam Konfransı Təşkilatının Fələstini müdafiə vəzifəsi ...... 195
İdmançıların vəzifəsi ...... 196
Dördüncü bölmə: Cinayətlər ...... 197
Qəddarlıq - fələstinlilərin artan qəzəbinin səbəbkarı ...... 197
Cinayətlərin məqsədi: Sülh müzakirəçilərinə qanunsuz istəklərin qəbul etdirilməsi...... 197
İsrailin misli az olan cinayətləri...... 197
Beynəlxalq təşkilatların və dövlətlərin sükutu ...... 198
Fələstin məsələsi - iyirminci əsrin böyük ləkəsi...... 198
Qəzzə cinayətləri ...... 199
İlahi hidayət - Qəzzə xalqının müqavimət amili...... 199
Qəzzənin yenidən qurulması - Fələstinin ən təcili məsələlərindən biri ...... 200
Hizbullaha məğlub olmanın intiqamı: Fələstinə hücum və təfriqə yaratmaq . 200
İsrailin cinayəti və diktatorluğu...... 200
Cinayətlərdə İsrailin məqsədi ...... 201

Fələstin cinayəti - bənzəri az olan insani faciə ............ 202
Bütün azadfikirli insanların İsrailin 2002-ci ildəki cinayətlərinə etirazı ............ 203
Kilsəyə hücum cinayəti ............ 203
Qərbin İsrailin cinayətlərini tam dəstəkləməsi ............ 204
Əqsa məscidinə təhqir ............ 204
Əl-Xəlildə oruc və namaz qılan insanların qırğını və beynəlxalq təşkilatların sükutu ............ 205
Əl-Xəlil məscidində cinayət və beynəlxalq orqanların səhlənkarlığı ............ 206
Müsəlman hökumətlərin və xalqların əl-Xəlil cinayətlərinə dair vəzifəsi ............ 207
Fələstin xalqına qarşı zülm və cinayət ............ 207
Əqsa məscidində namaz qılanlara hücum cinayəti ............ 208
Fələstinlilərin öz evlərində təhqir olunması ............ 209
İsrailin Fələstin əleyhinə cinayətləri ............ 209
Qəzzə cinayətlərində sionistlərin rəhmsizliyi və daşürəkliliyi ............ 210
"Biz Allahınıq və Ona tərəf qayıdacağıq!" ............ 210
Fələstin cinayətlərinin pərdəarxası ............ 212
İsrailin cinayəti və Qəzzədə Fələstin xalqının fədakar müqaviməti ............ 212
Qəzzənin mühasirə olunmasında Hüsni Mübarəkin günahı ............ 213
İslam dünyasının ikinci dərəcəli məsələlərlə məşğul olmasının sayəsində Fələstində törədilən faciələr ............ 214
Azadlıq karvanına hücum cinayəti və Qərbin müdafiəsi ............ 214
Beşinci bölmə: Çıxış yolları ............ 216
Birinci fəsil: Səhv çıxış yolu ............ 216
Bu rejimin varlığını etiraf edən hər bir müzakirənin qanunsuz və davamsız olması ............ 216
Müqavimətin və sülhün nəticələrinin əyan olması ............ 217
Mübariz xalqın düşmənin təhdidinə və xainlərin sülh müqavilələrinə əhəmiyyət verməməsi ............ 217
Müzakirənin qadağan və faydasız olması ............ 218
Müzakirələr - sülhün deyil, zülmün real nümunəsi ............ 219
Ədalətli həll yolu və qeyri-ədalətli mübarizə?! ............ 220
Qeyrətli Fələstin gəncləri ölmüşlər?! ............ 221
Döyüş meydanında məğlubiyyətdən sonra fələstinli tərəfi müzakirəyə çəkmək hiyləsi ............ 222
Muxtar təşkilatın xəyanəti: Fələstinin dörd faizinə hakim olmaq bahasına Fələstini unutdurmaq ............ 222
İsraillə müzakirənin nəticəsi: Qəzzəyə zalımcasına hücum ............ 223
Dırnaqarası sülh müzakirələrinin məqsədi: Fələstin məsələsini unutdurmaq. 224
Vay-River-2 kimi memorandumların fələstinlilərə az mənfəəti ............ 224
İsraili rəsmən tanımaq xəyanətinin və ərəblərin xarlığının çıxış yolu ............ 225
İslam ölkələrinin başçılarının İsrailin məhvinə iradəsizliyi ............ 225
İkinci fəsil: Düzgün həll yolu ............ 226
Fələstin məsələsinin həll yolu ............ 226
Bizim təklifimiz: Referendum ............ 227
Bizim həll yolumuz ............ 231

Xalqların imanının atomdan güclü olması ... 232
Fələstinlilərin bugünkü mübarizəsinin iki xüsusiyyəti ... 233
Siyasi qaydaların və maddi hesabların Allahın vədinə və mömin gənclərin fədakarlığına məğlub olması ... 234
Uğurun sirri: nasionalizmin yox, İslamın işığında mübarizə ... 235
Fələstinin İslam qiyamı - ilahi nemət ... 236
Fələstin xalqının İslam oyanışı ... 236
Fələstin konfranslarında əməli nəticələrə çatmağın lazımlığı ... 238
Fələstinin azadlığı üçün iclas keçirməyin səmərəsi ... 238
Fələstin məsələsinin həll yolu: müqavimət və mübarizə ... 238
Müsəlmanlarda sülh yerinə mübarizə təfəkkürünün qoyulması ... 239
İşğalçı rejimlə mübarizənin ümumi xətti ... 240
Problemlərin həllinin açarının güclülərin yox, xalqların əlində olması ... 240
Fələstin səfərbərliyi ... 241
Fələstin xalqının müqaviməti: İsrailin yolunun səddi ... 241
Müqavimət sionistlərin geri çəkilməsinin amili kimi ... 242
Müqavimət - qələbə amili ... 242
Fələstinin xilası üçün çəkilən zəhmətlərin uğursuz olmasının səbəbi: İslama arxalanmamaq ... 243
Fələstinin dərdinin dərmanı: İslam və söz birliyi ... 243
İmanın sayəsində günbəgün artan iqtidar ... 244
Fələstinin azadlığının müqavimətlə şərtlənməsi ... 244
Allahın dünyada mübarizlərə yardımı ... 245
Həll yolu: birlik ... 246
İmam Hüseynin (ə) hərəkəti: Fələstin məsələsinin həllinə örnək ... 246
Yeganə yol: Mübarizə ... 248
Altıncı bölmə: Qəhrəmanlar ... 249
Şəhid Şeyx Əhməd Yasin ... 249
Şeyx Əhməd Yasinin şəhidliyi münasibəti ilə başsağlığı ... 249
Şeyx Əhməd Yasinin terroru: İsrailin vəziyyətinin ağrılaşmasının əlaməti ... 250
Şəhid Doktor Fəthi Şəqaqi ... 250
Fələstin İslam cihadının rəhbəri Doktor Fəthi Şəqaqinin şəhadəti münasibəti ilə müraciət ... 250
Fəthi Şəqaqi - bir insani dəyər yolunun şəhidi ... 251
Şəhid Rantisi ... 252
Yeddinci bölmə: Aydınlıq ... 253
Birinci fəsil: Şübhələr ... 253
Fələstinin ərəb məsələsi olmaq şübhəsi ... 253
Altmış illik bir reallığı qəbul etmək şübhəsi ... 254
Fələstin xalqının yeganə xilas yolunun İsraillə, Qərblə, yaxud beynəlxalq təşkilatlarla müzakirədən ibarət olmasına dair şübhə ... 254
Qəzzə məsələsinin lokal olması şübhəsi ... 256
Evə yollanan çıraq şübhəsi ... 256
"Biz fələstinlilərdən daha fələstinli deyilik!" ... 258
İslamın sülh dini olması şübhəsi ... 258

Fələstinlilərin torpaqlarının sionistlərin vasitəsi ilə pulla alınması şübhəsi ... 259
İsrailin məhvinin mümkün olmaması şübhəsi ... 260
Fələstin xalqının nasibi olması şübhəsi ... 260
Müsəlmanların, məsihilərin və yəhudilərin Qüdsdə birgə yaşaması ... 261
Bitərəflik haqda yanlış təsəvvür ... 261
Bizim həm işğalçı dövlətlə, həm də onun xalqı ilə düşmənliyimiz ... 261
İkinci fəsil: Məqamlar ... 263
Fələstini müdafiənin fiqhi əsası ... 263
İranın İsraillə əlaqəsinin olması ittihamı ... 263
Son Peyğəmbərin (s) müqəddəs varlığına təhqir: Həmasa məğlub olmanın intiqamı ... 264
Səkkizinci bölmə: İşıqlı gələcək ... 265
Doğru vədə: Qüdsün azadlığı ... 265
Fələstinin işıqlı gələcəyi ... 265
İsrailin şübhəsiz məğlubiyyəti ... 266
İsrailə sabitliyin əbədilik qayıtmaması ... 266
Fələstinin son qələbəsinin qətiliyi ... 267
İsrail və Amerikanın qəti məhvi ... 268
Yeni nəsillərin vasitəsi ilə Fələstini müdafiə qəhrəmanlığı ... 269
Həm təzyiqlər, həm də fədakarlıq və mübarizələr baxımından Fələstinin müstəsna mövqeyi ... 269
Fələstin xalqının əfsanəvi dözümü və müqaviməti ... 269
Mübarizələrin Quran əsasında nəticəyə çatması ... 270
Fələstinin adını məhv etməkdə İsrailin məğlubiyyəti ... 270
Allahın sadiq mücahidlərə qəti vədəsi ... 271
Vahid İslam kimliyinin formalaşmasına müjdələr ... 271
İşğalçıların qəlbində məyusluq və Fələstin xalqının üzündə ümid ... 271
Sionist düşmənin zəifləməsi ... 272
Fələstinli mücahidlərə qələbə müjdəsi ... 272
İslam və ona kömək üçün müqavimətə qərarlı olan mübarizlərin qələbəsi ... 273
Fələstinin İslam oyanışı - onun xilas amili ... 273
Mübarizə ilə Fələstin bayrağının ucaldılması ... 274